Ankara Time
$10^{00}$ : $12^{00}$

**Zoom ID: 844 6001 0824. Sifre: 232323**

**ONLİNE**

## Moderator: Dos Zülfiyyə İsmayıl

| AUTHOR(S) | ORGANISATION | TOPIC TITLE |
|---|---|---|
| Aynur Axundlu | Qərbi Kaspi Universiteti | Rəqabətqabiliyyətli insan kapitalının inkişafında idarəetmə qərarlarının rolu |
| Nigar Adilova | Azərbaycan Turizm və Menecment Universiteti | Azərbaycanda siyasi mədəniyyətin yenilənməsinin onun milli inkişafına təsiri |
| İradə Cəfərova | Naxçıvan Dövlət Universiteti | Müasır alman dılındə alınma sözlərın hallanması |
| Röya Mirtalıbova | Baku Devlet Üniversitesi, Hukuk fakültesi, İdare, bilgi ve mali hukuk | Yeni kurulan idari birimlerde idari işlem ilkelerine uyulmasının yasal güvencesi |
| Günel Məmmədova | Azərbaycan Dövlət Pedaqoji Universiteti, | Innovatıv tədris strategiyaları ilə şagird fəallığının və öyrənmə nəticələrinin yaxşılaşdırılması |
| Людмила Гулиева | Нахчыванский государственный университет | Трудности перевода антропонимики |
| Zülfiyyə İsmayıl | Naxçıvan Dövlət Universiteti | Naxçıvanın dialekt və şivələrində ikiqat və üçqat morfoloji sadələşmənin derivatoloji proseslərə təsiri |
| Zeynep Buse ÖZER<br>Dönüş ŞENGÜR | Firat University, Türkiye.<br>Firat University, Türkiye. | Pedagojik liderliğin görsel haritalama tekniğiyle bibliyometrik analizi |
| Zeynep Buse ÖZER<br>Dönüş ŞENGÜR | Firat University, Türkiye.<br>Firat University, Türkiye. | Eğitim Yönetiminde Yapay Zekâ Uygulamaları: Araştırma Eğilim-leri Ve Bilimsel Haritalama: |
| Sevinc ABBASOVA | Bakı Dövlət Universitetinin doktorantı, Azərbaycan Dillər Universitetinin müəllimi | XIX əsrdə Qubada mədəni mühit |

23.07.2025
Online Session, Hall-5

Baku Time
$11^{00}$ : $13^{00}$

Ankara Time
$10^{00}$ : $12^{00}$

**Zoom ID: 844 6001 0824. Sifre: 232323**

ONLİNE

## Moderator: Dr. Mahbube Umudova

| AUTHOR(S) | ORGANISATION | TOPIC TITLE |
|---|---|---|
| Kəmalə Həbibova<br>Nərminə Cabbarova<br>Nağıyeva Rəna<br>Cəfərova Aynurə | Azərbaycan Tibb Universiteti | Şəhər qadınlarının kontraseptiv davranışı: sosial-gigiyenik tədqiqat və müdaxilə modeli |
| Nurali Yusifbeyli<br>Ramiz Kalbiyev<br>Ulkar Akberova | Azerbaijan Technical University<br>Azerbaijan Technical University<br>Azerbaijan Technical University | Determination of physical and technical parameters of piezoelectric materials, analysis of production methods |
| Şevki Melih TEKAY<br>Mehmet Akif BÜTÜNER<br>Zeynep Bala DURANAY<br>Abdulkadir ŞENGÜR | Firat University, Elazig, Türkiye. Tübitak Marmara Araştırma Merkezi, Enerji Teknolojileri, Ankara, Türkiye. Firat University, Technology Faculty, Electrical Electronics Engineering Department, Elazig, Türkiye. | Hıdroelektrik santrallarda makine öğrenimi ve derin öğrenme yöntemleri ile arıza tespiti |
| Gülşah ÖZDEMİR | Balıkesir Üniversitesi, Türkiye | Jeopolitikten Jeoekonomiye: Karabağ Sonrası Güney Kafkasya'da Ticaret Koridorları Üzerinden Güç Mücadelesi |
| Mahbuba Umudova | Azerbaijan University of Tourism and Management | Historisms in Turkic languages: a comparative linguistic analysis |
| Нурида Ганбарова | Нахчыванский государственный университет | Новый взгляд на сферу оброзования в школе и вузах |
| İradə Qasımova Əsrafil qızı | Naxçıvan Dövlət Universiteti | Azərbaycan dilində nida cümlələrinin işlənmə formalari |
| Rəna Şahbazova | Bakı Dövlət Universiteti, | IX-XI əsrlərdə Cənubi Qafqaza rusların yürüşləri |
| Münəvvər Səfərova | Odlar Yurdu Universiteti | Arılar və qlobal qida təhlükəsizliyi |
| Münəvvər Səfərova,<br>Banu Əmənullayeva | Odlar Yurdu Universiteti<br>Odlar Yurdu Universiteti, | Xərçəng hüceyrələri - şişlərin yaranmasinin və proqressinin mümkün mənbəsi kimi |

23.07.2025
Online Session, Hall-6

Baku Time
11[00] : 13[00]

Ankara Time
10[00] : 12[00]

**Zoom ID: 844 6001 0824. Sifre: 232323**

**ONLİNE**

**Moderator: Dos.s Gülnarə Qənbərova**

| AUTHOR(S) | ORGANISATION | TOPIC TITLE |
|---|---|---|
| Hümmet Hüseynli<br>Əhədov Vasif | Azərbaycan Turizm və Menecment Universiteti<br>Azərbaycan İdman Akademiyası | KOB-da insan resurslarinin idarə edilməsinin mövcud vəziyyəti və inkişaf istiqamətləri |
| Gülnarə Qənbərova | Naxçıvan Dövlət Universiteti | Şuşa şəhərinin memarlıq abidələrinin bədii və üslub xüsusiyyətləri |
| Mənsurə İsmayılova | Azərbaycan Dövlət Pedaqoji Universiteti | Ustad sənətkrlarla bağlı dastan-rəvayətlər<br>Tərbiyə örnəyi kimi |
| Aysel Bashırova<br>Nazanin Alıyeva<br>Ramiyya Alıyeva | CBM Engineering LLC.<br>CBM Engineering LLC.<br>CBM Engineering LLC. | Dut ağacının dalları ve kökleriyle suyun temizlenmesi |
| Мансырова Шахана | Баку, средняя школа № 212 | Семантика в мусульманском миниатюре |
| Həqiqət Abdiyeva | Bakı Dövlət Universiteti | Tarix və müasirlik baxımından “Zəngəzur” romanı |
| Vüsal Əliyev | Odlar Yurdu Universiteti | Soft-computing metodlari əsasinda reklamlarda təhlükəsizlik risklərinin qiymətləndirməsi modeli |
| Fatimə Cəfərova<br>Imran Axundov | Odlar Yurdu Universiteti | Qrip virusunun yoluxmasına və yayılmasına təsir edən ekoloji amillər |
| Ali Sercan KARAKAŞ<br>Nuri Murat YAĞMURLU | İnönü University, TÜRKİYE<br>İnönü University, TÜRKİYE | Hermite baz fonksiyonlari ile neumann tipi sinir şartli |
| Ali Sercan KARAKAŞ<br>Nuri Murat YAĞMURLU | İnönü University, TÜRKİYE<br>İnönü University, TÜRKİYE | Neumann sinir koşullarina sahip bir model problemin septik hermite kollokasyon yöntemi ile incelenmesi |

23.07.2025
Online Session, Hall-7

Baku Time
$11^{00}$ : $13^{00}$

Ankara Time
$10^{00}$ : $12^{00}$

**Zoom ID: 844 6001 0824. Sifre: 232323**

ONLİNE

**Moderator: Dr. Qader VAZIFEH DAMIRCHI**

| AUTHOR(S) | ORGANISATION | TOPIC TITLE |
|---|---|---|
| Md. Mizanur Rahman | University of Rajshahi, Institute of Education and Research (IER), Rajshahi, Bangladesh<br>[2]University of Rajshahi , Department of Fisheries Rajshahi, Bangladesh. | Exploring Parents' Perceptions of Pre primary Education<br>for Early Learners in rural area of Bangladesh. |
| Dr., Noel John Ian Feben S. Maguate[1] | Department of Biological Sciences, Mindanao State University-Iligan Institute of Technology. Iligan City 9200, | Tracking antibiotic resistance genes (args) from the epithelial surface of yellow seahorse (*hippocampus kuda*) and its implications to human health |
| Dr. Qader VAZIFEH DAMIRCHI<br>Mohammad FARID<br>Jamal SHAFAEİ AJİRLU | Department of Management, University of Applied Science and Technology, Worker House Center, Parsabad,<br>Department of First secondary Education, Ministry of Education, Pars Abad, Iran<br>jamalsadrashafaei@gmail.com<br>Iran. | Examination of the validity and reliability of the human resource management challenges model within the educational sector |
| Hanane BOUYAZRI,<br>Hassane RAHALI<br>Yassine ElJAOUHARY[2] | Sultan Moulay Slimane University, Béni Mellal. Morocco–<br>Sultan Moulay Slimane University, Béni Mellal. Maroc..<br>Scientific Institute, Morocco | Application of Hierarchical Clustering for the Reconstruction of Precipitation Time Series in the High Atlas Mountains, Morocco<br>Application of Hierarchical Clustering for the Reconstruction of Precipitation Time Series in the High Atlas Mountains, Morocco |
| Anurag Sonam Devi | Bose University of Science and Technology, Faridabad, Haryana, India<br>Bose University of Science and Technology, Faridabad, Haryana, India | Mechanism and Durable Properties of Concrete using Nano-Silica |
| Abdulhalim Musa Abubakar | Moi University, Kenya<br>Moi University, Kenya<br>Adama University Nigeria<br>*Corresponding author: | |

## CONTENTS


| AUTHOR | TITLE | No |
|---|---|---|
| Nazilə Abdullazadə | ŞUŞANIN MAARİFÇİLİK TARİXİ: PEDAQOJİ FİKRİN İŞIQLI YOLÇULUĞU | 1 |
| Nurali Yusifbeyli<br>Ramiz Kalbiyev<br>Ulkar Akberova | DETERMİNATİON OF PHYSİCAL AND TECHNİCAL PARAMETERS OF PİEZOELECTRİC MATERİALS, ANALYSİS OF PRODUCTİON METHODS | 6 |
| Nüşabə Hüseynova | NİDALAR VƏ ONLARIN NİTQ HİSSƏLƏRİ İÇƏRİSİNDƏKİ MÖVQEYİ | 8 |
| Pərvin Səfərova | MANNA DÖVLƏTİ ASSURİYA SALNAMƏLƏRİNDƏ | 14 |
| Pünhan Heydərov | QARABAĞ İQTİSADİYYATININ BƏRPASI KONTEKSTİNDƏ AZƏRBAYCANIN BEYNƏLXALQ TİCARƏT SİSTEMİNƏ İNTEQRASİYASI VƏ DAYANIQLI İNKİŞAF PRİORİTETLƏRİ | 19 |
| Rahilə Quliyeva | ƏHMƏD BƏY AĞAOĞLUNUN ÇOXŞAXƏLİ YARADICILIQ YOLU | 21 |
| Reyhan Dadaşova | ŞUŞA ŞƏHƏRİNƏ MƏXSUS TOPONİMLƏR MİLLİ-TARİXİ YADDAŞIN SAXLANCI KİMİ | 27 |
| Rəhim Mədətov,<br>Kəmalə Xəlilova,<br>Günay Isgəndərova,<br>Gülbəniz Qafarova | $TlInTe_2$–Bi KRİSTALINDA $\gamma$ – KVANTLARIN TƏSİRİ İLƏ YARANAN RADİASİYA DEFEKTLƏRİ | 28 |
| Rəhim Mədətov,<br>Kəmalə Xəlilova,<br>Günay Isgəndərova,<br>Gülbəniz Qafarova | $\gamma$ – KVANTLARIN TƏSİRİ İLƏ $TlInTe_2$–Si KRİSTALINDA YARANAN RADİASİYA DEFEKTLƏRİ | 32 |
| Rəna Hüseynova | MULTİKULTURALİZMİN LİNQİVSTİK ASPEKTLƏRİ: DİL MƏDƏNİYYƏTLƏR KÖRPÜSÜ KİMİ | 36 |
| Röya Mirtalıbova | YENİ KURULAN İDARİ BİRİMLERDE İDARİ İŞLEM İLKELERİNE UYULMASININ YASAL GÜVENCESİ | 38 |
| Jala Samadova | İNGİLİS DİLİNİN XÜSUSİ MƏQSƏDLƏRLƏ TƏLİMİ | 44 |
| Samira Babayeva | İNGİLİS DİLİNDƏ DİNLƏMƏ BACARIQLARININ TƏKMİNLƏŞDİRİLMƏSİ | 49 |
| Sarıgül Sadıxova | İNGİLİS DİLİNDƏ AKADEMİK YAZI VƏ ONUN HƏLLİ YOLLARI | 53 |
| Sevinc Abbasova | XIX ƏSRDƏ QUBADA MƏDƏNİ MÜHİT | 57 |
| Səadət Əliyeva<br>Musa Mursaquliyev | QORUQLARIN DİNİ MƏDƏNİ İRSİNDƏ MAĞARALAR VƏ MƏBƏDLƏRİN ROLU | 61 |
| Səkinəxanım Vəliyeva | QARABAĞ XANLIĞI DÖVRÜNDƏ MAARİFÇİLİK HƏRƏKATI VƏ MƏKTƏB FƏALİYYƏTİ | 62 |
| Mehriban Sərdarova | ƏBU TURXANIN HİKMƏT DÜNYASINDA QARABAĞ MÖVZUSU (ZƏFƏRƏ APARAN HİKMƏT YOLU VƏ YAXUD HİKMƏTİN ZƏFƏRİ) | 64 |
| Suborna Khatun<br>Md. Mizanur Rahman | EXPLORİNG PARENTS' PERCEPTİONS OF PRE PRİMARY EDUCATİON FOR EARLY LEARNERS İN RURAL AREA OF BANGLADESH. | 69 |

| | | |
|---|---|---|
| Süleymanova Əfruz | MUSİQİ TƏHSİLİNDƏ MÜASİR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI | **70** |
| Svetmira Gulıyeva | FRANSIZ DİLİNİN TƏDRİSİNDƏ OYUNLARIN TƏTBİQİ VƏ ONLARIN MÜXTƏLİF DİL SƏVİYYƏLƏRİNƏ UYĞUNLAŞDIRILMASI | **71** |
| Şevki Melih TEKAY<br>Mehmet Akif BÜTÜNER<br>Zeynep Bala DURANAY<br>Abdulkadir ŞENGÜR | FAULT DETECTION IN HYDROELECTRIC POWER PLANTS WITH MACHINE LEARNING AND DEEP LEARNING METHODS | **75** |
| Burak TURAN<br>Abdulkadir ŞENGÜR | UNDERWATER IMAGE ENHANCEMENT USING A UNET-BASED DEEP LEARNING MODEL | **86** |
| Şəhla Nağıyeva | NATƏVANIN POETIKASININ INGILISCƏ IFADƏSI | **96** |
| Elnurə Şirinova | AZƏRBAYCAN VƏ TÜRK NAĞILLARINDA SAYIN SEMANTİK STRUKTURUNDA SAKRAL MƏNANIN YERİ | **102** |
| Nazlı Əjdərova | TİBBDƏ SUNİ İNTELLEKTİN TƏTBİQİ | **106** |
| Təranə Talıbova | DİL STRUKTURLARINDA VARİATİVLİK ANLAYIŞI | **109** |
| Gülxanım Əliyeva<br>Yaqut Hacıyeva | ƏCZAÇILIQ MÜƏSSISƏLƏRINDƏ ALICILARIN PSIXOTIPLƏRI | **115** |
| Yaqut Hacıyeva<br>Gülxanım Əliyeva | YAŞLI İNSANLARIN TİBBİ MÜRACİƏTLƏRİNIN XÜSUSİYYƏTLƏRİ | **117** |
| Minarə Həsənova,<br>Bahar Məmmədova<br>Elman İsgəndər | ŞƏRQİ ZƏNGƏZUR DENDROFLORASININ MÜASİR VƏZİYYƏTİ VƏ MÜHAFİZƏSİ | **119** |
| Aygün Şərifova | TƏHSİLDƏ MÜXTƏLİF YANAŞMALAR VƏ TƏHSİL PROBLEMLƏRİ | **121** |
| Təranə İsayeva | 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN YENİYETMƏLƏRDƏ MİLLİ-MƏNƏVİ TƏRBİYƏSİNƏ TƏSİRİ | **126** |
| Ulviyya Hajiyeva | XARİCİ DİL ÖYRƏNMƏSİNDƏ OYUNLARIN İNTERAKTİV TƏLİM METODU KİMİ ROLU | **135** |
| Mahbuba Umudova | HISTORISMS IN TURKIC LANGUAGES: A COMPARATIVE LINGUISTIC ANALYSIS | **140** |
| Vahidə Şıxıyeva<br>Ruqiyyə Səmədzadə<br>Yavər Hacısoy<br>Ramin Bayramlı | NƏCİS NÜMUNƏLƏRİNDƏ HELİCOBACTER PYLORİ ANTİGEN POZİTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ | **141** |
| Venera Mustafayeva | MÜLTİMODAL TƏDRİS: BİR MÖVZU BEŞ BACARIQ | **143** |
| Vüqar Nəzərov<br>Camal Hacıyev<br>Rəna Qəşəmli | SMART MƏKTƏBLƏR: İNFORMASIYA VƏ KOMMUNIKASİYA TEXNOLOGIYALARI (İKT) VƏ İNTERNETƏ QOŞULAN QURĞULARIN (IOT - INTERNET OF THINGS) ƏSASLI TƏHSİL İNFRASTRUKTURUNUN TƏTBİQİ | **149** |
| Vüsal Əliyev | SOFT-COMPUTİNG METODLARI ƏSASINDA REKLAMLARDA TƏHLÜKƏSİZLİK RİSKLƏRİNİN QİYMƏTLƏNDİRMƏSİ MODELİ | **151** |
| Yadulla Hasanli<br>Günay Rahimli<br>Şəfiqə Bağırova | İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TİKİNTİYƏ İNVESTİSİYALARIN ÖLKƏ İQTİSADİY-YATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ | **157** |
| Yeganə Mirzəyeva | B.VAHABZADƏNİN “FƏRYAD” ƏSƏRİ HƏQİQƏTİN YOL XƏRİTƏSİ KİMİ | **159** |

| | | |
|---|---|---|
| Zəhra Seyidqızı<br>Şəhriyar Quliyev | ANA DİLİMİZ - ƏN ZƏNGİN İRSİMİZ | **161** |
| Zibeydə Qəmbərova<br>Həyat Əliyeva | 2023-2025 İLLƏRDƏ AZƏRBAYCANDA LAYM XƏSTƏLİYİNİN (BORRELIA BURGDORFERI) SEROPREVALENSİYASININ DƏYƏRLƏNDİRİLMƏSİ | **166** |
| Zöhrə İsmayılova<br>Şəhla Balayeva | YENİYETMƏLƏRİN HƏYAT TƏRZİ XƏSTƏLİKLƏRİN YARANMASININ RİSK AMİLİ KİMİ | **168** |
| Zöhrə İsmayılova<br>İradə Mustafayeva | YENİYETMƏLƏRDƏ STRESS VƏZİYYƏTİNİN SƏBƏBLƏRİ VƏ PROFİLAKTİKASI | **170** |
| Zülfiyyə İsmayıl | NAXÇIVANIN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ İKİQAT VƏ ÜÇQAT MORFOLOJİ SADƏLƏŞMƏNİN DERİVATOLOJİ PROSESLƏRƏ TƏSİRİ | **172** |
| Илаха Гулиева | ОБРАЗ ПИСАТЕЛЬНИЦЫ И ЖЕНЩИНЫ В БИОГРАФИИ ШАРЛОТТЫ БРОНТЕ ЭЛИЗАБЕТ ГАСКЕЛЛ. | **178** |
| Мансырова Шахана | СЕМАНТИКА В МУСУЛЬМАНСКОМ МИНИАТЮРЕ | **188** |
| Нурида Ганбарова | НОВЫЙ ВЗГЛЯД НА СФЕРУ ОБРОЗОВАНИЯ В ШКОЛЕ И ВУЗАХ | **192** |
| Aygün XƏLİLQIZI | QARABAĞDA İSLAM MEMARLIQ ABİDƏLƏRİ VƏ ONLARIN SOSİAL FƏALİYYƏTLƏRİ | **204** |
| Ruhəngiz Əliyeva | QARABAĞ ƏDƏBİ MÜHİTİNDƏ KLASSİK POETİK ƏNƏNƏLƏRİN İNKİŞAF MEYİLLƏRİ | **210** |

# ŞUŞANIN MAARİFÇİLİK TARİXİ: PEDAQOJİ FİKRİN İŞIQLI YOLÇULUĞU

# THE HISTORY OF EDUCATION IN SHUSHA: THE LIGHTFUL PATH OF PEDAGOGICAL THOUGHT

**Nazilə Abdullazadə**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
http://ORCİD.org/0000-0002-1829-7178

## XÜLASƏ

Hər bir xalqın tərəqqisi, mədəniyyyəti ilk növbədə məktəbdən başlayır. Məktəbi olmayan xalqın mədəni səviyyəsi, dünya xalqları içərisində mövqeyi və yeri də olmur. Bu mənada Azərbaycan məktəbşünaslığı müəyyən inkişaf yolu keçmişdir. Xüsusilə XIX əsrin sonu XX əsrin əvvəllərində məktəb təhsilinə olan ehtiyac yeni tipli məktəblərin yaranmasına gətirib çıxarır.

Azərbaycan pedaqoji fikir tarixində Şuşa təhsilinin, Şuşa məktəblərinin öz yeri var. 1830-cu ildə Şuşada ilk qəza məktəbi fəaliyyətə başlayır. Yalnız ibtidai təhsil verən bu məktəbdə ana dili, hüsnxət, tarix, coğrafiya fənləri ilə yanaşı, rus dili də tədris edilirdi. Məktəbdə ana dilinin mövqeyi yuxarı tutulur, təhsil rus dilində olan siniflərdə Azərbaycan dili məcburi dil kimi öyrədilirdi. 1874-cü ilədək fəaliyyət göstərən bu məktəb bağlandıqdan sonra Rusiyadakı məktəblər nümunəsində Şuşa şəhər məktəbi açılır. Uşaqlar məktəbə 7 yaşından imtahansız qəbul olunur, məktəbdə zəngin fənn kabinetləri, kitabxana fəaliyyət göstərirdi.

Bu illərdə Şuşada dünyəvi məktəblərlə yanaşı, mədrəsə tipli müsəlman şiə məktəbi də fəaliyyət göstərmişdir. Üçsinifli məktəbdə dini elmlərlə yanaşı, rus dilində ümumtəhsil fənləri (məntiq, geologiya və s.) keçilirdi. Şuşa məktəbşünaslıq tarixində diqqət cəlb edən məqamlardan biri də tanınmış adamların öz adlarına məktəb açmaları olmuşdur. "Gövhəriyyə məktəbi", "Səfərəli bəyin məktəbi", "Mirzə Muxtar məktəbi", "Rəşadiyyə məktəbi", "Camal bəyin məktəbi" XIX əsrin sonu XX əsrin əvvəllərində şuşalı ziyalılar tərəfindən açılmışdı.

1906-cı ildə Şuşa realnı məktəbi, 1921-1922-ci tədris ilində pedaqoji məktəb, 1923-1924-cü ildə isə musiqi məktəbi fəaliyyətə başlamışdı. 1930-cu illərdə ilk qəza 60 məktəbi yeddiillik məktəbə, daha sonra orta məktəbə çevrilir. 1992-ci ildə Şuşa ermənilər tərəfindən işğal olunduqda məktəb erməni vandalizminin qurbanı olur, tamamilə dağıdılır. Məktəb Bakıda fəaliyyətini davam etdirir.

2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Şuşa məktəbinin 180 illik yubileyi qeyd olunur. 2020-ci ildə müzəffər Azərbaycan əsgərinin şücaəti və Ali Baş Komandanın müdrik siyasəti Şuşanı mənfur düşməndən xilas etdi, 30 ilin həsrətinə son qoyuldu. 2021-ci il mayın 12-də ölkə rəhbəri tərəfindən Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyuldu. Bu gün Şuşa azaddır və həyatın bütün sahələrində olduğu kimi, Şuşanın təhsil tarixi də öz yeni səhifələrini yazır.

**Açar sözlər:** pedaqoji fikir, maarifçilik, tarixi şəxsiyyətlər, məktəbşünaslıq, müəllim hazırlığı, metodoloji yanaşmalar.

## ABSTRACT

Every country begins its evolution and civilisation in the classroom. The cultural sophistication of those who do not attend school, as well as their standing and location within the global population. In this regard, the growth of Azerbaijani school subjects has reached a certain point. The necessity for schooling leads to the establishment of new types of schools, particularly around the end of the 19th and the beginning of the 20th centuries.

Shusha schools and education have a position in the development of Azerbaijani pedagogical theory. The first emergency school opened in Shusha in 1830. The Russian language was taught in this school, which only offered primary education, in addition to the topics of mother tongue, economics, history, and geography. Azerbaijani was taught as a required language in Russian-language classrooms, where the mother tongue is given precedence. On the model of Russian schools, the Shusha city school was established following the closure of this institution, which lasted until 1874. Without tests, children as young as 7 may enroll in the school, which boasted luxurious classrooms and a library.

During these years, in addition to secular schools, a madrasa-type Muslim Shia school also operated in Shusha. In the three-grade school, along with religious studies, general education subjects (logic, geology, etc.) were taught in Russian. One of the points that attracted attention in the history of Shusha school studies was the fact that famous people opened schools in their own names. "Govhariya School", "Safarali Bey's School", "Mirza Mukhtar School", "Rashadiyya School", "Jamal Bey's School" were opened by intellectuals from Shusha at the end of the 19th century and the beginning of the 20th century.

In 1906, the Shusha real school, in the 1921-1922 academic year, a pedagogical school, and in 1923-1924, a music school began to operate. In the 1930s, the first accident school was transformed into a seven-year school, and then into a 191 secondary school. In 1992, when Shusha was occupied by Armenians, the school became a victim of Armenian vandalism and was completely destroyed. The school continues its activities in Baku.

In 2010, the 180th anniversary of the Shusha school was celebrated by the order of the President of the Republic of Azerbaijan Ilham Aliyev. In 2020, the bravery of the victorious Azerbaijani soldier and the wise policy of the Commander-in-Chief saved Shusha from the hated enemy, and the longing of 30 years ended. On May 12, 2021, the head of the country laid the foundation of general education school No. 1 in Shusha. Today, Shusha is free and, as in all areas of life, Shusha's educational history is writing its own new pages.

**Key words:** pedagogical ideas, enlightenment, historical figures, school studies, teacher training, methodological approaches.

Azərbaycanın pedaqoji fikir və məktəbşünaslıq tarixində Qarabağ, xüsusilə də Şuşa şəhərinin maarifçilik ənənələri mühüm yer tutur. Şuşa şəhəri XVIII əsrin ikinci yarısında Pənahəli xan tərəfindən salındıqdan sonra tədricən yalnız siyasi və hərbi baxımdan deyil, həm də mədəni və elmi sahələrdə özünü göstərməyə başladı. XIX əsrə qədər Azərbaycanın müxtəlif bölgələrində maarifçilik fəaliyyətləri daha çox dini təmayüllü tədris ocaqları – mollaxanalar və mədrəsələr vasitəsilə həyata keçirilirdisə, Şuşa bu ənənəyə yeni bir nəfəs gətirdi.Təkcə musiqi və poeziya deyil, həm də zəka və təfəkkür məbədi olan Şuşa XIX əsrdən başlayaraq Cənubi Qafqazda maarifçilik hərəkatının öncüllərindən biri kimi tanındı.

Şuşada maarifçilik hərəkatının əsasını təşkil edən amillərdən biri burada yaranan aydın təbəqəsinin fəallığı və elmi-mədəni ortamın inkişafı idi. Şəhərdə bir sıra mollaxanalar, mədrəsələr və ev məktəbləri fəaliyyət göstərir, buradan bilikli, savadlı gənclər yetişirdi. Artıq şəhəri Azərbaycanın maarifçilik tarixində bir məktəbə çevrilmişdi XIX əsrin ortalarından etibarən isə artıq dünyəvi təhsil sisteminə keçid özünü göstərməyə başladı. Bu keçid, həm Rusiya imperiyasının bölgədə təhsil siyasəti ilə, həm də yerli ziyalıların maarifçilik ideallarına bağlılığı ilə izah olunur. Bu məktəbin əsas dayaqları isə sözün əsl mənasında "maarif cəbhəsinin əsgərləri" olan ziyalılar idi. Onlar təkcə bilik ötürməyən, həm də yeni düşüncə formalaşdıran, ictimai şüuru oyadan müəllim-ideloqlar olmuşlar.

Şuşanı maarifçilik tarixində fərqləndirən əsas cəhətlərdən biri də məhz burada məktəbşünaslıq ənənəsinin təməllərinin qoyulması, təhsilin sistemli şəkildə təşkili və tədris metodikasının inkişaf etdirilməsidir. Bu ziyalılar məktəbin yalnız bir tədris yeri deyil, ictimai yenilənmə ocağı olmasına inanırdılar. Maarif sahəsində ilk ciddi təşəbbüslərdən biri mirzəlik ənənəsinin maarifçi müəllimliyə

çevrilməsi idi. Sadəcə yazmaq və oxutmaqla kifayətlənməyən bu insanlar, xüsusilə Mir Möhsün Nəvvab kimi ziyalılar təhsilin mahiyyətini dəyişmək, yeni nəsil üçün elmi bilikləri əlçatan etməyə çalışırdılar.

Mir Möhsün Nəvvab (1833–1918) Şuşa ziyalıları arasında xüsusi yer tutur. O, pedaqogika ilə elm və sənəti birləşdirən nadir simalardan biri olmuşdur. Nəvvabın əsas məqsədi biliklərin yalnız elmi müstəvidə deyil, eyni zamanda mədəni-estetik mühitdə tədris edilməsini təmin etmək idi. Onun hazırladığı dərsliklər və tədris vəsaitləri, müxtəlif sahələri − ədəbiyyat, riyaziyyat, musiqi və hətta astronomiyanı belə əhatə edirdi. Bu, onu klassik müəllimdən çox, maarifçi düşüncə liderinə çevirirdi. Nəvvab həm müəllim, həm maarif təşkilatçısı, həm də dərslik müəllifi kimi çıxış edirdi. Onun pedaqoji yanaşması əsasən şagird mərkəzli, fərdi bacarıqları inkişaf etdirən və inteqrativ tədris metodlarına söykənirdi. Nəvvab məktəbin cəmiyyətdə maariflənmə və tərəqqi vasitəsi olduğuna inanırdı. O, həmçinin uşaq və yeniyetmələrin təlim-tərbiyəsində incəsənətin və poeziyanın rolunu xüsusi vurğulayırdı.

Azərbaycan pedaqoji fikrinin banilərindən biri hesab olunan Firidun bəy Köçərli (1863–1920) Şuşada və ümumilikdə Qarabağda maarifin təşkilatlanmasında fəal iştirak etmiş, müəllim hazırlığı sahəsində ciddi işlər görmüşdür. Onun yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" təkcə ədəbi araşdırma deyildi − o, həm də gənc nəslin dil, düşüncə və milli kimlik üzərində tərbiyəsini hədəfləyirdi. Köçərlinin müəllim fəaliyyəti sadəcə sinif otaqları ilə məhdudlaşmayıb, o, müəllimlərin yetişdirilməsi və pedaqoji metodların formalaşması sahəsində də öncül mövqe tutub. O, Şuşada bir çox məktəbin açılmasına dəstək vermiş və müəllim hazırlığında metodik əsaslar qoymuşdur.

Təzəpir məktəbinin ruhu sayılan Məmmədtağı Sidqi məktəbşünaslıq baxımından əhəmiyyətli simalardan sayılır. O, qızların təhsilə cəlb olunması, ilk ibtidai dərsliklərin hazırlanması və məktəb sisteminin yenilənməsi sahəsində təşəbbüskar idi. Sidqi eyni zamanda anlayışlı, şəfqətli müəllim obrazını təbliğ edirdi və tədrisdə dözümlülük, mənəvi tərbiyəyə üstünlük verirdi.

Dini tədrisdən dünyəvi təhsilə keçidin təbliğatçısı Əbdülqəni Əfəndi klassik dini məktəblərin əsas təmsilçilərindən biri olsa da, zamanla maarifləşmə ideyalarına yaxınlaşaraq müasir dərs metodlarının tətbiqinə çalışmış, dini və dünyəvi elmlər arasında körpü yaratmağa cəhd etmişdir. Onun fəaliyyəti məktəb strukturunun şərti təlim formalarından çıxarılmasına yönəlmişdi.

Ev məktəblərindən sistemli tədrisə keçidin əsasını qoyan Mirzə Sadıq (təxmini XIX əsrin əvvəlləri) Şuşada ev məktəbi şəklində təşkil olunan dərslərin ilk təşəbbüskarlarından biri idi. O, fərdi tədris üsullarına üstünlük verməklə bərabər, dərslərin planlaşdırılması, müəllimin nüfuzu və tədris materialının seçimi kimi məsələlərdə yenilikçi yanaşmalar ortaya qoyurdu. Onun fəaliyyəti məktəbşünaslığın praktik əsaslarını formalaşdırmağa xidmət etmişdir.

Şuşanın digər maarifçi ziyalıları da bu prosesin əsas iştirakçıları olmuşlar. Onlar xalq arasında maarifə inam formalaşdırırdılar. Onların əksəriyyəti öz evlərini məktəbə çevirmiş, təmənnasız dərs demiş, tələbələr yetişdirmişlər.

Bu ziyalıların birləşdirici cəhəti, təhsili sadəcə bilik qazanma vasitəsi yox, ictimai yüksəliş və mənəvi oyanış yolu kimi görmələri idi. Onların düşüncəsində müəllimlik sadəcə peşə deyil, missiya idi.

XX əsrin əvvəllərində Azərbaycanda baş verən siyasi dəyişikliklər – xüsusilə 1920-ci ildə Sovet hakimiyyətinin qurulması – ölkənin bütün təhsil sisteminə olduğu kimi, Şuşaya da ciddi təsir göstərir. Yeni ideologiya ilə yanaşı, yeni məktəb modelləri, pedaqoji yanaşmalar və müəllim hazırlığı prinsipləri tətbiq olunmağa başlanır. Bu həm imkanlar yaradır, həm də maarifçilik ənənəsinin bəzi köklü elementlərini dəyişdirir.

Artıq XX əsrin əvvəllərində Şuşa Azərbaycanda maarifçilik ideyalarının mərkəzlərindən birinə çevrilmiş, burada formalaşan ziyalı təbəqə təkcə maarifin yayılması ilə deyil, həm də məktəbşünaslıq sahəsinin formalaşması ilə bağlı mühüm töhfələri ilə seçilirdi. Burada formalaşan maarifçilik ideyaları, pedaqoji düşüncə təkcə regional deyil, ümumilikdə Azərbaycan cəmiyyətinin təhsil sistemində dərin izlər buraxmış, milli təhsil sistemimizin əsas dayaqlarından birinə çevrilmişdir.

Sovet dövründə təhsil ümumxalq işi elan edildi. Burada bir neçə ibtidai və orta məktəblər, uşaq bağçaları, həmçinin pedaqoji kurslar fəaliyyətə başladı. Yeni məktəblər sovet ideologiyasına uyğun olaraq, dinin təsirindən uzaq, elmi-ateist, kütləvi və pulsuz təhsil prinsipi əsasında quruldu.`Bu dövrdə Şuşa elm və təhsil baxımından nümunəvi şəhərlərdən biri idi. Burada fəaliyyət göstərən orta məktəblər, musiqi və incəsənət məktəbləri, texniki peşə məktəbləri və kitabxanalar bu şəhərin ziyalı potensialını formalaşdırırdı. Şuşa təkcə muğamın və poeziyanın deyil, həm də maarifçiliyin mərkəzi idi. Tanınmış alimlər, müəllimlər, mədəniyyət xadimləri bu şəhərdə yetişmişdir.

Sovet pedaqogikasının əsas məqsədi yalnız biliyin verilməsi deyildi – o, vətəndaş yetişdirmək istəyirdi. Bu məqsədlə dərsdənkənar fəaliyyətlər – pioner təşkilatları, dərnəklər, ictimai işlər – pedaqoji prosesin bir hissəsinə çevrilmişdi. Şuşa məktəblərində bu fəaliyyətlər yüksək səviyyədə təşkil olunur, şagirdlər müxtəlif tədbirlərdə iştirak etməklə ictimai şüur, milli və sinfi həmrəylik, nizam-intizam kimi keyfiyyətlərə yiyələnirdilər.

Əvvəlki dövrdə müəllimlik daha çox şəxsi təşəbbüsə əsaslanırdısa, sovet dövründə bu fəaliyyət dövlət nəzarətinə keçdi. Dərsliklər mərkəzləşdirildi, tədris proqramları ideoloji çərçivəyə salındı. Lakin bütün bu sistemləşmə ilə yanaşı, oxuma-yazma səviyyəsi yüksəldi, məktəb şəbəkəsi genişləndi, qızların təhsilə cəlbi daha intensiv xarakter aldı.

Şuşada müəllim hazırlığına da xüsusi diqqət yetirilirdi. Pedaqoji kursların təşkili bu baxımdan əhəmiyyətli idi. Yerli ziyalılar da bu prosesə cəlb olunur, bəziləri təlimatçı, digərləri isə metodist kimi fəaliyyət göstərirdi. Müəllimlər təlim-tərbiyədə kollektivçilik, vətənpərvərlik, əməyə hörmət kimi ideoloji dəyərlərin aşılanmasında əsas rol oynayırdılar. 1980-ci illərin sonlarına qədər şəhərdə onlarla məktəb fəaliyyət göstərirdi. Müəllim peşəsi Şuşada həmişə hörmətlə qarşılanmış, təhsil alan uşaqlar yüksək nəticələr göstərmişdilər. Təhsil yalnız riyaziyyat və ədəbiyyatla məhdudlaşmır, musiqi və incəsənət dərsləri də şəhər sakinlərinin dünyagörüşünə təsir edirdi.

Ziyalıların rolu, əvvəlki dövrlərin maarifçi ruhu sovet təhsil sistemi içərisində də tamamilə yox olmadı. Bir çox köhnə nəsil müəllimlərin – Mir Möhsün Nəvvabın, Firidun bəy Köçərlinin yetişdirdiyi düşüncə tərzinə sahib insanlar – yeni sistemin içində klassik maarifçilik prinsiplərini qorumağa çalışırdılar. Onlar dərslərində sadəcə faktları deyil, tənqidi təfəkkürü, əxlaqi dəyərləri də aşılayırdılar.

1992-ci ildə Ermənistanın silahlı qüvvələri tərəfindən işğalı ilə bu qədim şəhərdə həyat dayandı, o cümlədən təhsil sistemi də iflic oldu Müharibə təhsili susdurdu, məktəbləri dağıtdı, müəllimləri köçkün etdi. Şuşa sakinləri məcburi köçkün düşərək Azərbaycanın müxtəlif bölgələrinə səpələndilər. Şuşada təhsil faktiki olaraq yoxa çıxmış oldu. Amma şuşalı ailələrin övladları üçün təhsil başqa cəbhədə – köçkün məktəblərində davam edirdi. Bakı, Sumqayıt, Gəncə və digər şəhərlərdə Şuşa adına fəaliyyət göstərən məktəblər açıldı. Bu məktəblərdə həm müəllimlər, həm də şagirdlər vətən həsrəti, öz şəhərlərinə qayıtmaq arzusu ilə yaşayıb-oxuyurdular.

Məktəblərdə fiziki şərait bəzən ağır olurdu – binalar müvəqqəti idi, avadanlıqlar çatışmırdı. Lakin müəllimlərin fədakarlığı və şagirdlərin təhsilə olan istəyi bu çətinlikləri bir qədər olsun yumşaldırdı. Təhsil ruhən Şuşada, fiziki olaraq başqa şəhərlərdə davam edirdi.

Amma xalqın içindəki elmə və təhsilə olan inam heç zaman sönmədi. 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində əldə olunan möhtəşəm Zəfər bu taleyi dəyişdirdi. Azadlıqdan dərhal sonra dövlət tərəfindən Şuşanın bərpası istiqamətində genişmiqyaslı layihələrə start verildi. Təhsil sahəsi də bu layihələrin önəmli hissəsi oldu. Qısa zamanda məktəblərin yenidən qurulması üçün layihələr hazırlandı, müasir standartlara uyğun təhsil müəssisələrinin təməli qoyuldu.

2023-cü ildə Şuşada ilk məktəb öz qapılarını şagirdlərin üzünə açdı. Bu məktəbdə yalnız ənənəvi dərslər deyil, həm də rəqəmsal texnologiyalar, innovativ tədris metodları tətbiq edilir. Müəllim heyəti peşəkar, şagirdlər isə həvəsli və ümidlidir. Bu məktəblər, sadəcə bir tədris ocağı deyil – həm də zəfərin, doğma torpağa dönüşün simvoludur.

Azərbaycanın əldə etdiyi parlaq Zəfər yalnız ərazi bütövlüyümüzün bərpası deyildi – bu, həm də təhsilin, mədəniyyətin və həyatın Şuşaya qayıdışı demək idi. Bu gün artıq Şuşada məktəb zəngi yenidən səslənir.

Bu gün Şuşada təhsil yalnız dərslərin keçirilməsi deyil, həm də ruhun, kimliyin və gələcəyin yenidən qurulmasıdır. Uşaqlar indi məktəblərinə Şuşanın küçələrindən keçərək gedirlər. Müəllimlər daha sinfə doğma torpaqda daxil olurlar. Bu təkcə bir şəhərin deyil, bütün Azərbaycanın təhsil tarixində yeni səhifədir – Zəfərlə başlayan və gələcəyə ümidlə baxan bir səhifə.

## ƏDƏBİYYAT

1. Ağayev, Əjdər (2014). Seçilmiş əsərləri. 6 cilddə, III c.– Bakı: Mütərcim. – 472 s.

2. Azərbaycan tarixi (2007). XIII-XVIII əsrlər. 7 cilddə, III c. – Bakı: Elm. – 592 s.

3. Azərbaycan tarixi (2007). XIII-XVIII əsrlər. 7 cilddə, IV c. – Bakı: Elm. – 504 s.

4. Hacıbəyov, Üzeyir (1985). Seçilmiş əsərləri. – Bakı: Yazıçı. – 653 s.

5. Həşimov, Əliheydər, Sadıqov, Fərahim (2000). Azərbaycan xalq pedaqogikası. – Bakı: − Ünsiyyət. – 272s.

6. İlyasov, Müseyib (2022). Şuşa pedaqoji seminariyasının ilk direktoru. //−Karabagh III İnternational Congress of Modern Studies in Social Sciences and Humanities. – Baku: Karabagh/Azerbaijan. – 7-10 yune. – volume 3. – p.94-100.

7. Mərdanov, Misir (2011). Azərbaycan təhsil tarixi. 3 cilddə, III c. – Bakı: Təhsil. – 296 s.

8. Rüstəmov, Fərrux (2006). Pedaqogika tarixi. – Bakı: Nurlan. −748 s.

9. Rüstəmov, Fərrux (2022). Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialı (1989-1992-ci illər). //− Karabagh III İnternational Congress of Modern Studies in Social Sciences and Humanities. – Baku: Karabagh/Azerbaijan. – 7-10 yune. – volume 3. – p.61-65.

10. Talıbov Yusif, Sadiqov Fərahim, Quliyev Sərdar (1999). Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. – Bakı: Ünsiyyət. – 516 s.

11. https://president.az/az/articles/view/16905/print.

**Determination of physical and technical parameters of piezoelectric materials, analysis of production methods**

**Nurali Yusifbeyli**[1]
[1]Azerbaijan Technical University, Faculty of Energy, Energy efficiency and green energy technologies, Baku, Azerbaijan
[1]ORCID: 0000-0001-9727-7732

**Ramiz Kalbiyev**[2]
[2]Azerbaijan Technical University, Faculty of Energy, Energy efficiency and green energy technologies,
Baku, Azerbaijan
[2]ORCID: 0000-0002-5020-2589

**Ulkar Akberova**[3]
[3]Azerbaijan Technical University, Faculty of Energy, Energy efficiency and green energy technologies, Baku, Azerbaijan
[3]ORCID: 0000-0002-8930-3723

## ABSTRACT

Due to the fact that electric energy is cleaner and more affordable, it is used in more areas. The application of electric energy is expanding in cars, aircraft, households, etc. areas. Certain difficulties arise when applying this type of energy using batteries, such as limited infrastructure areas for charging cars with electricity, restrictions on ensuring the flight of aircraft over longer distances, etc. To prevent such difficulties, it is advisable to provide energy supply from various sources. Recently, solar energy has been mainly used for this purpose. The lack of constant solar energy creates difficulties, so there is a need for more stable energy sources. The use of piezoelectric materials in the mentioned areas seems more promising. The physical properties of piezoelectric materials allow them to generate electric energy. This property is known as the piezoelectric effect. When compression or tensile stress occurs in these materials, an electric field is created in the material and a voltage difference occurs, which causes current to flow. The occurrence of this voltage difference is due to the asymmetry of the shape of the crystals (cells) of these materials. A small part of the crystal form (cell) is positively located in the center as a particle, when a certain compressive force is applied, this particle slides in a certain direction, distributes the charge and then creates an electric field. These materials come in various forms. Crystal forms are the most common, but materials such as plastic and ceramics are also found. Research has been started in these areas by us. Certain results have been obtained in the application of piezoelectric materials in cars and unmanned aerial vehicles. There is a need to expand research work for the further development of this area.

In a situation where the price of electricity is increasing year by year, the importance of additional energy sources in transport, aircraft, household and other areas is increasing. With the application of piezoelectric materials, the efficiency of using electrical energy in these areas will also increase. The application of electrical energy obtained from piezoelectric materials to the mentioned areas will be justified through scientific research.

It is very important to expand the areas of application of electrical energy obtained from piezoelectric materials and to present constructive solutions to these opportunities. It was proposed by us that the piezoelectric material should not be placed directly on the wheels of an electric vehicle, but on covers that can be installed on the wheels. This is similar to the anti-slip covers installed on car wheels. Depending on the amount of electricity consumption of electric vehicles, the surface area of the piezoelectric material will be determined. As the piezoelectric materials on the wheels are exposed to the influence of the vehicle's gravity during the movement of the electric vehicle, electrical energy will be generated, and this electrical energy will be transferred to the battery of the electric vehicle. There is experience in using piezoelectric materials in cars. There, the piezoelectric material is

installed inside the wheel disc. The implementation of this proposal is quite complicated. The design of the discs is interfered with and changed. During the research, it was determined that in order not to complicate the design, the wheel and its other parts should not be interfered with. Piezoelectric material parts should be installed in a cover that can simply be put on the wheel and removed. One advantage of this proposal is that the cover prepared can be installed on wheels of different sizes (and wheel discs are made for certain wheels). In the same way, piezoelectric materials can be used in everyday life and in unmanned aerial vehicles. Thus, a significant amount of electricity can be saved for the purpose of lighting, household appliances and other equipment, which will create conditions for more efficient use of energy. The presented method will meet these requirements. In addition, it is proposed to use piezoelectric materials in underground passages. Since the use of solar panels in underground passages is limited, the use of piezoelectric materials that are sensitive to noise would be an ideal option.

It is known that the most widespread types of piezoelectric materials are lead, quartz, zirconium and other types of materials. The easy availability of the listed materials, for example, lead from electric batteries, will also create conditions for their re-production. An average of 35 W of electricity can be obtained from a piezoelectric material with a diameter of 5 cm and a thickness of 5 cm. It is known that 500 W of energy is obtained from a solar panel with an area of 2.4 $m^2$. Thus, 208W of energy is obtained per 1 $m^2$. 400 35W piezoelectric elements can be placed in 1$m^2$. Then, 14 kW of electrical energy can be obtained from 1 $m^2$. This is 67 times more than solar energy on average. Although the use of piezoelectric materials for energy purposes has not yet found widespread application, the prospective development of this field is a matter of time.

**Keywords:** piezoelectric materials, crystal form, car tires, underground tunnels, lead, quartz, zircon.

# NİDALAR VƏ ONLARIN NİTQ HİSSƏLƏRİ İÇƏRİSİNDƏKİ MÖVQEYİ

# INTERJECTIONS AND THEIR POSITION WITHIN PARTS OF SPEECH

*Nüşabə HÜSEYNOVA*

Bakı Slavyan Universiteti, Filologiya, Azərbaycan dili kafedrası, Bakı, Azərbaycan

ORCID ID: https://orcid.org/0009-0009-4618-1269

## ÖZƏT

Nidaların nitq hissələri içərisində özünəməxsus yeri vardır. Qrammatika kitablarında nidalara birmənalı münasibət özünü göstərmir. Bəzən bu sözləri aydın olmayan, dumanlı kateqoriya adlandıran dilçilər də vardır. Bu tipli ifadələrin söz hesab edilib-edilməməsi, nitq hissələrinə daxil edilməsinin də fikir ayrılığına səbəb olduğunu görürük. Bəziləri bu ifadələri söz kimi qəbul edir, bəziləri isə natamam olduğu qənaətini müdafiə edirlər. Bu fikirlər həm rus dilçiliyində, həm də türkologiyada özünü göstərir. Bütün bunlarla yanaşı, nidaları insan cəmiyyətinin, daha doğrusu, ünsiyyətin yarandığı dövrlə bağlayan fikirlərlə də rastlaşırıq. Bu fikri müdafiə edən dilçilər nidaları xüsusi fonetik, hətta leksik xüsusiyyəti olan söz kimi qəbul edir, hiss, həyəcan, emosiyanı ifadə edərək ünsiyyətdə mühüm rol oynadığı fikirləri elmi cəhətdən əsaslandırırlar. Xarici mühitdə baş verən hadisələr və insanın öz daxili aləmi ilə bağlı yaşantılar onun hiss və emosiyalarında büruzə verilir. Bu emosiyaların başqasına çatdırılması, bəzən nidalarla daha konkret ola bilir:

*Vay, vay! Nə yaman müşgülə düşdü işim, Allah! (Mirzə Ələkbər Sabir)*

*Oxqay, çoxdan arzuladığım bu idi ki, tapdım. (Əli Vəliyev)*

*Vay-vay* nidası təəssüf, qüssə, ağrı ifadə edir. *Oxqay* isə sevinc, şadlıq mərasimi bildirir. Nidalar hər hansı hissi adlandırmasa da, onu işarə edib göstərə bilir.

Azərbaycan dilçiliyində nidaları xüsusi nitq hissələri içərisində öyrənən müəlliflər vardır. Biz məqalədə nidalarla əsas, köməkçi, xüsusi nitq hissələri arasındakı oxşar və fərqli cəhətləri araşdırmış, nitq hissələri içərisindəki yerinin müəyyənləşdirilməsində əsas xüsusiyyətləri müəyyənləşdirmişik.

**Açar sözlər:** nitq hissəsi, nida, xüsusi nitq hissəsi, köməkçi nitq hissəsi

## ABSTRACT

Interjections have a unique place among parts of speech. Grammar books do not show an unambiguous attitude towards interjections. Sometimes there are linguists who call these words an unclear, nebulous category. We see that whether such expressions are considered words or not, and whether they should be included in parts of speech, also causes disagreement. Some accept these expressions as words, while others defend the conclusion that they are incomplete. These ideas are reflected both in Russian linguistics and in Turkology. Along with all this, we also encounter ideas that connect exclamations with the era of the emergence of human society, or rather, communication. Linguists who defend this idea consider exclamations as words with special phonetic and even lexical properties, and scientifically substantiate the ideas that they play an important role in communication by expressing feelings, excitement, and emotions. Events occurring in the external environment and experiences related to a person's own inner world are manifested in his feelings and emotions. The communication of these emotions to another person can sometimes be more concrete through exclamations:

*Vay, vay! Nə yaman müşgülə düşdü işim, Allah! (Mirzə Ələkbər Sabir)*

*(Oh, oh! What a terrible misfortune I have fallen into, God!* (Mirza Alakbar Sabir)

*Oxqay, çoxdan arzuladığım bu idi ki, tapdım. (Əli Vəliyev)*

*Oh, I have found what I have long desired.* (Ali Valiyev)

The exclamation *vay-vay* expresses regret, sorrow, pain. And *oxqay* expresses joy, celebration. Although exclamations do not name any feeling, they can indicate and show it.

In Azerbaijani linguistics, there are authors who study exclamations as special parts of speech. In the article, we have examined the similarities and differences between exclamations and the main, auxiliary, and special parts of speech, and have identified the main features in determining their place within the parts of speech.

**Keywords:** part of speech, interjection, special part of speech, auxiliary part of speech

**GİRİŞ.** Morfologiya dilçiliyin elə bir bölməsidir ki, burada dildə mövcud olan sözlər araşdırılır, mövcud əlamət və xüsusiyyətlərinə görə qruplara bölünərək təsnif edilir. Söz fonetik tərkibə malik olub sadəcə məfhum ifadə etmir. Dilçilər ən qədim zamanlardan bəri sözün əsas əlamətinin məfhumu adlandırmaq olduğunu qəbul etmişlər. Lakin söz nədir və hansı xüsusiyyətləri özündə ehtiva edir sualı həm ümumi dilçiliyi, həm türkologiyanı, həm də Azərbaycan dilçiliyini daim narahat edən problemlərdən olmuşdur.

**ARAŞDIRMA.** Ağamusa Axundov və Bəşir Əhmədov orta məktəblər üçün tərtib edilmiş “Azərbaycan dili” dərsliyində sözün tərifini belə qeyd edirlər: “Müəyyən məna bildirən bir səsə və ya bir neçə səsin birləşməsinə söz deyilir” [Axundov, Əhmədov, 1979: 15]. Bu fikri əsas götürərək deyə bilərik ki, dildəki sözlər bu və ya digər dərəcədə məna ifadə etmək funksiyasına malikdir.

Afad Qurbanov və digər Azərbaycan dilçilərinin ümumiləşmiş bir fikrinə diqqət yetirək: “Söz hər bir dilin öz daxili qayda-qanunları əsasında yaranıb, müəyyən səs, yaxud səs kompleksinə və mənaya malik olan dil vahididir” [28, s. 201].

Nikolay Feofanoviç Yakovlev yazır ki, məfhumun səslər vasitəsi ilə təcəssümü sözdür. Hər bir söz eyni zamanda məfhumdur. Sözün məfhumu adlandırma xüsusiyyəti bütün sözlərə aid edilə bilməz. Söz və məfhum arasındakı münasibətə əsasən söz ifadə etdiyi, adlandırdığı məfhumdan birbaşa asılı deyil. Belə ki, dildə mövcud olan bağlayıcılar, əvəzliklərin bir hissəsi, xüsusi isimlər hər hansısa bir məfhuma işarə etmir. O cümlədən, nidalarla bağlı aparılan araşdırmalarda da müəyyən fikir ayrılıqları aydın nəzərə çarpır. Qrammatika kitablarında nidalara birmənalı münasibətin olduğu aşkar görünür. Hətta dilçilik ədəbiyyatına nəzər saldıqda nidaları “aydın olmayan, dumanlı kateqoriya” adlandıran dilçilərlə də rastlaşırıq. Nidaların söz hesab edilib-edilməməsi nidaların nitq hissələri içərisindəki yeri, nidaların ifadə etdiyi semantika hələ də həllini tapmayan məsələlərdəndir.

Dildə çox işləklik qazanmasına baxmayaraq, nidaların söz kimi qəbul edilməsi istiqamətində 3 fikir özünü göstərir. Bəzi dilçilər nidaların söz olmasını qəbul edirlər, bəzi dilçilər bu fikrin tam əleyhinədir, bu fikirlərin orta mövqeyini müdafiə edən dilçilər isə nidaların natamam söz olduğunu hesab edirlər. Rus dilçiliyində nidaları söz kimi qəbul etməyən F.F.Fortunatov, V.Porjenski, P.Q.Strelkov fikirlərini belə əsaslandırırlar ki, nidalar hissləri ifadə edir və dilə məxsus ola bilməz. Amma bunun əksini də müşahidə edirik, belə ki, V.Vinoqradov, A.Vostokov, S.Y.Kryuçkov, Y.M.Qalkina-Fedoruk, A.İ.Germanoviç, A.Zemski və onların davamçıları nidaların söz kimi varlığının tərəfdarı olmuşlar. Çünki onlar belə hesab edirlər ki, nidalar duyğularımızı başqasına çatdıran sözlərdir.

Müxtəlif dilçilər arasında mövcud olan bu qəti fikir ayrılıqlarını türkologiyada, həmçinin, dilçiliyimizdə müşahidə etmirik. Özbək, qırğız və qazax dillərində nidaların tədqiqinə həsr edilmiş araşdırma əsərlərində nidalar söz kimi tədqiq edilmişdir. S.Cəfərov yazır ki, “hər hansı bir müəyyən səs tərkibinin – sözün leksik vahid olması üçün onun hər hansı bir kollektivin üzvləri tərəfindən anlaşılması, qrammatik cəhətdən formalaşması lazımdır” [Cəfərov, 2007: 12]. Nidalar da ən qədim zamanlarda, insan cəmiyyətinin, daha doğrusu, ünsiyyətin yarandığı ilk dövrlərdə formalaşmışdır. Digər sözlərlə müqayisə edildikdə nidalar insan hisslərinin ifadəsi olduğu üçün tam təbii şəraitdə yaranmışdır. Ş.Ş.Sarıbayev digər türkoloqlardan fərqli olaraq, bu istiqamətdə daha geniş bir tədqiqat

işi aparmışdır. Ş.Ş.Sarıbayev yazır ki, nida sözdür. Hiss, həyəcan və emosiya ifadə edən nida ünsiyyətə xidmət edir. Nidalar konkret ictimai kollektiv içərisində təcrübə əsasında müəyyən məna bildirirlər.

Dillə təfəkkür arasındakı münasibət bilavasitə insan duyğularında da özünü ehtiva edir. Xarici mühitdə baş verən hadisələr və ya insanın öz daxili aləmi ilə bağlı yaşantıları onun hiss və emosiyalarında büruzə verir. Bu hiss və emosiyalar əvvəla onun təfəkküründə şüurlu surətdə formalaşır. İnsanın öz emosiyalarını başqasına çatdırması, bəzən sadəcə nidalarla mümkündür. Hətta lüğəvi mənaya malik olan sözlər belə hisslərin ifadəsində aciz qalır. Sevinc, kədər, yorğunluq, narazılıq, razılıq, nifrət və digər bu kimi duyğular müxtəlif sözlərlə öz ifadəsini tapır. Məsələn, aşağıdakı nümunələrə nəzər yetirək:

*Vay, vay! Na yaman müşgülə düşdü işim, Allah!*

*Fəryadimə yet kim, yanıram ataşa, billah!* (Mirzə Ələkbər Sabir)

yaxud,

*Oxqay, çoxdan arzuladığım bu idi ki, tapdım* (Ə.Vəliyev)

Birinci şeir parçasında istifadə edilmiş “vay, vay” nidası təəssüf, qüssə, ağrı ifadə edir. İkinci nümunədəki “oxqay” nidası isə sevinc, şadlıq mənasını bildirir. Qeyd olunan hər iki nida harada istifadə edilməsindən asılı olmayaraq kollektiv tərəfindən başa düşülür. K.Hacıyev qeyd edir ki, “hər bir nidanın müəyyənləşmiş mənası vardır. Belə ki, danışan şəxs bir hissi, duyğunu ifadə edən nidanı başqa bir hissi, duyğunu ifadə edən nidanın yerində işlədə bilməz” [Hacıyev, 2005: 60]. Nəticədə, hər bir nidanın səs cildi ilə mənası arasında konkret bir əlaqə vardır və bu əlaqə uzaq keçmişdə yaranmış, sabitləşmişdir. Nidalar konkret situasiyadan asılı olaraq danışanın həmin mühitdən olan dinləyənə öz emosiyalarını çatdırmaq zərurətindən yaranır.

Danışan və dinləyən arasındakı ünsiyyətin dolğun alınması üçün onların eyni xalqın nümayəndəsi olması əsas şərtlərdən biridir. Bu zaman haqqında danışılan mövzu hər ikisi üçün eyni dərəcədə anlaşıqlı olur. Mövzu ilə bərabər istifadə edilən lüğət tərkibi də mühüm əhəmiyyət kəsb edir. Belə ki, hiss və duyğuları ifadə edən nidalar eyni xalqın nümayəndələri tərəfindən eyni şəkildə istifadə edilir. Məsələn, M.Ə.Sabirin dilində tez-tez rastlaşdığımız qəm, kədər, əfsusluq bildirən nidalar başqa dildə fərqli şəkildə yazılır və tələffüz edilir. Bu, təbii ki, hər bir xalqın milli dəyərlərindən irəli gələn bir xüsusiyyət kimi qiymətləndirilməlidir.

*Ax!.. necə kef çəkməli əyyam idi,*

*Onda ki, övladı-vətən xam idi!* (Mirzə Ələkbər Sabir)

K.Hacıyev yazır: “Nidalar müasir dildə subyektin duyğularını, coşğunluq və həyəcanını, istək və arzularını adlandırmadan, bilavasitə emosional surətdə ifadə etmək üçün ən canlı və zəngin vasitələrdən biridir” [Hacıyev, 2005: 61]. Lakin hər bir dilin özünəməxsus qanadlı sözləri, ibrətamiz ifadələri olduğu kimi, düşünürük ki, hissləri və emosiyaları ifadə edən sözləri də məxsusidir.

Ümumi dilçilikdən fərqli olaraq, türkologiyada və Azərbaycan dilçiliyində nidaların söz kimi qəbul edilməsini inkar edən fikirlərlə rastlaşmırıq. Lakin nəinki nidaların, ümumilikdə nitq hissələrinin təsnifatı ilə bağlı müəyyən fikir ayrılıqları aydın nəzərə çarpır. “Müstəqil mənasına, morfoloji əlamətinə və sintaktik roluna görə qruplaşan söz siniflərinə nitq hissələri deyilir [Hüseynzadə, 2007: 16]. Nitq hissələrini tədqiq edən dilçilər adətən, əsas və köməkçi nitq hissələrindən bəhs etməklə kifayətlənmişlər. Əsas nitq hissələri müstəqil lüğəvi mənaya malikdir və cümlədə sintaktik vəzifə daşıyır. Hər bir əsas nitq hissəsinin özünəməxsus xüsusiyyətləri və sualları mövcuddur.

Dilimizdə 6 əsas nitq hissəsi vardır ki, bu məsələ ilə bağlı müasir dilçiliyimizdə hələ də mübahisələr davam etməkdədir. İsim əşyanın adını, sifət əşyanın əlamətini, say əşyanın miqdarını, zərf hərəkətin əlamətini bildirir və feil hərəkət ifadə edir. Əsas nitq hissələrinin hər birini əvəz edə bilən nitq hissəsi isə əvəzlikdir. Kamal Hacıyev yazır ki, müstəqil mənalı sözlər “dilin daxili imkanları hesabına lüğət

tərkibini zənginləşdirirlər, köməkçi nitq hissələrinin çoxalması üçün baza təşkil edirlər" [Hacıyev, 1999: 31].

Köməkçi nitq hissələri məfhum adlandırmır, cümlə üzvü vəzifəsində çıxış etmir, heç bir suala cavab vermir. "Dilçilikdə belə bir fikir mövcuddur ki, mənası olmayan köməkçi sözlər leksik mənası olan sözlərdən təcrid edilmişdir" [Hacıyev, 1999: 32]. Köməkçi nitq hissələrinə qoşma, bağlayıcı, ədat və modal sözləri aid edirlər. Həmçinin, köməkçi nitq hissələrinin xüsusiyyətlərindən bəhs edən dilçilər qeyd edir ki, bu qrupa daxil edilən sözlər cümlədəki başqa sözlərlə sintaktik əlaqəyə girmir. Lakin qoşma özündən əvvəl gələn sözün ismin hallarına görə dəyişməsini tələb edir və qoşulduğu sözlə birlikdə cümlə üzvü kimi çıxış edə bilir.

*Hər ağac altında göz-göz bulaqlar,*

*Axır almaz kimi, göz yaşı kimi.* (Səməd Vurğun)

Türk dillərinin bəzisində nidalara ayrıca tədqiqat əsərləri həsr edilmişdir. Namizədlik dissertasiyasında nidalardan bəhs edən S.Usmanov nidaların bir sıra zəruri xüsusiyyətlərini tədqiq etmiş və xüsusi nitq hissəsi olmasını elmi əsaslarla sübuta yetirmişdir. Türkologiyada ilk dəfə olaraq, S.Usmanov nidalarla təqlidi sözləri bir-birindən fərqləndirmişdir. Lakin qeyd etməliyik ki, müəllif vokativ sözləri nidaların tərkibində qeyd etməyin tərəfdarı olmuşdur.

Dilimizi tədqiq edən alimlər Mirzə Kazım bəydən başlayaraq tərtib edilən dərslik və tədqiqat əsərlərində ya nidalardan bəhs açmamış, ya da sadəcə adını çəkməklə kifayətlənmişlər. Azərbaycan dilçiliyinin inkişafında böyük xidmətləri olmuş Mirzə Kazım bəy "Türk-tatar dilinin ümumi qrammatikası" adlı əsərində nitq hissələri məsələsinə toxunmuşdur. Nidaları nitq hissəsi hesab etməsə də, ayrıca bəhşdə nidaların dildəki Nidalaru reevale inserini tas estre funksiyalarından söz açmışdır. Nidaları ruhun və ağlın hərəkətini ifadə edən sözlər adlandırmışdır. "Fənni-sərfi-türki" müəllifi Mirzə Məhəmməd Əfşar adı çəkilən əsərində dilimizdə ən çox işlədilən *ah, ay, uf, ox* nidalarını ərəb dilində mövcud olan nidalarla müqayisə etmişdir.

XX əsrin əvvəllərindən başlayaraq nidalarla bağlı bu və ya digər dərəcədə fikirlər söylənildiyini müşahidə edirik. Artıq nida nitq hissəsi kimi qeyd edilmiş, tərif verilərək, sadə izahına yer ayrılmışdır. B.Çobanzadə və F.Ağazadənin birgə müəllifliyi ilə ərsəyə gələn "Türk qrammeri" əsərində nidalar haqqında yazılır: "Nidalar əksəriyyətlə bəsit bir təkım səslərdən ibarətdir ki, çox dəfə bütün bir fikir və ya duyğunu, həyəcanı, hökmü ifadə edərlər" [Çobanzadə, Ağazadə, 1929: 119]. Bundan əlavə, müəlliflər canlı dildə olan nidaların çox olduğunu qeyd edir və bir neçə nümunə ilə kifayətlənirlər: *aha, ay-hay, a, ha, e-hey* və s.

1938-ci ildə Ə.Dəmirçizadə və D.Quliyevin birgə müəllifliyi ilə ərsəyə gələn "Qrammatika" kitabında 9 nitq hissəsi qeyd edilir və nida da bu nitq hissələrinin içərisində yer alır. Ə.Dəmirçizadə yazır: "Cümlədə ifadə etdiyimiz fikirlərlə bərabər duyğularımızı da vermək üçün bəzi sözlər işlədirik... Duyğularımızı (şadlıq, qəmginlik, təəccüb, qorxu və s.) bildirən və şəkilçi qəbul etməyən sözlərə nida deyilir." [Dəmirçizadə, Quliyev, 1938: 217].

Elmlər Akademiyasının 1951-ci ildə nəşr olunmuş "Azərbaycan dilinin qrammatikası" əsərində nidalar əvvəlki tədqiqatlarla nisbətdə daha geniş şərh edilmişdir. Kitabın "Nida" bəhsində nidaların tərifi verilmiş, mənası izah edilmiş, mənşəyi barəsində yığcam məlumat qeyd edilmiş və söz yaradıcılığında iştirakı ilə bağlı fikirlər öz əksini tapmışdır.

Keçən əsrin 60-cı illərinə kimi nidalar qrammatikaya, daha dəqiq desək, morfologiyaya həsr olunmuş tədqiqatlarda nəzərdən keçirilmişdir. Yəni bu tarixə kimi təkcə nidalara həsr olunmuş məqalə və ya tədqiqat əsəri ilə demək olar ki, rastlaşmırıq. Nidaların nitq hissələri içərisindəki yerinin müəyyənləşdirilməsində dilçiliyimizdə iki müxtəlif baxış mövcuddur. Bir qrup dilçilər nidanın köməkçi nitq hissələrinə aid olduğunun tərəfdarıdır (M.Vəzirov, N.Nərimanov, S.Qənizadə, M.Məmmədov, N.Məmmədov, S.Cəfərov və s.), digər qrup dilçilər isə nidanı xüsusi nitq hissəsi olaraq tədqiq edirlər (O.Dəmirçizadə, A.Aslanov, M.Adilov, H.Balıyev, K.Hacıyev, A.Axundov və s.). Bundan əlavə, qeyd etməliyik ki, nidaları istər köməkçi nitq hissələrinin içərisində qeyd edən

dilçilər, istərsə də xüsusi nitq hissələrinin tərkibinə aid edənlər müəyyən qədər yanlışlıqlara yol vermiş, mübahisə doğuran qənaətlərə gəlmişlər.

A.İ.Smirnitski nidaları "”ntellektual semantikanın qarşılığı” kimi verir. Onların mənası konteksdən, situasiyadan, intonasiyadan yozulur, hərəkət və jestlər həmin mənanı tamamlayır. Türkologiyada aparılan araşdırmalarda köməkçi nitq hissələrinin tərkibinə qoşma, bağlayıcı və ədatları daxil etmək meyli güclənmişdir.

Əsas nitq hissələri ilə köməkçi nitq hissələrinin arasında mövqe tutan bir qrup sözlər var ki, bunlara xüsusi nitq hissələri deyilir. Qismən məna ifadə etdiklərinə görə müstəqil mənalı sözlərlə yaxınlıq təşkil etsə də, xüsusi nitq hissələri də köməkçi nitq hissələri kimi cümlə üzvü vəzifəsində çıxış edə bilmir və heç bir suala cavab vermir. Buraya nidalar, təqlidi sözlər (mimemlər), vokativ sözlər (imperativ sözlər) aiddir. Bəzən yanlış olaraq modal sözlər xüsusi nitq hissələrinin tərkibinə daxil edilmişdir.

İnsanın hiss və duyğularını adlandırmadan, bilavasitə ifadə edən sözlərə nida deyilir. [Hacıyev, 1999: 34]. İnsanlar arasında ünsiyyət, fikir alış-verişi həm əqli-intellektual formada, həm də emosional formada ola bilər. Məsələn, nümunəni nəzərdən keçirək: *“Bilsə idim ki, mən yenidən kəndə qayıdanda bütün kəndin gözündə günahkar olacam, heç geri gəlməzdim”.*

Danışan ifadə etdiyi cümlədə daxilən yaşadığı sarsıntını, iztirabı sadəcə "ah" nidası ilə ifadə edə bilər. Bununla həm cümlə daha ekspressiv xarakter daşıyacaq, həm də yığcamlığına görə seçiləcəkdir. Nidaların mənaca növlərindən bəhs edərkən hər bir nidanın özünəməxsus mənasının olmasından ətraflı bəhs edəcəyik. Lakin qeyd etməliyik ki, hər nə qədər nidalar insan hisslərinin ifadəsinə xidmət etsələr də, müstəqil mənalı sözlərin bildirdiyi ətraflı və aydın izahı nidalarda görə bilmirik. Duyğularla fikrin ifadəsi daha çox lakonikliyə, yığcamlığa əsaslanır.

*Ah, zalım, ah kim, oldum yolunda canfəda,*

*Bir doyunca qıymadım səndən alam zövqü səfa.* (Mirzə Ələkbər Sabir)

Subyektin daxili duyğularını, istək və arzularını, hiss və həyəcanını, qəzəb və nifrətini, sevinc və kədərini ifadə edən nidalar təsirli ton, intonasiya, jest və mimika ilə müşayiət olunur. Tərkibində nida işlənməyən cümlə adi intonasiya ilə tələffüz edildiyi halda, nida işlənən cümlə yüksək tonla, emosional şəkildə tələffüz edilir.

*Gözəl qız, o gül üzün nə qədər rəngin?*

*Eh, olsaydım mən də bir nəşəli Xəyyam,*

*İlahi bir eşqlə gələrək vəcdə,*

*Edərdim can alan gözlərə səcdə...* (Almas İldırım)

## NƏTİCƏ.

Azərbaycan dilinin qrammatikası haqqındakı monoqrafiya və tədqiqat əsərlərində sadəcə nidaların digər söz qruplarından fərqli xüsusiyyətləri haqqında danışılmış, ədat, modal sözlər, təqlidi sözlər və vokativ sözlərin nidalardan fərqi xüsusiyyətləri aydınlaşdırılmışdır. Təbii ki, zaman keçdikcə müəyyən hadisə və gerçəkliyə olan bir çox münasibətlər dəyişir. Bu dəyişiklərin bir hissəsi dilxarici amillərin təsiri ilə, digər hissəsi ilə birbaşa dildaxili amillərlə əlaqədardır.

Xüsusi nitq hissəsi kimi qəbul edilən nidalar ümumi morfoloji xüsusiyyətlərinə görə əsas nitq hissələri ilə də, köməkçi nitq hissələri ilə də yaxınlıq təşkil edir. Lakin bu söz qruplarını eyniləşdirmək olmaz. Əsas nitq hissələri qrupuna aid olan sözlər həm leksik mənaya, həm də qrammatik mənaya malik olur. Yəni leksik məna dedikdə sözün məfhumu adlandırması başa düşülür. Morfoloji əhəmiyyətə malik olan əsas nitq hissələri sintaktik vəzifə daşıyaraq cümlə üzvü vəzifəsində çıxış

edirlər. Nidalar isə nominativ funksiya daşımır, yəni məfhumu adlandırmaq xüsusiyyətinə malik deyil. Nidalar isə insan hisslərini, duyğularını, emosiyalarını heç bir vasitə olmadan ifadə edir.

**QAYNAQÇA**

Axundov, Əhmədov. (1979). Azərbaycan dili: 5-ci sinif üçün dərslik. Bakı: Maarif.

Cəfərov S. (2007). Müasir Azərbaycan dili. II hissə. Bakı: Şərq-Qərb.

Çobanzadə B., Ağazadə F. (1929). Türk qrameri. Bakı: Azərnəşr.

Dəmirçizadə Ə., Quliyev D. (1938). Qrammatika. I hissə. Morfologiya. Bakı: Aərnəşr.

Hacıyev K. (1999). Azərbaycan dilində xüsusi nitq hissələri. Bakı: Çaşıoğlu.

Hacıyev K. (2005). Azərbaycan dilində nida. Bakı: Nurlan.

Hüseynzadə M. (2007). Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı: Şərq-Qərb.

# MANNA DÖVLƏTİ ASSURİYA SALNAMƏLƏRİNDƏ

# THE STATE OF MANNA IN THE ASSYRIAN CHRONICLES

***Pərvin SƏFƏROVA***

A.Bakıxanov adına Tarix İnstitunun doktorantı,

Azərbaycan Dillər Universitetinin müəllimi

ORCID ID: https://orcid.org/0009-0008-2952-9254

**Xülasə**

Manna eramızdan əvvəl IX-VII əsrlərdə Azərbaycan torpaqlarında mövcud olmuş ilk qədim dövlətlərdən biridir. Manna Assuriya, Urartu, Midiya ilə mürəkkəb beynəlxalq münasibətlərin iştirakçısı idi. Manna yerləşdiyi coğrafi mövqeyinə görə Assuriya və Midiya arasında yerləşirdi. Həm iqtisadi gücünə, həm də geosiyasi mövqeyinə görə Assuriya üçün əhəmiyyətli idi. Assuriyalılar Mannanı bufer zonası və Urartu və Midiyaya qarşı müttəfiq hesab edirdilər. Odur ki, Manna Assuriya ilə siyasi, iqtisadi əlaqələrə malik olmuşdur. Bununla bağlı mühüm mənbələrdən biri də Assuriya salnamələri hesab olunur. Assur mixi yazılı kitabələrdə Manna dövləti ilə bağlı mühüm məlumatlar qeyd olunmuşdur. Bu məlumatlar, əsasən, müxtəlif Assur hökmdarlarına məxsus daş kitabələrdə öz əksini tapmışdır. Hökmdarlar öz qüdrətini nümayiş etdirmək üçün belə kitabələr ucaldırdılar ki, onlar günümüzdə tarixi mənbə rolunu oynayır. Manna adına ilk dəfə Assur hökmdarı III Salmanasarın kitabələrində Manna, Manay, Munna, Mannas kimi rast gəlinir. II Sarqonun, Aşşurbanialın, I və III Tiqlatpalasar, II Adadnerarinin kitabələrində də Manna dövləti ilə bağlı məlumatlar mövcuddur. Bu tarixi mənbələrdə qeyd olunanlardan Mannanın ictimai-siyasi həyatı, Assuriya ilə hərbi və diplomatik münasibətləri, Mannaya olan hücumlar və onların nəticələri barədə məlumatlar yer tutur. Hərbi-siyasi məsələlərlə yanaşı, Assur mətnlərində Mannanın tarixi coğrafiyası, idarəetmə sistemi, iqtisadi-mədəni həyatı ilə bağlı məlumatlara da rast gəlinir. Assur salnamələri Mannanı mühüm, lakin qeyri-sabit qonşu kimi təqdim edir, belə ki, o, tez-tez regionun böyük dövlətləri arasında geosiyasi oyunlarda iştirak edirdi. Manna Assuriyaya meyl etsə də, müəyyən vaxtlarda Midiya və Urartu ilə yaxınlaşırdı ki, bu da Assuriyanın maraqlarına zidd idi. Müəyyən dövrdə mürəkkəb vəziyyət yaransa da, Manna uzun müddət müstəqilliyini qoruyub saxlamağı bacarmışdı. Bəhs etdiyimiz daş kitabələrlə bağlı müxtəlif araşdırmalar olsa da, hazırda da Manna dövlətinin əhatə etdiyi ərazilərdən tapılan müxtəlif kitabələrin, məmulatların üzrəində qeyd olunan yazıların təhlilinə, burada qeyd olunan məlumatların digər mənbələrdəki məlumatlarla müqayisəli şəkildə analiz edilməsinə ehtiyac var. Həmçinin, bu salnamələrə istinad edilərək tarixşünaslıqda yazılmış əsərlərdəki məlumatlara da diqqət yetirilməli, oxşar və fərqli yanaşmalar aydınlaşdırılmalıdır.

**Açar sözlər:** Manna dövləti, Assuriya, mənbələr, mixi yazılı kitabə

**Abstract**

Manna is one of the first ancient states that existed on the lands of Azerbaijan in the 9th-7th centuries BC. Manna was a participant in complex international relations with Assyria, Urartu, and Media. Due to its geographical location, Manna was located between Assyria and Media. It was important to Assyria both for its economic power and geopolitical position. The Assyrians considered Manna a buffer zone and an ally against Urartu and Media. Therefore, Manna had political and economic relations with Assyria. One of the important sources in this regard is the Assyrian chronicles. Assyrian cuneiform inscriptions contain important information about the state of Manna. This information is mainly reflected in stone inscriptions belonging to various Assyrian rulers. The rulers erected such inscriptions to demonstrate their power, which today serve as historical sources. The name Manna is first encountered in the inscriptions of the Assyrian ruler Shalmaneser III as Manna, Manay, Munna, and Mannas. There is also information about the state of Manna in the inscriptions of Sargon II, Ashurbanipal, Tiglath-Pileser I and III, and Adadnerari II. Among the information mentioned in these

historical sources, there is information about the socio-political life of Manna, military and diplomatic relations with Assyria, attacks on Manna and their consequences. In addition to military-political issues, information about the historical geography, administrative system, and economic-cultural life of Manna is also found in Assyrian texts. The Assyrian chronicles present Manna as an important but unstable neighbor, as it often participated in geopolitical games between the great powers of the region. Although Manna tended towards Assyria, at certain times it became closer to Media and Urartu, which was contrary to the interests of Assyria. Although a complicated situation arose at a certain time, Manna managed to maintain its independence for a long time. Although there have been various studies on the stone inscriptions we have discussed, there is still a need to analyze the inscriptions on various inscriptions and products found in the areas covered by the Manna state, and to analyze the information mentioned here in a comparative manner with the information in other sources. Also, attention should be paid to the information in historiographical works referring to these chronicles, and similar and different approaches should be clarified.

**Keywords:** Manna state, Assyria, sources, cuneiform inscription

**Giriş.** Azərbaycan tarixinin qədim dövrünün, xüsusilə Manna dövlətinin tarixinin öyrənilməsi böyük elmi, mədəni və siyasi əhəmiyyət daşıyır. Manna dövlətçilik tariximizin başlanğıcı hesab edilir. Mannadan əvvəl mövcud olmuş kuti, lullubi, turukki kimi erkən dövlət qurumlarından fərqli olaraq, Manna dövlət kimi idarəçilik sisteminə, paytaxta, ərazilərinin inzibati baxımdan idarəçilik sisteminə, bir sözlə, vahid mərkəzləşdirilmiş şəkildə idarəçiliyə sahib idi. Məhz buna görə də, Azərbaycan dövlətçilik tarixinin başlanğıcı Mannadan götürülür. Manna dövlətinin tarixi Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və etnogenezinin mənşəyini dərk etmək üçün açardır. Yazılı və arxeoloji mənbələr müasir tədqiqatlarla birlikdə bu dövlətin mövcudluğunun əsas mərhələlərini yenidən araşdırmağa imkan verir. Mənbələrdə əldə edilmiş məlumatlar, tarixşünaslıqda əks olunmuş fikirlər Mannanın siyasi və mədəni həyatı haqqında məlumatları dərinləşdirməyə sövq edir. Odur ki, müxtəlif mənbələrdə olan məlumatlar həm ayrılıqda, həm də kompleks şəkildə təhlil olunmalıdır. Bu mövzunun araşdırılmasında əsas məqsəd Manna tarixi ilə bağlı mənbələrdən olan Assuriya salnamələrində qeyd olunmuş informasiyaları analiz etmək və tarixşünaslıqda Assur mətnlərindən necə istifadə edildiyini aydınlaşdırmaqdır. Mövzunun araşdırılması zamanı Assuriya salnamələrinin tərcümə olunmuş mətnləri əsas informasiya bazası rolunu oynayır, həmçinin bu mnbələrdən istifadə edilən məqalə və kitablara diqqət yetirilməsi də vacibdir.

**Manna dövlətinin Assuriya üçün əhəmiyyəti.** Manna dövləti Cənubi Azərbaycan ərazisində, Urmiya gölü hövzəsində yaranmışdır. Yerləşdiyi əlverişli coğrafi mövqeyinə və zəngin sərvətlərinə görə diqqət mərkəzində olmuş, Urartu və Assuriya dövlətlərinin hədəfinə çevrilmişdi.

Ərazi təbii sərvətlərlə, o cümlədən, həmin dövr üçün əhəmiyyətli olan mal-qara, metal, xüsusilə, mis və dəmir, kənd təsərrüfatı məhsulları ilə zəngin idi. Bundan əlavə, Mannanın coğrafi mövqeyi ən mühüm karvan yollarına nəzarəti təmin edirdi. Assuriyalılar şərq sərhədlərini Midiya və digər dövlətlərin təhlükəsindən qorumaq üçün Manna üzərində nəzarətin vacibliyini dərk edirdilər. Mannanı ələ keçirmək və ya onunla müttəfiq olmaq Assuriyaya bölgədəki təsirini gücləndirməyə və daha uzaq əraziləri nəzarətində saxlamağa şərait yaradırdı. Assuriya ilə Manna arasında siyasi münasibətlər mürəkkəb və qeyri-sabit idi. Manna gah onunla müttəfiq olur, gah Assuriyanın hücumlarına məruz qalaraq xərac ödəməyə məcbur qalmışdır. Lakin qeyd etmək lazımdır ki, asılı olduğu müddətdə belə Manna daxili müstəqilliyini saxlamış, getdikcə asılılığı müttəfiqlik münasibətinə çevirməyi bacarmışdır. II Sarqonun Mannaya qarşı fəal siyasət yeritdiyi, ittifaqlar bağladığı və hərbi yürüşlər apardığı tarixi mənbələrdən bizə məlumdur (Qaşqay, 1993, s.36).

Manna Assuriyanın hərbi strategiyasında da böyük əhəmiyyət kəsb edirdi. O, təkcə şərqdən gələn basqınlara qarşı bufer zona deyil, həm də hərbi güc mənbəyi kimi xidmət edirdi. Mannada inkişaf etmiş metallurgiyanın olması Assuriyaya yüksək keyfiyyətli silah və hərbi texnikanın yaradılması üçün materiallar əldə etməyə imkan verirdi.

**Assur mənbələri.** Qədim Şərq dövlətlərinin, o cümlədən də Assuriyanın hökmdarları işğal etdikləri ərazilərdə öz adlarını əbədiləşdirmək, uğurları ilə qürrələnmək üçün abidələr inşa edir, üzərində qələbələrindən bəhs edən yazılar əks etdirirdilər. Bu mətnlər Mannanın Assuriya siyasətində, hərbi kampaniyalarda və ticarətdə rolu və əhəmiyyətinin ən vacib sübutlarıdır. Manna adına ilk dəfə Assuriya hökmdarı III Salmanasarın kitabələrində rast gəlinmişdir. Burada "Munna" adlandırılan dövlətin sərhədlərinəqədər əraziləri ələ keçirdiyini qeyd etmişdir. III Salmanasarın "Kalat - Şerkətdən 16 illik yürüşlər toplusunda" bu barədə yazılmışdır: "Hakimiyyətimin 16-cı ilində Arbeladan çıxdım, Kullar dağını aşdım, Daxili Zamua ölkəsində qalalar tikdim... Daxili Zamua ölkəsindən Munna ölkəsinə kimi, Munnadan Allabriya ölkəsinə kimi, Allabriyalı Yanziburiaşin möhkəmləndirilmiş Paddira şəhərini zəbt etdim" (Qaşqay, 2006, s.18). Bu məlumatdan aydın olur ki, III Salmanasarın hakimiyyəti dövründə Assuriya öz mülklərini Şərq istiqamətində — Manna da daxil olmaqla çoxsaylı qəbilə ittifaqlarının və kiçik krallıqların yerləşdiyi Zaqros dağlarına doğru genişləndirirdi. Onun yazıları assuriyalıların Manna bölgəsi ilə ilk sənədləşdirilmiş təmaslarını qeyd edir və siyasi quruluşunu, iqtisadi potensialını və beynəlxalq münasibətlərdəki yerini təsvir edir. Manna ilə bağlı ən məşhur assur mətnlərindəki qeydlərdən biri, e.ə. 843-cü ildə III Salmanasarın hərbi kampaniyasının təsvirindədir. Kitabədə Manna torpaqlarından keçdiyini və xərac aldğını qeyd etmişdir (Grayson,1996, s.7). III Salmanasarın "Qara xatirə daşı"ndakı yazısında Manna hökmdarı Udaki, paytaxt Zirtanın adı çəkilmişdir. (Əliyarlı, 2007, s.13). Burada Assuriyanın Manna ərazisinə hücumu, Mannalı Udakinin paytaxtı qoyub qaçması, onun əmlakının Assuriya tərəfindən ələ keçirilməsi ilə bağlı məlumat verilmişdir. Qeyd edək ki, burada Manna hökmdarı kimi Udaki verilmişdir, bu zamana qədər olan Assur salnamələrində isə Mannaın ərazisi ilə bağlı məlumatlar qeyd olunmuş, hökmdarının adı çəkilməmişdir. Bu onu göstərir ki, Udaki zamanına kimi də Mannada dövlətçilik ənənələri olmuşdur. Lakin Assuriyanın Mannaya ilk böyük dağıdıcı yürüşü olmuşdur ki, hətta Manna hökmdarı paytaxtı tərk etmək məcburiyyətində qalmışdır.

Assur hökmdarlarından V Şamşi-adadın (e.ə.823-810) kitabəsində də Manna ilə bağlı məlumatlar öz əksini tapmışdır. Burada o, vergi kimi atları əldə etdiyi dövlətlər arasında Mannanın da adını qeyd etmişdir. Daha sonra hakimiyyətə gəlmiş Assuriya hökmdarı Adadnerari Kalxuda (nimrud) olan daş kitabə üzərində həkk etdirdiyi yazısında qalib gəldiyi dövlətlər içərisində Mannanın da adını çəkmişdir. Qeyd edək ki, Adadnerarinin adının həkk olunduğu muncuq Xocalı ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmışdır (Adalı, 2023, s.17).

Manna ilə bağlı məlumat verən Assur mənbələrindən biri də hökmdar III Tiqlatpalasara məxsus kitabədir. Orada vergi kəsilən dövlətlərin rəhbərləri içərisində Mannayaları İranzinin adı çəkilir. Manna üzərinə at, qatır, dəvə, öküz, qoyun vergisinin qoyulmasının göstərilməsi Mannanın təsərrüfatında adı çəkilən bu heyvanların üstünlük təşkil etdiyini göstərir. Manna ilə bağlı II Sarqona (e.ə. 721-705) məxsus salnamələrdə də mühüm məlumatlar verilir. Onun Dur-Şarrukin (Xorsabad) sarayının 2 və 5-ci zallarının divarında əks olunmuş yazısında Mannada olan daxili vəziyyətdən, baş vermiş üsyanlar, İranzunun hakimiyyətdən getməsi və yerinə oğlu Azanın gəlməsi qeyd olunmuşdur. Bu mətndə urartulu Ursanın fitnəsinə uyaraq 22 Manna qalasını hakimiyyətdən ötrü ona verən Ullusunu, bundan qəzəblənərək hücuma keçən Assuriyanın – II Sarqonun Manna qalalarını geri qaytarması vurğulanmışdır (Aliyev, 2024). Buradan aydın olur ki, Mannada Assuriyaya olan meyl dəyişən kimi hücumlar təşkil edilmişdir. Bu da bir daha Mannanın Assuriya üçün hərbi-siyasi əhəmiyyətinin vacib olduğun göstərir. Mətndə Manna ilə bərabər onun qonşularına Assuriya tərəfdən hücumlar olması Mannanın Assuriyanın təhlükəsizliyi üçün Urartu, Midiya, Nairi kimi dövlətlər ilə bufer zolağı rolunu oynadığı məlum olur. II Sarqona məxsus Kipr adasında tapılmış kitabədə Manna ərazisi ilə bağlı bunlar yazılmışdır: "Mən Mannalılar ölkəsini, Andia və Zikertunu zəbt etdim..." bu yazıdan Mannanın inzibati ərazilərinin adının çəkilməsi onun tarixi coğrafiyası ilə bağı məlumatı özündə ehtiva edir (Qaşqay, 2006, s.36)

Sözsüz ki, Assuriya hökmdarları öz güclərini nümayiş etdirmək üçün uğurlarını əks etdirən yazıları ucaltmışdılar. Ona görə də, onların mətnlərində digr ərazilər kimi Mannaya olan hücumları, vergilər alması kimi məlumatlar daha genişdir. Lakin bu o demək deyil ki, Manna dövləti ancaq Assuriyanın köməyilə uğurlara nail olmuşdur. Assur mətnlərində kəşfiyyat xarakterli yazıdan aydın olur ki,

Manna özü də müqavimət göstərmiş və digər ərazilərə hücumlar təşkil etmişdir: "Urartuların dənizkənarı vilayətindəki məskənlərinə Mannalılar basqın etdilər, qırğın edib dağlara qalxdılar..." (Qaşqay, 1993, s.10).

**Assur mənbələrinin tarixşünaslıqda yeri.** G. Lyard, O. Rouven, İ. M. Dyakonov, A.K. Grayson kimi tarixçilər, Şərqi Zaqrosdakı siyasəti anlamaq üçün açar olaraq Assuriya mənbələrində Manna istinadlarına diqqət çəkdilər. Bu müəlliflərdən Dyakonov sovet tarixşünaslığında Manna tarixinə dair Assur mənbələrini sistemli şəkildə təhlil edən ilklərdən biri olmuşdur. Müəllif Assur hökmdarlarına məxsus salnamələrin tərcümələri və şərhlərinə öz kitabında yer vermişdir. O, Mannanın siyasi tarixi Assuriya və Urartu ilə əlaqələr fonunda işıqlandırmışdır. И.М. Дьяконов — "Ассирия и Манна" (Москва, 1956) həmçinin, Dyakonov Mannanın süqutunun səbəbləri və onun Midiyanın formalaşmasında rolunu təhlil etmişdir (Adigezalova, 2005, s.268; Alibekova, 2009, s.65) İngilis tədqiqatçısı C. Kurt "The Kingdom of Mannea" (Лондон, 1995) monoqrafiyasında Assur salnamələrinin arxeoloji məlumatlarla tam müqayisəsini aparmışdır. O, Assuriya salnamələrindəki coğrafi göstəricilərə əsasən Manna ərazisinin xəritəsini çəkməyə cəhd etmişdir. Richard Frye "The Heritage of Persia" (London, 1962) əsərində Assuriya salnamələrində Manna ilə Midiya arasındakı toqquşmanı təsvir etmiş, həmçinin, Mannanın Assuriya ilə şərq xalqları arasında bufer rolunu vurğulamışdır (Fuchs, 2023, s.676). Assuriya mənbələrinə əsasən Vətən tarixşünaslığında mühüm əsərlərə rast gəlirik. Belə ki, Solmaz Qaşqay mixi yazılı mənbələrin tərcüməsi ilə bağlı yazdığı kitabı ən fundamental əsərlərdən biridir. Burada Assuriya salnamələrinin şərhi də verilmişdir. Bundan başqa, müəllifin Manna tarixinə həsr edilmiş digər əsərində də Assuriya salnamələri sitinad edilmiş mənbələr içərisində özünəməxsus yer tutur. Tədqiqatçılardan Məhəbbət Paşayevanın "Azərbaycanın qədim dövlətləri (e.ə. III minillik-III əsrin əvvəli)" əsərində də Manna tarixi ilə bağlı məsələləri təhlil edərkən Assuriya salnamələrindəki informasiyaya istinad etmişdir. Əlisöhbət Sumbatzadənin Azərbaycanda etnogenezislə bağlı yazdığı monoqrafiyasında da Manna dövləti və onun mənşəyi ilə bağlı məsələni aydınlaşdırarkən Assuriya salnamələrindəki faktlara diqqət çəkmişdir.

Aparılmış bu tədqiqatlarda Mannanın təkcə strateji əhəmiyyəti deyil, həm də bölgənin mürəkkəb ticarət və etnopolitik iştirakçısı kimi əhəmiyyəti göstərilmişdir. Assur salnamələri Manna tarixinə dair ən mühüm mənbə olaraq qalır. Onların əsasında alimlər dövlətin siyasi və sosial tarixinin əsas mərhələlərini yenidən qurmuşlar. Bununla belə, sonrakı tədqiqatlar arxeologiya, epiqrafiya və müqayisəli tarixə əsaslanan fənlərarası yanaşma tələb edir

**Nəticə.** Manna tarixinin mənbələrə əsasən tədqiqi göstərir ki, Azərbaycan torpaqlarında artıq qədim zamanlarda mütəşəkkil hakimiyyət formaları və ictimai-siyasi strukturlar mövcud olmuş, idarəetmə sistemləri, diplomatiya və hüquq ənənələri inkişaf etdirilmişdi. Bu, Azərbaycan dövlətçiliyinin dərin köklərinə dəlalət edir, Azərbaycan dövlətinin "gəncliyi" və ya süniliyi ilə bağlı iddiaları təkzib edir. Mannanın sərhədləri, siyasi quruluşu, beynəlxalq münasibətləri ilə bağlı məsələlər aktual olaraq qalır və həm yerli, həm də xarici alimlər tərəfindən araşdırılır. Bu sahədə tədqiqat aparan şəxslərin istifadə etdiyi mənbələrdən biri də Assuriya salnamələridir ki, burada öz əksini tapmış məlumatlar Manna dövlətinin tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT:

Alibekova, E. B. (2009). *Voprosy drevney istorii Azerbaidzhana v rossiyskoy istoriografii XIX – nachala XX vv.* [Алибекова, Э. Б. Вопросы древней истории Азербайджана в российской историографии XIX – начала XX вв.]. Baku: Tehsil.

Aliyev, N. (2024, fevral 5). *История войн и военного дела в государстве Манна*. Armiya.az. https://armiya.az/az/news/223393

Adalı, S.F (2023). Assur'a Dua Metni K.3408 ışığında Urartu, Manna ve Kimmerler. ASA Dergisi, 1(1), 1-38.

Adigezalova, F. A. (2005). [Адигезалова Ф.А.Некоторые вопросы истории древнего Азербайджана в исследованиях И. М. Дьяконова]. *Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası*, (4), 266–270.

Əliyarlı, S. (Red.). (2007). *Azərbaycan tarixi üzrə qaynaqlar*. Bakı: Çıraq.

Fuchs, A. "The Medes and the Kingdom of Mannea", in Karen Radner, Nadine Moeller, and D. T. Potts (eds), *The Oxford History of the Ancient Near East Volume IV: The Age of Assyria* (New York, 2023; online edn, Oxford Academic, 23 Mar. 2023), https://doi.org/10.1093/oso/9780190687632.003.0043

Grayson, A. K. (1996). *Assyrian rulers of the early first millennium BC, Vol. II (858–745 BC)*. University of Toronto Press

Qaşqay, S. (1993). *Manna dövləti*. Bakı: Azərnəşr.

Qaşqay, S. (2006). *Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə*. Bakı: Təhsil.

# QARABAĞ İQTİSADİYYATININ BƏRPASI KONTEKSTİNDƏ AZƏRBAYCANIN BEYNƏLXALQ TİCARƏT SİSTEMİNƏ İNTEQRASİYASI VƏ DAYANIQLI İNKİŞAF PRİORİTETLƏRİ

## Integration of Azerbaijan into the international trade system and sustainable development priorities in the context of the restoration of the Karabakh economy

***Pünhan HEYDƏROV***

Odlar Yurdu Universiteti, Dünya iqtisadiyyatı, Koroğlu Rəhimov küç., 13 AZ1072., Azərbaycan

ORCID iD: 0009-0005-8702-3292

**Xülasə**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və davamlı inkişafı Azərbaycanın uzunmüddətli milli iqtisadi strategiyasında xüsusi və prioritet mövqeyə malikdir. Bu bölgələr həm iqtisadi potensialı, həm də strateji-coğrafi mövqeyi baxımından ölkənin iqtisadi gücünün və dayanıqlı inkişaf modelinin əsas dayaqlarından biri kimi çıxış edir. 2020-ci il Vətən müharibəsinin nəticəsi olaraq ərazi bütövlüyünün bərpası yalnız siyasi və hərbi müstəvidə deyil, iqtisadi baxımdan da dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. Azad olunmuş torpaqların sosial-iqtisadi sistemə reinteqrasiyası üçün genişmiqyaslı dövlət proqramları icra olunmağa başlanmış, burada infrastruktur layihələrinin həyata keçirilməsi, yaşayış məntəqələrinin yenidən qurulması və yeni istehsal obyektlərinin yaradılması ilə regionun iqtisadi fəallığı bərpa edilməkdədir. Müasir yol və kommunikasiya sistemlərinin çəkilməsi, enerji təminatının yenilənməsi, su və irriqasiya infrastrukturunun qurulması kimi əsas addımlar bölgənin sosial-iqtisadi reabilitasiyası baxımından vacib şərtlərdir. Eyni zamanda, bu ərazilərin iqtisadi dövriyyəyə qoşulması yerli əhalinin məşğulluğunun artırılması, regional istehsalın canlandırılması və əhalinin rifahının yüksəldilməsi ilə nəticələnməkdədir. Bütün bu tədbirlər Azərbaycanın dayanıqlı inkişaf prioritetlərinə uyğun şəkildə, ekoloji tarazlığı qoruyaraq və sosial inklüzivlik prinsipləri əsasında reallaşdırılır.

Qarabağ və Şərqi Zəngəzurun zəngin təbii resursları, əlverişli coğrafi mövqeyi və tranzit imkanları burada kənd təsərrüfatı, sənaye, turizm və yaşıl enerji kimi sahələrin sürətli inkişafına şərait yaradır. Bu bölgələrdə nəqliyyat və logistika infrastrukturunun yenidən qurulması, Zəngəzur dəhlizinin açılması ilə regional və beynəlxalq ticarət əlaqələrinin genişlənməsi məqsədyönlü şəkildə həyata keçirilir. Yaşayış məntəqələrində "ağıllı kənd" və "ağıllı şəhər" konseptlərinin tətbiqi, rəqəmsal texnologiyaların iqtisadi və sosial sistemlərə inteqrasiyası əhalinin rifah səviyyəsinin yüksəlməsinə və müasir idarəetmə modelinə keçidi dəstəkləyir. Qarabağın iqtisadi dirçəlişi yalnız daxili bazar üçün deyil, Azərbaycanın beynəlxalq iqtisadi sistemdə daha güclü və çevik mövqe qazanması baxımından da strateji əhəmiyyət daşıyır. Bu çərçivədə həyata keçirilən tədbirlər ölkənin davamlı iqtisadi inkişafına mühüm töhfə verir.

**Açar sözlər:** Qarabağ iqtisadiyyatı, beynəlxalq ticarət, dayanıqlı inkişaf, Zəngəzur dəhlizi, yaşıl enerji, azad iqtisadi zonalar.

**Abstract**

The restoration and sustainable development of the Karabakh and East Zangazur economic regions has a special and priority position in Azerbaijan's long-term national economic strategy. These regions act as one of the main pillars of the country's economic strength and sustainable development model, both in terms of its economic potential and strategic and geographical position. The restoration of territorial integrity as a result of the Patriotic War of 2020 can be regarded as a turning point not only in the political and military plane, but also in the economic one. Large-scale state programs for the reintegration of liberated lands into the socio-economic system have begun to be implemented, where the economic activity of the region is restored by implementing infrastructure projects, reconstruction of settlements and creation of new production facilities. Key steps such as the

construction of modern road and communication systems, the renewal of energy supply, the construction of water and irrigation infrastructure are important conditions for the socio-economic rehabilitation of the region. At the same time, the accession of these territories to the economic turnover resulted in increasing the employment of the local population, revitalizing regional production and increasing the well-being of the population. All these measures are carried out in accordance with Azerbaijan's sustainable development priorities, preserving the ecological balance and on the basis of the principles of social inclusion.

Rich natural resources, favorable geographical location and transit opportunities of Karabakh and East Zangazur contribute to the rapid development of agriculture, industry, tourism and green energy. The reconstruction of the transport and logistics infrastructure and the expansion of regional and international trade relations with the opening of the zangazur corridor are purposefully carried out in these regions. The introduction of the concepts of "smart village" and "smart city" in settlements, the integration of digital technologies into economic and social systems support an increase in the level of well-being of the population and the transition to a modern management model. The economic revival of Karabakh is of strategic importance not only for the domestic market, but also for Azerbaijan's gaining a stronger and more flexible position in the international economic system. The measures taken within this framework make a significant contribution to the sustainable economic development of the country.

**Keywords:** Karabakh economy, international trade, sustainable development, Zangazur corridor, green energy, free economic zones.

# ƏHMƏD BƏY AĞAOĞLUNUN ÇOXŞAXƏLİ YARADICILIQ YOLU

# AHMED BEY AGAOGLU'S MULTI-VARIOUS CREATIVE PATH

***Rahilə QULİYEVA***

[1]Bakı Dövlət Universiteti, Filologiya, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrası, Bakı, Azərbaycan

[1]ORCID ID: https://orcid.org/0000-0002-4801-1724

## ÖZƏT

Azərbaycan xalqı dünya ədəbiyyatı, mədəniyyəti xəzinəsinə görkəmli alimlər, şəxsiyyətlər bəxş etmişdir. XIX əsrin axırları, XX əsrin əvvəllərində yaşayıb-yaradan, bir çox sahələrdə misilsiz xidmətləri olan Azərbaycan, fransız, türk xalqlarının yaddaşında əbədi ömür qazanan şəxsiyyətlərdən biri Əhməd bəy Ağaoğludur.

Ömrü boyu bütün Şərqin tərəqqisi yolunda çalışan, çətin bir yol keçən Əhməd bəy Ağaoğlunun yaradıcılığı alim, yazıçı, hüquqşünas, ictimai-siyasi xadim, publisist, türkoloq, pedaqoq, jurnalist kimi çox geniş diapazona malikdir.

Əhməd bəy Ağaoğlu 1869-cu ildə Şuşada bəy ailəsində dünyaya gəlmiş, ilk təhsilini Şuşada realnı gimnaziyada almışdır. Proqressiv Şuşa mühiti onun mükəmməl təhsil almasında böyük rol oynamışdır. O, təhsilini Tiflisdə davam etdirmişdir. Elmə, biliyə can atan Əhməd bəy Ağaoğlu daha böyük ölkələrdə, şəhərlərdə təhsil almaq istəyirdi. Bu məqsədlə əvvəlcə Sankt-Peterburqa yola düşmüş, lakin Texnologiya İnstitutunda rast gəldiyi haqsızlığa görə Parisə üz tutmuşdur. Elə həmin ildə Sarbonna Universitetinin hüquq fakültəsinə qəbul olmuşdur. Bundan sonra Əhməd bəy Ağaoğlunun qarşısında geniş üfüqlər açılmışdır. Onun ictimai-siyasi, jurnalistika, publisistika sahələrində ilk təcrübəsi, uğurlu addımları elə bu universitetdə başlanmışdır. Çox çəkməmişdir ki, azərbaycanlı gənc tələbə öz elmi-tədqiqat əsərləri ilə Paris ədəbi-ictimai mühitində böyük nüfuz qazanmışdır. "Müsəlman dünyası" və islam tarixinə dair araşdırmaları Paris elmi cəmiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. 1901-ci ildə "İslama görə və müsəlmanlıqda qadın", 1902-ci ildə "İslam, Axund və Hatiful-qeyb" əsərləri çap olunmuşdur. Bundan sonra "Sərbəst insanlar ölkəsində", "Üç mədəniyyət" əsərlərini qələmə almışdır.

Əhməd bəy Ağaoğlu milli mətbuatımızın inkişafında mühül rol oynamış, "Kaspi", "Qafqaz" kimi mətbu orqanlarda məqalələri ilə əməkdaşlıq etmiş, "Həyat", "İrşad", "Şərqi-rus" qəzetlərinin redaktoru olmuşdur.

Əhməd bəy Ağaoğlunun çoxşaxəli yaradıcılıq yoluna onun tərcüməçilik, publisistlik, müəllimlik və s. kimi fəaliyyəti də daxildir.

Əhməd bəy Ağaoğlunun böyük elmi və ədəbi irsi sovet dövründə öyrənilməmişdir. Lakin Azərbaycan müstəqillik qazandıqdan sonra ədibin zəngin irsi görkəmli alimlər Əziz Mirəhmədov, Aydın Balayev tərəfindən tədqiq olunmuş, hər iki müəllifin bu görkəmli şəxsin həyatı və yaradıcılığını əks etdirən monoqrafiyası nəşr olunmuşdur. Bununla belə, Əhməd bəy Ağaoğlunun çoxşaxəli yaradıcılığı daim öyrənilməlidir.

**Açar sözlər:** Əhməd bəy Ağaoğlu, islam, qadın, azadlıq, ictimai-siyasi xadim, publisist

## ABSTRACT

The Azerbaijani people have given outstanding scientists and personalities to the treasury of world literature and culture. One of the personalities who lived and created in the late 19th and early 20th centuries and made unparalleled contributions in many fields and who has earned eternal life in the memory of the Azerbaijani, French, and Turkish peoples is Ahmed Bey Agaoglu.

The creativity of Ahmed Bey Agaoglu, who worked for the progress of the entire East throughout his life and passed a difficult path, has a very wide range as a scientist, writer, lawyer, public and political figure, publicist, Turkologist, educator, and journalist.

Ahmed bey Ağaoğlu was born in 1869 in Shusha into a noble family and received his first education at the Shusha Real Gymnasium. The progressive Shusha environment played a major role in his excellent education. He continued his education in Tbilisi. Ahmed bey Ağaoğlu, who aspired to science and knowledge, wanted to study in larger countries and cities. For this purpose, he initially set off for St. Petersburg, but due to the injustice he encountered at the Institute of Technology, he went to Paris. In the same year, he was admitted to the Law Faculty of the Sorbonne University. After that, broad horizons opened up before Ahmed bey Ağaoğlu. His first experience and successful steps in the fields of socio-political, journalism, and publicistics began at this university. It didn't take long for the young Azerbaijani student to gain great influence in the literary and social environment of Paris with his scientific research works. His research on the "Muslim world" and the history of Islam was highly appreciated by the scientific society of Paris. In 1901, the works "Women according to Islam and in Islam" were published, and in 1902, "Islam, Akhund and Hatiful-Gayb" were published. After that, he wrote the works "In the Land of Free People" and "Three Cultures".

Ahmed bey Ağaoglu played a crucial role in the development of our national press, collaborated with articles in such publications as "Kaspi", "Qafqaz", and was the editor of the newspapers "Hayat", "Irshad", "Sharqi-rus".

Ahmed bey Ağaoglu's multifaceted creative path also includes his activities as a translator, publicist, teacher, etc.

The great scientific and literary heritage of Ahmed bey Aghaoglu was not studied during the Soviet period. However, after Azerbaijan gained independence, the rich heritage of the writer was studied by prominent scientists Aziz Mirahmedov and Aydin Balayev, and a monograph by both authors reflecting the life and work of this outstanding person was published. However, the multifaceted work of Ahmed bey Agaoglu should always be studied.

**Keywords:** Ahmed bey Agaoglu, Islam, woman, freedom, public and political figure, publicist

## GİRİŞ.

Dünyada öz gözəlliyi, özünəməxsusluğu, möhtəşəmliyi ilə tanınan şəhərlər çoxdur. Adının ecazkarlığı ilə hər bir kəsin qəlbində, yaddaşında müqəddəs məbəd kimi canlanan şəhərlərdən biri də Şuşadır. Hər bir azərbaycanlının qürurla səsləndirdiyi, aforizmə çevrilən kəlamlardan biri belədir: "Qarabağ Azərbaycanın döyünən ürəyi, Şuşa isə başının tacıdır". Şuşa XVIII əsrdə öz təbii memarlıq abidələrinə görə hər kəsi məftun edirdi. Şəhər nəinki məftunedici gözəlliyi ilə şöhrət qazanırdı, eyni zamanda, elm, mədəniyyət, incəsənət sahəsində də Azərbaycanın beyin mərkəzinə çevrilirdi. Qədim Şuşa dünya elminə, mədəniyyətinə yüzlərlə, minlərlə dahi şəxsiyyətlər bəxş etmişdir. Dünya şöhrətli lider, qardaş Türkiyənin prezidenti Rəcəb Taib Ərdoğanın bu haqda söylədiyi kəlam hər bir azərbaycanlını qürurlandırır: "Bir kartal yuvası kibi yalçın kayaların üzerinde kurulan Şuşa bilim, senetkarlar, akademisiler şeheridir" [Receb Taib Erdoğan].

İnsanlıq tarixində öz vətənini, xalqını bütün dünyaya tanıdan görkəmli alimlər, şəxsiyyətlər olmuşdur. Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə haqlı olaraq yazırdı: "Tarixdə elə böyük şəxsiyyətlər olmuşdur ki, onların adı mənsub olduğu xalqın tarixinin müəyyən bir dövrünü təmsil etmişdir" [Vahabzadə, 1978: 123].

Belə şəxsiyyətlər cismən əbədiyyətə qovuşsalar da, mənən yaşayırlar, xalqın, vətənin tarixində ikinci ömür qazanırlar.

**ARAŞDIRMA.** Azərbaycan xalqı da bəşər tarixinə böyük şəxsiyyətlər bəxş etmişdir. Belə şəxsiyyətlərdən biri XIX əsrin sonları, XX əsrin əvvəllərində yaşamış, bütün Şərqin tərəqqisi üçün

çalışan, bir çox sahələrdə misilsiz xidmətləri olan alim, yazıçı, jurnalist, ictimai-siyasi xadim, publisist, pedaqoq, türkoloq Əhməd bəy Ağaoğludur.

Əhməd bəy Ağaoğlu Şuşa aristokratiyasının görkəmli nümayəndələrindən biri kimi siyasət, iqtisadiyyat, milli mədəniyyət, ədəbiyyat, mətbuat və sairənin inkişafı sahəsində böyük əmək sərf edərək adını dünya fikir tarixinə əbədi həkk etmişdir. Onun yaradıcılıq diapazonu geniş, zəngin və çoxşaxəlidir. Görkəmli alim Əziz Mirəhmədov "Əhməd bəy Ağaoğlu" adlı monoqrafiyasında yazırdı: "Əhməd bəy Ağaoğlu Azərbaycanın, habelə bütün Şərqin Avropavari tərəqqi yoluna düşməsi naminə nə az, nə çox, tam əlli il qələm çalmışdır" [Mirəhmədov, 2014: 6].

Əhməd bəy Ağaoğlunun yaradıcılıq yolu ilə bərabər, həyatı haqqında da bəzi nüanslara nəzər yetirməyi məqsədəuyğun hesab edirik.

Əhməd bəy Ağaoğlu kimdir?

Əhməd bəy Ağaoğlu 1869-cu ildə Şuşada bəy ailəsində anadan olmuşdur. Böyük mütəfəkkirin uşaqlıq və gənclik illəri Şuşada keçmişdir. Mütərəqqi Şuşa mühiti, zadəgan ailədə dünyaya gəlməsi, anası açıqfikirli Nairə xanımın, mürəbbiyə və müəllimlərinin mükəmməl tərbiyəsi Əhməd bəyin gələcək həyatının təməlini qoyurdu. Belə bir mühit onu mənəvi inkişafa, elmə, maarifə təhrik edirdi. O, ilk təhsilini Şuşa lisey-gimnaziyasında alsa da, mükəmməl təhsil almaq üçün başqa ölkələrə, şəhərlərə can atır. Təhsilini Tiflisdə gimnaziyada davam etdirib, mükafatla Şuşaya qayıdır. O, Sankt-Peterburqda ali təhsil almağa qərar verir. Sankt-Peterburqda imtahan zamanı rastlaşdığı ədalətsizliyə görə instituta qəbul olunmasına baxmayaraq, oradan birbaşa Parisə yola düşür. 1888-ci ildə Sarbonna Universitetinin hüquq fakültəsinə qəbul olunan Əhməd bəy Ağaoğlu elə təhsilinin ilk ilindən çoxşaxəli yaradıcılıq yoluna qədəm qoyur. Ədəbiyyatşünas alim Əziz Mirəhmədov Əhməd bəy Ağaoğlunun təhsil və fəaliyyət coğrafiyasını aşağıdakı kimi təsvir etmişdir: "Şuşa – Tiflis – Sankt-Peterburq – Paris – Şuşa – Bakı – Ankara – İstanbul" [Mirəhmədov, 2014: 6].

Paris mühiti, universitetdəki məşhur alimlərin müharibələri, fikir cərəyanları, Parisin qaynar həyatı Əhməd bəyin dünyagörüşünün inkişafında mühüm rol oynayır. Azərbaycanlı gəncin elmə böyük həvəsi E.Rena, C.Darmsteter kimi professorların diqqətini cəlb edir. Əhməd bəy müəllimlərinin təkidi ilə şərqşünaslığa dair məqalələri ilə fransız mətbuatında tez-tez çıxış edir. Çox çəkmir ki, azərbaycanlı gənc tələbə öz elmi-tədqiqat əsərləri ilə Paris ictimai-ədəbi mühitində böyük şöhrət qazanır. "Revü Politik", "Surnal de Deba", "Revü bio" və s. mətbu orqanlarında çap etdirdiyi məqalələri, islam tarixinə dair tədqiqatları "müsəlman dünyası" mövzusunda əsərləri Paris elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Əhməd bəy Ağaoğlunun 1890-cı ildə Parisdə çap etdirdiyi "İran cəmiyyəti" adlı əsəri böyük marağa səbəb olur. Altı hissədən – oçerklər silsiləsindən ibarət olan əsərdəki "İran" məfhumu geniş mənada işlənir. Belə ki, bu ad bütün Yaxın Şərq, müsəlman aləmini, o cümlədən Azərbaycan anlayışlarını da əhatə edir. Müəllif ən əvvəl özünü oxuculara bir müsəlman kimi təqdim edir və Qərbə nisbətən Şərqə – Şərq sivilizasiyasına üstünlük verir, eyni zamanda, öz fikirlərini sübut etməyə çalışırdı. Əhməd bəy Ağaoğlu əsərlərinin əsas qayəsi islam Şərqinin keçmiş tarixini xatırladaraq onun daha mütərəqqi olduğunu göstərmək, lakin sonralar tənəzzül etdiyini nəzərə çatdırmaq və bunun səbəblərini araşdırmaq, eyni zamanda, Şərqi yeni intibaha aparan vasitələri, yolları axtarıb tapmaqdan ibarət idi. "İran cəmiyyəti" əsəri aşağıdakı oçerklərdən ibarətdir: İran qadını; Ruhanilər; Din və dini təriqətlər; Teatr və bayramlar; Ədəbiyyat və təhsil; Ruslar və ingilislər.

Əlbəttə, bir məqalədə oçerklərin hamısını təhlil etmək imkan xaricindədir. Bunlardan birini nəzərə çatdırmaq kifayətdir. Müəllif müsəlman aləmində, o cümlədən İran, Azərbaycan, ərəb cəmiyyətində islama qədər qadına hörmət olunmadığını, pis münasibət göstərildiyini qeyd edir. Daha sonra yazır ki, islamdan sonra qadınlara geniş hüquqlar verilir, onların malik olduğu hüquqlar heç də Avropa qadınlarının hequqlarından geri qalmır.

Beləliklə, ilk dəfə "Lya Nouvel Revü" jurnalında çap olunan "İran cəmiyyəti" oçerklər silsiləsi bir çox ictimai-siyasi problemləri əks etdirdiyi üçün Əhməd bəy Ağaoğlu yaradıcılığında mühüm yer tutur. Şərqşünas-tədqiqatçı Jorj Fransua Əhməd bəy Ağaoğlu haqqında yazdığı məqalədə deyirdi:

"Azərbaycanlı alimin əsas məqsədi İran xalqı kimi böyük bir xalq haqqında təsəvvürləri yanlış olan bir cəmiyyətə həqiqəti anlatmaq idi" [Mirəhmədov, 2014: 17].

Əhməd bəy Ağaoğlunun "İslama görə və islamlıqda qadın" kitabı ilk dəfə 1901-ci ildə Tiflisdə çap olunmuşdur. Müəllif bu əsəri ilə islam və türk dünyasının inkişafının təməl şərtlərinin nə olduğunu cəsarətlə irəli sürür. Qadın haqqında islam təlimini geniş şərh edir və yazır ki, qadınlar və kişilər eyni maddədən yaradılıblar, onlar sosial-əxlaqi vahidlər kimi bir-birinin eynidirlər və öz hərəkətləri üçün Allah qarşısında bərabər məsuliyyət daşıyırlar. Əhməd bəy Ağaoğlu qeyd edir ki, islamda qadın şəxsiyyəti yüksək qiymətləndirilir. Fikrini əsaslandıraraq yazır: "Məhəmməd peyğəmbər deyir ki,.. Allah cənnəti anaların ayaqları altında yerləşdirmişdir".

Əhməd bəy Ağaoğlunun bu əsəri çox fəlsəfi və ictimai əhəmiyyətli, maraqlı bir əsərdir. Görkəmli tədqiqatçı-ədəbiyyatşünas Əziz Mirəhmədov bu əsəri geniş təhlil edərək yazmışdı: "Zəngin elmi, tarixi, publisist, fəlsəfi məxəzlər əsasında yazdığı bu əsərində Ə.Ağaoğlu qarşısına qoyduğu məqsədə tam nail olmuşdur. Əhməd bəy Ağaoğlu bir konsepsiyanı inandırıcı surətdə əsaslandırıb sübut edir ki, Şərqin gələcəyi, tərəqqisi qadınların taleyinin necə həll olunmasından, daha doğrusu, onların tarixi inkişafda nə dərəcədə, hansı şəkildə iştirak edəcəklərindən çox asılıdır" [Mirəhmədov, 2014: 75].

Əhməd bəy Ağaoğlunun 1902-ci ildə Bakıda "İslam, Axund və Katüfül-qeyb" adlı alleqorik dram əsəri çap olunur. Demək olar ki, bu əsər də ədibin "İslam və tərəqqi" mövzusunda silsilə əsərlərinin davamıdır. Bu əsər dil, üslub, janr baxımından yaşadığı dövrün Azərbaycan ədəbiyyatı ənənələri ilə səsləşir. Əsər müsəlman Şərqinin, o cümlədən vətəni Azərbaycanın XX əsrin əvvəllərindəki tarixi inkişafı haqqında bir çox mühüm məsələləri əks etdirir. Bu əsər dini sxolastika, mövhumat və xurafatı tənqid etdiyi üçün böyük əhəmiyyət kəsb edir. Müəllifin bu əsəri həmin dövrün ictimai həyatını, fəlsəfi fikir tarixini öyrənmək baxımından qiymətlidir.

Əhməd bəy Ağaoğlunun milli oyanış ideyalarının çoxillik zəhməti bahasına başa gələn ən kamil əsəri "Sərbəst insanlar ölkəsində" traktatıdır. Müəllifə görə, "azadlıq şüurun cövhəsi, şüur da insandır". Bu əsər cəmiyyət üçün, insanlıq üçün bir əxlaq indeksidir.

Böyük mütəfəkkir Əhməd bəy Ağaoğlunun "üç mədəniyyət" əsəri də öz məzmununa, məqsədinə görə bütün dövrlər üçün çox aktual və maraqlı bir əsərdir. Əhməd bəy Ağaoğlunun yaradıcılığının gözəl tədqiqatçısı Əziz Mirəhmədovun təbirincə desək, Əhməd bəy Ağaoğlu avropapərəst idi. Onun "Üç mədəniyyət" əsərində Avropa mədəniyyəti haqqında fikirləri ilə daha yaxından tanış oluruq. Müəllif üç mədəniyyət dedikdə Avropa, Şərq, Afrika ölkələri mədəniyyətlərini bütün fəzilətləri ilə qəbul etməyi tövsiyə edir. Avropa, Şərq, eləcə də digər mədəniyyətlər bir-birindən üstün deyildir, hamısı inkişaf etmiş mədəniyyətlərdir. Əhməd bəy Ağaoğlu elmi və mədəniyyəti millətin tərəqqisi üçün vacib şərtlər hesab edir. O, eyni zamanda, hər sahədə millətimizin çatışmayan xüsusiyyətlərini tənqid edir, açıq söyləyir və xalqımıza ümumbəşəri mədəniyyətdən bəhrələnməyi məsləhət görürdü.

Qeyd etmək lazımdır ki, Şuşa mühiti Əhməd bəy Ağaoğlunun zəngin mənəvi həyatının təməlini qoymuş, Paris mühiti isə çoxşaxəli yaradıcılıq üfüqlərinə qovuşdurmuşdur.

Əhməd bəy Ağaoğlunun çoxşaxəli yaradıcılıq fəaliyyətlərindən biri də jurnalistika sahəsində qazandığı uğurları idi. Onun bu sahədə ilk təcrübəsi 1988-ci ildən elə təhsil aldığı ali təhsil ocağından – Sarbonna universitetindən başlayır. O, yuxarıda qeyd etdiyimiz kimi, müəllimləri filosof, professor E.Rena, C.Darmsteterin təkidi ilə şərqşünaslığa dair Parisdə çıxan jurnallarda sanballı məqalələrlə çıxış edir və onun müsəlman aləmi, islam tarixinə dair əsərləri Fransa ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Əhməd bəy Ağaoğlu Fransada təhsilini başa vurduqdan sonra Şuşaya qayıdır, burada ilk kitabxana, qiraətxana açır. 1897-ci ildə Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıya gəlir, Bakı qubernatorunun yanında məmur vəzifəsində işləyir. Əziz Mirəhmədov yazır ki, maddi cəhətdən təmin olunsa da, onun fikri-zikri jurnalistikada idi. Beləliklə o, "Kaspi", "Kafkaz" və s. kimi mətbu orqanlarla əməkdaşlıq edir, məqalələr çap etdirir. Mollanəsrəddinçilərlə çiyin-çiyinə işləyir. O, "Həyat", "İrşad", "Şərqi-rus" qəzetlərinin redaktoru olur. Eyni zamanda, Sankt-Peterburqda,

Fransada nəşr olunan qəzet və jurnallara o dövrdəki Azərbaycanda baş verən hadisələr haqqında məqalələr göndərərək əsl həqiqətləri dünyaya çatdırır.

Əhməd bəy Ağaoğlyu 1908-ci ildə təqiblərdən qurtarmaq üçün İstanbula köçür. Burada Türk ocağı milli hərəkatının aparıcı siması olur, konqresə prezident seçilir. Süleymaniyyədə kitabxana direktoru işləyir, "Türk yurdu" jurnalının redaktoru olur. Hətta Malta adasında sürgündə olarkən yaradıcılığını, jurnalistlik fəaliyyətini davam etdirir. Sürgündən azad olduqdan sonra Ankaradakı Mətbuat İnformasiya İdarəsinə rəhbərlik edir. "Hakimiyyəti-Milliyə" qəzetinin baş redaktoru olur. Bir haşiyəyə çıxaraq xatırlatmaq yerinə düşər. Əhməd bəy Ağaoğlu ikinci və üçüncü çağırış Türkiyə Böyük Millət Məclisinə deputat seçilir və Mustafa Kamal Atatürkün xarici məsələlər üzrə siyasi məsləhətçisi olur. Əhməd bəy Ağaoğlunun jurnalistika haqqında fikirləri, qənaətləri çox maraqlıdır.

Əhməd bəy Ağaoğlunun geniş diapazona malik fəaliyyətinə onun müəllimliyini də daxil etmək lazımdır. Parisdə təhsilini başa vurduqdan sonra Əhməd bəy Ağaoğlu doğma Şuşaya qayıdır və burada üç il realnı məktəbdə fransız dili müəllimi işləyir. O, xalqının tərəqqisi və maariflənməsi, təhsili uğrunda yorulmadan, əzmlə çalışırdı. Neft maqnatı, xeyriyyəçi, dövrünün görkəmli şəxsiyyəti Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıya gəldikdən sonra da bir çox yüksək vəzifələrdə çalışmaqla bərabər, realnı məktəbdə fransız dili müəllimi işləyir. Böyük mütəfəkkir İstanbulda bir çox yüksək vəzifələrdə çalışmaqla yanaşı, İstanbul universitetində hüquq, türk-monqol tarixi, rus və fransız dillərindən dərs deyir. İstanbula köçməmişdən əvvəl Ankarada yaşadığı müddətdə qurucusu olduğu Ankara Yüksək Hüquq məktəbində də müəllim işləmişdir.

Əhməd bəy Ağaoğlunun bədii publisistika, milli məsələ, siyasət, iqtisadiyyat, din, dövlət, ailə, əxlaq, mədəniyyət və s. haqqında yazıları oxucuları dərindən düşündürür və bu əsərlər günümüzlə səsləşən aktual məsələləri əhatə edir. O, iqtisadiyyat, siyasət məsələlərindən danışarkən mübahisəli, həm də maraqlı fikirlər irəli sürür. Qərb imperializminin dünyanı yenidən bölüşdürmək, zəbt etmək, inhisarçılıq siyasətini tənqid edən müəllif yazırdı ki, "avropalıların yer, torpaq məsələlərini öz aralarında həll edə bilməmələrinin zərərini "kürreyi-ərzin iki bədbəxt qitəsi – Afrika və Asiya çəkir. Onlar zəbt etdikləri yerlərdə yerli əhalini yavaş-yavaş məhv etməyə çalışırlar" ["İrşad" qəzeti, 1907, № 53].

Əhməd bəy Ağaoğlunun çoxşaxəli yaradıcılıq fəaliyyətinə onun tərcüməçilik sahəsindəki işlərini də daxil etmək lazımdır. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, o, əsərlərinin böyük əksəriyyətini fransızca, rusca yazırdı. Bu səbəbi əsərlərin çap oldunduğu dövri mətbuat idi. Müəllif, eyni zamanda, öz millətinin, xalqının dünyada tanınması üçün çalışırdı. Əhməd bəy Ağaoğlu əsərlərini türkcəyə, Azərbaycan dilinə də tərcümə edərək çap etdirirdi. O hələ Sarbonna illərində müəllimi Ceyms Darmsteterlə birlikdə Zərdüştün "Avesta"sını farscadan tərcümə etmiş, sonralar bu abidə haqqında maraqlı məqalələr yazmışdır.

Əhməd bəy Ağaoğlunun çoxşaxəli yaradıcılıq fəaliyyətindən danışarkən onun bədii-fəlsəfi publisistikasına da diqqət yetirmək lazımdır. Bu silsiləyə daxil olan əsərlərindən biri "Bədbinin düşüncələri" adlanır və müəllifin fəlsəfi dünyagörüşünün mürəkkəbliyini göstərmək baxımından çox səciyyəvidir. "Təqsir kimdədir?", "Müsəlman xəyalatı", "Fatimə xəttabın qəhrəmanlığı" və s. kimi hekayələrdə xalqın geridə qaldığını, cəhaləti göstərir və gənclərə islam dini etiqadının banisi Məhəmmədə rəğbət hissi aşılayır.

Əhməd bəy Ağaoğlu ömrü boyu türk xalqlarının azadlığı, səadəti üçün çalışmış, onların ümumi problemlərinin həlli yolunda çox işlər görmüşdür.

Əhməd bəy Ağaoğlu çox gənc yaşlarından vətənindən uzaqlarda yaşasa da, doğma yurdunu çox sevirdi. Professor Əziz Mirəhmədov yazırdı ki, ömrünün cavan, ahıl, qoca çağlarında nə vaxt, harada olursa-olsun, onun ürəyi daim Azərbaycanla, doğma Şuşa qalası ilə həmahəng döyünürdü. Bu haqda onun məqalə və məktublarında nə qədər şirin sözlər, xatirələr var.

1892-ci ildə konqresdə iştirak etmək üçün Londona gələn Əhməd bəy Ağaoğlu dünyanın ən gözəl, səfalı istirahət parkında – Hayd Parkda elə ilk gündən vətən torpağını xatırlayır: "Budur, bu da Hayd Park. Özünü doğma Şuşada, Topxana, ya güllü bulvarda hiss edirsən...

29 il sonra Maltada sürgündə olanda yenə eyni kövrəklik, eyni xəyal, eyni həsrət... Xəyalım çox uzaqlara, Qarabağa, Şuşa qalasına, o gözəl dağlara, seyrangahlara uçub getdi. Bütün keçmişlər, əqrəbalar, dostlar, evimiz, küçələrimiz, bağçalarımız birər-birər gözlərimin önündən gəlib keçdi [Mirəhmədov, 2014: 9].

**NƏTİCƏ.** Əhməd bəy Ağaoğlu ömrünün sonunadək xalqının, vətəninin tərəqqisi yolunda çalışan, əbədi şöhrət qazanan görkəmli şəxsiyyət və xalqımızın qürur mənbəyi olan alim, filosof, yazıçı, ictimai-siyasi xadimdir. Təəssüflər olsun ki, belə dahi şəxsiyyətin nəhəng ədəbi irsi hələ tam şəkildə tədqiq edilməmiş, əsərlərinin çox böyük hissəsi çap olunmamış, onun həyat və fəaliyyəti dərsliklərimizdə yer almamışdır.

Gənc nəslin elmi, siyasi, iqtisadi, fəlsəfi görüşlərinin inkişaf etməsində Əhməd bəy Ağaoğlu irsinin öyrənilməsinin böyük əhəmiyyəti vardır.

## QAYNAQÇA

Ağaoğlu Ə. Şərqşünasların konqresində / Kafqaz qəzeti, 15-16 dekabr 1892

URL: https://az.wikisource.org/wiki/%C5%9E%C9%99rq%C5%9F%C3%BCnaslar%C4%B1n_konqresind%C9%99

İrşad qəzeti. (1907), № 53.

Quliyev V. (2019) Peterburq xatirələri – Əhməd bəy Ağaoğlu-150

URL: https://525.az/news/126364-peterburq-xatireleri-ehmed-bey-agaoglu-150

Mirəhmədov Ə. (2014). Əhməd bəy Ağaoğlu. Bakı: Ərgünəş.

Vahabzadə B. (1978). Sadəlikdə böyüklük. Bakı: Yazıçı.

# Şuşa şəhərinə məxsus toponimlər milli-tarixi yaddaşın saxlancı kimi

**Reyhan Dadaşova**
filologiya üzrə fəlsəfə doktoru
BAKI BİZNES UNİVERSİTETİ
ORCID ID 0000-0002-3407-2817

Pənahəli xan tərəfindən əsası qoyulan Şuşa şəhəri özünün təbii-coğrafi mövqeyi, ərazi vahidləri, yaşayış məskənləri, müxtəlif təyinatlı inzibati tikililəri və tarixi-memarlıq abidələri ilə seçilən, şəhər-qala və müdafiə-istehkam məqsədilə inşa olunan özünəməxsus unikal hərbi-strateji əhəmiyyətli mədəniyyət mərkəzlərindən biridir.

Şuşanın yer-yurd adlarında şəhər-qalanın ictimai-tarixi, hərbi-siyasi və mədəni həyatına məxsus hadisələrin izinə düşmək olur. Bu adlar Şuşanın tarixi keçmişi, social-iqtisadi durumu, inzibati idarəçiliklə bağlı, maddi-mədəniyyət abidələrinin təyinatı, tarixçəsi barədə müəyyən məlumat və bilgilər verən ən etibarlı mənbələr hesab olunur.

Üç əsrə yaxın bir müddət ərzində Şuşada yüzdən artıq toponimlər yaranmış, onların bir çoxu şəhər infrastrukturunun yeniləşdirilməsi ilə əlaqədar olaraq ya sıradan çıxmış, ya da əsas kimi götürülən maddi-memarlıq abidələri içərisinə daxil edilərək assimliyasiyaya məruz qalmışdır.

Şuşaya yaxın ərazilərdə yerləşən toponimlərin geniş yayılmış nümunələrindən biri də “Cıdır düzü”dür. “Cıdır düzü” Şuşanın cənub-qərbində yerləşən bir meydan-yarışma üçün nəzərdə tutulan ərazidir. Əvvəllər bu ərazi at saxlamaq üçün nəzərdə tutulmuş, qoyunçuluqla bağlı bir təsərrüfat məkanına çevrilməklə yanaşı, bağ-bostan becərilməsi üçün bir sahə kimi də istifadə edilmişdir. Sonuncu təyinatına görə, el arasında bağ-bostan işləri ilə məşğul olan şəxsin adı ilə “Qafur düzü” də adlandırılmışdır.

Cavanşir nəslindən olan İbrahim xanın hakimiyyət dövründən başlayaraq düzənlik sahə olan bu ərazi daha çox atçapma və cıdır yarışlarının keçirildiyi bir məkan statusu qazanmış “Cıdır meydanı”, daha sonralar isə “Cıdır düzü” kimi adlandırılmışdır.

Xanlıq dövründən etibarən burada ildə iki dəfə atçapma yarışları təşkil olunmuş, sovet dönəmində isə müxtəlif mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün bir məkan kimi seçilmişdir.

Gətirilən bu fakt və hadisələr bir daha onu təsdiqləyir ki, digər ərazi vahidlərində olduğu kimi, Şuşaya məxsus toponimlərin yaranmasında şəhər həyatına məxsus olan bir çox tarixi həqiqətlər, sosial-iqtisadi durum, təsərrüfatçılıqla bilavasitə sıx bağlı mətləblər də fəal şəkildə iştirak edir.

Bu baxımdan qaya, dağ-dərə, mağara-kaha adlarından ibarət “Xəzinə qayası” (bəzən o, “Xəzinə dərəsi” də adlandırılmışdır – R.D.), “Gəlin qayası”, “Qaya başı”, “Qızıl qaya”, “Qızxanım dərəsi”, “Üçmıx”, “Ağzıyastı kaha”, “İbrahimxəlil xanın kahası”, “Qırxpilləkən”, “Mir Faseh bağı” (Şuşada ona bəzən “Cənnət bağı” da deylir – R.D.), “Şəmilin bağı”, “Xan bağı”, “Xan ölən səngər”, “Fətəli xan səngəri”, “Molla Nəsrəddin yolu” kimi təbii-coğrafi ərazi və şəxslərin adları ilə bağlı toponimlər Şuşanın tarix boyunca təbii-coğrafi ərazi özünəməxsusluğu və qala-şəhərin ictimai-siyasi həyatında müəyyən rol oynayan şəxsiyyətlərin adı ilə adlandırılması tarixi gerçəkliyin toponomik vahiddə ifadə olunmasına əyani bir nümunədir.

***Açar sözlər:*** *Şuşa, İbrahim xan, memarlıq abidələri, Cıdır düzü, toponimlər.*

# $TlInTe_2$–Bi KRİSTALINDA *γ* – KVANTLARIN TƏSİRİ İLƏ YARANAN RADİASİYA DEFEKTLƏRİ

# RADIATION DEFECTS FORMED UNDER THE INFLUENCE OF γ-QUANTA IN A $TlInTe_2$–Bi CRYSTAL

**[1]Rəhim Mədətov Səlim, [2]Kəmalə Xəlilova Həzrətqulu, [3]Günay Isgəndərova Məzahir, [4]Gülbəniz Qafarova Əsgər**

*Radiasiya problemləri İnstitutu 1 – f.–r.e.d., professor*

*AZ 1143, Bakı, B.Vahabzadə pr. 9*

*Fizika İnstitutu 2 – f.f.d, elmi işçi, 3 – elmi işçi, 4 – elmi işçi*

*AZ 1143, Bakı, H.Cavid pr. 131*

https://orcid.org/0009-0004-3809-6666

**Xülasə**

$A^3B^3C_2^6$ (A–Tl; B–Ga,In; C–S,Se,Te) qrup birləşmələrinə daxil olan $TlInTe_2$ birləşməsi TlS quruluş tipində (*I4/mcm*) kristallaşır və aşağıda göstərilən parametrlərə malikdir: *a*=8,494 Å; *c*=7,181Å; *c/a*=0,845; Z=4; *d*=7,36 $q/sm^3$. $TlInTe_2$ kristallarında kimyəvi əlaqə ion–kovalent xarakterlidir. [1]. TlSe quruluş tipində kristallaşan $A^3B^3C_2^6$ kristalları defektli kristallardır, onlarda defektlərin qatılığı ~$10^{18}$–$10^{20}sm^{-3}$ təşkil edir [2].

$A^3B^3C_2^6$ tip kristallarının elektrik keçiriciliyi strukturda olan aşqar atomlarının və vakansiyaların mövcudluğuna həssasdırlar. Əgər şüalanma zamanı maddə tərəfindən udulan enerjinin qiyməti həmin yerdəyişmədən böyük olarsa bu zaman atomun qəfəsin düyünlərindən çıxma ehtimalı baş verir. Bu zaman bir boş vakanisya və düyünlərarası atom yaranır. Daxilolma bərk məhlullarında aşqarların akseptor və ya donor təbiətli olması elektromənfiliklərin fərqi ilə təyin olunur. Adətən aşqar atomunun elektromənfiliyi böyük olduqda akseptor, əks halda donor səviyyələri yaranır. Kristalda nöqtəvi defektlərin düyünlərarası atomlar, vakansiya – Frenkel cütü kimi növləri [3] ədəbiyyatda qeyd olunmuşdur.

Fiziki-kimyəvi tədqiqatlar göstərir ki, bismut aşqarı $TlInTe_2$ kristalında 5.0 at.% miqdarında həllolma qabiliyyətinə malikdir. Bismutla aşqarlanmış $TlInTe_2$ birləşməsində kristallik quruluşu tədqiq etmək məqsədi ilə nümunə üzərində rentgen faza analizi aparılmışdır. Analizin nəticəsinə əsasən müəyyən edilmişdir ki, aşqarlanmadan sonra bismut atomu strukturdakı mövcud oktaedrik boşluqda yerləşmişdir. Nəticədə daxilolma tip bərk məhlulu yaranmışdır.

RFA-nin nəticəsinə əsasən qəfəs parametrləri aşağıdakı kimidir: *a*=8,481 Å, *c*=7,192 Å. 770±5 K temperaturda xəlitələrin rentgenfaza analizi 3,0; 4,0 və 5,0 at.% Bi tərkibli kristallar üzərində aparılmışdır. Rentgen faza analizinin nəticəsindən məlum olmuşdur ki, nümunələrin tərkibində bismutun faizinin artması ilə bərk məhlulların elementar qəfəs sabitlərində cüzi dəyişmə müşahidə olunur.

***Açar sözlər:*** *Radiasiya davamlılığı, γ – kvantlar, radiasiya defektləri, VAX*

**Abstract**

Thus, physicochemical studies of $TlInTe_2$−Bi alloys in the concentration range of 0−10 at.% Bi have established the solubility of bismuth in $TlInTe_2$ in an amount of 5.0 at.% at room temperature.

The results of XRD showed that with an increase in the concentration of Bi in the composition of α-solid solutions, the values of the unit cell parameters change insignificantly. After the introduction of Bi impurity into the $TlInTe_2$ crystal, a slight change in the lattice parameters is observed. Specifically, the value of the **a** lattice parameter decreased by 0.9%, while the value of the **c** lattice parameter increased by 1%.

The results show that doping $TlInTe_2$ with bismuth significantly affects the electric current flow mechanism of the material.

**Keywords:** Radiation resistance, γ-quanta, radiation defects, VAX




**Şəkil 1. ($TlInTe_2$)$_{0,95}$Bi$_{0,05}$ kristalının toz difraktoqramı [4]**

$TlInTe_2$ kristalına Bi aşqarının daxil edilməsindən sonra elementar qəfəsinin parametrlərinin qiymətində cüzi dəyişiklik müşahidə olunur. Belə ki, a qəfəs parametrinin qiyməti 0,9 % azalmış, c qəfəs parametrinin qiyməti isə 1 % artmışdır.

**Cədvəl 1. $TlInTe_2$ və aşqarlı $TlInTe_2$-Bi kristalları üçün qəfəs parametrlərinin qiymətləri.**

| Nümunələr | a(Å) | b(Å) | c(Å) |
|---|---|---|---|
| $TlInTe_2$ | 8,494 Å | 8,494 Å | 7,181 Å |
| $TlInTe_2$–Bi | 8,481 Å | 8,481 Å | 7,192 Å |

$TlInTe_2$–Bi nümunəsininin şüalanmadan sonra çəkilmiş toz difraktoqrammasının nəticəsi şəkil 2–də verilmişdir [5].




**Şəkil 2. Şüalanmadan sonra $TlInTe_2$+5% Bi kristalının toz difraktoqramı (D=5MQr).**

RFA–in nəticəsinə əsasən göstərilmişdir ki, 5 MQr şüalanmadan sonra $TlInTe_2$–Bi tərkibli bərk məhlulun elementar qəfəs sabitləri dəyişmir.

Şəkil 3–də $(TlInTe_2)_{1-x}Bi_x$ nümunəsinin müxtəlif dozalarda və iki kristalloqrafik istiqamətdə Volt–Amper xarakteristikaları (VAX) verilmişdir [4]. Tədqiq edilən 5,0 at.% Bi aşqar atomu daxil edilmiş $TlInTe_2$ kristalından ölçüləri 0,42 x 0,14x 0,09 sm *((001)* kristalloqrafik istiqamətdə aparılacaq ölçmələr üçün) və ölçüləri 0,47 x 0,25 x 0,06 sm *((110)* kristalloqrafik istiqamətdə aparılacaq ölçmələr üçün) olan paralelepiped formalı nümunələr hazırlanmışdır.

Cədvəl 2. $TlInTe_2$, $TlInTe_2$–Bi tərkibli nümunələr üçün *(001)*, *(110)* kristalloqrafik istiqamətlərdə elektrik keçiriciliyi anizotropiyasının qiymətləri

| **Nümunələr** | **$\rho_\perp/\rho_\parallel$ D=0** |
|---|---|
| $TlInTe_2$ (\|\|) | 97 |
| $TlInTe_2$ (⊥) | |
| $TlInTe_2$+5%Bi (\|\|) | 766817 |
| $TlInTe_2$+5%Bi (⊥) | |

Cədvəl 2-də $TlInTe_2$, $TlInTe_2$+5% Bi nümunələrinin VAX-dan istifadə edərək elektrik keçiriciliyi anizotropiyasının qiymətləri hesablanmışdır.

$TlInTe_2$+5% Bi nümunələrində Volt – Amper xarakteristikalarından (VAX) istifadə edərək xüsusi müqavimətin qiymətləri hesablanmışdır. Müəyyən edilmişdir ki, c oxuna paralel istiqamətdə xüsusi müqavimətin qiyməti ρ=0,833 Omsm, c oxuna perpendikulyar istiqamətdə isə ρ=636458 Omsm-dir.




**Şəkil 3 $TlInTe_2$–Bi kristallarının 300 K temperaturda çəkilmiş Volt–Amper xarakteristikaları [5]. a: *(001)*–kristalloqrafik istiqamət, b: *(110)*–kristalloqrafik istiqamət. 1–D=0; 2–D=0,01 MQr; 3–D=0,1 MQr; 4–D=0,5 MQr; 5–D=2,5 MQr; 6–D=5 MQr**

Şəkil 3–dən görünür ki, şüalanmadan əvvəl *Bi* atomu ilə aşqarlanmış $TlInTe_2$–Bi bərk məhlulunda I(U) asılılığının *(001)* kristalloqrafik istiqamətdə xətti xarakter daşıması defekt səviyyəsinin termik ionlaşması ilə bağlıdır. *(110)* kristalloqrafik istiqamətdə isə bu asılılıq qismən eksponensial xarakter daşıyır. Gərginliyin qiymətinin sonrakı dəyişməsində sıçrayışlı keçid və sonrakı artımında isə yenidən kvadratik oblast müşahidə olunur.Əyrilərin belə xarakteri sərbəst yükdaşıyıcıların lokal oblastlar arası keçidi ilə izah edilmişdir [5].

Nəticələr Bi aşqar atomunun və γ – kvantların *n–$TlInTe_2$+5% Bi* sistemində yaratdığı nöqtəvi defektlərin kristalda fiziki xassələri və radiasiya davamlılığını idarə etməyə imkan verir [5].

**ƏDƏBİYYAT**

1. D.Muller, G.Eulenberger, H.Hahn. Uber ternäre Thalliumchalkogenide mit Thallium selenidstruktur, Z. Anorg. Allg. Chem., 398 (1973) 207–220.

2. Р.М.Сардарлы, О.А.Самедов, А.И.Наджафов, А.П.Абдуллаев, Э.А.Зейналов, Д.Г.Джаббаров. Анизотропия прыжковой проводимости в монокристалле $TlGaTe_2$, XXV №5 (2005) 45–50.

3. Вавилов, В.С. Действие излучений на полупроводники / В.С.Вавилов, Н.П.Кекелидзе, Л.С.Смирнов –М.: Наука,–1988. –190 с.

4. Kashida, S. X–ray study of the incommensurate phase of $TlInS_2$ / S.Kashida, Y.Kobayashi // J. Phys. Condens. Matter, –1999. 11, –p.1027–1035.

5. K.H. Xəlilova. $TlInTe_2$ birləşməsində aşqarlanmanın yaratdığı nöqtəvi defektlərin kristalın radiasiya davamlılığına təsiri: fizika üzrə fəlsəfə doktoru dis. Bakı, 2024, s.142

# γ – KVANTLARIN TƏSİRİ İLƏ $TlInTe_2$–Si KRİSTALINDA YARANAN RADİASİYA DEFEKTLƏRİ

# RADIATION DEFECTS IN TlInTe2–Si CRYSTAL UNDER THE INFLUENCE OF γ – QUANTUMS

**[1]Rəhim Mədətov Səlim, [2]Kəmalə Xəlilova Həzrətqulu, [3]Günay Isgəndərova Məzahir, [4]Gülbəniz Qafarova Əsgər**

*Radiasiya problemləri İnstitutu 1 – f.–r.e.d., professor*

*AZ 1143, Bakı, B.Vahabzadə pr. 9*

*Fizika İnstitutu 2 – f.f.d, elmi işçi, 3 – elmi işçi, 4 – elmi işçi*

*AZ 1143, Bakı, H.Cavid pr. 131*

https://orcid.org/0009-0004-3809-6666

**Abstract**

The study investigated the electrical conductivity anisotropy of $TlInTe_2$ and $TlInTe_2$ + 5% Si single crystals using Volt-Ampere characteristics (VAC) measurements. It was observed that Si doping significantly increases the anisotropy of electrical conductivity. Specifically, the conductivity along the (001) crystallographic direction is considerably higher than in the (110) direction. The maximum measured anisotropy coefficient was approximately 937671, which indicates a strong directional dependence of charge transport in doped crystals.

Additionally, the VAC curves revealed that while pure $TlInTe_2$ exhibits ohmic behavior, the doped samples demonstrate nonlinear characteristics depending on the current intensity and crystal orientation. The influence of sample thickness and measurement direction on conductivity was also clearly established. These results suggest that doping $TlInTe_2$ with silicon significantly alters its electrical properties and could be useful in developing anisotropic semiconductor devices.

**Keywords:** VAX, γ-quanta, radiation resistance, radiation defects

**$TlInTe_2$** kristalı **$A^3B^3C^6_2$** tipli üçlü birləşmələr sinfinə aiddir (burada A – Tl; B – Ga və ya In; C – S, Se, Te). Bu birləşmələr **tetraqonal sinqoniyada TlSe** struktur tipində kristallaşır və aşağıdakı kristalloqrafik parametrlərə malikdirlər: a = 8,494 Å, c = 7,181 Å, c/a = 0,845 Z = 4, (d) = 7,36 q/sm³ [1]. **$TlInTe_2$ birləşməsinin kristallarında kimyəvi rabitə ion-kovalent xarakter daşıyır** [2].

$TlB^{III}C_2^{VI}$ tip kristallarının elektrik keçiriciliyi strukturda olan kənar element atomlarının və vakansiyaların mövcudluğuna həssasdırlar. İon kristallarında neytrallıq şərti digər qüsurların olmamasına görə təmin edilir. Ədəbiyyat materiallarına əsasən kristallardakı ən geniş yayılmış defekt növü kristal qəfəsin düyün nöqtəsində atom və ya ionun olmamasıdır. Bu zaman düyünlərarası atom və bir boş vakanisya yaranır. Vakansiyanın əmələ gəlməsi zamanı ionlar arasında məsafə dəyişir və qəfəsin elastik sahəsində relaksasiya baş verir. Adətən bu relaksasiya enerjisi çox kiçik olur. Bütövlükdə kristalın neytral qalması üçün metaldan elektron və ion çıxarılmalıdır. Çünki neytrallıq şərti təmin olunmalıdır. Yəni vakansiyalar yalnız o zaman yaranır ki, onların müsbət və mənfi yükləri bir-birini balanslaşdırır. Əgər kənar element atomunun elektromənfiliyi böyük olarsa akseptor, əks halda donor səviyyələri yaranır. [3] ədəbiyyatında nöqtəvi defektlərin düyünlərarası atomlar və vakansiya kimi növləri qeyd olunmuşdur. Vakansiyanın yaranması zamanı üç əsas amil rol oynayır: qəfəsin elastik deformasiya enerjisi, elektron qazının sıxlığına təsir, ionların yerdəyişməsi və elektrostatik sahələrin formalaşması.

Silisiumun kimyəvi aktivliyi tədqiq etdiyimiz üçlü birləşmənin tərkibində olan Tl və In kationlarından zəifdir. Buna görə də $TlInTe_2$ birləşməsi ilə qarşılıqlı təsir zamanı əvəzetmə və ya sıxışdırıb çıxartma

halları baş vermir. Nəzərə alsaq ki, $Si^{4+}$ ion radiusunun 4–lü koordinasiyada 0,4 Å, 6–lı koordinasiyada isə 0,54 Å olması, onun $TlInTe_2$ birləşməsində həllolma ehtimalını atırır.




**Şəkil 1. $TlInTe_2$+5% Si kristalının toz difraktoqramı.**

$TlInTe_2$ kristalına silisium aşqarının daxil edilməsindən sonra elementar qəfəsinin parametrlərinin qiymətində cüzi dəyişiklik müşahidə olunur.

**Cədvəl 1. $TlInTe_2$ və aşqarlı $TlInTe_2$-Si kristalları üçün xüsusi müqavimətlərin qiymətləri.**

| Nümunələr | D=0 ρOm sm |
|---|---|
| $TlInTe_2$ (‖) | 795 |
| $TlInTe_2$ (⊥) | 77350 |
| $TlInTe_2$+5%Si (‖) | 2,7 |
| $TlInTe_2$+5%Si (⊥) | 937671 |

$TlInTe_2$–Si nümunəsininin şüalanmadan sonra çəkilmiş toz difraktoqrammasının nəticəsi şəkil 2–də verilmişdir [4].




**Şəkil 2. Şüalanmadan sonra $TlInTe_2$+5% Si kristalının toz difraktoqramı (D=5MQr).**

RFA–in nəticəsinə əsasən göstərilmişdir ki, 5 MQr şüalanmadan sonra $TlInTe_2$–Si tərkibli bərk məhlulun elementar qəfəs sabitləri dəyişmir.

Şəkil 3–də $(TlInTe_2)_{1-x}Si_x$ nümunəsinin müxtəlif dozalarda və iki kristalloqrafik istiqamətdə Volt–Amper xarakteristikaları (VAX) verilmişdir [5]. Tədqiq edilən 5,0 at.% Si aşqar atomu daxil edilmiş $TlInTe_2$ kristalından ölçüləri 0,39 x 0,09x 0,06 sm *((001)* kristalloqrafik istiqamətdə aparılacaq ölçmələr üçün) və ölçüləri 2,55 x 2,18 x 1,4 sm *((110)* kristalloqrafik istiqamətdə aparılacaq ölçmələr üçün) olan paralelepiped formalı nümunələr hazırlanmışdır.

Cədvəl 2. $TlInTe_2$, $TlInTe_2$–Si tərkibli nümunələr üçün *(001)*, *(110)* kristalloqrafik istiqamətlərdə elektrik keçiriciliyi anizotropiyasının qiymətləri verilmişdir.

Beləliklə, tədqiqatların nəticələrinə əsasən demək olar ki, γ–kvantların, o cümlədən Si atomunun artıqlığı $TlInTe_2$ kristalında keçiriciliyin anizotropiyasını məqsədyönlü idarə etməyə imkan verir. Şüalanmanın təsiri nəticəsində anion və kation tipli defektlərin və onların miqrasiyası nəticəsində aşqar və kation atomlarının iştirakı ilə komplekslərin yaranması müşahidə olunur. Şüalanmanın yüksək dozalarında isə, komplekslərin dissosiasiyası nəticəsində nöqtəvi defektlərin konsentrasiyası artır və keçiriciliyin anizotropiyasının azalması müşahidə edilir.

| Nümunələr | $\rho_{\perp} / \rho_{\parallel}$ D=0 |
|---|---|
| $TlInTe_2$ (‖) | 97 |
| $TlInTe_2$ (⊥) | |
| $TlInTe_2$+5%Si (‖) | 347286 |
| $TlInTe_2$+5%Si (⊥) | |

Cədvəl 2-də $TlInTe_2$, $TlInTe_2$+5% Si nümunələrinin VAX-dan istifadə edərək elektrik keçiriciliyi anizotropiyasının qiymətləri hesablanmışdır.

$TlInTe_2$+5% Si nümunələrində Volt – Amper xarakteristikalarından (VAX) istifadə edərək xüsusi müqavimətin qiymətləri hesablanmışdır. Müəyyən edilmişdir ki, c oxuna paralel istiqamətdə xüsusi müqavimətin qiyməti ρ = 2,7 Omsm, c oxuna perpendikulyar istiqamətdə isə ρ = 937671 Omsm-dir.




**Şəkil 3 $TlInTe_2$–Si kristallarının 300 K temperaturda çəkilmiş Volt–Amper xarakteristikaları [5]. a: *(001)*–kristalloqrafik istiqamət, b: *(110)*–kristalloqrafik istiqamət. 1–D=0; 2–D=0,01 MQr; 3–D=0,1 MQr; 4–D=0,5 MQr; 5–D=2,5 MQr; 6–D=5 MQr**

Şəkil 3-də a–dan görünür ki, şüalanmadan əvvəl $TlInTe_2$–Si kristalında I(U) asılılığı *(001)*–kristalloqrafik istiqamətdə gərginliyin 0,5–0,8 V intervalında xətti xarakter daşıyır, bu defekt səviyyəsinin termik ionlaşması ilə bağlıdır. Tətbiq edilən gərginliyin yüksək qiymətlərində isə kəskin artma müşahidə edilir. Qamma–kvantlarla şüalanma zamanı şüalanma dozasının 0,01 MQr qiymətində cərəyanın qiyməti kəskin azalır və müşahidə olunan kvadratik oblast yüksək gərginlik oblastına tərəf sürüşür. Şüalanmanın 0,1 və 0,5 MQr qiymətlərində (3 və 4 əy.) cərəyanın artması müşahidə olunur. Dozanın sonrakı artması zamanı (2,5 və 5 MQr, 5 və 6 əy.) cərəyan ilkin qiymətə nəzərən artır və kvadratik oblast kiçik gərginlik oblastına tərəf sürüşür.[6].. Şəkil 3 b–dən görünür ki, şüalanma dozasının 0,01–5 MQr qiymətlərində cərəyanın qiyməti ilkin qiymətə nəzərən artır. Alınan nəticələrin təhlili *(110)*–kristalloqrafik istiqamətdə cərəyanın artması yaranan radiasiya defektlərinin akseptor təbiətli olduğunu göstərir.

## ƏDƏBİYYAT

1. D.Muller, G.Eulenberger, H.Hahn. Uber ternäre Thalliumchalkogenide mit Thallium selenidstruktur, Z. Anorg. Allg. Chem., 398 (1973) 207–220.

2. Н.Х.Абрикосов, В.Ф.Банкина, Л.В.Порецкая, Е.В.Скуднова, С.Н.Чижевская. *Полупроводниковые халькогениды и сплавы на их основе, М. Наука,* (1975) 219с.

3. Бюрен Ван, Дефекты в кристаллах / Ван Бюрен – (1960), 7с.

4. Kashida, S. X–ray study of the incommensurate phase of $TlInS_2$ / S.Kashida, Y.Kobayashi // J. Phys. Condens. Matter, –1999. 11, –p.1027–1035.

5.Е.А. Ермоленко. Классификация методов измерения вольт-амперных характеристи полупроводниковых приборов. Технология и контруирование в электронной аппаратуре 2–3 ( 2014) 3-11.

6. K.H. Xəlilova. $TlInTe_2$ birləşməsində aşqarlanmanın yaratdığı nöqtəvi defektlərin kristalın radiasiya davamlılığına təsiri: fizika üzrə fəlsəfə doktoru dis. Bakı, 2024, s.142

# MULTİKULTURALİZMİN LİNQİVSTİK ASPEKTLƏRİ: DİL MƏDƏNİYYƏTLƏR KÖRPÜSÜ KİMİ

## Linguistic aspects of multiculturalism: language as a bridge of cultures

**F.e.d., dos. Rəna Hüseynova**
Azərbaycan Tibb Universiteti
ORCID: 0009-0003-8177-5851

**Xülasə**

Müasir cəmiyyətdə multikulturalizm və çoxdillilik sosial və kommunikativ proseslərin ən mühüm xüsusiyyətlərinə çevrilir. Artan miqrasiya, qloballaşma və rəqəmsal texnologiyaların inkişafı vahid informasiya məkanında müxtəlif mədəniyyətlərin və dillərin sıx qarşılıqlı əlaqəsinə gətirib çıxarır. Bu kontekstdə dil təkcə məlumat ötürmə funksiyasını yerinə yetirmir, həm də şəxsiyyətin formalaşdırılması, dəyərlərin ifadəsi və mədəniyyətlərarası əlaqələrin qurulması üçün bir vasitə rolunu oynayır. Multikulturalizmin linqvistik aspektlərinin öyrənilməsi bizə dilin mədəni inteqrasiyaya necə töhfə verdiyini və çoxdilli icmalarda dilin uyğunlaşmasının necə baş verdiyini daha yaxşı anlamağa imkan verir ki, bu da müasir sosial-mədəni inkişaf kontekstində xüsusilə vacibdir.

Müasir qloballaşan dünyada multikulturalizm müxtəlif mədəniyyətlərin və dillərin birgə mövcud və qarşılıqlı əlaqədə olduğu sosial məkanların ayrılmaz xüsusiyyətinə çevrilir. Bu kontekstdə dil mədəniyyətlərarası ünsiyyət, inteqrasiya və qarşılıqlı anlaşma üçün əsas vasitə kimi xüsusi əhəmiyyət kəsb edir. Bu məqalə mədəniyyətlər arasında körpü kimi dil prizmasından baxılan multikulturalizmin linqvistik aspektlərinin öyrənilməsinə həsr edilmişdir. Mövzunun aktuallığı artan miqrasiya, təhsilin beynəlmiləlləşməsi və çoxdilli icmaların genişlənməsi kontekstində dilin rolunu anlamaq ehtiyacı ilə müəyyən edilir. Belə proseslər kontekstində dil sadəcə məlumat ötürmə vasitəsinə deyil, həm də mədəni kimliyin, tolerantlığın və sosial qarşılıqlı əlaqənin formalaşmasında mühüm elementə çevrilir.

Tədqiqatın yeniliyi multikulturalizmin linqvistik baxımdan təhlilinə kompleks yanaşmadadır: dillərarası alınmalar, dilin hibridləşməsi, şəhər məkanında çoxdillilik və multikultural mühitin yeni kommunikativ təcrübələrin inkişafına təsiri kimi məsələlərə xüsusi diqqət yetirilir. Bundan əlavə, məqalədə mədəniyyətlərarası mübadilənin gücləndirilməsi, xüsusən də qarışıq dil kodlarının formalaşması və çoxdilli icmalarda nitq etiketinin transformasiyası ilə bağlı müasir linqvistik meyllər araşdırılır.

Məqalənin məqsədi mədəniyyətlərin qarşılıqlı təsirini asanlaşdıran əsas linqvistik mexanizmləri müəyyən və təhlil etmək, həmçinin dilin multikultural mühitdə inteqrasiyanı təmin edən və mədəni maneələri minimuma endirən vasitəçi kimi necə çıxış etdiyini nəzərdən keçirməkdir. Tədqiqat bizə dil proseslərinin müasir cəmiyyətdə sosial, mədəni və koqnitiv dəyişiklikləri necə əks etdirdiyini və formalaşdırdığını daha yaxşı anlamağa imkan verir, dil siyasətinə və mədəniyyətlərarası ünsiyyətə şüurlu münasibətin vacibliyini vurğulayır.

**Açar sözlər:** dil, multikulturalizm, beynəlmiləşmə, mədəniyyət, qarşılıqlı əlaqə

**Abstract**

In contemporary society, multiculturalism and multilingualism are becoming the most significant features of social and communicative processes. The increasing phenomenon of migration, globalisation and the development of digital technologies have resulted in the convergence of different cultures and languages within a unified information space In this context, language fulfils a dual role. Firstly, it serves as a conduit for the transmission of information. Secondly, it functions as a medium for the formation of identity, the articulation of values, and the establishment of intercultural relations. The study of the linguistic aspects of multiculturalism has the potential to

facilitate a more profound comprehension of the manner in which language contributes to the process of cultural integration, as well as the mechanisms of language adaptation that occur within multilingual communities. This is of particular relevance within the context of contemporary socio-cultural development.

In the contemporary globalised world, multiculturalism has become an integral feature of social spaces where different cultures and languages coexist and interact. In this context, language acquires special significance as a key tool for intercultural communication, integration and mutual understanding. The present article is devoted to the study of the linguistic aspects of multiculturalism, viewed through the prism of language as a bridge between cultures. The relevance of the topic is determined by the need to understand the role of language in the context of growing migration, internationalization of education and expansion of multilingual communities. In the context of such processes, language evolves from a mere conduit of information to an integral component in the establishment of cultural identity, the cultivation of tolerance, and the facilitation of social interaction.

The novelty of the study lies in the comprehensive approach to the analysis of multiculturalism from a linguistic point of view: special attention is paid to such issues as interlingual borrowing, language hybridization, multilingualism in urban space and the influence of the multicultural environment on the development of new communicative practices. Moreover, the article undertakes an examination of contemporary linguistic trends associated with the strengthening of intercultural exchange, in particular the formation of mixed language codes and the transformation of speech etiquette in multilingual communities.

The purpose of the present article is twofold: firstly, to identify and analyse the main linguistic mechanisms that facilitate interaction between cultures; and secondly, to consider how language acts as a mediator in a multicultural environment, ensuring integration and minimising cultural barriers. The study facilitates a more profound comprehension of how linguistic processes mirror and give form to social, cultural and cognitive shifts in contemporary society, underscoring the significance of a deliberate stance on language policy and intercultural communication.

**Keywords:** language, multiculturalism, internationalization, culture, interaction

**Yeni kurulan idari birimlerde idari işlem ilkelerine uyulmasının yasal güvencesi**

**Legal assurance of compliance with administrative procedure principles in newly established administrative units**

**Röya Mirtalıbova**

Baku Devlet Üniversitesi, Hukuk fakültesi, İdare, bilgi ve mali hukuk,

Bakü, Azerbeycan

https://orcid.org/0009-0009-5422-1873

**ÖZET**

Karabağ'ın işgalden kurtarılmasından sonra bölgenin hukuki ve idari olarak yeniden bütünleşmesi, Azerbaycan Cumhuriyeti'nin toprak bütünlüğünün yeniden sağlanması bağlamında özel bir öneme sahiptir; Bu yeniden bütünleşme süreci çerçevesinde yeni kurulan veya yeniden kurulan idari organların hukuki statüsü, işlevsel yapısı ve işleyiş mekanizmaları, modern idari hukukun temel ilkeleri temelinde oluşturulmalıdır; Hukuk ilkeleri -özellikle yasalılık, şeffaflık, adalet, ilgili tarafların dinlenmesi ve katılım hakkı, ayrıca vatandaşların hukuki çıkarlarının korunması- bu bağlamda sadece normatif bir karaktere sahip olmamalı, aynı zamanda pratik düzeyde de etkili bir şekilde uygulanmalıdır; Karabağ'da idari faaliyetin kurulması veya biçimsel düzeyde sürdürülmesi sırasında bu ilkelerin ihlali, bölgeye karşı hukuki güvenin zayıflamasına, yerel halk ile idari organlar arasında karşılıklı güvensizliğe ve hukuki nihilizme yol açabilir; Bu nedenle, yeni oluşturulan idari yapıların temelinde idari uygulama ilkelerine uyulması, devlet yönetiminin meşruiyetini ve hukuk devletinin temel ilkelerini sağlayacak başlıca unsurlardan biridir; Bu bağlamda, çalışmada Karabağ bölgesinde uygulanacak idari yaptırım mekanizmalarının hukuki analizi yapılacak, mevcut mevzuatın bölgenin özel bağlamına uyarlanması ve uluslararası deneyimlere dayalı optimal idari yönetim modellerinin uygulanması olanakları ele alınacaktır; böylece ilkelerin ve bunların uygulanmasına ilişkin metodolojinin analizi, Karabağ'da etkin ve hukuka dayalı bir idari ortamın oluşmasına katkıda bulunacaktır. Bu tezin amacı, idari usul ilkelerinin normatif özünü açıklamakla sınırlı olmayıp, aynı zamanda bu ilkelerin eski çatışma bölgesi Karabağ'da uygulanması için pratik hukuki araçlar ve kurumsal mekanizmalar ortaya koymaktır; Çalışma çerçevesinde, ulusal mevzuatın sistematik bir analizi yapılacak, uluslararası idari hukukun ilerici modelleri ile karşılaştırmalı yaklaşımlar uygulanacak ve bu deneyimin yerel koşullara uygun olarak uygulanması olanakları araştırılacaktır. Elde edilen sonuçlar, yalnızca teorik düzeyde değil, aynı zamanda yönetim pratiğine yönelik özel hukuki öneriler oluşturacaktır. Böylece, bu tez, Azerbaycan hukuk bilimine ve Karabağ'da hukuk temelli yönetimin oluşumuna gerçek ve ölçülebilir bir katkı sağlamayı iddia etmektedir.

**Anahtar kelimeler:** ilke, idari usul, hukuk, savunma, meşruiyet, vatandaş

**ABSTRACT**

The legal and administrative reintegration of the region after the liberation of Karabakh from occupation is of particular importance in the context of restoring the territorial integrity of the Republic of Azerbaijan; The legal status, functional structure and mechanisms of functioning of newly established or re-established administrative bodies within the framework of this reintegration process should be formed on the basis of the basic principles of modern administrative law; The principles of law - in particular, legality, transparency, justice, the right to be heard and to participate in the affairs of interested parties, as well as the protection of the legal interests of citizens - should not only have a normative character in this context, but also be effectively implemented at the practical level; Violation of these principles during the establishment or formalization of administrative activity in Karabakh may lead to the weakening of legal trust in the region, mutual distrust between the local population and administrative bodies, and legal nihilism; Therefore, observance of the principles of administrative practice on the basis of newly created administrative

bodies is one of the main elements that will ensure the legitimacy of state administration and the basic principles of the rule of law; In this context, the study will conduct a legal analysis of administrative sanction mechanisms to be implemented in the Karabakh region, consider the possibilities of adapting the existing legislation to the specific context of the region and implementing optimal administrative management models based on international experience; thus, the analysis of the principles and the methodology of their implementation will contribute to the formation of an effective and law-based administrative environment in Karabakh. The aim of this thesis is not limited to explaining the normative essence of administrative procedural principles, but also to present practical legal tools and institutional mechanisms for the implementation of these principles in the former conflict zone of Karabakh; Within the framework of the study, a systematic analysis of national legislation will be conducted, comparative approaches with progressive models of international administrative law will be applied, and the possibilities of applying this experience in accordance with local conditions will be investigated. The results obtained will form special legal recommendations aimed not only at the theoretical level, but also at the administrative practice. Thus, this thesis claims to make a real and measurable contribution to the Azerbaijani legal science and the formation of law-based administration in Karabakh.

**Keywords:** principle, administrative procedure, law, defense, legitimacy, citizen

## GİRİŞ

Devletin temel fonksiyonlarından biri, kamu düzenini sağlamak ve kamu yararını gerçekleştirmek üzere idari faaliyetlerde bulunmaktır. Bu faaliyetler ise idari işlemler aracılığıyla somut hale gelir. Hukuk devleti ilkesinin vazgeçilmez bir unsuru olan idarenin işlem ve eylemlerinin hukuka uygunluğu, sadece bireylerin temel hak ve özgürlüklerinin korunması bakımından değil, aynı zamanda kamu yönetiminin meşruiyetinin ve etkinliğinin teminat altına alınması açısından da hayati öneme sahiptir. Bu bağlamda, idari işlemlerin dayandığı hukuki ve anayasal ilkeler, idari faaliyetlerin sınırlarını belirleyen, keyfiliği önleyen ve birey ile idare arasındaki ilişkileri dengeleyen temel kurallardır. İdari işlemlerin hukuka uygunluğu; kanunilik, ölçülülük, nesnellik, açıklık, orantılılık, kamu yararı, eşitlik ve savunma hakkı gibi evrensel idare hukuku ilkeleriyle güvence altına alınmaktadır. Bu ilkeler, idari işlemlerin hem şekil hem de esas yönünden denetlenmesini mümkün kılmakta ve böylece idarenin keyfi davranışlarının önüne geçilmesini sağlamaktadır. Türkiye'de ve diğer demokratik hukuk devletlerinde olduğu gibi, Azerbaycan Cumhuriyeti Anayasası ve "İnzibati icraat hakkında" Kanun da idari işlemler açısından bu temel ilkeleri benimsemiş ve yasal düzeyde tanımlamıştır.

Bu çerçevede, Karabağ bölgesinin işgalden kurtarılmasının ardından Azerbaycan Cumhuriyeti'nin egemenliğini yeniden tesis etmesiyle birlikte, bölgede yeni idari birimlerin kurulması ve kamu yönetiminin yeniden yapılandırılması zaruri hale gelmiştir. Karabağ yalnızca stratejik ve tarihî önemi olan bir bölge olmakla kalmayıp, aynı zamanda savaş sonrası yeniden yapılanma, kamu hizmetlerinin sunumu, mülkiyet haklarının tesisi ve nüfusun geri dönüşü açısından da özel bir statüye sahiptir. Bu durum, bölgedeki idari faaliyetlerin yürütülmesinde hukuka uygunluğun sağlanmasını, özellikle de idari işlem ilkelerine riayet edilmesini daha da önemli kılmaktadır. Yeni kurulan idari birimlerin faaliyetlerinde hukuki öngörülebilirliğin, hesap verebilirliğin ve şeffaflığın sağlanması, yalnızca yeniden yapılanma sürecinin etkinliğini artırmakla kalmaz; aynı zamanda bölge halkının devlete olan güvenini pekiştirir, demokratikleşme sürecini hızlandırır ve uluslararası hukuk standartlarına uyumu güçlendirir. Karabağ'daki yeniden yapılanma süreci, sadece fiziksel altyapıların değil, aynı zamanda hukuki ve kurumsal altyapıların da inşasını zorunlu kılmaktadır. Bu bağlamda, idari işlemlerin hukuka uygunluğunu garanti altına alan mekanizmaların varlığı, bu dönüşüm sürecinin sürdürülebilirliği açısından belirleyici bir unsurdur.

Özellikle yeni kurulan idari birimlerde, idari personelin hukuk bilgisi, idari kültür, yerel halkın katılımı ve kurumsal kapasite gibi unsurlar yeterince gelişmemiş olabilir. Bu nedenle, idari işlem

ilkelerine uyulmasını sağlamak için etkili bir yasal güvence sistemi oluşturulmalıdır. Söz konusu güvence sistemi; normatif çerçevenin açık ve anlaşılır şekilde belirlenmesi, idari işlemlerin yargı denetimine açık olması, şikâyet ve itiraz mekanizmalarının işler hale getirilmesi ve idari usullerin kodifiye edilmesi gibi çok boyutlu hukuki araçları içermelidir.

## YENİ KURULAN İDARİ BİRİMLERDE KARŞILAŞILABİLECEK PROBLEMLER VE ÇÖZÜM YOLLARI

Karabağ bölgesinde işgalin sona ermesinden sonra yeniden kurulan idari birimlerin faaliyetlerinde hukuka uygunluğun sağlanması süreci, bir dizi kurumsal, yapısal ve uygulamaya yönelik sorunla karşı karşıyadır. Bu sorunların başında hukuki altyapının yetersizliği gelmektedir. Her ne kadar Azerbaycan Respublikasının "İnzibati İcraat haqqında" Qanunu, idari işlemler açısından genel ilkeleri ortaya koymuş olsa da, Karabağ gibi özel bir statüye sahip, yeniden yapılanan bir bölgede genel düzenlemelerin yeterli olmaması, uygulamada belirsizliklere ve keyfiliğe yol açabilmektedir. Özellikle yerel düzeyde yürütülecek idari işlemlerde karar alma süreçlerinin açık bir usule bağlanmamış olması, kararların nesnel ve denetlenebilir şekilde oluşturulmasını zorlaştırmakta, bu da bireylerin idare karşısında korunmasını zayıflatmaktadır. Ayrıca yeni görevlendirilen idari personelin idare hukuku konusunda yeterli bilgiye sahip olmaması veya usuli güvencelere gereken önemi vermemesi, işlemlerin hem maddi hukuk hem de usul yönünden sakatlanmasına neden olabilmektedir (Akyıldız: 2021, 123). Bölgede idari personelin yetersizliği, idari kültür eksikliği, kamu denetim mekanizmalarının henüz tam olarak oturmamış olması ve yargı organlarının sınırlı erişilebilirliği, bireylerin hak arama yollarına başvurmasını da fiilen zorlaştırmaktadır. Aynı zamanda uzun yıllar kamu yönetiminden uzak kalan bu bölgede vatandaşların idari işlemler karşısındaki bilinç düzeyinin düşüklüğü de, idarenin işlemlerine karşı etkili denetim ve katılım süreçlerini sekteye uğratmaktadır. Bu sorunların çözümü için bir dizi öneri getirilebilir. Öncelikle Karabağ bölgesine özgü geçici veya tamamlayıcı mevzuat düzenlemeleri yapılarak, bu bölgede uygulanacak idari işlem süreçleri açık, sade ve anlaşılır şekilde kodifiye edilmelidir.

Karabağ bölgesinde yeni kurulan idari birimlerin karşılaştığı temel sorunlardan biri, bölgenin uzun süre işgal altında kalmasından dolayı kamu yönetimi geleneklerinden ve anayasal düzenin sürekliliğinden uzak kalmış olmasıdır. Bu durum, yerel halkın hukuki bilinç seviyesinin düşmesine, idari işlemler karşısında hak arama refleksinin zayıflamasına ve idare-halk ilişkilerinde bir güvensizlik ortamının oluşmasına neden olmuştur. Hukuki devlet ilkesinin gereği olarak idari işlemlerin yalnızca mevzuata uygun şekilde yapılması yetmez; aynı zamanda bu işlemlerin hukuki güvencelerle desteklenmesi, vatandaşların bu işlemlere karşı etkin denetim yollarına başvurabilmesi gerekir. Ancak Karabağ'da idari şikâyet mekanizmalarının yeterince kurumsallaşmamış olması, itiraz süreçlerinin işleyişine dair belirsizlikler ve başvuru yollarının vatandaşlara yeterince anlatılmaması, idarenin kararlarının keyfi olarak algılanmasına zemin hazırlamaktadır. Bu problemin önüne geçebilmek için bölgeye özel idari rehberlik mekanizmaları kurulmalı, vatandaşlara açık danışma merkezleri oluşturulmalı ve her idari işlem sonrasında hukuki bilgilendirme yapılmalıdır. Diğer yandan, Karabağ'da görev yapan idari personelin önemli bir kısmı bölgeye yeni atanmış olmakla birlikte, savaş sonrası olağanüstü şartlar altında görev yapmakta ve çoğunlukla idare hukuku konusunda uygulama deneyimine sahip değildir. Bu durum, idari işlemlerin usule uygun yürütülmemesi, gerekçeli karar verme yükümlülüğünün ihlali, tarafların dinlenmeden karar alınması gibi ciddi usul hatalarına yol açabilmektedir. Bu nedenle ilgili personele düzenli aralıklarla idare hukuku, etik davranış kuralları ve insan hakları odaklı kamu yönetimi eğitimleri verilmelidir (Karakoç: 2019, 28).

Ayrıca Karabağ'daki idari yapıların karar alma süreçleri şeffaf hale getirilmeli; alınan idari kararlar kamuya açık şekilde ilan edilmeli ve ilgililerin bu kararlara karşı etkili başvuru hakkını kullanabilmeleri sağlanmalıdır. Hukuki çerçevede karşılaşılan diğer bir önemli sorun ise idari yargının bölgede tam anlamıyla faaliyete geçmemiş olmasıdır (Memmedov: 2021, 201). Hukuk

devleti ilkesinin en önemli güvencelerinden biri olan yargısal denetimin fiilen uygulanamaması, idarenin hukuka aykırı işlemlerinin denetimsiz kalmasına ve bireylerin hak arama yollarının tıkanmasına yol açmaktadır. Bu sorunun aşılması için bölgede idari yargı teşkilatı süratle kurulmalı, geçici olarak da olsa bölgeye atanacak mobil mahkemeler veya elektronik başvuru sistemleri üzerinden idari kararların hukuki denetimi sağlanmalıdır. Karabağ'daki yeniden yapılanma süreci sadece fiziki altyapının inşasını değil; aynı zamanda hukuki, kurumsal ve toplumsal yapıların yeniden tesisi sürecini kapsamaktadır. Bu çerçevede idari işlem ilkelerine bağlılık, sadece teknik bir uygulama değil, aynı zamanda devletin bölge halkına hukuk temelinde yaklaşımının bir göstergesi olacaktır. Uzun vadede, bölgede uygulanacak hukuki reformlar, sadece mevcut sorunları çözmekle kalmayacak; aynı zamanda vatandaş-devlet ilişkisini güven temelinde yeniden kuracak ve Karabağ'da hukuk devleti ilkesinin kurumsallaşmasına katkı sağlayacaktır.

## İDARİ İŞLEM İLKELERİNE UYULMANIN HUKUKİ DEVLET AÇISINDAN TAŞIDIĞI ANLAM VE KARABAĞ ÖRNEĞİNDE ÖNEMİ

İdare hukukunun temelini oluşturan idari işlem ilkeleri, sadece kamu otoritelerinin faaliyetlerini yönlendirmekle kalmaz; aynı zamanda bireylerin hak ve özgürlüklerini koruma altına alan bir denge mekanizması işlevi görür. Hukuk devleti ilkesinin vazgeçilmez unsurlarından biri olan bu ilkeler, idarenin işlem ve eylemlerinin keyfilikten uzak, hukuka bağlı ve denetlenebilir bir biçimde yürütülmesini temin eder. Bu bağlamda, kanunilik, eşitlik, orantılılık, ölçülülük, açıklık, objektiflik, savunma hakkına saygı ve kamu yararı gibi ilkeler, modern idare anlayışının temel yapı taşlarını oluşturmaktadır (Arslan: 2020, 48). Bu ilkelerin hayata geçirilmediği bir idari sistemde, vatandaşlar idare karşısında korunmasız kalır, kamu gücünün kötüye kullanılması riski artar ve toplumsal güven zedelenir. Bu bağlamda, özellikle yeni kurulan idari yapılar açısından bu ilkelerin hayata geçirilmesi daha da kritik bir önem taşır. Çünkü kurumsal hafızası olmayan, yönetsel deneyimi sınırlı ve uygulama kapasitesi zayıf olan idari birimlerde hukuki ilkeler, yönetsel işleyişin tek sağlam dayanağını teşkil eder. Karabağ bölgesinde yaşanan tarihsel gelişmeler göz önüne alındığında, bu gerçeklik daha da belirgin hale gelmektedir (Guliyev: 2020, 78).

Yıllar süren işgalin ardından Azerbaycan Cumhuriyeti'nin egemenliğini yeniden tesis ettiği bu bölgede, idari yapılanmanın sağlıklı ve meşru bir zemine oturtulması sadece yönetsel bir zorunluluk değil; aynı zamanda bir devlet politikası ve hukuk devleti prensibinin gereğidir. Karabağ'da kurulacak her idari mekanizma, yalnızca hizmet sunumunu değil, aynı zamanda devletin bölge halkına yaklaşımının hukuk temelinde yeniden inşasını simgelemelidir. Hukuki devletin özünü oluşturan temel ilke, yönetimin hukuka bağlılığıdır. Bu bağlılık ise sadece yasa metinlerinin varlığıyla değil, aynı zamanda bu metinlerin sahada uygulanması, denetlenmesi ve ihlallerin giderilmesiyle mümkündür. Karabağ'da idari işlem ilkelerine uyulması, hem bireylerin devlete olan güvenini artıracak hem de idarenin toplumsal meşruiyetini güçlendirecektir. Bu ilkelerin uygulanması sayesinde, vatandaşlar idarenin aldığı kararların neden alındığını, bu kararların hangi hukuki temele dayandığını ve hangi yollarla itiraz edilebileceğini bilecek, böylece yönetime katılım ve hesap verebilirlik güçlenecektir.

Aynı zamanda, idari işlemlerin açık ve anlaşılır olması, kararların keyfi ya da siyasi saiklerle değil, objektif hukuk kuralları çerçevesinde alındığını gösterecek ve bu da toplumsal barışın yeniden tesisi açısından önemli bir katkı sunacaktır (Kaya: 2022, 42). Karabağ gibi savaş sonrası yeniden yapılandırılan bölgelerde, idarenin hukuki ilkelere uygun hareket etmesi yalnızca hukuki bir zorunluluk değil; aynı zamanda sosyo-politik bir ihtiyaçtır. Çünkü hukuk devleti anlayışı, özellikle kırılgan bölgelerde devletin gücünü sınırlayan ve halkla kurduğu ilişkiyi dengede tutan en temel ilkedir (Gözler: 2023, 271). Bu nedenle Karabağ'da inşa edilecek idari sistemde, her türlü idari işlemin yukarıda sayılan ilkelere sıkı sıkıya bağlı olması, bölgenin yeniden inşa sürecinin sürdürülebilirliği ve meşruiyeti açısından hayati bir önem arz etmektedir. Sonuç olarak, idari işlem ilkeleri sadece teorik hukuk kuralları değil; uygulamada vatandaş-devlet ilişkisini doğrudan

etkileyen, toplumsal düzeni şekillendiren ve hukuk devletinin somutlaşmasını sağlayan hayati normlardır. Karabağ örneğinde bu ilkelerin etkili biçimde uygulanması, yalnızca bölgesel bir kalkınma meselesi değil; aynı zamanda Azerbaycan Cumhuriyeti'nin hukuk devleti ilkesine olan bağlılığının ve bütünlük içindeki egemenlik anlayışının bir göstergesi olacaktır.

## SONUÇ VE TARTIŞMA

Hukuk devleti ilkesinin somut ve işlevsel biçimde hayat bulabilmesi, kamu yönetiminin bütün alanlarında idarenin işlem ve eylemlerinin hukuka uygunluğu ile doğrudan bağlantılıdır. Bu bağlamda, idari işlem ilkeleri yalnızca teorik düzeyde benimsenmesi gereken anayasal prensipler olmayıp; aynı zamanda uygulamada bireylerin temel hak ve özgürlüklerinin korunmasını sağlayan, idari kararların keyfilikten arındırılmasını temin eden ve kamu gücünün sınırlandırılmasını garanti altına alan normatif ve fonksiyonel düzeneklerdir. Özellikle Karabağ gibi tarihsel olarak olağanüstü koşullar altında yeniden kamu egemenliğinin tesis edildiği ve idari yapıların sıfırdan inşa edilmekte olduğu bir bölgede, bu ilkelere uyum; yalnızca yönetsel başarıyı değil, aynı zamanda hukuki meşruiyeti ve toplumsal barışı da doğrudan etkilemektedir. Karabağ'daki idari yeniden yapılanma sürecinde, idari işlemlerin kanunilik, orantılılık, nesnellik, ölçülülük, açıklık ve savunma hakkına saygı ilkelerine uygun şekilde yürütülmesi; devletin sadece fiziki değil, aynı zamanda normatif olarak da bölgeye dönüşünün ve orada egemenliğinin meşru zeminlere oturtulmasının yegâne yoludur. Ancak yapılan tespitler göstermektedir ki, bölgede kurumsal kapasite eksikliği, mevzuat boşlukları, yargısal denetimin zayıflığı, kamu görevlilerinin bilgi ve yetkinlik yetersizliği ile vatandaşların hukuki bilinç düzeyinin düşük olması gibi sorunlar; bu ilkelerin sahada tam anlamıyla uygulanmasının önünde ciddi engeller teşkil etmektedir. Bu nedenle, yalnızca mevzuat üretimiyle yetinilmeyip, uygulama düzeyinde çok boyutlu bir reform iradesi ortaya konulmalıdır.

Her şeyden önce, Karabağ bölgesine özgü idari usul mekanizmaları detaylı biçimde kodifiye edilmeli; bu mekanizmalarla uyumlu olarak idari personelin nitelikli yetiştirilmesine yönelik zorunlu eğitim programları oluşturulmalı ve sürekli mesleki gelişim desteklenmelidir. Bununla birlikte, idari işlemlere karşı etkili başvuru yollarının bölge halkı tarafından erişilebilir kılınması için dijital sistemler, bölgesel danışma ofisleri ve mobil yargı üniteleri hızla devreye alınmalıdır. Aynı şekilde, idari işlemlerin yargı denetimine açık olması sağlanmalı; geçici olarak merkezi yargı organlarının Karabağ için görevlendirilmiş birimleri oluşturulmalı veya özel idari yargı daireleri kurulmalıdır. Ayrıca, bireylerin idari işleme karşı bilgilendirilmesi ve hak arama kültürünün yerleşmesi adına sürekli hukukî farkındalık kampanyaları düzenlenmeli; bu sayede yalnızca bireysel hakların korunması değil, aynı zamanda katılımcı ve sorumlu bir yurttaşlık yapısının geliştirilmesi de mümkün olabilecektir.

Sonuç itibarıyla, Karabağ'da inşa edilmekte olan idari sistemin sadece fiziki bir yönetim ağı değil; aynı zamanda normatif, hesap verebilir, hukuk temelli ve insan haklarına duyarlı bir kamu yönetimi modeli olarak yapılandırılması, hem bölgenin yeniden entegrasyonu hem de hukuk devleti ilkesinin ülke sathında bütüncül biçimde hayata geçirilmesi açısından mutlak bir gerekliliktir. Bu bağlamda, idari işlem ilkelerine uyumun hukuki güvencelerle desteklenmesi yalnızca teknik bir zorunluluk değil; aynı zamanda devletin Anayasal sorumluluğu ve tarihsel meşruiyetinin teminatı olarak değerlendirilmelidir.

## KAYNAKÇA

1. Akyılmaz, Bahtiyar (2021), İdare Hukuku (Genel Esaslar), Ankara: Seçkin Yayıncılık.
2. Arslan, Zeynep (2020), İdari Usul Hukuku ve İdarenin İşlem Süreçleri, İstanbul: On İki Levha Yayıncılık.
3. Gözler, Kemal (2023), İdare Hukuku Dersleri, Bursa: Ekin Yayınevi.

4. Karakoç, Emre (2019), İdarenin İşlem Serbestisi ve Hukuki Sınırları, İstanbul: Beta Yayınları.
5. Kaya, Ayhan (2022), Kamu Yönetiminde İyi Yönetişim İlkeleri ve Uygulama Sorunları, Ankara: Adalet Yayınevi.
6. Memmedov, Rashad (2021), Azerbaycan Cumhuriyeti'nde İdari Usul ve İdari Yargı, Bakü: Nurlan Yayıncılık.
7. Guliyev, Elshad (2020), Azerbaycan Cumhuriyeti'nde İdari Reformlar ve Yönetimin Gelişim Perspektifleri, Bakü: Kanun Yayıncılık.

2. Asif F., Tajuddin A.J.A., Khan I.A. Challenges faced by non-native writers in publishing papers in reputed English language journals. Palarch's Journal of Archaeology of Egypt 17 (4) 2020 - file:///C:/Users/user/Downloads/1682- Article%20Text-3246-1-10-20201205.pdf

3. Eby J. Challenges and Proven Solutions for Non-native English Academic Writers. EcontentPro – Edutorial & Publishing Services, USA, 2022 - https://www.econtentpro.com/blog/challenges-and-solutions-for-non-native-english- academic-writers/201#references

4. Sarbunan T. Overcoming Academic Writing's Challenges for Non-Native Authors. Enago Academy. India, 2024 - https://www.enago. com/academy/guestposts/enggano12/strategies-for-non-native-authors-to-master- academic-writing/

5. https://www.coursera.org/courses?query=academic%20writing

# XIX ƏSRDƏ QUBADA MƏDƏNİ MÜHİT

## CULTURAL ENVIRONMENT IN GUBA IN THE 19TH CENTURY

***Sevinc ABBASOVA***

Bakı Dövlət Universitetinin doktorantı, Azərbaycan Dillər Universitetinin müəllimi

ORCID ID: https://orcid.org/0009-0001-1528-0151

**Xülasə**

XIX əsrdə Quba Azərbaycanın şimal-şərq torpaqlarında mühüm siyasi mərkəzlərdən biri olmaqla yanaşı, həmçinin, mühüm mədəniyyət mərkəzlərindən idi. Gülüstan və Türkmənçay müqavilələri ilə Quba xanlığı Rusiya imperiyasının tərkibinə daxil olduqdan sonra bölgənin mədəni həyatında əhəmiyyətli dəyişikliklər baş verdi. XIX əsrin əvvəllərində Qubada təhsil əsasən, mədrəsələrdə və mollaxanalarda aparılırdı. Çar Rusiyasının tərkibinə qatıldıqdan sonra dünyəvi məktəblər təsis olundu. Qəza məktəbinin açılması əslində çarizmin müstəmləkə siyasətinə xidmət edirdi. Rusiyaya sədaqətli məmurlar hazırlamaq nəzərdə tutulurdu. Mədrəsələr və qəza məktəbləri ilə yanaşı Qubada xeder adlandırılan yəhudi məktəbi də fəaliyyət göstərmişdir. XIX əsrdə Qubanın müxtəlif yaşayış məntəqələrində xəttatlar, ədiblər fəaliyyət göstərmişdir. Rizvan Əlikli, Əli Hilmi kimi xəttatlar sanballı kitabların tərtib olunmasında mühüm xidmətlər göstərmişdir. Onlar Qubada ilk kitabxananın formalaşmasında da rol oynamışdır. 1873-cü ildə il teatr təsis ediləndən sonra Azərbaycanın digər bölgələri kimi Qubada da teatr fəaliyyətə başladı. Qubada teatrda müxtəlif millətlərdən olan aktyorlar fəaliyyət göstərmişdir. Quba XIX əsrdə də xalçaçılığın mərkəzi kimi tanınmışdır. Quba xalçaları mürəkkəb naxışları və yüksək keyfiyyəti ilə bütün Rusiya imperiyasında məşhur idi. Burada hazırlanan xalça növləri hazırda dünyanın bir çox muzeylərində saxlanılır. Quba xalçaları həndəsi naxışlarla və heyvan ornamentləri ilə seçilirdi. Həmçinin, xalçaçılıqda sitifadə edilən boyaq maddəsinin də əsas istehsal edildiyi mərkəzlərdən biri də Quba olmuşdur. Burada hazırlanan boyaq maddəsi çar rusiyasının digər yerlərinə də göndərilirdi. Memarlıqda ənənəvi şərq dizaynlı məscidlər, mədrəsələr, hamamlar tikilməkdə davam edirdi. XIX əsrdə Qubada inşa edilmiş məşhur abidələrdən biri də günümüzə gəlib çxmış “Tağlı körpü”dür. Bu dövrdə Qubada mədəni inkişaf ictimai-siyasi hadisələrin təsirinə məruz qalsa da, özünəməxsus şəkildə inkişaf etmişdir. Bir tərəfdən Şərq – türk-islam ənənələrinin güclü təsiri mövcud olsa da, digər tərəfdən rus mədəniyyət elementtləri də özünü büruzə verirdi. Həm şərq, həm də rus biliklərinə malik təbəqə formalaşmaqda idi. Bu da sonrakı mədəni mühitə öz təsirini göstərmiş oldu. Çar Rusiyasının tərkibində olması Qubanın mədəni mübadilələrə töhfə verən digər regionlar ilə əlaqələr saxlamasına şərait yaratdı.

**Açar sözlər:** Quba, mədəniyyət, təhsil, musiqi, xalçaçılıq, memarlıq

**Abstract**

In the 19th century, Guba was not only one of the important political centers in the northeastern lands of Azerbaijan, but also one of the important cultural centers. After the Guba Khanate became part of the Russian Empire with the Gulustan and Turkmenchay treaties, significant changes occurred in the cultural life of the region. At the beginning of the 19th century, education in Guba was mainly conducted in madrasahs and mullahkhanas. After joining Tsarist Russia, secular schools were established. The opening of the district school actually served the colonial policy of tsarism. It was intended to train officials loyal to Russia. Along with madrasahs and district schools, a Jewish school called kheder also operated in Guba. In the 19th century, calligraphers and writers worked in various settlements of Guba. Calligraphers such as Rizvan Alikli and Ali Hilmi provided important services in compiling authoritative books. They also played a role in the formation of the first library in Guba. After the establishment of the provincial theater in 1873, theater began to operate in Guba, as in other regions of Azerbaijan. Actors from different nationalities performed in the theater in Guba. Guba was also known as the center of carpet weaving in the 19th century. Guba carpets were famous throughout the Russian Empire for their intricate patterns and high quality. The types of carpets made here are

currently kept in many museums around the world. Guba carpets were distinguished by geometric patterns and animal ornaments. Also, one of the main centers where the dye used in carpet weaving was produced was Guba. The dye prepared here was also sent to other parts of Tsarist Russia. In architecture, mosques, madrasahs, and baths with traditional oriental designs continued to be built. One of the famous monuments built in Guba in the 19th century is the "Arched Bridge" that has survived to this day. Although cultural development in Guba during this period was influenced by socio-political events, it developed in its own unique way. On the one hand, there was a strong influence of Eastern - Turkish-Islamic traditions, on the other hand, Russian cultural elements were also manifested. A class with both Eastern and Russian knowledge was being formed. This also had its impact on the subsequent cultural environment. Being part of Tsarist Russia created conditions for Guba to maintain relations with other regions that contributed to cultural exchanges.

**Keywords:** Guba, culture, education, music, carpet weaving, architecture

**Giriş.** Quba Azərbaycanın şimal-şərq regionunda ən mühüm tarixi-mədəniyyət mərkəzlərindən biridir. Əsrlər boyu bu bölgə Azərbaycanın siyasi və mədəni həyatında mühüm rol oynamışdır. Quba xanlığının ləğvindən və onun ərazisinin Rusiya imperiyasının tərkibinə daxil edilməsindən sonra rayonun sosial, mədəni və mənəvi həyatında mühüm dəyişikliklərin baş verdiyi XIX əsr xüsusilə maraqlıdır. Azərbaycanın Quba kimi regionlarının mədəni irsi hələ də XIX əsr — dərin ictimai-siyasi və mədəni dəyişikliklərlə yadda qalan dövr çərçivəsində kifayət qədər öyrənilməmişdir. Qubada məhz təhsil, Memarlıq və sənətkarlığın öyrənilməsi təkcə dəyişikliklər dövründə regionun mədəni mühitinin yenidən qurulmasına deyil, həm də yerli ənənələrin yeni şəraitə uyğunlaşmasının və davamlılığının dərin mexanizmlərini üzə çıxarmağa imkan verir. Qloballaşma və yerli kimliyə marağın artması şəraitində XIX əsrdə Quba mədəniyyətinin öyrənilməsi xüsusi elmi və sosial əhəmiyyət kəsb edir. Bu tədqiqatın əsas məqsədi memarlıq formalarının, təhsil ənənələrinin və sənətkarlıq istehsalının inkişafına diqqət çəkərək XIX əsrdə Qubanın mədəni mühitinin hərtərəfli təhlilidir.

**XIX əsrdə Qubada ictimai-siyasi vəziyyət.** XIX əsrdə Quba ictimai və mədəni həyatın bütün aspektlərini təsir edən əhəmiyyətli siyasi dəyişikliklərə məruz qaldı. Quba XVIII əsrin ortalarında qurulan güclü Quba xanlığının paytaxtı idi. Lakin XIX əsrin əvvəllərində Rusiya imperiyası ilə Qacar arasında Qafqaza nəzarət uğrunda geosiyasi mübarizə Azərbaycan xanlıqlarının taleyini dəyişdi. 1813-cü il Gülüstan sülh müqaviləsi və 1828-ci il Türkmənçay müqaviləsinə uyğun olaraq, Azərbaycanın digər şimal-şərq xanlıqları, o cümlədən Quba ərazisi Rusiya imperiyasının tərkibinə qatıldı. XIX əsrdə Qubada tarixi-siyasi vəziyyət xanlığın müstəqilliyindən mərkəzləşdirilmiş imperiya idarəetmə sisteminə keçidlə müəyyən edilirdi. Beləliklə, burada çar Rusiyasının qaydaları hökm sürməyə başladı (Abdullayev, 2016, s.148; Mustafazadə, 2005, s.45)

**XIX əsrdə Qubada elm və təhsil**. XIX əsrdə Qubada təhsil ənənəvi müsəlman sistemi ilə Rusiya imperiyasının islahatçı siyasətinin kəsişməsində inkişaf etmişdir. Bölgə əsrin əvvəllərində Rusiyanın tərkibinə daxil edildikdən sonra imperiya hakimiyyəti tədricən yerli əhalinin imperiyanın inzibati və mədəni çərçivəsinə inteqrasiyası üçün nəzərdə tutulmuş dünyəvi təhsil sistemini tətbiq etməyə başladı. Bu, ruhanilərin və ənənəvi elitaların müqaviməti ilə qarşılaşdı, lakin uzun müddətdə yeni mədəni-maarif təbəqəsinin formalaşmasına səbəb oldu. Qeyd edək ki, Quba Rusiyanın tərkibinə daxil edilməmişdən əvvəl (19-cu əsrin əvvəlləri) bölgədə təhsil islam ənənəsinə əsaslanırdı (Azərbaycan tarixi, 2007, s.218). Təhsil əsasən məktəb və mədrəsələrdə aparılırdı. İlk növbədə təhsil əsasən dindar və varlı ailələrdən olan oğlanlara verilirdi. Qadın təhsili praktiki olaraq yox idi. Qubanın Rusiyanın tərkibinə daxil olması ilə ümumi imperiya siyasətinin tərkib hissəsi olan islahatlara başlandı. İslahatlar təhsil sahəsində də həyata keçirilirdi. Dünyəvi məktəblərin yaradılmasına başlandı. Bu, çar rusiyasını əhatə edən digər bölgələr kimi Qubada da mədəni-maarfin inkişafına müsbət təsir göstərdi. Lakin, təhsil islahatları da çar Rusiyasının müstəmləkə siyasətinin tərkib hissəsi olaraq aparılırdı, əsas məqsəd rus hökumətinə sadiq məmurların, savadlı insanların yetişdiirlməsi idi. Savadlı, hökumətə sadiq yerli əhalidən məmurların hazırlanması nəzərdə tutulurdu. 1829-cu ildə qəbul edilmiş nizamnaməyə əsasən, təhsilin rus dilində aparıldığı qəza məktəbləri təşkil edildi. Belə məktəblərdən biri də Qua qəzasında təşkil edilmişdi. Lakin, təhsil burada rus dilində aparıldğı üçün əhalinin

çoxunun təhsil alması asan deyildi, ana dilində məktəblərə ehtiyac var idi. Bununla bağlı Azərbaycanın - Qubanın maarifçi xadimlərindən olan Abbasqulu ağa Bakıxanov 1832-ci ildə təhsil layihəsi hazırlamışdı. Müsəlman məktəbinin təşkilini nəzərdə tutan bu layihə imperiya maraqlarına cavab vermədiyi üçün və baron Rozenin yerli əhaliyə qarşı olan antipatiyası səbəbindən icra olunmadı. Lakin, XIX əsrin sonlarında yerli əhalinin milli tməktəblərə, müsəlman məktəblərinə olan marağı nəzərə alıanaraq rus-tatar məktəbləri fəaliyyət başladı (Xəlilova, 2022, 5 iyul, s.20-21).
Tarixi sənədlərdən məlum olur ki, 1842-ci ildə Qubada 8 məktəb mövcud olmuşdur. 1854-cü ildə burada birsinifli dövlət məktəbi, 1870-ci ildə isə ikisinifli məktəb və onun qadın şöbəsi yaradılmışdır. Bildiyimiz kimi, Quba etno-konfessional bir region olaraq multikultural dəyərləri özündə birləşdirir. Buna müvafiq olaraq XIX əsrdə Qubadakı mədəni mühitdə də bunu izlmək mümkündür. Bu dövrdə Qubada müsəlman məktəbləri ilə yanaşı, "xeder" adlanan yəhudi məktəbləri də fəaliyyət göstərmişdir (Fazil, 2016, s.353). Sinaqoqun nəzdində olan bu məktəbdə yəhudi milli-dini ənənələri öyrədilirdi. Müsəlman məktəbləri sünni və şiə olaraq ayrılırdı. Bu da müsəlman əhali arasında parçalanma yaratmaqla, onları ideoloji baxımdan birləşməkdən çar rusiyasının ehtiyat etməsindən irəli gəlirdi. Xüsusilə də, çar Rusiyasına qarşı XIX əsrdə baş vermiş Şeyx Şamil hərəkatı çarizm üçün bunu bir zərurətə çevirmişdi.
Qubanın mədəni-maarif sahəsində bu dövrdə kitabxanalar da mühüm rol oynamışdır. İlk növbədə məscidlərin nəzdində kitabxanalar fəaliyyət göstərmiş, Qubanın təhssili, maarifpərvər insanların evlərində də şəxsi kiçik kitabxanaları olmuşdur. Mirzə Məhəmmədəli Qasımov 1896-cı ildə Qubada kitabxana-qiraətxana yaratmışdır. Hətta, bununla bağlı həmin vaxt Tiflisdə jurnallarda elan verilmişdir. Burada kitabxananın abunə olduğu qəzet və jurnallar barədə məlumatlar qeyd edilmişdir. Bu da dövrün mütərəqqi addımlarından biridir. 1897-ci ildə "Tərcüman" qəzetində bu kitabxana "Qiraətxaneyi-islamiyyə" adlandırılaraq, yüksək qiymətləndiirlmişdir. Bundan başqa, Qonaqkənd ərazisində də kitabxana təşkil edilmişdir. Həmçinin, A.bakıxanovun da zəngin kitabxanası olmuşdur (Fazil, 2016, s.344).
**Sənətkarlıq, musiqi və teatr.** XIX əsrdə Qubanın müxtəlif yaşayış məntəqələrində xəttatlar, ədiblər fəaliyyət göstərmişdir. Rizvan Əlikli, Əli Hilmi kimi xəttatlar sanballı kitabların tərtib olunmasında mühüm xidmətlər göstərmişdir. 1873-cü ildə il teatr təsis ediləndən sonra Azərbaycanın digər bölgələri kimi Qubada da teatr fəaliyyətə başladı (Əliyeva, 2021, s.118). Qubada teatrda müxtəlif millətlərdən olan aktyorlar fəaliyyət göstərmişdir. XIX əsrdə Qubada musiqi və şeir məclisləri təşkil edilmişdir. Mirzə Möhsün Xəyali, Sədi Xaltani, Xınalıqlı Əmin kimi şairlər yazıb-yaratmışlar.
Qubada memarlıq sahəsində də XIX əsrdə yeniliklər baş vermişdir. Memarlıq sahəsində ənənəvi Şərq üslubunu əks etdirən məscid, mədrəsə və hamamların inşası XIX əsrdə də davam etmişdir. Bu dövrdə Qubada tikilən və bu günədək qorunub saxlanılan əhəmiyyətli memarlıq nümunələrindən biri də "Tağlı körpü"dür. 1894-cü ildə Qudyalçay çayı üzərində salınmış bu körpü Quba şəhərinin mərkəzini Qırmızı qəsəbə ilə birləşdirir. Həmin dövrdə Quba qəzasında yeddi körpü mövcud olmuş, lakin onlardan yalnız "Tağlı körpü" günümüzə qədər gəlib çatmışdır. Regionun tarixi dini ocaqlarından sayılan və özünəməxsus memarlıq quruluşuna malik Cümə Məscidi də bu dövrün diqqətəlayiq tikililərindəndir (Şahbazov, 2017,s.84)
1802-ci ildə Qazi İsmayıl əfəndinin oğlu Qazi Nəsrullah əfəndinin maddi dəstəyi ilə inşasına başlanılan bu məscidin tikintisi fasilələrlə 10 il ərzində tamamlanmışdır. Cümə Məscidi yalnız Qubada deyil, eyni zamanda Azərbaycanın şimal-şərq bölgəsindəki qədim dini mərkəzlərdən biri olmuşdur. Məscid və onun nəzdində fəaliyyət göstərən mədrəsə 1924-cü ilə qədər açıq olmuş, lakin sovet hakimiyyəti illərində fəaliyyəti dayandırılmışdır. 1933-cü ildə mədrəsə və minarə, daha sonra isə digər tikililər sökülmüşdür. Azərbaycanın müstəqillik əldə etməsindən sonra bu ibadətgah yenidən möminlərin ixtiyarına verilmişdir. Bundan başqa, 1854-cü ildə Qubada A.Bakıxanov tərəfindən "Səkinə məscidi" inşa etdirilmişdir (Məmmədova, 2022, 28 aprel, s.4)
Qubada yerləşən Günbəzli hamam da XIX əsrin memarlıq nümunələrindən biri hesab olunur. Bu hamam qırmızı kərpiclə inşa edilmiş və plan baxımından dördbucaqlı forma almışdır. Tikilinin əsas giriş qapısı şimal tərəfdə yerləşir və onun üzərini örtən günbəz də qırmızı kərpicdən ucaldılmışdır. Günbəzli hamam ümumilikdə altı otaqdan ibarət olmuş, iki giriş qapısı və altı pəncərəsi ilə seçilmişdir. Bu abidə 1985-ci ilə qədər istifadədə olmuşdur. 1986–1987-ci illərdə Mədəniyyət

Nazirliyinin istehsalat və elmi bərpa emalatxanasının Quba üzrə briqadası tərəfindən burada bərpa işləri aparılmışdır. Təmir prosesi başa çatdıqdan sonra hamam müxtəlif şirkətlərə icarəyə verilsə də, həmin təşkilatlar tərəfindən hər hansı bir bərpa və ya fəaliyyət göstərilməmişdir. Uzun müddət baxımsız qalan bina rütubət və diqqətsizlik səbəbindən ciddi zədələrə məruz qalmışdır (Məmmədova, 2022, 28 aprel, s.4)

Quba XIX əsrdə də xalçaçılığın mərkəzi kimi tanınmışdır. Quba xalçaları mürəkkəb naxışları və yüksək keyfiyyəti ilə bütün Rusiya imperiyasında məşhur idi. Burada hazırlanan xalça növləri hazırda dünyanın bir çox muzeylərində saxlanılır. Quba xalçaları həndəsi naxışlarla və heyvan ornamentləri ilə seçilirdi. Həmçinin, xalçaçılıqda sitifadə edilən boyaq maddəsinin də əsas istehsal edildiyi mərkəzlərdən biri də Quba olmuşdur. Burada hazırlanan boyaq maddəsi çar rusiyasının digər yerlərinə də göndərilirdi (Ömərov, 2012, 5 noyabr).

**Nəticə.** Bu dövrdə Qubada mədəni inkişaf ictimai-siyasi hadisələrin təsirinə məruz qalsa da, özünəməxsus şəkildə inkişaf etmişdir. Bir tərəfdən Şərq – türk-islam ənənələrinin güclü təsiri mövcud olsa da, digər tərəfdən rus mədəniyyət elementtləri də özünü büruzə verirdi. Həm şərq, həm də rus biliklərinə malik təbəqə formalaşmaqda idi. Bu da sonrakı mədəni mühitə öz təsirini göstərmiş oldu. Çar Rusiyasının tərkibində olması Qubanın mədəni mübadilələrə töhfə verən digər regionlar ilə əlaqələr saxlamasına şərait yaratdı.

**ƏDƏBİYYAT:**

Abdullayev M. (2016) Azərbaycan tarixi. Bakı, “Bakı universiteti”

Azərbaycan tarixi (2007) Yeddi clddə. IV cild (XIX əsr). Bakı. “Elm”.

Əliyeva, G. Ə. (2021). *XIX–XX əsr Azərbaycan mədəniyyəti*. Zərdabi Nəşr MMC

Mustafazadə, T. (2005) Quba xanlığı. Bakı: “Elm”,

Fazil, Ş. (2016) Quba tarixi. Bakı: “Teass-press”

Məmmədova, N. (2022, 28 aprel). Azərbaycanın Quba bölgəsində olan tarixi yerlər. *Kredo*. S.4

Ömərov, V. (2012, 5 noyabr). *XIX əsrin ikinci yarısında Azərbaycanda mədəniyyət və milli-mədəni dəyərlər*. Səs qəzeti. https://sesqazeti.az/news/mia/319748.html

Şahbazov, T. (2017). *XIX əsr Azərbaycan memarlığı və incəsənətinin bəzi məsələlərinə dair (etno-mədəni aspekt)*. *Azərbaycan xalçaları cild 7, № 24*., s.83-95 AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

Xəlilova, A. (2022, 5 iyul). XIX əsrdə Rusiyanın Azərbaycanda təhsil siyasəti. *Elmi Əsərlər*, AMEA Naxçıvan Bölməsi, (2022, № 3), 19–25 s

# QORUQLARIN DİNİ MƏDƏNİ İRSİNDƏ MAĞARALAR VƏ MƏBƏDLƏRİN ROLU

***Səadət Əliyeva Bədəl qızı***

*Pedaqogika üzrə fəlsəfə doktoru,*

*"Avey" Dövlət tarix-mədəniyyət qoruğunun direktoru, Azərbaycan Respublikası, Qazax şəhəri*

*ORCİD İD: https://orcid.org/ 0000-0002-5370-3178*

***Musa Mursaquliyev***

*"Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun direktoru, Azərbaycan, Ağstafa şəhəri*

*ORCID ID: https://orcid.org/0000-0003-4438-5152*

İnsan cəmiyyətinin tarixən dini-mədəni baxışlarını öyrənmək üçün arxeoloji abidələr mühüm mənbə hesab olunur. Bu baxımdan Azərbaycan ərazisində yerləşən Avey və Keşikçidağ Dövlət Tarix-Mədəniyyət qoruqları özündə minilliklərin izlərini daşıyan qədim məbədlər, mağaralar və maddi-mədəniyyət nümunələri ilə zəngin bir irsi qoruyub saxlayır.

Avey dağında yerləşən Alban məbədləri, təbii və süni mağaralar və qayalıq sahələr təkcə yaşayış üçün deyil, eyni zamanda dini və müxtəlif rituallar məqsədi ilə də istifadə olunmuşdur.

Mağaralar tarix boyu yalnız sığınacaq funksiyası daşımamış, eyni zamanda təbiətlə və ilahi qüvvələrlə əlaqənin bir simvolu olmuşdur. Avey qoruğunun 922 metr zirvəsində yerləşən Alban məbədi və onun aşağı hissəsində iç-içə keçən mağaralar bu ərazilərdə insanların daimi ibadətlə məşğul olduğunu göstərir. Ərazidə vaxtilə aparılan elmi-tədqiqat işləri zamanı Avey məbədinin ətrafında tapılan qab fraqmentlərində aya sitayiş edən insan rəsimlərinin aşkarlanması bu məkanların ibadət və rituallar üçün istifadə olunduğunu sübut edir.

Avey qoruğu ərazisində yerləşən abidələr dini və mədəni baxımdan zəngin bir keçmişə sahibdir. Buradakı mağaralar və məbəd yerləri, qədim insanların dünya görüşünü, təbiətlə və ilahi qüvvələrlə münasibətini əks etdirən mühüm məkanlardır.

Keşikçidağ mağaralar kompleksi də dini və mədəni irsin tədqiqi və təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir. Qatardağın qılıncında, bir-birindən 1500 m aralıda yerləşən iki Alban məbədi, 14 və 19 saylı mağaralarda aparılan elmi-tədqiqat işləri bu sahədə mühüm nəticələr verməkdədir. Tədqiqatlar göstərir ki, bu abidələrdə təşəkkül tapan mədəniyyətlər müxtəlif tarixi dövrlərə və dini-fəlsəfi dünyagörüşlərinə əsaslanır. Bu, mağaraların yalnız dini ibadət məkanları deyil, həm də tarixi-mədəni inkişaf mərhələlərinin daşıyıcısı olduğunu sübut edir.

Müxtəlif dövrlərdə bu ərazidə yaşayan və Qafqaz Albaniyası dövründə xristianlığı qəbul edən türk mənşəli tayfalar bu dini mədəniyyətlərin formalaşmasında mühüm rol oynamışlar. Beləliklə, Keşikçidağ mağaraları dini-mədəni irsin qorunması və təbliği baxımından nadir kompleks kimi çıxış edir və minilliklər boyu bölgənin mənəvi həyatında mühüm rol oynamışdır.

# QARABAĞ XANLIĞI DÖVRÜNDƏ MAARİFÇİLİK HƏRƏKATI VƏ MƏKTƏB FƏALİYYƏTİ

## Enlightenment movement and school activities during the Karabakh Khanate

## Просветительское движение и деятельность школ в период Карабахского ханства

**Dosent Səkinəxanım Vəliyeva Fazil q**

ADPU, Xarici Dillər Mərkəzi

**Xülasə**

Qarabağ xanlığı XVIII əsrdə Azərbaycan ərazisində formalaşan mühüm siyasi və mədəni mərkəzlərdən biri olmuşdur. Bu dövrdə Şuşa şəhəri yalnız hərbi və inzibati mərkəz deyil, həm də maarifçilik hərəkatının aparıcı ocaqlarından biri kimi çıxış etmişdir. Xanlığın maarifçilik siyasəti, xüsusilə Molla Pənah Vaqifin təşəbbüsləri nəticəsində məktəblərin yaradılması, təhsilin dini və dünyəvi istiqamətdə inkişafı ilə nəticələnmişdir. Məktəblərdə ərəb və fars dilləri ilə yanaşı, Azərbaycan dilində də tədris aparılmış, riyaziyyat, məntiq və ədəbiyyat kimi fənlər tədris edilmişdir. Bu maarifçilik mühti Qarabağda ədəbi və mədəni inkişafı da stimullaşdırmış, yeni nəsil savadlı ziyalıların yetişməsinə şərait yaratmışdır. Nəticədə Qarabağ xanlığı dövrü Azərbaycan maarifçilik tarixində silinməz iz qoymuşdur.

**Açar sözlər:** Qarabağ xanlığı, tədris, mədrəsə, ədəbi məclis, maarifçilik

**Abstract**

The Karabakh Khanate was one of the important political and cultural centers formed in the territory of Azerbaijan in the 18th century. During this period, the city of Shusha acted as not only a military and administrative center, but also one of the leading centers of the enlightenment movement. The khanate's enlightenment policy, especially as a result of the initiatives of Molla Panah Vagif, resulted in the establishment of schools and the development of education in religious and secular directions. In schools, along with Arabic and Persian, Azerbaijani was also taught, and subjects such as mathematics, logic and literature were taught. This enlightenment environment also stimulated literary and cultural development in Karabakh and created conditions for the growth of a new generation of educated intellectuals. As a result, the Karabakh Khanate period left an indelible mark on the history of Azerbaijani enlightenment.

**Keywords:** Karabakh Khanate, education, madrasah, literary assembly, enlightenment

**Резюме**

Карабахское ханство было одним из важных политических и культурных центров, образовавшихся на территории Азербайджана в XVIII веке. В этот период город Шуша выступал не только как военный и административный центр, но и как один из ведущих очагов просветительского движения. Просветительская политика ханства, особенно в результате инициатив Моллы Панаха Вагифа, привела к созданию школ и развитию образования в религиозном и светском направлениях. В школах наряду с арабским и персидским языками преподавался также азербайджанский язык, а также преподавались такие предметы, как математика, логика и литература. Эта просветительская среда также стимулировала литературное и культурное развитие в Карабахе и создала условия для роста нового поколения образованных интеллектуалов. В результате период Карабахского ханства оставил неизгладимый след в истории азербайджанского просвещения.

**Ключевые слова**: Карабахское ханство, образование, медресе, литературное собрание, просвещение

XVIII əsrin ortalarında yaranmış Qarabağ xanlığı təkcə siyasi və hərbi cəhədən deyil, həm də mədəni və maarifçilik baxımından mühüm rol oynamış Azərbaycan xanlıqlarından biridir. Bu dövr Azərbaycanın ictimai-mədəni həyatında oyanış mərhələsi kimi qiymətləndirir. Xüsusilə Şuşa şəhərində formalaşan maarifçilik mühiti, məktəb fəaliyyəti və ədəbiyyat, bu xanlığın milli maarifçilik tarixindəki əhəmiyyətini bir daha ortaya qoyur.

Qarabağ xanlığının paytaxtı Şuşa XVIII əsrin sonları və XIX əsrin əvvəllərində Azərbaycanın elm, mədəniyyət və ədəbiyyat mərkəzlərindən birinə çevrilmişdi. Xanlığın mövcud olduğu dövrdə bölgədəki maarifçilik hərəkatının əsas səbəbləri xanlığın şəhər mədəniyyətinə önəm verməsi, dini və dünyəvi elmlərin tədrisinə marağın artması, Molla Pənah Vaqif kimi maarifçi şəxslərin fəliyyət göstərməsi, Qarabağ aydınlarının və ədiblərinin elmə və savada olan bağlılığıdır.

Bu dövrdə maarifçilik yalnız dini biliklərlə kifayətlənməyərək, məntiq, ədəbiyyat, riyaziyyat və astronomiya kimi sahələri də əhatə edirdi.

Qarabağ xanlığında maarifçilik hərəkatının aparıcı siması Molla Pənah Vaqif olmuşdur. O, təkcə görkəmli şair və dövlət xadimi deyil, həm də maarifçi ziyalı kimi tanınırdı. Vaqifin təşəbbüsü ilə Şuşada ilk dünyəvi yönümlü məktəblər açılmış, burada ərəb və fars dilləri ilə yanaşı, Azərbaycan dilində də tədris aparılmışdır.

Vaqifin maarifçilik ideyaları onun poeziyasında da əksini tapmış,  insanın ağıl və düşüncə gücü ön plana çəkilmişdir. Onun təşəbüsü ilə ilk məktəblərdə tədris olunan fənlər genişlənmiş və dini təhsil ilə yanaşı dünyəvi biliklərə də yer verilmişdir.

Qarabağ xanlığı dövründə fəaliyyət göstərən məktəblər əsasən mədrəsə və mollaxana formasında idi. Bu məktəblərdə quran və dini şəriət elmləri, ərəb və fars dilləri , ədəbi-nəzəri biliklər, riyaziyyat, məntiq və coğrafiya fənlərinin tədrisinə üstünlük verilirdi.

Təhsil əsasən şifahi və əzbərləmə üsulu ilə həyata keçirilirdi, lakin bəzi qabaqcıl müəllimlər yazılı və analitik tədris üsullarını tətbiq etməyə başlamışdılar.

Şuşada fəaliyyət göstərən bu məktəblər yalnız yerli əhalinin deyil, ətraf bölgələrdən gələn savad axtaran gənclərin də mərkəzinə çevrilmişdi. Məktəblər vasitəsilə Qarabağda bir çox savadlı şəxslər yetişmiş və bu, bölgənin intellektual potensialını formalaşdırmışdır.

Maarifçilik hərəkatı Qarabağ xanlığında ədəbi mühitin inkişafına da mühüm təsir göstərmişdir. Bu dövrdə Molla Pənah Vaqifin ətrafında formalaşan ədəbi məclislər -xüsusilə də Vaqif Məclisi - məktəblərlə əlaqəli şəkildə fəliyyət göstərmiş, gənc şair və yazıçılar üçün ilham və təlim mənbəyi olmuşdur.

Maarifçiliyin bu istiqamətdəki təsiri nəticəsində Azərbaycan ədəbiyyatında realist və dünyəvi düşüncə tərzi inkişaf etmiş, xalq həyatını və insan xarakterini əks etdirən əsərlər yazılmağa başlamışdır.

Qarabağ xanlığı dövründə baş verən maarifçilik hərəkatı və məktəb fəaliyyəti Azərbaycan maarifçilik tarixində mühüm mərhələlərdən birini təşkil edir. Xüsusilə Şuşa şəhərinin mədəni həyatında bu fəaliyyətlər geniş vüsət almış və gələcək nəsillər üçün zəngin bir irs formalaşdırmışdır. Molla Pənah Vaqif kimi maarifçi simaların fəaliyyəti bu dövrü elm, ədəbiyyat və maarif baxımından əlamətdar etmişdir. Bugünkü Azərbaycan cəmiyyətinin milli-mədəni kimliyinin formalaşmasında bu dövrün xüsusi yeri vardır.

**Ədəbiyyat**

1.Abbasov M. 2013 Azərbaycan maarifçilik tarixindən səhifələr. Bakı. Elm və Təhsil.

2.Abdullayeva R. (2017) Azərbaycan xanlıqlarında maarifçilik hərəkatı. Bakı. Şərq -Qərb.

3.Əlizadə N.(2004). Qarabağ xanlığı və Şuşa şəhərinin tarixi.Bakı.Təhsil

# ƏBU TURXANIN HİKMƏT DÜNYASINDA QARABAĞ MÖVZUSU

**(Zəfərə aparan hikmət yolu və yaxud hikmətin zəfəri)**

# THE TOPIC OF KARABAKH IN THE WORLD OF WISDOM OF ABU TURKHAN

**(The path of wisdom leading to victory or the triumph of wisdom)**

**Sərdarova Mehriban Nağı qızı**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işçisi

## ÖZET

Əzəmətli qəhrəmanlıq salnaməsinə, zəngin və bənzərsiz mədəniyyət nümunələrinə malik, hər şeydən əvvəl coğrafi ərazi olan Qarabağ 1988-2020-ci illər tariximizdə silinməz izlər qoymuş I və II Qarabağ Müharibəsi ilə assossasiya olunur. Təsasüfi deyildir ki, elmi araşdırmalarda, bədii, siyasi düşüncəmizdə geniş əksini tapan işğal, soyqırım, əsarət, on minlərlə əsgərimizin şəhid olması kimi ağrılı faciəvi hadisələr Qarabağ mövzusu adı ilə ümumiləşdirilir.

İndiki zaman baxışından araşdırma və əsərlərdə əks olunan Qarabağ mövzusunu iki böyük qrupa ayırmaq mümkündür: 1. Qarabağ mövzusu milli kədərimiz kimi. 2. Qarabağ mövzusu milli zəfərimiz kimi.

II Qarabağ müharibəsinə kimi olan dövrdə mövzu taleyüklü milli məsələmiz kimi demək olar ki, bütün yaradıcı şəxsiyyətlərin diqqət mərkəzində olub, əsərlərində bu və ya digər şəkildə əks etdirilib. Əsərlərin hamısını bir müstəviyə gətirən yeganə cəhət sonluğa nikbin baxışdır: torpaq itkisi ilə barışmazlıq, haqq və ədalətə inam, türkün savaş yaddaşının canlanacağına əminlik, doğru zamana səbr və müdrikliklə güclənərək gedilən yol. Bu mənada tarixi Qarabağnamələr bu dövrdə Qarabağa namələrlə əvəzlənir. Qarabağa ünvanlanan “namələr”də milli oyanışa çağırış motivləri güclüdür.

Milli özünüdərk müstəvisində nəzərdən keçirsək, müharibənin həyatımıza ən mühüm təsiri milli yaddaşımızı silkələməsi, özümüzü özümüzə tanıtmasıdır. Filosof-alim S. Xəlilovun təbirincə desək, "*Millətin özünüdərk axtarışı - istila edəndə deyil, istila ediləndə başlayır*"

Özümüzü dərkimizə gedən yolların biri də fəlsəfə yoludur, hikmət və kəlamların işığında özümüzü görməkdir. Kantın dediyi kimi, insanlar işığı görməz, işıqla görər. Əbu Turxan adı altındakı hikmətlər bu dövrdə Qarabağ qaranlığında itirdiyimiz özümüzü tapmağa kömək edən, qaranlıqda bütün tərəfləri aydınlatmağa yol göstərən bələdçidir. Bir kəlamın məna yükünün bir irihəcmli əsərdən ağır olduğu həqiqətindən çıxış etsək, Əbu Turxan hikmətləri yüzlərlə kitabın yükünü öz çiyninə götürür.

Zamanın və tarixin fövqündə duran hikmət dünyasının bir mühüm missiyası istər fərdi miqyasda, istərsə də bəşəri miqyasda qaranlığa işıq tutmaq, yolu aydınlatmaqdır. Müstəqillik illərində dünyanın "Böyük güclər"inin açılmaz iplərlə bağladığı Qarabağ düyününü açmaq, başqa sözlə, müharibə dövrünün problematikasına nəzər salmaq, işğal şəraitində yaşayan dövlətimizin və cəmiyyətimizin fəaliyyətinə, gələcək hədəflərinə fəlsəfə prizmasından işıq salmaq baxımından Əbu Turxanın hikmət dünyası böyük bir missiya yerinə yetirir. Qarabağ həqiqətləri ilə səsləşən, cəmiyyətin qarşısında duran vəzifələr baxımından aforizmlərin bir qisminə müraciət etmək kifayətdir ki, onlarda zəngin tarixi təcrübənin müharibəyə müasir fəlsəfi münasibətlə bir araya gəldiyinin, bir vəhdət kəsb etdiyinin şahidi olasan. Qeyd etmək yerinə düşər ki, Əbu Turxanın hikmət dünyasında Qarabağ mövzusu kədərdən zəfərə böyük bir hikmət yolu keçir və zəfər zirvəsi hər iki qütbü özündə birləşdirir.

Qarabağ, Əbu Turxana görə, ruhumuzun müqəddəs bir məqamıdır: “*Vətən sevgisi fərdi sevgidən ilahi sevgiyə yüksəliş yolunda bir məqam kimi ortaya çıxır*”. Vətənin müqəddəsliyini İlahi sevgiyə gedən yolda mühüm bir vasitə kimi təqdim edən Əbu Turxan milli fərdi Qarabağla üz-üzə qoyur, insanın Yaradanı qarşısında keçirdiyi duyğuları simvolik elementlərdən istifadə etməklə Qarabağa ünvanlayır.

Fəlsəfənin mühüm zaman kateqoriyası, keçmiş və gələcək Əbu Turxanın hikmətlərində Qarabağ yüklüdür. "*Gələcək o zaman bizimkidir ki, keçmişimizin davamıdır*". Qarabağlı gələcəyin Əbu Turxana görə mühüm şərtləri var və bu özünüdərkdən, dərdini anlamaqdan, güclü olmaqdan, ordu qurmaqdan, haqqa tapınmaqdan və s. keçir.

Əbu Turxanın hikmət dünyasında müxtəlifliklər vahid süjetdə və ideya axınında ən ümumi simvolikalardan və bədii mücərəddləşdirmə vasitələrindən, bədii şərtilik prinsiplərindən istifadə etməklə birləşdirilir.

Hikmətlərdə aparıcı qüvvə kimi çıxış edən gücün bildiyimiz ənənəvi simvolikasının dəyişməsi, zamanın onun yerinin elmə, texnologiyaya verməsi reallığı ilə barışığa səsləmənin və nəticə çıxarmanın vacibliyi vurğulanır və öncə ağlı səfərbər olmağa səsləyir. "*Vaxtında ağıllar səfərbər olunmayanda canlar səfərbər olunur*", *"Güc ağıla çevrilə bilməz, ağıl gücə çevrilər","Zamanı öndə gedənlər yönləndirir", "Öncə zehinlər itilənməsə, silahlar da kəsərsiz olar*" kimi kəlamlarda bu ideya üstündür.

Bununla belə gücün/ağlın nəyə yönəlməsi də mühümdür. "*Özünə qalıb gələ bilməyən, düşmənə də qalib gələ bilməz","Gözümüz özgələrdə qalanda özümüz də özgələşirik","Vaxtında özün silkələnməsən, başqaları səni silkələyəcək"* kimi kəlamları izah edir və milli özünüdərki, istilaya səbəb olan duruma yenidən nəzər yetirməyi, özünü yenidən yaratmağı təlqin edir.

Qlobal maraqların bizə təqdim etdikləri ilə hesablaşmağı Əbu Turxan özünü aldatmaq, zəiflik, zavallılıq hesab edir və eyni zamanda çıxış yolunu da göstərir "*Özünü aldatmaq...Yalan ümidlərlə yaşamaq ümidsizlikdən aşağıdakı həyatdır", "Zavallı olmaq kimə isə haqq qazandıra bilməz; zəhmət çəkib güclü olmaq lazımdır"* kimi kəlamlarda birmənalı şəkildə özümüzün zəfər fəlsəfəmizin yaradılması ideyası tərənnüm edilir. Təsadüfi deyildir ki, bir kəlamda deyilir: *"Öz fəlsəfəsi olan özgələrin fəlsəfəsinə möhtac qalmaz*".

Haqqı bərqərar etmək fəlsəfəsi Əbu Turxanın hikmət dünyasında xüsusi yer tutur. Əbu Turxana görə, sadəcə müharibəyə qarşı çıxmaq, sakitliyi, hüzuru təlqin etmək Haqq yolu sayıla bilməz. Haqq sadəcə sülhdə deyil, ədalətli sülhdədir prinsipi ilə tərənnüm edilən ideyalar özünü *"Ədalətli müharibə təhqiramiz sülhdən yaxşıdır","Riya ilə satılan ancaq qeyrət ilə alınar"* kimi fikirlərdə tapır.

"*Qələbəyə aparan yola qisas duyğusu deyil, haqqı bərqərar etmək əzmi daha çox işıq salır*" fikri özündə haqlı olmağına inamı, əzmkarlıqla məqsədindən dönməməyi və s. ideyaları birləşdirir. Özünəinam ordusuna, gücünə, haqlı olmasına inamla iç-içədir: *"Ordusunu daha çox silahlandıran deyil, daha çox inandıran qalib gəlir".*

Əbu Turxanın hikmət dünyasında birmənalı şəkildə Qarabağ ilə ehtiva olunan vətən, torpaq kimi vətəndaşlıq duyğularınının özünəməxsus poetik dillə ifadəsi də problemin bədii eskizini çəkməyə imkan verir. Laçının işğal günündə həsrət və ümid iç-içəliyi

"*Zülmün yanğınları bir gün sönəcək,*

*Qəlblərdə yaşayan bir gün dönəcək*" fikrində əks olunur.

Əbu Turxanın hikmət dünyasında zəfər müjdəli hikmət və kəlamları araşdıranda anlayırsan ki, zəfərin özü və görünməyən üzü əslində hikmətlərdən damla-damla toplanıb. Qətiyyətlə demək mümkündür ki, Zəfər fəlsəfəsi min illərin dərinliyindən güc, qüvvət alan mənbədir, Əbu Turxan hikmətləri ilə ifadə olunan yeni bir başlanğıcdır.

*"Başladınsa, başa çatdır!", "Sıxılmış yay açılanda, qarşısında durmaq çətin olur", "Haqqa xidmət edəndə gücün də üzü gülür","Qandan gözü doymayanları ancaq öz qanı ilə doydurmaq olar", "Torpağın da səbr kasası var, onu kinlə dolduranlar öz kinində boğulur", "Alçaqlar yüksək dəyərləri anlamaz; onlarla ancaq gücün dilində danışmaq lazımdır"* kimi kəlamlar Zəfər fəlsəfəmiz barədə dolğun fikir yarada bilir.

Qarabağ mövzusu müstəvisindən kəlam və aforizmlərlə strateji düşüncələrin, istiqamətverici ideyaların ümumiləşmiş obrazı olan Əbu Turxanın hikmət dünyası keçmişi və gələcəyi ehtiva edən, bu baxımdan bu gün də aktuallığını itirməyən yol xəritəsidir.

***Açar sözlər:*** Əbu Turxanın hikmət dünyası, kəlam, milli zəfər, Zəfər fəlsəfəsi, Qarabağ mövzusu.

## ABSTRACT

Karabakh, which has a great heroic history, rich and unique cultural examples, and above all a geographical territory, is associated with the First and Second Karabakh Wars, which left indelible marks on our history from 1988 to 2020. It is no coincidence that painful tragic events such as occupation, genocide, slavery, and the martyrdom of tens of thousands of our soldiers, which are widely reflected in scientific research, artistic, and political thought, are summarized under the name of the Karabakh theme.

From the perspective of the present, it is possible to divide the Karabakh issue reflected in research and works into two large groups: 1. The Karabakh issue as our national sorrow. 2. The Karabakh issue as our national victory.

In the period leading up to the Second Karabakh War, the subject, as our fateful national issue, was in the focus of attention of almost all creative personalities and was reflected in their works in one way or another. The only aspect that brings all the works to one level is an optimistic view of the end: irreconcilability with the loss of land, belief in truth and justice, confidence that the Turk's war memory will revive, the path taken by strengthening with patience and wisdom at the right time. In this sense, historical Karabakhnames are replaced by letters to Karabakh during this period. The motives of calling for national awakening are strong in the "letters" addressed to Karabakh.

If we consider it from the perspective of national self-awareness, the most important impact of the war on our lives is that it shakes our national memory and makes us recognize ourselves. In the words of philosopher-scientist S. Khalilov, "The search for self-awareness of a nation begins not when it invades, but when it is invaded."

One of the paths to self-understanding is the path of philosophy, seeing ourselves in the light of wisdom and sayings. As Kant said, people do not see the light, they see with light. The wisdom under the name of Abu Turkhan is a guide that helps us find ourselves, lost in the darkness of Karabakh, in this period, and shows us the way to illuminate all sides in the darkness. If we proceed from the fact that the meaning of a word is heavier than a large-scale work, the wisdom of Abu Turkhan takes on the burden of hundreds of books.

An important mission of the world of wisdom, which stands above time and history, is to shed light on the darkness, to illuminate the path, both on an individual and a human scale. In terms of unraveling the Karabakh knot tied with unbreakable threads by the "Great Powers" of the world during the years of independence, in other words, looking at the problematics of the war period, and shedding light on the activities and future goals of our state and society living under occupation from the prism of philosophy, Abu Turkhan's world of wisdom fulfills a great mission. It is enough to refer to some of the aphorisms that resonate with the realities of Karabakh and in terms of the tasks facing society, to witness how rich historical experience comes together with a modern philosophical attitude to war and acquires unity. It is worth noting that in Abu Turkhan's world of wisdom, the topic of Karabakh passes a great path of wisdom from sorrow to victory, and the peak of victory unites both poles.

According to Abu Turkhan, Karabakh is a sacred place in our soul: “Love of the homeland emerges as a place on the path of ascension from individual love to divine love.” Abu Turkhan, who presents the sanctity of the homeland as an important tool on the path to divine love, confronts the national individual with Karabakh, and addresses the feelings that a person experiences before the Creator to Karabakh using symbolic elements.

The important time category of philosophy, past and future, is loaded with Karabakh in the wisdom of Abu Turkhan. “The future is ours when it is a continuation of our past.” According to Abu Turkhan, the Karabakh future has important conditions, and this includes self-awareness, understanding one's troubles, being strong, building an army, seeking truth, etc.

In Abu Turkhan's world of wisdom, diversity is combined in a single plot and flow of ideas using the most common symbolism and means of artistic abstraction, as well as the principles of artistic convention.

The wisdom emphasizes the importance of coming to terms with the change in the traditional symbolism of power as a driving force, the reality that time is giving way to science and technology, and drawing conclusions, and calls for the mobilization of the mind first. This idea is prominent in sayings such as “When minds are not mobilized in time, souls are mobilized”, “Power cannot be transformed into mind, mind transforms into power”, “Those who lead the way direct time”, and “If minds are not sharpened first, weapons will also become blunt”.

However, it is also important what the power/mind is directed towards. It explains sayings such as “He who cannot remain in himself cannot defeat the enemy”, “When our eyes are fixed on others, we ourselves become alienated”, “If you do not shake yourself in time, others will shake you” and suggests national self-awareness, re-examining the situation that led to the invasion, and re-creating oneself.

Abu Turkhan considers it self-deception, weakness, and poverty to reckon with what global interests present to us, and at the same time shows a way out: “Deceiving oneself... Living with false hopes is a life of despair”, “Being poor does not justify anyone; one must work hard and become strong”, etc., unambiguously glorify the idea of creating our own philosophy of victory. It is no coincidence that one of the sayings says: “He who has his own philosophy does not need the philosophy of others”.

The philosophy of establishing the truth occupies a special place in Abu Turkhan's world of wisdom. According to Abu Turkhan, simply opposing war, instilling calm and tranquility cannot be considered the path of Truth. The ideas extolled by the principle that Truth is not just in peace, but in a just peace are found in such ideas as "A just war is better than an insulting peace," and "What is sold with hypocrisy can only be bought with zeal”.

The idea that "the path to victory is not the path of revenge, but the path of establishing justice" combines the ideas of self-confidence in one's own right, determination and not giving up on one's goal, etc. Self-confidence is intertwined with confidence in one's army, strength, and rightness: "The one who best equips his army wins, not the one who best convinces it."

Abu Turkhan's unique poetic expression of civic feelings such as homeland and land, which are unambiguously associated with Karabakh in the world of wisdom, also allows us to draw an artistic sketch of the problem. The intertwining of longing and hope on the day of the occupation of Lachin is reflected in the thought:

"The fires of oppression will one day go out,

The one that lives in hearts will one day return."

When you examine the wisdom and sayings of Abu Turkhan, which herald victory in his world of wisdom, you realize that victory itself and its invisible face are actually collected drop by drop from wisdom. It is possible to say with certainty that the philosophy of Victory is a source that draws strength and power from the depths of thousands of years, and is a new beginning expressed through the wisdom of Abu Turkhan.

"If you start, finish it!", "When a compressed spring opens, it is difficult to stand in front of it", "Even power smiles when you serve the truth", "Those who cannot get enough of blood can only be satisfied with their own blood", "The earth also has a cup of patience, and those who fill it with hatred drown

in their own hatred", "The lowly do not understand high values; they should only be spoken to in the language of power" can create a complete idea of our Zafer philosophy.

Abu Turkhan's world of wisdom, which is a generalized image of strategic thoughts and guiding ideas with sayings and aphorisms from the perspective of the Karabakh theme, is a roadmap that includes the past and the future, and in this respect, it does not lose its relevance today.

***Keywords:*** Abu Turkhan's world of wisdom, sayings, national victory, Victory philosophy, Karabakh theme.

# EXPLORİNG PARENTS' PERCEPTİONS OF PRE PRİMARY EDUCATİON FOR EARLY LEARNERS İN RURAL AREA OF BANGLADESH.

**Suborna Khatun**

[1]University of Rajshahi, Institute of Education and Research (IER), Rajshahi, Bangladesh.

[1]ORCID ID:

https://orcid.org/0009-0006-5557-6295

**Md. Mizanur Rahman**

[2]University of Rajshahi , Department of Fisheries Rajshahi, Bangladesh.

[2]ORCID ID:

## Abstract

Early childhood development and education basically deals with physical care and education of young children from birth to eight years of age.This study explores rural parents' perceptions of early childhood education (ECE) in the Natore district of Bangladesh, focusing on the importance of parent's perceptions on pre-primary schooling, their expectations, and the challenges they face. Early childhood education is globally recognized as a critical groundwork for cognitive, emotional, and social development. However, despite its recognized value, rural communities often remain underserved and underrepresented in educational. Using a qualitative approach that included 15 in-depth interviews and one focus group discussion with 5 parents, this study collected data on parental attitudes, awareness, and suggestions regarding pre-primary education.

Findings exposed that 95% of parents consider pre-primary education vital for children's holistic development, mentioning improved learning habits, social interaction, and school readiness. Most participants (85%) were mothers, highlighting the central role of mothers in early education decisions. While parents expressed satisfaction with the general environment of schools, significant concerns were raised about inadequate toilet facilities, lack of disability-friendly infrastructure, and limited teacher training. Only 10% of parents had seen the pre-primary curriculum, pointing to a major communication gap between schools and families. Homework and assessments were largely supported, although some parents notified against undue academic pressure at an early age.

Parents highlighted the need for joyful, play-based learning, teacher consideration, and better school safety and infrastructure. The study concludes that although rural parents in Bangladesh recognize the value of pre-primary education but systemic barriers like lack of parental awareness, poor infrastructure, and teacher capacity need urgent attention. The research contributes to the limited body of knowledge on rural parental engagement in ECE and provides actionable recommendations for policy and practice, including curriculum visibility, inclusive learning environments, and strengthening home-school collaboration to support early learners effectively.

**Keywords**: Pre primary education, parental perception, Early childhood, school readiness, rural school environmen.

# MUSİQİ TƏHSİLİNDƏ MÜASİR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

# MODERN PROBLEMS IN MUSIC EDUCATION AND THEIR SOLUTIONS

**Süleymanova Əfruz Bəylər qızı**

Azərbaycan Dövlət Pedaqoji Universiteti,

"İncəsənət və fiziki tərbiyə" fakültəsi

"Musiqi və onun tədrisi texnologiyası" kafedrası

Azərbaycan, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

**XÜLASƏ**

Məqalə musiqi təhsilində bu gün qarşılaşdığımız əsas problemlər və onların mümkün həlli yollarının göstərilməsinə həsr edilmişdir. Musiqi təkcə sənət növü deyil, həm də uşaqların şəxsiyyət kimi formalaşmasında vacib bir vasitədir. Lakin son dövrlər musiqi təhsiklində bir sıra çətinliklər müşahidə olunur. Bunlara metodik materialın kifayət qədər olmaması, olan materialların da aktuallığını itirməsi, müəllim hazırlığında real təcrübəyə ayrılan vaxtın azalması, yəni praktik yönümlü yanaşmanın zəif olması, müasir texnologiyanın tədrisə inteqrasiyasındakı problemlər və ən əsası, şagirdlərin musiqiyə marağın azalması daxildir. Məqalədə bu məsələlərə təhlili yanaşma və bəzi real həll yolları irəli sürülmüşdür.

**Açar sözlər:** musiqi təhsili, müəllim hazırlığı, metodika, texnologiya

**ABSTRACT**

The article is dedicated to highlighting the main problems we face in music education today and their possible solutions. Music is not only a form of art but also an important tool in the personal development of children. However, in recent years, several challenges have been observed in the field of music education. These include the lack of sufficient methodological materials, the loss of relevance of the existing materials, the decrease in the time allocated to real practice in teacher training, i.e. the weakness of the practice-oriented approach, problems in integrating modern technology into teaching, and most importantly, the decline in students' interest in music. This article presents an analytical approach to these issues and proposes some realistic solutions.

**Key words:** music education, teacher training, methodology, technology

# FRANSIZ DİLİNİN TƏDRİSİNDƏ OYUNLARIN TƏTBİQİ VƏ ONLARIN MÜXTƏLİF DİL SƏVİYYƏLƏRİNƏ UYĞUNLAŞDIRILMASI

**Svetmira GULIYEVA**

Azərbaycan Dillər Universiteti, Tərcümə fakültəsi, Roman dillərinin tərcümə nəzəriyyəsi və praktikası, Bakı, Azərbaycan

ORCID ID: https://orcid.org/0009-0005-2530-6764

## Özət

Fransız dili uzun illərdir ki, romantizmin və yüksək mədəniyyətin simvolu kimi qəbul edilir. Hazırda dünyanın müxtəlif bölgələrində rəsmi statusa malik olan və BMT-nin rəsmi dillərindən biri kimi istifadə edilən bu dil, xarici dil kimi də ən çox öyrənilən dillərdən biridir. Bu məqalədə fransız dilinin öyrədilməsində oyunların tətbiqi ilə bağlı müxtəlif yanaşmalar və didaktik imkanlar təhlil olunur. Məqsəd dil öyrənilməsini həm şagirdmərkəzli (tələbəmərkəzli), həm də əyləncəli, motivasiyaedici bir tədris prosesinə çevirməkdir. Oyunlar vasitəsilə söz ehtiyatının artırılması, şifahi və yazılı ifadə bacarıqlarının inkişafı, konsentrasiya və dinləmə bacarığının gücləndirilməsi mümkün olur. Məqalədə səviyyələrə uyğun müxtəlif oyun nümunələri – Dobble, Qui est-ce?, Dessinez-le, Le Petit Bac, Le Loto, Jeu de l'oie, Scrabble və digər tədris vasitələrinin təsviri verilmiş, onların pedaqoji üstünlükləri şərh olunmuşdur. Hər bir oyunun həm dil bacarıqlarına, həm də sosial-emosional inkişaf sahələrinə təsiri vurğulanır. Bununla yanaşı, məqalədə müasir tədris yanaşmalarında süni intellektin artan rolu qeyd olunur. Xüsusilə, dil öyrənmənin rəqəmsal resurslarla daha interaktiv və fərdiləşdirilmiş şəkildə təşkil olunması perspektivləri müzakirə edilir. Nəticə olaraq, bu məqalə dil müəllimləri üçün oyun əsaslı tədris strategiyalarının necə planlaşdırılıb tətbiq olunacağına dair həm nəzəri, həm də praktik töhfələr təqdim edir.

**Açar sözlər:** Fransız dilinin tədrisi, dil bacarıqları, motivasiya, oyunla öyrənmə, səviyyəyə uyğun öyrətmə, didaktik oyunlar, interaktiv metodlar, süni intellekt.

## Abstract

## INTRODUCTION

Underwater image processing has emerged as a pivotal research area for applications ranging from autonomous sub-sea vehicle control and archaeological exploration to marine-biology surveys, pipeline inspection, defense, tourism, and recreation [1]. With roughly 70 % of Earth's surface covered by water, there is a growing drive to "see" beneath the waves, aided by modern optical-sensor cameras capable of capturing ultra-high-resolution imagery. Yet visibility underwater is notoriously poor: light scattering causes severe blur, color casts, and contrast loss, problems that intensify at depths beyond about 150 m where artificial illumination becomes essential. These adverse conditions, coupled with a scarcity of large, high-quality labeled datasets, make underwater image enhancement and deblurring a demanding but essential task for unlocking reliable visual information from the deep.

Recent research on underwater-image enhancement has converged on the idea that a single network cannot cope with the full spectrum of underwater degradations, so many authors now pursue task-aware or hybrid pipelines. IDA-UIE inaugurates this trend by first diagnosing the dominant artefact among eight possibilities and then routing the frame to a specialist CNN, achieving the best PSNR/SSIM across nine baselines [2]. UWCNN takes a complementary route: trained end-to-end on

ten synthetic water-type datasets that mimic absorption and scattering physics, it reconstructs a clean latent image without any hand-crafted priors and gains roughly 6 dB PSNR over classical dehazing and white-balance methods [3]. Building on the power of hybrid backbones, Liu et al. fuse a PSNR-attention Transformer with a frequency–temporal CNN, merging high- and low-frequency streams to add 2–3 dB PSNR, 0.03 SSIM and >10 % detection accuracy beyond the state of the art [4]. To situate these advances, Cong et al. compile the first taxonomy-driven survey of more than 150 deep-learning UIE papers, mapping them across six design dimensions and calling for unified benchmarks [5].

Application-specific models round out the landscape. Yao & Chen couple a fast CNN denoiser with a GAN refiner to filter noisy ROV footage of submarine power cables in real time, driving CNN and GAN losses down to 0.16 and ≈0.05, respectively [6]. Chandra et al.'s CNN-CBDT performs learnable colour balancing followed by deep denoising, trimming colour-constancy MAE by 25 % and adding 1.8 dB PSNR on UIEB [7]. Priyadharshini et al. combine contrast-, colour- and haze-oriented subnetworks in an ensemble whose confidence-map fusion avoids the halos and over-sharpening common to single-model spatial fixes [8]. Khaled et al. blend spatial (gamma correction, white balance) and frequency-domain cues in a gated CNN that preserves edge acuity even at >150 m depth [9]. Ertan et al. demonstrate that a lightweight U-shaped network can still deliver 3 dB/0.04 PSNR/SSIM gains while running in 30 ms on a Jetson Nano, enabling embedded photogrammetric enhancement [10]. Finally, iDehaze tackles the data bottleneck by training on physically accurate photorealistic simulations; the resulting two-step network removes 60 % of haze thickness and adds 4 dB PSNR versus the best competing method [11].

The main goal of this project is to enhance underwater images by restoring their natural colors, sharpness, and structural details, which are often lost due to light absorption and scattering in underwater environments. To address this, the work introduces a deep learning-based enhancement pipeline built around an improved U-Net architecture. This network follows the classic encoder-decoder structure with skip connections, but it's modified to include a Tanh activation at the output layer, ensuring that the enhanced images fall within a normalized range of [-1, 1], which helps with stability and visual realism during training. The model is trained using paired underwater images from the EUVP dataset, where each input image is a degraded version, and the target image is its enhanced counterpart. A custom dataset class handles loading and preprocessing the images, applying transformations such as resizing and normalization. The learning process is designed to focus not only on pixel-level accuracy but also on perceptual and structural quality. For this, the total loss is a combination of three components: mean squared error (MSE) to ensure low-level similarity, perceptual loss using a truncated VGG16 network to preserve high-level semantic features, and structural similarity (SSIM) to maintain the overall image structure. The use of perceptual and SSIM losses helps the model generate visually pleasing results rather than overly smooth or unrealistic outputs. Training is done using an Adam optimizer with a step-based learning rate scheduler to gradually reduce the learning rate and improve convergence. Throughout training, the model's performance is tracked using both the loss and PSNR (Peak Signal-to-Noise Ratio), a common metric for image quality. Once training is complete, the model weights are saved for future use, allowing real-time enhancement of new underwater images. In essence, this approach offers a lightweight yet powerful solution for restoring underwater visuals, blending traditional convolutional design with modern perceptual learning techniques.

## MATERIALS and METHODS

### Unet Architecture

The U-Net architecture, originally proposed by Ronneberger et al. [12] for biomedical image segmentation, has proven highly effective for various image-to-image translation tasks, including underwater image enhancement. Its strength lies in its encoder–decoder structure combined with skip

connections, which allow the network to capture both global contextual information and fine local details—critical for correcting the diverse degradations found in underwater images. In the encoder path, the image is progressively downsampled using convolutional and pooling layers, enabling the network to extract abstract semantic features while reducing spatial resolution. The decoder path then up scales these features back to the original resolution using transposed convolutions, and crucially, fuses them with corresponding encoder features via skip connections. This fusion allows the model to retain low-level details (like edges and textures) that are often lost in deep networks but are essential for tasks like dehazing, contrast correction, and color restoration in underwater imagery [13]. In the context of this work, the U-Net is adapted for regression tasks—specifically, enhancing underwater images. A Tanh activation function is used at the output layer to ensure the network predictions remain within a normalized range of [-1, 1], stabilizing training and aligning the output scale with normalized inputs. Moreover, rather than relying solely on pixel-wise losses, the model is trained using a combination of MSE, VGG-based perceptual loss [14], and SSIM loss [15], which helps the network focus not only on numerical accuracy but also on structural fidelity and human-perceived image quality. This fusion of architecture and loss design makes U-Net particularly well-suited to the challenges of underwater image restoration. Figure 1 shows the U-Net model that was used in this study.




Figure 1. The U-Net model

**Underwater Image Enhancement Dataset**

The EUVP dataset is a comprehensive resource designed to support both supervised and unsupervised learning approaches for underwater image enhancement [16]. It includes both paired and unpaired sets of low- and high-quality underwater images. The "paired dataset" consists of image pairs showing the same scene—one in degraded form and the other in high quality—which makes it particularly suitable for training models using supervised methods. This dataset is divided into three subsets: "Underwater Dark", with 5,550 training pairs and 570 validation pairs (11,670 images total); "Underwater ImageNet", with 3,700 training pairs and 1,270 validation pairs (8,670 images total); and "Underwater Scenes", with 2,185 training pairs and 130 validation pairs (4,500 images total). In addition to the paired sets, the EUVP dataset also includes an "unpaired set" consisting of 3,195 low-quality images, 3,140 high-quality images, and 330 validation images, amounting to a total of 6,665 images. This allows researchers to experiment with unsupervised or semi-supervised methods where direct image pairings are not required. Overall, the EUVP dataset provides a diverse and well-

structured collection of underwater imagery, making it a valuable benchmark for developing and evaluating enhancement algorithms. Sample images from the dataset are shown in Figure 2, where the first row presents high-quality reference images and the second row displays the corresponding degraded versions.




Figure 2. Sample images from the EUVP dataset

## EXPERIMENTAL WORKS and RESULTS

In the experimental setup, the proposed underwater image enhancement model—based on an improved U-Net architecture—was trained using the paired subset of the EUVP dataset, specifically the Underwater Dark category. All input and target images were resized to 256×256 pixels and normalized to a range of [-1, 1]. Data were loaded in batches of 4 using a PyTorch DataLoader, and training was performed for 50 epochs using the Adam optimizer with an initial learning rate of 1e-4, which was reduced by half every 20 epochs through a step-based scheduler. The loss function combined three components: pixel-level mean squared error (MSE), VGG16-based perceptual loss, and structural similarity index (SSIM), weighted to balance low-level accuracy with high-level visual quality. All experiments were conducted on a system with GPU acceleration enabled, using PyTorch as the deep learning framework. Performance was monitored using both loss and PSNR metrics at each epoch to evaluate reconstruction quality and training stability. 80% of the dataset images were used in the traning of the model, and the rest 20% images were used to test the performance of the trained U-Net model.






Figure 3. Qualitative comparison of underwater image enhancement results. Each row shows (from left to right) the degraded input image, the enhanced output produced by the proposed U-Net model, and the corresponding high-quality target image from the EUVP dataset.

Figure 3 provides a visual comparison highlighting the performance of the proposed U-Net model in enhancing underwater images. Each row contains three images: the leftmost is the original input image captured under typical underwater conditions, often degraded by strong blue or green color casts, reduced contrast, and blurred details due to light scattering and absorption. These distortions are common in underwater photography and significantly affect visual perception. The middle image in each row shows the output produced by the trained U-Net model. Here, the improvements are visible—the colors are more balanced and vivid, contrast is restored, and fine details that were previously muted or lost are brought back. Notably, the model handles both global enhancements, such as adjusting overall brightness and tone, and local refinements, like restoring textures in marine life and coral structures. These outputs demonstrate the model's ability to generalize across different

types of underwater scenes. The rightmost images are the high-quality target images from the EUVP dataset, used as ground truth during supervised training. In many of the examples, the model's output closely resembles these targets, both in color fidelity and structural accuracy, suggesting that the network has learned to approximate natural underwater conditions effectively.






Figure 4. Challenging cases where the model's enhancement results fall short of the target quality. Each row shows (from left to right) the degraded input image, the enhanced output generated by the proposed U-Net model, and the high-quality reference image from the EUVP dataset. In these examples, the model struggles to fully recover color accuracy, fine textures, or contrast compared to the ground truth.

Figure 4 shows cases where the model's performance is noticeably less accurate compared to earlier results. Each row presents (from left to right) a degraded underwater input image, the output generated by the proposed U-Net model, and the corresponding high-quality target from the EUVP dataset. In these examples, the model struggles to restore color fidelity and structural clarity fully. For instance, some outputs appear dull or faded compared to the vibrant target images, and fine details—such as textures, edges, or distinctive color patterns—are either blurred or only partially recovered. This suggests that the model may have difficulty generalizing across more complex scenes, especially those with extreme lighting conditions, unusual color distributions, or intricate textures. In the second and third rows, for example, the model fails to recover strong color contrast and depth, which are crucial for realistic visual enhancement. These limitations point to potential areas for improvement, such as incorporating attention mechanisms, better loss weighting, or multi-scale features to help the network focus on important visual cues and adapt more effectively to diverse underwater environments.

Besides the visual results, we also obtained quantitative metrics that support the effectiveness of the proposed model. The average PSNR across the test set was 17.30 dB, indicating a noticeable reduction in noise and improvement in image clarity after enhancement. The model also achieved an average SSIM of 0.781, which shows that it successfully preserved the structural and textural details of the underwater scenes. Additionally, the average training loss was recorded as 0.2535, reflecting stable and consistent convergence during the learning process. These numerical results complement the qualitative findings and confirm that the model is capable of enhancing underwater images in terms of both perceptual quality and structural fidelity.

## CONCLUSIONS

This study presented a deep learning approach based on the U-Net architecture to enhance underwater images by addressing common issues like color distortion, low contrast, and loss of detail caused by light scattering and absorption. The model was trained on paired underwater images from the EUVP dataset and used a combination of MSE, perceptual loss (based on VGG16), and SSIM to guide the learning process. Experimental results showed that the model performed well both visually and numerically, achieving an average PSNR of 17.30 dB and an SSIM of 0.781. These results suggest that the model is capable of effectively improving underwater images, restoring both their visual quality and structural integrity.

That said, there were still some challenging cases where the model couldn't fully recover fine textures or correct color balance, especially in scenes with harsh lighting or complex underwater environments. These limitations highlight opportunities for future work. In particular, adding attention mechanisms could help the model focus on important areas in the image, while using multi-scale features or residual connections might improve detail preservation. Expanding the training dataset or using data augmentation techniques could also improve generalization to more diverse underwater conditions. Lastly, adapting the model for real-time use in underwater robotics or marine exploration could make it a practical tool in the field.

**REFERENCES**

[1] Hegde, D., Desai, C., Tabib, R., Patil, U. B., Mudenagudi, U., & Bora, P. K. (2020). Adaptive cubic spline interpolation in cielab color space for underwater image enhancement. Procedia Computer Science, 171, 52-61.

[2] Pranjali Singh, Prithwijit Guha (2024). "IDA-UIE: An Iterative Framework for Deep Network-based Degradation Aware Underwater Image Enhancement."

[3] Anwar, S., Li, C., & Porikli, F. (2018). "Deep Underwater Image Enhancement." arXiv preprint arXiv:1807.03528.

[4] Liu, X., Chen, Z., Xu, Z., Zheng, Z., Ma, F., & Wang, Y. (2024). "Enhancement of Underwater Images through Parallel Fusion of Transformer and CNN." Journal of Marine Science and Engineering, 12(9), 1467.

[5] Cong, X., Zhao, Y., Gui, J., Hou, J., & Tao, D. (2024). "A Comprehensive Survey on Underwater Image Enhancement Based on Deep Learning." arXiv preprint arXiv:2405.19684.

[6] Yao, A., & Chen, J. (2024). "Research on Improved Underwater Cable Image Processing Technique Based on CNN-GAN." Frontiers in Energy Research, 12, 1452270.

[7] Chandra, I. S., Shastri, R. K., Kavitha, D., Kumar, K. R., Manochitra, S., & Babu, P. B. (2023). "CNN-Based Color Balancing and Denoising Technique for Underwater Images: CNN-CBDT." Measurement: Sensors, 28, 100835.

[8] Priyadharshini, R. A., Arivazhagan, S., Pavithra, K. A., & Sowmya, S. (2024). "An Ensemble Deep Learning Approach for Underwater Image Enhancement." e-Prime – Advances in Electrical Engineering, Electronics and Energy, 100634.

[9] Khaled Ahmed Nagaty, Andreas Pester (2023). "An End-to-End CNN Approach for Enhancing Underwater Images Using Spatial and Frequency Domain Techniques."

[10] Ertan, Z., Korkut, B., Gördük, G., Kulavuz, B., Bakırman, T., & Bayram, B. (2024). "Enhancement of Underwater Images with Artificial Intelligence." The International Archives of the Photogrammetry, Remote Sensing and Spatial Information Sciences, 48, 149-156.

[11] Mousavi, M., Estrada, R., & Ashok, A. (2023). "iDehaze: Supervised Underwater Image Enhancement and Dehazing via Physically Accurate Photorealistic Simulations." Electronics, 12(11), 2352.

[12] Ronneberger, O., Fischer, P., & Brox, T. (2015). U-Net: Convolutional Networks for Biomedical Image Segmentation. In Medical Image Computing and Computer-Assisted Intervention (MICCAI). Springer, Cham.

[13] Anwar, S., Li, C., & Porikli, F. (2018). Deep Underwater Image Enhancement. arXiv preprint arXiv:1807.03528.

[14] Johnson, J., Alahi, A., & Fei-Fei, L. (2016). Perceptual Losses for Real-Time Style Transfer and Super-Resolution. In European Conference on Computer Vision (ECCV).

[15] Wang, Z., Bovik, A. C., Sheikh, H. R., & Simoncelli, E. P. (2004). Image Quality Assessment: From Error Visibility to Structural Similarity. IEEE Transactions on Image Processing, 13(4), 600–612.

[16] Jaitly, S., & Bhati, S. (2023). Build an Effective Deep Learning Model For Underwater Image Enhancement Based On Euvp Data. ICTACT Journal on Soft Computing, 13(3).

# NATƏVANIN POETIKASININ INGILISCƏ IFADƏSI

# EXPRESSION OF NATAVAN'S POETICS IN ENGLISH

**Şəhla Bədir qızı Nağıyeva,**

**filologiya elmləri doktoru**

German dillərinin tərcümə nəzəriyyəsi və praktikası

kafedrasının professoru,
Azərbaycan Dillər Universiteti
ORCHID:0000-0002-1392-9316

## *XÜLASƏ*

XIX əsrin mədəni-mənəvi həyatında önəmli yer tutan qadın şairlərdən olan Xurşidbanu Natavanın poeziyası klassik Şərq ədəbiyyatına dərin bələdliyi (fars, ərəb dilləri, Füzuli, Hafiz, Nizami təsiri) ilə yanaşı, fərdi üslubu və qadına məxsus lirizmi ilə seçilir. Natəvanın həyatı dramatik hadisələrlə zəngindir ata-ana itkisi, məcburi evlilik, ailə faciələri və bu hadisələr onun qəzəllərində emosional, səmimi şəkildə əks olunmuşdur. Natəvanın qəzəllərində sevgi, ayrılıq, gözəllik (zülflər, gül üzü, qaş-göz), fədakarlıq, qadın ağrısı əsas motivlərdir. Simvolik obrazlar – Leyli-Məcnun, Yusif-Züleyxa, bülbül-gül – klassik çərçivədə yeni mənəvi çalarlarla təqdim olunur. Məqalədə şairin bir neçə qəzəllərinin ingilis dilinə tərcüməsi təhlil edilir. Tərcümələr original qəzəllərlə müqayisəli təhlilə cəlb olunur. Orijinalın poetik dərinliyinin və ritminin tərcümədə bəzən itirildiyi, bəzi metaforların zəiflədiyi (məsələn, "nəqdi-can" – "canın nəğd verilməsi" fədakarlığı), bəzilərinin isə uğurla verilməsi qənaətinə gəlinir(məsələn, Məcnun-Leyla cazibəsi). Tərcümə strategiyalarından (hərfi, poetik ekvivalentlik, yaradıcı yğunlaşdırma) da məqalədə bəhs edilir.

Natəvan qəzəllərində qadın baxış bucağı ilə yazsa da, klassik kişiyə xas danışıq tərzinin içindən qadına məxsus daxili üsyanı ifadə edir. Məsələn, "müjdə"nin ölüm fərmanı anlamında istifadəsi – poetik ironiyanın və qadın ağrısının kulminasiyası kimi təqdim olunur. Əruz vəznində yazdığı şeirlərdə qafiyə, rədif, ahəng, təşbeh və simvollar ustalıqla işlənmişdir. Təbiət təsvirləri ilə yazdığı qəzəllər də diqqət çəkir – gül və bülbül metaforik qarşılaşdırmalarında məhəbbət və xəyanət motivləri verilir. Natəvanın şeirlərinin ingilis dilinə tərcüməsində yalnız məna yox, həm də emosional yükün, metaforik dərinliyin, mədəni kodların qorunması vacibdir. Məqalədə orijinalın poetik xüsusiyyətlərinin tərcümədə saxlanması həm linqvistik, həm estetik, həm də mədəni baxımdan böyük ustalıq tələb etdiyi xüsusi vurğulanır. Həmçinin, Natavanın poetikasının təkcə klassik poeziya kontekstində deyil, həm də qadın subyektivliyinin ifadəsi kimi mühüm yer tutduğu göstərilir. Onun şeirlərinin ingilis dilinə tərcüməsi bədii-estetik baxımdan ciddi yanaşma tələb edir və bu prosesdə poetik ruhun qorunması əsas şərtdir.

**Açar sözlər:** Xurşidbanu Natavan**,** qəzəl poetikası**,** poeziya tərcüməsi**,** qadın subyektivliyi**, m**etaforik obrazlar

## ABSRACT

Khurshidbanu Natavan was a prominent female poet in the 19th-century cultural and spiritual life of Azerbaijan. Although well-versed in classical Eastern literature (in Persian, Arabic, and Azerbaijani), Natavan developed her own distinct poetic voice enriched by feminine subjectivity and emotional depth.

Natavan's poetry reflects the tragedies of her personal life — the early loss of her parents, a forced marriage, and the death of her son Abbas. These experiences shaped the sincere and emotional tone

of her ghazals. Her poetry explores themes of love, longing, beauty, separation, and female suffering. Symbolic figures such as Leyli-Majnun, Yusuf-Zuleikha, and the nightingale and rose are traditional but reinterpreted through her personal lens, often highlighting emotional vulnerability and spiritual conflict. The article analyzes several translated verses of Natavan's poetry. It notes that while some metaphors are weakened in translation (e.g., "naqdi-can" – the soul offered as cash), others like the Leyli-Majnun imagery are effectively conveyed. Various translation strategies are discussed, such as literal translation, poetic recreation, and creative adaptation. Although composed in a traditionally male poetic form, Natavan's ghazals subtly express a woman's internal rebellion and sorrow. For instance, using the word *"müjdə"* (glad tidings) to ironically mean a death sentence shows how she reclaims poetic language to voice female grief and existential crisis. Her ghazals written in classical aruz meter demonstrate skillful use of rhyme, rhythm, metaphor, and lyrical structure. She also composed nature-themed ghazals, using the rose and nightingale as metaphors for beauty, betrayal, and emotional captivity. Translating Natavan's poetry requires not only linguistic accuracy but the ability to preserve emotional tone, metaphorical richness, and cultural subtext. The article shows that successful translation involves both literary sensitivity and intercultural awareness.

This article shows that Natavan's poetics are not only rooted in classical literary tradition but also infused with feminine emotion, resistance, and originality. Translating her work into English demands a fine balance between preserving form, meaning, and emotional resonance.

**Keywords:** *Khurshidbanu Natavan, ghazal poetics, poetry translation, female subjectivity, metaphorical imagery*

## GIRIŞ

Azərbaycan klassik poeziyasının görkəmli qadın simalarından olan Xurşidbanu Natəvan XIX əsrin mədəni və mənəvi həyatında mühüm yer tutan şəxsiyyət idi. Onun şəxsiyyətinin formalaşmasında və poeziyasında qadın subyektivliyinin ifadəsində Qarabağın son xanı Mehdiqulu xanın qızı olması və doğulub boya-başa çatdığı mühit mühüm rol oynamışdır.

Saray təhsili almış Natavan Azərbaycan, fars və ərəb dillərini mükəmməl bilirdi. Firdovsi, Sədi, Hafiz, Nizami, Füzuli və Nəvai kimi Şərq klassiklərinin əsərlərini uşaqlığından öyrəndiyindən onların estetik prinsiplərini mənimsəmişdi. Bütün bunlar onun yaradıcılığında hiss olunsa da, Natəvanın özünə məxsus müstəqil və fərdi üslubu formalaşmışdır.

Natəvanın əsərlərinin belə səmimi, hissiyyatlı olmasının bir səbəbi onun istedadı ilə bağlı idisə, digər səbəbi də şeirlərinin mövzusunu uydurmaması, öz həyatından götürməsi idi. Xan qızı Natəvan həyatı boyu çoxlu sarsıntılar, şəxsi faciələr yaşamışdı. Natəvan gənc ikən əvvəl atasını, sonra anasını itirmiş, Qafqaz canişini M.S.Vorontsovun təkidi ilə yaxşı tanımadığı Xasay xan Usmiyev adlı dövrünün savadlı, ləyaqətli, lakin tərs, tündməzac xasiyyətli şəxsiyyətinə ərə verilmişdi. (Əlioğlu, 2022)

Qarabağ şairləri Azərbaycanın bir çox şəhərləri ilə birlikdə, Tiflis, Orenburq, Həştərxan, Buxara, Mərv, Bombey, Kəlkotə və Bağdad şəhərləri ilə də ədəbi əlaqə saxlamışlar. Bu məclislərdə adlı-sanlı şair, musiqiçi və rəssamların sənətkarlığı izlənmiş, onların incəsənətə gətirdikləri yenilik müzakirə edilmişdir. Bu zaman Xurşidbanunun ilhamla qələmə aldığı "Eylar", "Gətirir", "Mən idim", "Sən idin", "Bənzətdim" və "Ölürəm" rədifli ürəyəyatan qəzəlləri Azərbaycan şairləri arasında şeirləşmələrə səbəb olmuşdur. Qarabağ, Şəki, Şirvan, Bakı, Quba, Gəncə, Naxçıvan, Ordubad şairləri Natavan əsərlərindəki yüksək sənətkarlıqdan təsirlənərək, onlarca nazirə və təxmis yazmışlar.

## Şərq klassikləri və Natəvanın lirikasında qadın duyumu. Eşq, gözəllik, ayrılıq və poetik simvolların təhlili

Natavanın zəngin yaradıcılığı da həm Sovet dönəmində, həm də müstəqillik illərində Şərq və Qərb tərcüməşünaslarının maraq dairəsində olmuşdur.

Onun “Gətirir” rədifli qəzəli klassik Şərq poetikasının obrazlarla zənginliyi və qadına xas emosional dərinliyi ilə seçilir. Şeir məhəbbətin dəyişdirici gücü, onun dağıdıcı və eyni zamanda gözəl və qaçınılmaz hüzn dolu tərəfləri ətrafında qurulub:

Şuri-eşqin başıma axırı sövda gətirir,
Bu müşəxəssdi ki, eşq aşiqə qovğa gətirir.

Tari-zülfündü məni böylə giriftar eləyib,
Nə gələ başıma, ol zülfi-mütərra gətirir.

Gül üzün görmək əgər mümkün olaydı bir dəm,
Hər zaman görmək onu nuri-mücəlla gətirir.

Qaşü göz, novki-mücə fitnə üçün cəm olmuş,
Ox atıb, tiğ çəkib, hər biri dəva gətirir.

Könlümü qarət edir eylə ki, tari-zülfün,
Rumə, sanki həbəşi ləşgəri-yəğma gətirir.

Naqənin varmı şüuru bula aşıq guyin,
Onu Məcnunə tərəf cəzbeyi-Leyla gətirir.

Yusifin sanma, dübarə görə Yəqub üzün,
Mehr bazarına gör getsə, Züleyxa gətirir.

Yusifi Misrdə gər aldı Züleyxa nəqdə,
Nəqdi-can, aşiq olan, əldə mühəyya gətirir.

Sidqi-qəlb ilə nisar etmiş idin can nəqdin,
Natəvan, mücdə bu gün, qətlinə fərman gətirir.

(Xurşidbanu Natəvan, 1981)

“Şuri-eşqin başıma axırı sövda gətirir” misrasında məhəbbət sevinc yox, insanı yandırıb-yaxan, məhvə aparan bir od kimi təqdim edilir. Ardınca gələn “Bu müşəxəssdi ki, eşq aşiqə qovğa gətirir” misrası eşqin aşiqi sanki savaş meydanına atması ilə izah olunur.

## Qəzəllərin orijinal və ingiliscə variantlarının bədii müqayisəsi.

Yuxarıdakı beytlər klassik Şərq poeziyasına xas olan sevginin həm ali, həm də dağıdıcı güc kimi təqdim edilməsinə nümunədir.

İngilis dilinə tərcümədə bu beyt aşağıdakı şəkildə verilib:

*Your love brings me love, everlasting love, Love always conflicting us, leading us to fight.(* Naghiyeva & Mandaville, 2014*)*

Tərcümə, ümumi mənanı və poetik ritmi saxlayaraq, orijinalın emosional xəttini qoruyur.

Orijinal beyt:
Naqənin varmı şüuru bula aşıq guyin,
Onu Məcnunə tərəf cəzbeyi-Leyla gətirir.

Tərcümə:
*Could a camel have taken Majnun to Leyla,*

*had Leyla's love not been bright?*
Burada şərh olunan əsas məqam metaforanın tərcümədə dəyişməsidir: Leyla ilə Məcnun arasındakı mənəvi cazibə qüvvəsi burada fiziki hərəkət vasitəsilə ifadə olunmuşdur. Bu, həm Şərq poetikasına, həm də müasir tərcümə nəzəriyyəsinə uyğun maraqlı bir yanaşmadır.

Orijinal:
Yusifi Misrdə gər aldı Züleyxa nəqdə,
Nəqdi-can, aşiq olan, əldə mühəyya gətirir.

Tərcümə:
*Dear Yusif was bought by Zuleikha in old Egypt,*
*Even a slave can prepare for his lover's delight.*

"Yusifi Misrdə gər aldı Züleyxa nəqdə" misrası ilə Quran və Şərq ədəbiyyatına istinad edilərək Yusufun satılması və Züleyxanın ona duyduğu sevgi vurğulanır. İkinci misrada isə "Nəqdi-can" ifadəsi — aşiqin öz canını nağd kimi təqdim etməsi — eşq yolunda fədakarlığın zirvəsi kimi şərh olunur.
Təəssüf ki, tərcümədə "Dear Yusif" ifadəsi "Deaf Yusif" kimi təhrif edilmişdir. Görünür, tərcüməçi burada "dear" və ya "slave" sözlərindən birini nəzərdə tutmuş, lakin kontekstə uyğun olmayan bir variant seçmişdir. Doğru tərcümə forması belə ola bilərdi:

*If Zuleikha bought Yusuf for cash in Egypt*
*A true lover offers the coin of his soul into her hand.*

İkinci misranın tərcüməsində isə "even a slave can prepare for his lover's delight" formasında "nəqdi-can" metaforası – yəni canını nağd təqdim etmək fəlsəfəsi – sadələşdirilərək emosional dəyər azaldılmışdır. Orijinalda olan ruh və fəlsəfi dərinlik burada hiss olunmur.
Bu cür personifikasiya (şəxsiyyətləşdirmə) poeziyada emosional gərginliyi artırmaq və oxucunu hadisəyə daha dərindən cəlb etmək üçün güclü vasitə kimi çıxış edir. Tərcümələrdə bu kimi dəyişikliklər bəzən orijinal poetik məqsədi dəyişə bilər, lakin eyni zamanda yeni estetik qat da əlavə edə bilir.
Sevgilinin fiziki gözəlliklərini ifadə edən zülfü, gül üzü, qaşı-gözü, novki-mücəsi kimi obrazlar klassik poeziyada tanışdır və həm cazibədarlıq, həm də təhlükənin simvoludurlar. Xüsusilə qaranlıq saçlar – zülflər – təkcə gözəlliyin yox, həm də aşiqi əsir edən, onu bağlayan güc kimi təqdim edilir. Natəvan bu obrazlara heyranlıqla yanaşmaqla kifayətlənmir, onların aşiqə vurduğu psixoloji və mənəvi zərbəni də vurğulayır.
"Yəqub Yusifi yenə görər" ümidi inkar edilir. Bu fikir ayrılığın sonlu və qovuşmanın mümkünsüz olduğunu göstərir. Şairin "nəqdi-can" ifadəsi ilə ruhu fəda etməyi maddi qazancdan üstün tutması diqqət çəkir — Züleyxa Yusifi əldə etsə də, əsl sevginin dəyəri canın fəda olunmasıdır.
Qəzəl formaca klassik kişiyə xas danışıq tərzində təqdim edilsə də, onun içində qadın subyektivliyi, qadın duyumu səssiz və incə bir üsyan kimi yer alır. Natəvan bu məcazlarla təkcə eşq və həsrətdən yox, həm də sosial-mədəni anlamlardan bəhs edir. Son beytdə:
"Natəvan, müjdə bu gün, qətlinə fərman gətirir"
ifadəsi ilə poetik obraz konkret şəxsiyyətə çevrilir. Adətən sevincli xəbər mənasında işlənən "müjdə" burada ölüm hökmü kimi təqdim olunur. Bu, saray poetikasının dili ilə qadın acısının dramatik təsviridir.
Bu qəzəl Natəvanın klassik poeziya formasına qadına məxsus emosional qat və yeni nəfəs bəxş etdiyini nümayiş etdirir. Göz, saç, aşiq, hicran kimi obrazlar romantik simvol olmaqla yanaşı, eyni zamanda qadın kimliyinin, sevgidəki gücsüzlüyünün və poetik özünüifadəsinin rəmzləridir.
Belə bir şeirin ingilis dilinə tərcüməsi sadəcə leksik səviyyədə deyil, emosional axıcılıq, metaforik zənginlik və mədəni alttekst baxımından da çevik və zərif yanaşma tələb edir. Bu cür poetik nümunələrdə "hisslərin əks-sədası" dillər arasında ən güclü rezonansı yaradır.

*"For love you sacrificed your whole body, Natavan,*
*Good news! Tonight he comes, death's decree at his side."*

Bu misra orijinal poetik gücünü qoruyaraq, həm dramatikliyi, həm də qadın fəryadını ifadə edir.
Natəvanın poeziyası Azərbaycan qadınının daxili dünyasını, iztirab və narahatlıqlarını, eləcə də cəmiyyətin təzyiqləri qarşısında susqun dirənişini poetik dillə ifadə edir. Xüsusilə ana itkisi və ailə faciələri ilə bağlı şeirləri

dərin kədər və fəlsəfi düşüncə ilə seçilir. O, təbiət təsvirlərini də poetik obrazlarla zənginləşdirərək bənzərsiz qəzəl nümunələri yaratmışdır.
Onun bu qəzəli klassik divan poeziyasının əsas motivləri – eşq əzabı, emosional dağılma, metaforik zorakılıq (ox, qılınc), mədəni və dini istinadlar (Leyli, Məcnun, Yusif, Züleyxa) ilə yoğrulmuşdur. Bu nümunədə emosional intensivlik və fatalizm güclüdür: eşq həm ucaldıcı, həm də məhvedicidir.
Tərcümədə əsas emosional xətt qorunur: həsrətlə başlayıb, mənəvi dağılma və poetik şəhidliklə bitən bir axar müşahidə olunur. Bununla belə, bəzi hallarda tonda yumşalma hiss olunur. İlahi eşqin sərsəmliyi, "şuri-eşq" konsepti və qəzəlin sonunda verilən ölüm hökmü müasir poetik dildə daha romantik və hekayəvi şəkildə təqdim edilmişdir.
Emosional sadiqlik yüksək səviyyədə qorunur, lakin klassik poetik sərtlik müasir poetik zövqə uyğunlaşdırılaraq müəyyən qədər yumşaldılmışdır.
Natəvan əsasən qəzəl formasında yazırdı. Onu Füzuli məktəbinin davamçısı kimi təqdim etsələr də, o, bu ənənəyə kor-koranə təqlid etməmiş, poeziyasına yenilik ruhu və özünəməxsus üslub gətirmişdir. Təəssüf ki, onun tam divanı — yəni lirik şeirlər toplusu — bu günədək bütöv şəkildə bizə gəlib çatmamışdır.

## TƏBIƏT OBRAZLARI VƏ METAFORIK DƏRINLIYIN TƏRCÜMƏDƏ IFADƏSI

Xurşidbanunun poetik irsini məzmun baxımından dörd əsas qrupa ayırmaq mümkündür:

1. aşiqanə şeirlər;
2. təbiət gözəlliklərinə həsr olunmuş şeirlər;
3. müasirlərinə ünvanlanmış mənzumələr;

fəlsəfi-mənəvi düşüncə daşıyan nümunələr

Təbiət motivli şeirlərə nümunə:
Əgərçi xoşdu mənə ətri, həm səfası gülün,
Cəfası çoxdu, nə hasil ki, yox vəfası gülün.
Cəfayi-xarı görüb köçdü bağdən bülbül,
Görən kim oldu bir gülşəndə aşinası gülün?
(Natəvan Xurşidbanu. 2004, s. 6)

Bu beytdə gül – gözəlliyin, bülbül – aşiqliyin, xar (tikan) isə əzabın simvolu kimi çıxış edir. Şair, gülün ətir və gözəlliyindən zövq aldığını bildirir, lakin onun vəfasızlığına işarə edərək ümidsizlik notları vurğulayır.

Tərcüməsi:
Joyous to me is the smell and beauty of the flower.
Though I suffer for it, without loyalty is the flower.
Hurt in the garden, the nightingale fled from it.

Then whom did she take to be her lover, the flower?( Naghiyeva & Mandaville, 2010, s.12-14)

Tərcümədə əsas mənalar qorunmuşdur. Lakin “nə hasil” ifadəsinin fəlsəfi çarəsizliyi (“nə fayda ki”) bir qədər zəifləyib. Qafiyə uyğunluğu – “ətri, səfası, cəfası, vəfası” – orijinalda musiqili axın yaratsa da, tərcümədə bu ahəng yoxdur. Alternativ olaraq “What use is it, if the flower has no loyalty?” kimi versiya daha poetik ola bilər.
İkinci beytin tərcüməsində “cəfayi-xar” – yəni tikanın əzabı – konkret olaraq “hurt” (zədələnmə) kimi verilsə də, metaforik zənginliyi tam əks olunmayıb. “Bağdan köçmək” isə sadəcə fiziki uzaqlaşma deyil, ümidsizlik içində tərk etmə mənasında işlədilmişdir. “Aşina” sözü isə “lover” kimi verilib, lakin bu, həm də “dost” və “etibarlı sirdaş” mənalarını da ehtiva edir.
Qəzəldə poetik forma və ritm – ərüz vəzni – şeirin ruhunu daşıyır. Tərcüməçi bu vəzni qorumağa çalışsa da, bəzən bu, poetik dəyərlərin zəifləməsi bahasına baş verir. Əgər ərüz vəznini qorumaq mümkün deyilsə, o zaman məzmun və poetik ahəng arasında balans saxlanmalıdır.
Əruz vəznində yazılmış qəzəldə qafiyənin və ritmin qorunması ingilis dilinə tərcümədə çətinlik yaradır. Lakin poetik atmosferin qorunması üçün vəznin əvəzinə uyğun ritmik quruluş formalaşdırıla bilər.

Qurani simvollar (Yusif, Züleyxa) və ədəbiyyat obrazları (Leyli, Məcnun) kimi bədii işarələr başqa dillərdə eyni mədəni dəyərə malik olmaya bilər. Tərcüməçi bu simvolları ya olduğu kimi saxlamalı, ya da izah etməli, yaxud onların analoji obrazlarını təqdim etməlidir.
Burada yalnız sözlərin leksik mənası deyil, onların oyatdığı emosional və poetik duyğu da önəmlidir. Tərcümənin təsir gücü də bu duyğunun nə dərəcədə qorunmasından asılıdır.

**NƏTICƏ**

Xurşidbanu Natəvanın poetik irsi Azərbaycan klassik poeziyasının həm estetik, həm də ideya baxımından qadın duyumunu ifadə edən nadir nümunələrindəndir. Onun qəzəllərində sevgi, tənhalıq, sosial basqılar və təbiət mövzuları klassik simvollar və ərüz vəzninin zəngin imkanları ilə birləşərək dərin poetik təsir gücü yaradır. Şeirlərinin tərcüməsi zamanı yalnız mətnin leksik səviyyəsi deyil, onun metaforik qatları, emosional yükü və mədəni alt konteksti də nəzərə alınmalıdır. Natəvan öz əsərlərində klassik divan formasını fərdi ifadəyə, qadın təcrübəsinə və poetik yeniliyə çevirmişdir – bu isə onu həm milli, həm də dünya poeziyasının tərcümə baxımından mühüm fiqurlarından birinə çevirir.

## ƏDƏBIYYAT SİYAHISI

1. Əlioğlu, P. (2022). *Natəvan: Biblioqrafiya* (M. Vəliyeva & G. Quliyeva, Tərt. ed.; K. Tahirov, Elmi red.; X. Abbasova, Red.). Bakı: Milli Kitabxana.
2. Xurşidbanu Natəvan. (1981). *33 qəzəl*. Bakı: Gənclik.
3. Natəvan Xurşidbanu. (2004). *Əsərləri*. Bakı: Lider Nəşriyyat.
4. Naghiyeva, S., & Mandaville, A. (2010). *Flower* [Translated poem]. *Shadows and Echoes: Department of Languages and Literatures of Pacific Lutheran University*, 7(1), 12–14, 32.
5. Mandaville, A., & Naghiyeva, S. (Eds.). (2014). *Anthology of Poetry by Women in Azerbaijan: In Azerbaijani and English* (p. 73). Bakı: Printshop Bakhtiyar-4.

# AZƏRBAYCAN VƏ TÜRK NAĞILLARINDA SAYIN SEMANTİK STRUKTURUNDA SAKRAL MƏNANIN YERİ

# THE PLACE OF SACRED MEANING IN THE SEMANTIC STRUCTURE OF AZERBAIJAN AND TURKISH TALES

**Şirinova Elnurə Mirzəcan qızı**
Bakı Slavyan Universitetinin doktorantı
ADPU-nun Quba filialının müəllimi
Orcid İd: https://orcid.org/0009-0006-6387-3177

**Xülasə**

Məqalədə obyekt kimi seçilmiş Azərbaycan və Türkiyə dövlətlərinin folklor nümunəsi olan nağıllar həm sakral mahiyyət daşıyan rəqəmlərin seçilməsi, müqayisəsi, həm də sakral mənalı sayların semantik strukturunun təhlilini əsas götürmüşdür. Bir, qırx kimi sayların təkcə ümumi qrammatik məzmununa görə əşyanın kəmiyyətini, sayını ifadə etməsi deyil, bir də onun müqəddəsliyi məsələsi tədqiq edilir. Xalq nağıllarında təqdim olunan dünyanın milli mənzərəsi ictimai şüurda formalaşmış tarixi, psixoloji və pedaqoji münasibət, norma və üstünlüklərlə şərtlənir. Mədəniyyətin əsas elemetləri özündə əks etdirən nağıllar linqvomədəni səriştənin inkişafına kömək edir. Nağıllarda etnosun kollektiv linqvistik xüsusiyyətlərinə xas olan arxetipik xarakterli əsas anlayışlar geniş şəkildə təmsil olunur. Bu nağıllardakı sayları digər nitq hissələrindən fərqləndirən əsas xüsusiyyət kimi onların sakral mahiyyətli olması, habelə etalonlaşaraq kütləni arxasıyla apara biləcək xüsusiyyətə malik olmasıdır. Bu xüsusiyyəti sayların semantik strukturunda və onların iyerarxik sakral mənasında görmək olar.

**Açar sözlər:** Nağıl, say, sakrallıq, semantika

**Abstract**

The article uses fairy tales, which are examples of folklore from the states of Azerbaijan and Turkey, as objects, as a basis for both the selection and comparison of numbers with sacred meaning, as well as the analysis of the semantic structure of numbers with sacred meaning. The issue of the sacredness of numbers such as one and forty is studied not only because of their general grammatical content, but also because they express the quantity and number of objects. The national picture of the world presented in folk tales is conditioned by historical, psychological and pedagogical attitudes, norms and preferences formed in the public consciousness. Fairy tales, reflecting the main elements of culture, contribute to the development of linguistic and cultural competence. The main concepts of an archetypal nature inherent in the collective linguistic characteristics of the ethnos are widely represented in fairy tales. The main feature that distinguishes numbers in folk tales from other parts of speech is their sacred nature, as well as the ability to standardize and lead the crowd. This feature can be seen in the semantic structure of numbers and their hierarchical sacred meaning.

**Kerwords:** Fairy tale, number, sacredness, semantics

## Giriş

Məqalənin mövzusu olan “Azərbaycan və türk nağıllarında sayın semantik strukturunda sakral mənanın yeri”ndən danışılacaqsa, dilçiliyin say, onun sakral xüsusiyyətləri, semosiologiya bölməsi diqqətdə saxlanılmalıdır. Belə ki, Azərbaycan və Türkiyə türklərinin folklor nümunəsi olan nağıllar

məqalənin obyekti, predmet isə nağıl mətnlərindən seçilmiş bəzi sakrallıq qazanmış rəqəmlərin semantik təhlilidir.

Sayların məna strukturunun müqayisəli təhlilini verərkən qarşımızda iki istiqamət dayanır. Bunlardan birincisi, sayın nitq hissəsi, rəqəm, ədəd qütbü, ikinci qütbü isə sayın sakrallığı, qeyri-adiliyi, fövqəltəbiiliyi və magikliyidir. Bu müqayisəli təhlil zamanı eyni məntiqi sinfə daxil olan əşyaların xüsusiyyətlərinin bir məfhumda, daha doğrusu, bir məhfumla ikili xüsusiyyətlərin paralelliyini müşahidə edirik. Bu ikili qütbün ikili xüsusiyyətini dilin lüğət tərkibində işlənən hər hansı bir rəqəmin nitq hissəsi mövqeyində və həmin rəqəmin müəyyən zaman, məkan çərçivəsində sakral mənanı ifadə etməsində izləmək mümkündür. Sayların birinci qütbdən semantik strukturunun izahını vermək nə qədər çətindirsə, onların arxetipik simvollarla, mifopoetik düşüncə baxımından məna iyerarxiyasında sakral mənanın yerini, xüsusiyyətlərinin izahını vermək də bir o qədər çətindir. Arxetipik simvollarda sayların məna iyerarxiyasında sakral mənanın müəyyənləşdirməsi, arxetipik simvol anlayışı ilə sakral mənanın üzvü bağlılığını ələqələndirmək məqsədilə R.Qafarlının "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər toplusu"nda öz əksini tapan məqaləsinə nəzər salaq:

"Arxetipik simvollar lap başlanğıcdan bütün icma üzvlərinin inancı şəkilində meydana gəlir, daha doğrusu, mifoloji əlamətlərlə yoğrulduğundan yarandığı çağlardan başlayaraq tarixin bütün mərhələlərində öz universallığını qoruyub saxlayır. Bu səbəbdən də çoxsaylı arxetipik simvollar – alt-üst, yuxarı-aşağı, şimal-cənub, göy-yer (ata göy – ana yer)... sakral rəqəmlər barəsindəki qənaətlər Yer kürrəsinin dili, dini əqidəsi, inkişaf səviyyəsi bir-birindən köklü şəkildə fərqlənən millətlərin inanclarında üst-üstə düşür. Maraqlıdır ki, əksər məqamlarda insan toplumlarını nə tarixi-mədəni əlaqələr, nə qan qohumluğu, nə də dil birliyi bir-birinə bağlamışdır, lakin aralarındakı hədsiz məsafə, zaman, əqidə, dil ayrılıqlarına baxmayaraq, onların arxetipik simvollarla əlaqədar gəldikləri qənaətlər bir-birini təkrarlamışdır"[7, 96].

**Nağılın məna iyerarxiyasında sakral semantika**

Millətlərin üst-üstə düşən inanclarının mövcudluğu, aralarındakı zaman, məkan və məsafə fərqinin olması, habelə ortaq inancları, düşüncələri görmək, bu inancların ortaqlığını rəqəmlərin sakrallığında sezmək mümkündür. Hər hansı bir rəqəmin istər qohum dillərdə, istərsə də qohum olmayan dillərdə eyni sakral yükə xidmət etdiyini, əksər hallarda həmin rəqəmə eyni magik mövqedən yanaşıldığını görürük. Lakin rəqəmlərin digər bir qisminə verilən sakral xüsusiyyət hər xalqa görə dəyişə bilmiş, bu xalqın inancında "uğurlu" hesab edilən rəqəm digər xalqın inancında "uğursuz" hesab edilmişdir. Sayların sakral xüsusiyyətlərinin millətlərin üst-üstə düşən inanclarının var olması ilə yanaşı, bir də bu sayların dil və miflə olan üzvü bağlılığı var.

Bunu da bilmək lazımdır ki, hər şey 0 və 1 rəqəmlərindən başlayır və başlıca istiqamətləndirici amil olan bu rəqəmlər bütün şeyləri öz nəzarətləri altında saxlayırlar [9, 57].

Ümumtürk sözü və pratürk dövrünün yadigarı olan bir sayının sayaqədərki anlamını acmaq asan deyil, onun sayaqədərki semantikası say mənası kəsb etdikdən sonra da xeyli semantik şaxələnmə keçirmişdir. Bu xüsusda M.Qıpçaq bir sözünün "əl", "barmaq" mənasında olan kar, bar, ber, bir sözündən yarandığını qeyd edir [8, 352].

Bir sayının ikinci qütbündə onun məna iyerarxiyasında sakral mənanın yerini, xüsusiyyətlərinin izahını vermək dayanır. Bir sakralının səmavi dinlərdəki yerindən, mifologiyada və folklordakı mövqeyindən çıxış edərək qarşı qütbündə dayandığı "say nitq hissəsi" stununun əksinə magikləşmiş və fövqəltəbiiləşmişdir.

Müqəddəs rəqəmlərin geniş yayılmış yozumlarını Azərbaycan xalqının mifoloji görüşləri əsasında ümumiləşdirəndə maraqlı mənzərəylə rastlaşırıq. 1 rəqəminin sakral funksiyası – Allah / Yaradıcı; Astral mövqeyi – Günəş / yaradan, kişi, işıq, od; Atəşpərəstlərdə - ruh və canlılıq; Pifaqorçularda – Yaradıcı güc/ağıl; Fəlsəfi məzmunu – iradə kimi verilməklə qruplaşdırılır. Və təkallahlı din

sistemlərinə aid mifik dünya modellərində bir qayda olaraq vahid təkcə əsas, birinci element deyil, ümumiyyətlə, tamlıq, kamillik anlamında götürülür [6, 33].

Folklor frazeologiyasında elə birləşmələr vardır ki, onlar yalnız nağıl və dastanlar üçün xarakterik sayıla bilər. Frazeologiya lüğətindən seçilən həmin "say sakrallı frazeoloji birləşmələr" dən biri artıq qəlibləşmiş "Biri var idi, biri yox" [11, 71] nağılın başlanmasına işarə edən frazeoloji vahididir. Sakral kosmik müstəvidə "bir" sayı bir neçə mənada işlənir. Bu frazeoloji vahidin tərkibində işlənən sayın sakral yükünə gəldikdəsə, 1sayının Allahla balılığına işarə edir. Əsas məna yükü "vahidliy"in, gözəgörünməz ilahi varlığın ifadəsinin üzərinə düşür. Gözəgörünməz ilahi varlığının "bir" sayı ilə əlaqəsinin mövcüdluğundan danışan B.Abdulla bu xüsusda yazır: "Təfəkkürdə tanrının birliyi, vahidliyi, təkliyi, şəriksizliyi formulu yaratmış və sabitləşmişdir" [1, 6].

"Biri var idi, biri yox idi"frazeoloji vahidinin məzmunundan doğan ikinci bir məna kimi R.Qafarlının "zaman və məkan" haqqında olan konsepsiyasına əsasən bu frazemi nəzərdən keçirək: " "Biri var idi, biri yox" mifik qənaətində dünyada hələ heç nəyin start götürmədiyi məqamlarda zamanla məkanın bünövrəsinin vəhdətdə qoyulmasından bəhs olunur. Kainatda durğunluq hökm sürür. Xaos hələ parçalanmamış, ünsürlərə ayrılmamışdır" [7, 18].

40 sayına gəldikdə bu say türk nağıl leksikasında ən çox istifadə edilən saydır. Türkiyə nağıllarına baxdıqda 40 sayının aktivlik və semantik sakrallığının Azərbaycan nağıl leksikası ilə səsləşdiyini görürük. Delikanlı "İşte evimiz burası,"- demiş. Attan inerek içeriye girmişler. Genç kadın bir de bakmış ki kırk odalı bir konak… Delikanlı cebinden bir sürü anahtar çıkararak karısına uzatmış. "Bunlar, kapımızın kırk bir odasının anahtarıdır,"- demiş. "Ben şimdi iş için uzak bir memlekete gidiyorum. Bu anahtarlarla kırk odayı açabilirsin ama sakın kırk birinci odayı açayım deme. Ben kırk güne kadar dönerim." [2, 4];

"Qırxıncı otaq" - tilsimlənmiş otaq, girmək mümkün olmayan otaq, qeyb olmuş otaq... Otağın qırxıncı olmağı uğurludu ya uğursuz? Nisbidi və ya mütləqdi? El arasında müxtəlif hadisələrlə əlaqədər olaraq qırx sayı özünü saxlayır. Qırx çoxluq mənasındadır. "Qırxıncı otaq" deyəndə ilk baxışda sakrallıq hiss olunmur. Lakin qapılar açılıb axıra çatan kimi əvvəlki otaqlardakı mənzərədən fərqli bir şeyin olduğu, daha doğrusu qırxıncı otağa qədər otaqlarda axtarılanın məhz qırxıncıda olması bu rəqəmin arxasında sirli aləm gizləndiyi aşkarlayır.

40 sayının sakrallaşmasının tarixinin samilərdən keçmə deyil çox qədim olduğunu bilirik. Y.V.Çəmənzəminli də bu haqda öz məqalələrində və bədii əsərlərində qeyd etmişdir. O, nağılı xalq ruhunun, etiqadlarının məhsulu hesab edirdi. Ona görə hər bir xalqı yaxşı tanımaq üçün onun nağıllarını bilmək zəruridir söyləyir [5, 17].

Nağıllarda öz əksini tapan frazemlərdə eyni Çəmənzəminlinin dediyi kimi, milli ruh, milli təfəkkür vardır. O, dərin fəlsəfəyə əsaslanan nağılları Zərdüştün "Avesta" kitabı ilə əlaqələndirir. "Məlik Məmməd"i ən xarakterik nağılımız sayıb, "Avesta" ilə müqayisəli şəkildə təhlil edir.

"Məlik Məmməd"lə əlaqədar olaraq rəqəmlərə də (3, 7, 40) xüsusi diqqət edilir, padşahın üç oğlu olduğu, qaranlıq dünyada üç div və yanlarında üç qız saxladıqları, Məlik Məmmədin divlərlə 40 gün, 40 gecə güləşməsi, Zümrüdün 40 şaqqa ət, 40 tuluq su götürməsi, 40 gün 40 gecə toy olması və s. göstərilir [5, 11].

Folkor nümunələrindən seçilmiş "qırx gün, qırx gecə","qırxıncı otaq" ifadələrində işlənən hər iki qırx sayı magik saylardır. Məsələn, Kırk gün kırk gece düğün dernekten sonra saltanat arabası gelini almaya gelmiş [2, 19]. Lakin ifadə yükləri, mətni əhatə etmə dərəcələri fərqlidir. Belə ki, birinci frazem zamanı sakrallaşdırır. İkinci frazem isə sirri, tilsimi ifadə edib qırx sayı ilə onu kilitləyib, mənfi yük qazandırır. Digər sakral rəqəmlərlə müqayisədə 40 sayı ikili xarakterlidir – həm həyatla, həm ölümlə bağlıdır. Belə ki, qırx – ölümün girişini göstərməklə bərabər ailənin bünövrəsinin qoyulmasını da şərtləndirir.

"Qırx gün, qırx gecə" frazemi də bu ikili səciyyəni ehtiva edir. Birləşmənin sonlu mütləq məzmunludu desək yanılmarıq. 40 günün sonundakı mütləq nəticəni ifadə edir və bu nəticə də çox zaman xoşbəxtlik ilə tamamlanır. Bunu nağıllarımızda da açıq-aydın müşahidə etmək olar.

Magik rəqəmlərin nağıllarda kompleks şəkildə istifadəsinə də rast gəlirik. Məsələn: "Quş Məlikməmmədin bikef olduğunu görüb dedi: "Ey Məlikməmməd, qırx ağaclıqda bir padşahın ölkəsi var. Bir əjdaha gəlib suyun qabağını kəsib. Nə qədər ərzuman pəhləvanlar var, onu öldürə bilməyib. Yeddi ildi ki, doqquzbaşlı əjdaha suyun qabağını kəsib. Hər gün bir qız aparıb ouğnun ağzına atırlar. Əjdaha qızı yeyəndə bir az su axır, cammatda suyu götürür. İndi görürəm sən qüvvətli pəhləvansan, olsa-olsa, o əjdahanı da sən öldürə bilərsən. Get o əjdahanı öldür. Padşahdan qırx şaqqa ət, qırx tuluq su al" [10, 502].

Qırx günün bitməsinin gözlənilməməsinin verdiyi pis nəticəni dilçiliyimizin say simvolikasını təhlil etmək baxımından əsas mənbə sayıldığımız 7777 dəlinin iştirak etdiyi, Azərbaycan ədəbiyyatının dəyərli incilərindən biri olan "Koruğlu" dastanıdır.

40 günün tamamlanmasını gözləyən Alı kişi Rövşənlə tövləyə gəlir. Alı kişi əlləri ilə atları yoxlayır, lakin onların qanadını tapa bilmir. Çünki Rövşən yasağı pozmuş, sonuncu gün atlara baxmışdı [4, 62].

Frazemlərin tərkibində qırxıncı otaq deyiminin işləndiyini müşahidə etsək də yeddinci otaq deyimilə rastlamırıq. Hansı ki, biz qırxıncı otaq sakrallı frazemi kimi yeddinci otaq sakralını da istər folklor nümunələrində, istər nağıllarımızda izlərini görürük. Biz bunu elə məhz otaqların çoxluğundan doğan yeddinin - son otağın möcüzəviliyində -"Məlikməmməd" nağılında da görürük.

Məlikməmməd az getdi, çox getdi, gedib bir otağa çıxdı. Qapını açıb bir boş otağa girdi, gördü ki, bu otağın içindəndə bir qapı var, bu qapını açdı, bir ayrı otağın içində də bir qapı var, bu qapını da açdı, bir ayrı otağa girdi. Onun da qapısını açdı... Belə-belə Məlikməmməd yeddinci qapını açdı. Gördü burda taxtın üstündə bir nazənin əyləşmib ki, yemə, içmə, xətti-xalına, gül-camalına tamamsa elə. Qızın dizi üstə bir div naşını qoyub yatmışdı [10,17].

**Nəticə**

Say nitq hissəsi kimi dildə az yer tutsa da, məna yükü olduqca çoxdur. Geniş əhatə dairəsi və xüsusi əhəmiyyəti olan sayların məna iyerarxiyasında sakral mənanın müəyyənləşdirilməsi başlıca məqsəd kimi qarşıda durur. Filoloji lüğətlərə, frazeologiya lüğətlərinə, nağıl mətinlərnə mənbə kimi müraciət olunması və müqayisəli təhlili sayın semantik strukturunun müəyyənləşməsində, rəqəmlərin sakramental xüsusiyyətinin açmasında mühüm əhəmiyyəti vardır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Abdulla B. Folklorda say simvolikası. Bakı, Elm, 2006, 148 s.
2. Anadolu masallarıyla büyüyoruz projesi. 2019-2020. Eğitim-öğretim yılı masalları
3. Azərbaycan nağılları. V cild. "Şərq-Qərb", Bakı, 2005, 359 s.
4. Cəfərli M. Dastan yaradıcılığı. Bakı, Elm, 2007, 107 s.
5. Çəmənzəminli Y.V. Nağıllarımızı necə tapmalı. Əsərləri. II cild. Bakı, Elm, 1977, 328 s.
6. Dədə Qorqud araşdırmaları. Bakı, ADPU, 2013, 318 s.
7. Qafarlı R. Azərbaycan mifoloji görüşlərində arxetipik simvollar //Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" toplusu. 14-ci kitab, 89-115 s.
8. Qıpçaq M. Kəmiyyət anlayışının dildə ifadəsi. Bakı, Elm, 2000, 455 s.
9. Məmmədli İ. Kainatın sirləri. Bakı, Sabah, 1993, 152 s.
10. Nağıllar. Tərtib edəni N.Seyidov. Azərbaycan ədəbiyyatı inciləri. On iki kitabda. Birinci kitab. Bakı, Yazıçı, 1985, 506 s.
11. Seyidov N. Frazeologiya lüğəti. Bakı, Çıraq, 2014, 272 s.

# TİBBDƏ SUNİ İNTELLEKTİN TƏTBİQİ

**Nazlı Ceyhun qızı Əjdərova**
Naxçıvan Dövlət Universiteti,
ORCID.0000-0003-0012-425X

## Giriş

Süni intellekt (SI) müasir tibbin inkişafında mühüm rol oynayan texnologiyalardan biridir. Tibbdə SI alqoritmləri xəstəliklərin erkən diaqnostikası, müalicə planlarının hazırlanması və pasiyent məlumatlarının təhlili kimi sahələrdə istifadə olunur. Bu texnologiya, xüsusilə böyük həcmli tibbi məlumatların emalında insan faktorundan daha sürətli və dəqiq nəticələr təqdim edir. Radiologiya, onkologiya, kardiologiya və neyrologiya kimi sahələrdə süni intellekt əsaslı sistemlər görüntü analizində həkimlərə dəstək olaraq işləyir, nəticədə daha erkən və düzgün diaqnoz qoyulmasına şərait yaradır.

SI həmçinin xəstələrin fərdi xüsusiyyətlərinə əsaslanaraq fərdiləşdirilmiş müalicə yollarının təklif edilməsinə kömək edir. Məsələn, genetik məlumatlar əsasında xəstəliyin necə inkişaf edəcəyini proqnozlaşdırmaq və uyğun dərman seçimi etmək mümkündür. Klinik qərarların verilməsində də SI-nin rolu artır; qərar dəstəkləyici sistemlər həkimlərin daha məlumatlı və təhlükəsiz qərarlar qəbul etməsinə imkan yaradır.

Bununla belə, süni intellektin tibbdə geniş tətbiqi bəzi etik və hüquqi problemləri də gündəmə gətirir. Məlumatların məxfiliyi, alqoritmlərin şəffaflığı və SI-nin səhv qərarlarının məsuliyyəti kimi məsələlər hələ də müzakirə mövzusudur. Buna baxmayaraq, süni intellektin düzgün və nəzarətli şəkildə tətbiqi tibbi xidmətlərin keyfiyyətini və effektivliyini əhəmiyyətli dərəcədə artırma potensialına malikdir.

**Açar sözlər:** Diaqnostika, Fərdiləşdirilmiş müalicə, Tibbi alqoritmlər

## ABSTRACT

Artificial Intelligence (AI) is one of the key technologies playing an important role in the advancement of modern medicine. In healthcare, AI algorithms are used in areas such as early diagnosis of diseases, development of treatment plans, and analysis of patient data. This technology offers faster and more accurate results than human intervention, especially when processing large volumes of medical data. In fields such as radiology, oncology, cardiology, and neurology, AI-based systems assist doctors in analyzing medical images, enabling earlier and more accurate diagnoses.

AI also helps suggest personalized treatment options based on patients' individual characteristics. For example, it is possible to predict how a disease will progress and choose the appropriate medication based on genetic information. AI's role in clinical decision-making is also increasing; decision-support systems enable physicians to make more informed and safer choices.

However, the widespread application of AI in medicine also raises some ethical and legal concerns. Issues such as data privacy, algorithm transparency, and accountability for incorrect decisions made by AI are still subjects of ongoing discussion. Nevertheless, the proper and controlled implementation of artificial intelligence has the potential to significantly improve the quality and efficiency of medical services.

**Keywords:** Diagnosis, Personalized treatment, Medical algorithms

Son onilliklər ərzində texnologiyanın sürətli inkişafı, xüsusilə süni intellektin (Sİ) həyatımızın bir çox sahəsinə inteqrasiyası yeni imkanlar və problemlər yaratmışdır. Bu inkişafdan ən çox təsirlənən

sahələrdən biri də tibbdır. Tibbdə süni intellektin tətbiqi diaqnostika, müalicə, xəstəliklərin proqnozu və pasiyent idarəçiliyində inqilabi dəyişikliklərə səbəb olmuşdur. Bu texnologiyalar yalnız həkimlərin işini yüngülləşdirmir, həm də səhvlərin azalmasına və daha dəqiq nəticələrin əldə olunmasına şərait yaradır.

Süni intellekt – kompüter sistemlərinin insanlara xas olan düşünmə, öyrənmə, qərarvermə və problemləri həll etmə qabiliyyətlərini təqlid etməsinə yönəlmiş texnologiyalar toplusudur. Tibb sahəsində isə bu texnologiya müxtəlif formada özünü göstərir:

- **Maşın öyrənməsi (machine learning)** – verilənlərə əsaslanaraq diaqnostik nəticələr çıxarır;
- **Dərin öyrənmə (deep learning)** – xüsusilə tibbi görüntülərin analizi üçün istifadə olunur;
- **Təbii dilin emalı (natural language processing – NLP)** – həkim qeydlərini, epikrizləri və tibbi məqalələri analiz etmək üçün istifadə olunur;
- **Ekspert sistemlər** – klinik qərarların qəbuluna dəstək verir.

Diaqnostika süni intellektin ən uğurlu tətbiq sahələrindən biridir. Məsələn, radiologiyada Sİ alqoritmləri rentgen, MRT və KT görüntülərini təhlil edərək bəzən həkimlərdən daha dəqiq nəticələr təqdim edir. IBM Watson kimi sistemlər on minlərlə tibbi məqaləni və pasiyent məlumatlarını analiz edərək həkimlərə alternativ diaqnozlar və müalicə təklifləri verir. Eynilə, dermatologiyada süni intellekt alətləri dəri xəstəliklərinin (xüsusilə melanoma) erkən mərhələdə aşkarlanmasında istifadə olunur.

Süni intellektin əsas üstünlüklərindən biri də böyük həcmli məlumatları analiz edərək xəstəlik risklərini əvvəlcədən müəyyən etmə qabiliyyətidir. Elektron sağlamlıq qeydləri (EHR), genetik məlumatlar və həyat tərzi faktorlarını birləşdirərək Sİ alqoritmləri xəstələrin gələcəkdə şəkərli diabet, insult, ürək-damar xəstəlikləri və digər xroniki xəstəliklərə tutulma ehtimalını proqnozlaşdıra bilir. Bu isə tibb işçilərinə profilaktik tədbirlər görmək imkanı yaradır.

Fərdi tibb (personalized medicine) sahəsində süni intellektin rolu getdikcə artır. Xəstənin genetik məlumatları, həyat tərzi, keçmiş xəstəlik tarixçəsi kimi faktorları birləşdirən Sİ sistemləri xəstəyə xüsusi olaraq uyğunlaşdırılmış müalicə planı təklif edə bilir. Bu, xüsusilə onkologiyada – şiş hüceyrələrinin genetik strukturuna uyğun dərman seçimi baxımından əhəmiyyətlidir. Eyni zamanda kliniki qərar dəstək sistemləri həkimlərə diaqnostik və terapevtik qərarlar verməkdə yardımçı olur.

Robot dəstəyi ilə aparılan cərrahiyyə əməliyyatları artıq bir çox ölkədə standart hal alıb. Bu texnologiyalar əməliyyat zamanı daha dəqiq hərəkət, daha az qan itirilməsi və daha qısa reabilitasiya dövrü təmin edir. Məşhur "da Vinci Surgical System" kimi robot sistemləri süni intellektin yardımçı funksiyaları ilə təchiz olunaraq həkimlərin əməliyyat zamanı daha düzgün qərar verməsinə kömək edir.

COVID-19 pandemiyası süni intellektin ictimai səhiyyədə nə qədər faydalı ola biləcəyini nümayiş etdirdi. Sİ alətləri yoluxma dalğalarının proqnozlaşdırılması, virusun mutasiyalarının izlənməsi və peyvənd strategiyalarının planlaşdırılmasında istifadə olundu. Bu təcrübə göstərdi ki, süni intellekt gələcək pandemiyalara hazırlıq və cavab tədbirlərində mühüm rol oynaya bilər.

Tibb sahəsində süni intellektin tətbiqi gələcəyin deyil, artıq bu günün reallığıdır. Daha dəqiq diaqnoz, fərdiləşdirilmiş müalicə, xəstəliklərin erkən aşkarlanması və həkim qərarlarına dəstək baxımından Sİ böyük potensiala malikdir. Bununla belə, texnologiyaların məsuliyyətli şəkildə və etik normalara uyğun tətbiqi, insan faktorunun önəmini unutmamaqla, gələcəyin sağlamlıq sistemini daha güclü və effektiv edə bilər. Hər bir yeni texnologiyada olduğu kimi, bu sahədə də balanslı və insan mərkəzli yanaşma vacibdir.

**Nəticə**

Süni intellekt tibbdə inqilabi dəyişikliklərə səbəb olmaq potensialına malikdir. Diaqnostika, fərdiləşdirilmiş müalicə və tibbi qərarların verilməsində bu texnologiyanın rolu günü-gündən artır. Süni intellektin düzgün və etik çərçivədə tətbiqi tibbi xidmətlərin keyfiyyətini artırmaqla yanaşı, həkimlərin işini asanlaşdırır və xəstələrin daha dəqiq və effektiv müalicə almasına şərait yaradır. Gələcəkdə bu texnologiyanın daha geniş yayılması və təkmilləşdirilməsi tibbin bir çox sahəsində irəliləyişə yol aça bilər.

## ƏDƏBİYYAT

1. Topol, E. (2019). *Deep Medicine: How Artificial Intelligence Can Make Healthcare Human Again.*
2. Rajkomar, A., Dean, J., & Kohane, I. (2019). *Machine Learning in Medicine. New England Journal of Medicine*, 380(14), 1347–1358.
3. Jiang, F., Jiang, Y., Zhi, H., et al. (2017). *Artificial Intelligence in Healthcare: Past, Present and Future. Stroke and Vascular Neurology*, 2(4), 230–243.
4. Davenport, T., & Kalakota, R. (2019). *The potential for artificial intelligence in healthcare. Future Healthcare Journal*, 6(2), 94–98.
5. Mesko, B. (2020). *The Medical Futurist: Artificial Intelligence in Healthcare.*
6. Esteva, A., Kuprel, B., Novoa, R. A., et al. (2017). *Dermatologist-level classification of skin cancer with deep neural networks. Nature*, 542(7639), 115–118.

# DİL STRUKTURLARINDA VARİATİVLİK ANLAYIŞI

# THE CONCEPT OF VARİABİLİTY İN LANGUAGE STRUCTURE

**Talıbova Təranə Əhliman qızı**

Müəllim.

Bakı, English School Tədris Mərkəzi

orcid: 0009-0004-5924-9174

**Xülasə**

Son zamanlar dilin variativliyi və səklini dəyişməsi kimi məsələlər get-gedə daha çox qaldırılmaqdadır. Ancaq bu problem xeyli mürəkkəbdir və variativliyin dillərin tarixən şəkildəyişməsi prosesindəki yeri ilk baxışdan yetərincə aydın deyildir. Bir tərəfdən, tarixi dəyişikliklər variativliyin mühüm mənbələrindən biri, digər tərəfdən, variant formaları və strukturlarının meydana çıxması bir çox hallarda bir qisim elementlərin başqaları ilə əvəzlənməsi nəticəsində baş verən tarixi dəyişilmələrin vacib mərhəbsidir. Bununla belə variativlik heç də dil sisteminin dəyişilmələrinə aparıb çıxarmır; forma və konstruksiyaların paralelizmi, habelə leksemlərin variativliyi və sinonimliyi tarixi dəyişikliklərlə yanaşı onun dinamikasını da təmin etməklə dildə saxlanıla bilərlər.

Dil sisteminin bütün səviyyələrdə danışıq aktında reallaşması, bir sıra dildaxili və dilxarici amillərin təsirinə məruz qalması, yəni konkret dil vahidlərinin müxtəlif dəyişikliklər və çalarlar əldə etməsi, dilin funksional baxımdan fundamental xüsusiyyəti kimi dəyərləndirilməlidir. Dilin bir universal xassəsi kimi variativliyin dil dəyişilmələri ilə əlaqəsi müxtəlif dilçilik məktəblərində, dilçilərinin araşdırmalarında və ən müxtəlif dil materiallarında postulə edilir. Variativlik həmçinin tarixi normallaşma proseslərinə həsr olunmuş işlərdə də əsas problemdir. Dil strukturlarının variativliyi vasitəsilə həyata keçirilən dilin tarixi inkişafının amili kimi variativliyin bilavasitə dil dəyişilmələri nəzəriyyəsinə daxil edilməsi ideyası geniş yayılmışdır. Variantların olması onların qarşılıqlı təsirini, funksional bölünməsini və sistemlə qarşılıqlı münasibətlərini qabaqcadan müəyyən edir. Dil sistemini başqa vəziyyətə salan gələcək "dəyişikliklər" məhz bu proseslərdə mövcuddur. Müasir dilçilikdə dilin variasiyasının və dəyişilmənin qarşılıqlı münasibətlərinin daha radikal bir yozumu da təqdim olunmuşdur, ona görə də variativliyə aparıcı rol ayrılır, bununla da variativlik nəzəriyyəsi, çağdaş dilçilikdə hazırda olduğu durumda dil dəyişmələrinin ümumi nəzəriyyəsində btitünləşmiş olur. Başqa sözlə desək, çeşidlilik "məhz elə dil dəyişikliklərinin baş verməsinə rəvac verən dil ehtiyatı (rezervi)" kimi başa düşülür. "Bu halda dilin inkişaf prosesləri əsas etibarı ilə selektiv proseslər kimi başa düşülür". Dilin dinamik xassələrinin təzahürü olaraq, variasiya əksər hallarda dilin tarixi mövcudluğunun hər bir anında, müxtəlif xronoloji mənsubiyyətli, yəni dildə əvvəllər olmuş və yaxud, əksinə, hələ təzə-təzə dilin mövcud sisteminə yol tapıb daxil olan yeniliklərin birgə mövcudluğunun nəticəsidir.

**Açar sözlər:** dil variativliyi, invariant-variant, dil norması, dixotomatik yanaşma, trixotomatik yanaşma

**Abstract**

Recently, issues such as variability and change in form of language have been increasingly raised. However, this problem is quite complex, and the place of variability in the process of historical formation of languages is not clear enough at first glance. On the one hand, historical changes are one of the important sources of variability, on the other hand, the emergence of variant forms and structures is an important step in historical changes that occur in many cases as a result of the

replacement of some elements with others. However, variability does not lead to changes in the language system at all; parallelism of forms and constructions, as well as variability and synonymy of lexemes, can be preserved in the language by ensuring its dynamics along with historical changes.

The realization of the language system in the act of speech at all levels, the exposure to the influence of a number of intra-linguistic and extra-linguistic factors, that is, the acquisition of various changes and shades of specific language units, should be considered a fundamental feature of the language from a functional point of view. The connection of variation as a universal property of language with language changes is postulated in various linguistic schools, in the research of linguists and in the most diverse language materials. Variation is also a key problem in works devoted to the processes of historical normalization. The idea of including variation directly into the theory of language changes as a factor of the historical development of language, carried out through the variability of language structures, is widespread. The presence of variants predetermines their mutual influence, functional division and mutual relations with the system. Future "changes" that bring the language system into a different state are present precisely in these processes. In modern linguistics, a more radical interpretation of the mutual relations of language variation and change has also been presented, therefore, variability is assigned a leading role, thereby the theory of variation, as it currently exists in modern linguistics, is integrated into the general theory of language changes. In other words, variety is understood as "the linguistic reserve that allows language changes to occur". "In this case, the processes of language development are understood primarily as selective processes." As a manifestation of the dynamic properties of language, variation is often the result of the coexistence of innovations of different chronological affiliations, that is, innovations that have previously existed in the language or, conversely, have only recently found their way into the existing system of the language, at each moment of its historical existence.

**Keywords:** language variability, invariant-variant, language norm, dichotomous approach, trichotomous approach

Son illər dilin müxtəlif səviyyələrində sistemli əlaqələrin müəyyən edilməsi, aşkar olunmuş variantların müxtəlif linqvistik prinsiplərə əsasən ardıcıllığa salınması problemi həmişə böyük elmi maraq yaratmışdır. Fonoloji sistemdəki variantlıq problemi, funksional fonologiya üçün mərkəzi bir problemdir. Bu problem, eyni funksiyanı yerinə yetirən, lakin fərqli səs formalarına malik olan fonoloji vahidlərin mövcudluğundan irəli gəlir. Məsələn, eyni mənanı ifadə edən, lakin fərqli səslənməyə malik olan iki sözün və ya morfemin olması bu variantlığa misal ola bilər. Funksional fonologiya bu cür variantların səbəblərini və onların dil sistemindəki rolunu araşdırır.

Dil inkişafı, həm daxili dil faktorlarının, həm də xarici dil faktorlarının təsiri altında dilin müxtəlif alt sistemlərindəki dəyişiklikləri əks etdirir. Dilin hər bir alt sistemi öz spesifik xüsusiyyətlərini əks etdirməklə yanaşı, dil sisteminə xas olan universal və immanent keyfiyyətləri də qoruyub saxlayır.

İnvariant və variant anlayışları, dil hadisələrinin və onların konkret təzahürlərinin əsas xüsusiyyətlərini və fərqli tərəflərini izah etmək üçün vacibdir. Buna görə də müasir linqvistika nəzəriyyəsi, ayrı-ayrı dil hadisələrinin izahı zamanı bu mühüm anlayışları (invariant və variant) inkar edə bilməz, çünki bu anlayışlar olmadan dilin mahiyyətni anlamaq çox çətin olar. "Invariant" və "variant" anlayışlarını prinsip etibarilə fərqli elementlər kimi nəzərdən keçirmək olar. Fonemi, diferensial əlamətlərin cəmindən ibarət olan bir vahid kimi qəbul edən və fonemin səslərdə reallaşdığını düşünən N.S. Trubetskoyun davamçıları və Amerika deskriptivistləri üçün invariant və variantın bu cür anlaşılması məqsədəuyğundur.

Variativlik anlayışı xüsusi linqvistik anlayış deyil. İnvariant-variant dixotomiyası əvvəlcə riyazi mənbələrdə mövcud olmuş, daha sonra linqvistik səviyyəyə qaldırılmışdır. Məsələ ondadır ki, Amerika deskriptiv dilçiliyinin başlanğıcında dildaxili dəyişkənlik mövzusu ümumiyyətlə nəzərə

alınmamışdı. Çünki, C. Qampertsin göstərdiyi kimi, erkən deskriptiv dilçilikdə "dil strukturunun monolitliyi" anlayışı üstünlük təşkil edirdi (Гамперц, 1975, 188).

"Variant" və "invariant" anlayışları linqvistikaya fonologiya vasitəsilə daxil olmuşdur. A. Martinenin tərifinə görə, "variant və invariantların ziddiyyəti Praqa fonoloqları, həmçinin D. Cons və onun şagirdləri tərəfindən ifadə planında müəyyən edilmiş və invariantlara fonem adı verilmişdir" (Мартине: 1960, 157). Sitata əsasən, fonem invariant kimi xarakterizə olunmağa başlamış, onun səs realizasiyası isə nitq axınında fonem növləri, yəni variantlar adlandırılmışdır.

Variativliyin ilk interpretasiyası yalnız "variant" və "variasiya" anlayışlarını əhatə edir. Bu yanaşmada dəyişkənlik, müəyyən bir standart və ya nümunə ətrafında baş verən dəyişikliklər kimi qəbul edilir; variant isə bu standartdan sapma və ya onun modifikasiyasıdır. Alternativ yanaşma isə "invariant" terminini və variant/invariant oppozisiyasını bu yanaşmaya daxil edir. Linqvistikada variantlar, ümumiyyətlə, öz dəyişikliklərinə baxmayaraq, identikliyini qoruyan eyni dil vahidinin müxtəlif təzahürləri və ya variantları kimi təqdim olunur. Dil vahidinin müxtəlif variantları həm konkret səslərdə, həm də nitqin digər aspektlərində həmin vahidin əsas xüsusiyyətini əks etdirir. Bu təsvir, daha dəqiq və elmi terminologiyadan istifadə edərək anlayışların mahiyyətini aydınlaşdırır. Invariant, konkret variantlardan (modifikasiyalardan), eyni fonemin, morfemın, leksimin və s. abstrakt təsvirindən başqa bir şey deyildir. Bu, variant və invariant anlayışlarının bir növ korrelyasiyasından, yəni invariantın dilə, variantların isə nitqə aid olmasından danışmağa imkan verir. Dil vahidləri, yəni invariantlar, mücərrəddir və ümumiləşdirici xüsusiyyətə malikdirlər, nitq nümunələri isə konkretdir və nitq fəaliyyəti prosesində reallaşırlar.

Dil variativliyi modelləri arasında invariant-variant nəzəriyyəsi ən geniş yayılanıdır. Bu nəzəriyyənin əsas müddəalarına görə, dil vahidinin konkret realizasiyası olan variant anlayışı, bütün variantlarının əsas əlamətlərinin cəminə malik abstrakt vahid olan invariant anlayışına qarşı qoyulur. Linqvistik baxımdan belə bir təsvirdə invariant, həmin dil vahidinin tərkibinə daxil olan variantların ümumi xüsusiyyətlərinin öyrənilməsi üçün istifadə oluna bilən ideal bir vahiddir.

Variantlıq, hər şeydən əvvəl, təbii dilin formal tərəfinə xasdır və buna görə də dil sisteminin bütün səviyyələrində mövcuddur. Lakin dil vahidlərinin variantlığı dil sisteminin müxtəlif səviyyələrində eyni dərəcədə özünü göstərmir. Məsələn, dil vahidləri ilə formalaşan fonoloji səviyyədə fonemin allofonları, yəni invariantlar, adətən, vahidlərin fonetik xüsusiyyətlərinə əsasən müəyyən edilir. Dilin vahidlərinin – morfem, leksik və s. səviyyələrində invariantların müəyyən edilməsi üçün fonetik xüsusiyyətlər uyğun deyil, lakin bu halda semantika və funksiya əhəmiyyətlidir. Dil vahidlərinin allofonları və invariantları dil sisteminin müxtəlif səviyyələrini təşkil etmir. Variantlar və invariantlar ümumi ilə fərdi arasındakı münasibətə əsaslanan dil sisteminin ayrıca bir səviyyəsini yaradır. Eyni səviyyə çərçivəsində vahidlərdən həm variant kimi, həm də invariant kimi danışmaq lazımdır.

Dil vahidlərində variantların mövcudluğu dil normasının aktual problemini ortaya qoyur. K.S. Qorbaçeviç dil normasını belə izah edir: dil norması – "ədəbi dilin inkişafının müəyyən mərhələsində tələffüz, ifadə, qrammatika və üslub nitq vasitələrindən istifadə qaydalarıdır. Bu, dil elementlərinin (sözlərin, söz birləşmələrinin, cümlələrin) vahid, nümunəvi, ümumi qəbul olunmuş formasıdır" (Горбачевич: 2009, 188). Beləliklə, dil işarələrinin variantlarının mövcudluğunun tədqiqi dilin inkişafındakı tendensiyaların, dilin müəyyən mərhələsində baş verən dinamik proseslərin müəyyən edilməsində mühüm mərhələ sayılır. Lakin, dil daim dəyişən və inkişaf edən bir sistemdir. Bu dəyişikliklər, əsasən də variantlıq formasında özünü göstərir. Belə ki, bir çox söz və qrammatik quruluşlar müxtəlif formalarda işlənə bilər. Bu variantların öyrənilməsi isə dilin inkişaf tendensiyalarını aşkara çıxarmaq, müəyyən mərhələdə baş verən canlı prosesləri izləmək üçün mühüm əhəmiyyət kəsb edir. Dil normasının təsviri və tənzimlənməsi zamanı variantların statusu, onların yayılma dərəcəsi, funksional xüsusiyyətləri və sosial-mədəni kontekstləri diqqətlə nəzərə alınmalıdır. Çünki dil normasının əsas funksiyası, ancaq dilin dinamikasında variantlığın rolunu

adekvat qiymətləndirmək, dilin canlılığını qoruyub saxlayaraq vahidlik və aydınlığı təmin etməkdir. Beləliklə, variantlıq dilin canlılığını və dinamikasını anlamaq üçün əsas vasitələrdən biridir.

Linqvistik baxımdan invariantı tədqiq olunan sistemli dil vahidlərinin xassəsi (əlaməti) və ya xassələr (əlamətlər) kompleksi kimi təyin etmək olar. Bu xassə və ya kompleks, əsas sistemin ətraf mühitlə (istifadə mühiti) və fonetik mövqelərlə qarşılıqlı təsirinə bağlı olan bütün dəyişikliklər zamanı dəyişməz qalır. Bu fakt, birmənalı olaraq göstərir ki, hər hansı bir  dil səviyyəsinin invariant vahidi tamamilə mücərrəd anlayış kimi qəbul edilməməlidir. İnvariantlığı isə sistem üçün əhəmiyyətli olan dil münasibətlərinin onun müəyyən realizasiyalarında dəyişməmə qabiliyyəti kimi izah etmək olar. V.D. Devkinin fikrincə, "variantlıq isə bütün dili, onun sistemini və nitqdə reallaşmasını əhatə edir və ontoloji, universal xassədir" (Девкин: 1981, 17).

Müasir dil nəzəriyyəsi tədqiqatlarında dilin (və ya nitqin) variativliyi, ilk növbədə, dilin inkişafı və nitqdə reallaşması zamanı fonoloji, morfoloji, leksik və s. səviyyələrdə ifadə vahidləri yaratmaq xassəsi və qabiliyyəti kimi nəzərdən keçirilir. Bu, daxili və xarici dil amillərinin təsiri altında baş verir. Lakin konkret realizasiyada fonemlərin, yalnız ifadə planına, yəni formaya malik olan uniteral vahidlərin variasiyası dilin vahidlərinin (morfem, söz, cümlə) variasiyasından əsaslı şəkildə fərqlənir.

Əgər variativliyi müxtəlif dəyişikliklər zamanı öz identikliyini saxlayan dil vahidinin xassəsi kimi xarakterizə etmək mümkündürsə, variantlığı isə öz identikliyini qoruyaraq dil sisteminin vahidlərinin müxtəlif realizasiya və modifikasiyalarının məcmusu kimi izah etmək olar. Variant və invariant arasındakı əlaqə qarşılıqlıdır. Onlar sanki iki semiotik sistemi təmsil edirlər. Onlar fərqlidir, lakin bir-biri ilə bir çox təmas nöqtəsinə malikdirlər.

"Variantlıq" və "variativlik" terminlərinin məna bərabərsizliyi problemi A.A. Xudyakovun əsərlərində öz əksini tapmışdır. Müəllif dil vahidlərinin variativliyi dedikdə, onların həm sinxron, həm də diaxronik aspektlərdə dəyişkənliyini nəzərdə tutur və bu termini "variasiya" termini ilə sinonim olaraq işlədir. "Variantlıq" termini dildə variantların mövcudluğunu, variantlar isə invariantın mövcudluğunu nəzərdə tutur. A.A. Xudyakovun fikrincə, bəzən "dildə, xüsusilə onun işarə səviyyələrində, həqiqətən mövcud olan variantlar üçün invariantı ayırmaq həmişə mümkün olmadığı və belə cəhdlərin tez-tez süni xarakter daşıdığı nəzərə alınaraq, "variativlik" termini daha məqbuldur, çünki o, göründüyü kimi, bizə mütləq invariant axtarmaq öhdəliyi qoymur – o, dildə dəyişkənliyin bir fenomen kimi mövcudluğu ilə əlaqədardır və tədqiqat metodologiyası baxımından tamamilə neytral xarakter daşıyır" (Худяков:2010, 155). İnvariantı müxtəlif dəyişikliklərdə təmsil olunan dinamik bir vahid kimi nəzərdən keçirmək olar. Dil və nitq səviyyələrini ardıcıl olaraq ayıran yanaşmada invariantı dil sisteminin səviyyəsinə, variantı isə nitq səviyyəsinə aid etmək mümkündür.

İnvariant/variant qarşıdurmasını dil işarəsinin mənası/ifadəsi ilə əlaqələndirmək olar. Dil sistemində fonetik mövqelərin, yəni mənaların sayı ciddi şəkildə məhduddur (məsələn, hər hansı dilin fonoloji sistemində fonemlərin sayı məhduddur), halbuki nitq axınında ifadəni təmsil edən realizasiyaların sayı çox böyükdür və nəzəri olaraq hesablana bilməz. Beləliklə, dilin invariantları nitqin real variantlarda reallaşmasına kömək edir. L.M. Skrelinanın fikrincə, "dil invariantları və nitq variantları arasındakı bu münasibətin əsasında minimal dil planı və maksimal nitq planından ibarət olan yüksək iqtisadiyyat prinsipi dayanır" (Скрелина, 2009, 105).

Dil hadisələrinə variant-invariant yanaşması əvvəlcə fonologiyada öz əksini tapmışdır. Belə ki, R.O. Yakobson və M. Halle "fonem təhlilinin müəyyən variasiyalar zamanı dəyişməz olduğu"fikrini irəli sürmüşlər (Yakobson, Halle, 1962).Onlar bu yanaşmada, fonemlərin (səs vahidlərinin) müxtəlif variantlara malik ola biləcəyini, amma bəzi xüsusiyyətlərinin və ya komponentlərinin  variasiyadan asılı olmayaraq dəyişməz qaldığını vurğulamışlar.

Dil vahidlərinin öyrənilməsinə bu "dixotomatik" yanaşma iki sıra linqvistik terminin – emik və etik terminlərin yaranmasına səbəb olmuşdur ki, V.M. Solntsevin tərifinə görə, bu terminlər "cütlər əmələ gətirir: fonem - fon (allofon); morfem - morf (allomorf); leksik - leks (alloleks) və s. Cütlərin ilk üzvləri invariant vahidlər, ikincilər isə variant vahidlər üçün istifadə olunur" ( Солнцев: 1998, 80).

Bu dixotomiya dil vahidlərinin həm abstrakt sistem səviyyədəki təmsilini, həm də onların konkret, müxtəlif kontekstlərə uyğun dəyişən formalarını ayırd etməyə imkan verir. Lakin bu dixotomiya həmişə aydın şəkildə fərqləndirilə bilmir və bəzi hallarda tədqiqatçılar tərəfindən mübahisələrə səbəb olur. Bu dixotomiya əsasən sinxron dil təhlili üçün faydalıdır, diaxronik təhlildə isə daha mürəkkəb yanaşmalar tələb olunur.

Müasir dilçilikdə dil sisteminin bütün səviyyələrinin vahidlərinin taksonomik öyrənilməsi əvəzinə onların keyfiyyət və kəmiyyət dəyişikliklərinin normativ səviyyədə öyrənilməsinə üstünlük verilir. Məhz bu səbəbdən dilçilik elmində uzun müddət dominant olan dixotomatik yanaşma dil faktı və hadisələrinin trixotomatik təsvirinə yol verir. Əvvəlcə akademik L.V. Şerbaya, sonra isə E. Kossery tərəfindən əsaslı və ətraflı işlənmiş dil faktlarına trixotomatik yanaşmanın tərəfdarlarının sayı artmaqdadır. Qeyd edək ki, dixotomatik yanaşmada – dil-nitq aktı qarşıdurmasında norma səviyyəsi nəzərə alınmır, buna görə də dil vahidlərinin nitq aktında reallaşma xüsusiyyətlərinin, o cümlədən variantlığın aşkarlanması tədqiqatın hüdudlarından kənarda qalır. Yalnız bu zaman, dil sisteminin nitq aktında reallaşmasının tam və çoxşaxəli interpretasiyasını vermək mümkündür. Çünki variantlıq hadisəsi nəzərə alınmadan dil nəzəriyyəsi natamam və adekvat olmayacaqdır. Trioxotomatik yanaşmada fonemlər bir sistem əmələ gətirir, burada onlar diferensial əlamətlər əsasında birbirinə qarşı qoyulur. Bu sistemdə variantlar norma səviyyəsini təmsil edən vahidlər, səslər isə nitqdə fonemlərin konkret reallaşmasıdır. Eyni fonemin bütün variantları eyni diferensial əlamətləri saxlayır, yəni onları digər fonemlərdən fərqləndirən əsas xüsusiyyətləri bölüşürlər. Lakin fonetik kontekstdən – yəni səsin ətrafındakı digər səslərdən – asılı olaraq, variantlar müxtəlif inteqral əlamətlər əldə edir. Məsələn, bir fonemin səs uzunluğu, tonu və ya artikulyasiya nöqtəsində kiçik dəyişikliklər göstərən variantları ola bilər, amma bu dəyişikliklər onun əsas diferensial əlamətlərini dəyişdirmir. Beləliklə, hər bir fonem bir dilin təməl vahidi olmaqla yanaşı, müxtəlif şəraitlərdə fərqli səs şəklində özünü ifadə edə bilər.Bu yanaşma sadəcə invariant və variant dixotomiyasından daha çox, abstrakt fonem təfsirindən, norma səviyyəsindəki variantlardan və nitqdəki real səslərdən ibarət dinamik bir münasibəti əks etdirir. Fonemin, variantın və səsin qarşılıqlı əlaqəsi dinamikdir və kontekstdən asılıdır. Bu kontekst asılılığı fonemlərin nitqdə reallaşmasının düzgün anlaşılması üçün çox əhəmiyyətlidir. Trioxotomatik yanaşma dilin statik deyil, dinamik və dəyişkən bir sistem olduğunu vurğulayır.

Dil hadisələrinə tətbiq olunan üçlü (ternar) yanaşmada, hər səviyyə özünəməxsus vahidləri ilə təmsil olunur və bu səviyyələr birlikdə dialekt birliyi əmələ gətirir. Bu iyerarxiyada ən aşağı səviyyədə nitq səviyyəsi yer alır ki, bu da fonlar (səslər) ilə ifadə olunur. Daha yüksək səviyyədə isə norma səviyyəsi yer alır və variantlar (allofonlar) ilə təmsil olunur. İyerarxiyanın ən yuxarı pilləsini isə dil sisteminin əsas vahidləri olan fonemlər təşkil edir. Yəni, konkret səslər (fonlar) nitqdə müşahidə olunur, onların müəyyən qrupları isə dil normasına uyğun variantları (allofonları) əmələ gətirir, bu variantların isə əsasında abstrakt fonem anlayışı dayanır. Bu üç səviyyənin qarşılıqlı əlaqəsi dilin struktur və funksiyalarının tam başa düşülməsi üçün vacibdir. Bütün bu faktlara baxmayaraq, invariantı müstəqil bir element kimi təcrid etmək məqsədəuyğun deyil, çünki o, yalnız ayrı-ayrı variantların ümumi xüsusiyyətləri kimi mövcuddur. İnvariant və variant dil işarəsinin iki əsas tərəfini təmsil edir. Mücərrəd invariant özündə variantların bütün xüsusiyyətlərini birləşdirir. O, həm bütün variantları ümumiləşdirir, həm də hər bir konkret variantı özündə əks etdirir. Beləliklə, invariant xüsusiyyətləri, yəni invariantları öyrənməklə biz həm dil işarəsinin (məsələn, fonemin) əsas xüsusiyyətlərini ümumi şəkildə, həm də hər bir konkret variantın özəlliklərini ayrıca təhlil etmək imkanı əldə edirik. İnvariantın öyrənilməsi variantların müqayisəli təhlilini və onların arxasında duran ümumi qanunauyğunluqların aşkarlanmasını təmin edir. Bu yanaşma dil işarələrinin həm sistematik, həm də funksional xüsusiyyətlərinin daha dolğun təsvirini verir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Гамперц Дж. (1975). Типы языковых обществ // Новое в лингвистике. – М.: Прогресс, – Вып. 7. – С. 182–198.

2. Горбачевич К.С. (2009). Вариантность слова и языковая норма: На материале современного русского языка / Отв. ред. Ф.П. Филин. Изд. 2-е. – М: Книжный дом «Либроком», – 240 с.

3. Девкин В.Д.(1981). Парадоксы в немецком языке // ИЯШ, №2, с. 15-21

4. Мартине А.(1960). Принцип экономии в фонетических изменениях. (Проблемы диахро¬нической фонологии). Издательство иностранной литературы. – М. – 264 с.

5. Скрелина, Л.М. (2009) Школа Гийома: психосистематика: учеб. пособие / Л.М. Скрелина. – М.: Высш. шк., – 367 с.

6. Солнцев В.М. (1998). Вариантность // Языкознание. Большой энциклопе¬дический словарь / Гл. ред. В.Н. Ярцева. 2-е изд. – М.: Большая российская энциклопедия, – С. 80 – 81

7. Худяков А.А. (2010).Теоретическая грамматика английского языка: Учеб. пособие для студ. филол. фак. и фак. ин. яз. высш. учеб. заведений. – М: Издательский центр «Академия», – 256 с.

8. Якобсон Р., Халле М. (1962). Фонология и её отношение к фонетике / Р. Якобсон, М. Халле // Новое в лингвистике. - М.: Наука, - Вып. II. -С. 234-278.

# ƏCZAÇILIQ MÜƏSSISƏLƏRINDƏ ALICILARIN PSIXOTIPLƏRI

# PSYCHOTYPES OF BUYERS IN PHARMACEUTICAL ESTABLISHMENTS

**Gülxanım Əliyeva**

Azərbaycan Tibb Universiteti, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası

Bakı, Azərbaycan

https://orcid.org/0009-0005-5358-6425

**Yaqut Hacıyeva**

Azərbaycan Tibb Universiteti, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası

Bakı, Azərbaycan

[2]https://orcid.org/0009-0006-7625-8579

## XÜLASƏ

**Tədqiqatın məqsədi.** Aptek müştərilərinin psixotiplərinin və onların əczaçılıq müəssisələrinin işçilərinə təsirinin öyrənilməsi. **Material və metodlar.** Tədqiqat işi Baki şəhərində yerləşən müxtəlif mülkiyyət formalarına malik pərakəndə 21 aptek təşkilatları, həmçinin müxtəlif vəzifələrdə çalışan aptek təşkilatlarının əməkdaşları olub. **Nəticələr.** Aptek müəssisələrində istehlakçıların davranışlarına dair sosioloji tədqiqatın (anketləşdirmə və müsahibə) eksperimental məlumatları (356 istehlakçı anketi) və aptek təşkilatlarının əməkdaşlarına dair (260 anket) məlumatlar, həmçinin 192 nəfər əczaçılıq mütəxəssisin test nəticələri istifadə olunmuşdur. **Yekun**. Əczaçılıq müəssisələrinin tədqiqatının nəticələrinin işlənməsi zamanı bir ziyarətçinin orta statistik portreti tərtib edildi. Alıcıların əsas davranış xüsusiyyətlərinə görə gələn bütün müştəriləri şərti olaraq üç psixotipə bölmək olar:

1.ünsiyyət yönümlü (onlar həmsöhbətini yaxşı anlayır və onun razılığını almaq üçün var gücü ilə çalışırlar);

2.özlərini təsdiq etməyə çalışan (impulsiv, dinamik və konkret-praktik təfəkkürə və "partlayıcı" temperamentə malik olan müştərilər);

3.ağlın səsi ilə idarə olunur (suallar verirlər, bir müddət cavablar üzərində düşünürlər və yalnız bundan sonra son seçim edirlər). Müəyyən edilmişdir ki, aptek seçimində ən mühüm amillərdən biri yüksək keyfiyyətli xidmət və işçilərin peşəkar savadlılığı, onların ziyarətçilərə diqqətli münasibət idi.Yuxarıda qeyd olunan amilləri nəzərə alaraq, qeyd etmək lazımdır ki, ictimai aptekdə iş şəraiti həmçinin əczaçılara onların xəstələrə təhlükəsiz yardım göstərmə qabiliyyətinə təsir göstərə bilər.

**Açar sözlər:** əczaçılar, əczaçı yardımı, aptek müştəriləri

## ABSTRACT

**Purpose of the study.** Study of the psychotypes of pharmacy customers and their impact on employees of pharmaceutical enterprises. **Material and methods**. The research subjects were 21 retail pharmacy organizations with various forms of ownership located in Baku, as well as employees of pharmacy organizations working in various positions. **Results.** Experimental data from a sociological study (survey and interview) on consumer behavior in pharmacy establishments (356 consumer questionnaires) and data on employees of pharmacy organizations (260 questionnaires), as well as test results of 192 pharmaceutical specialists, were used. **Conclusion.** During the processing of the results of the survey of pharmaceutical enterprises, an average statistical portrait of a visitor was compiled. All customers who come to us, based on the main behavioral characteristics of buyers, can be conditionally divided into three psychotypes:

1. communication-oriented (they understand their interlocutor well and do their best to gain his approval);

2. trying to assert themselves (clients with impulsive, dynamic and concrete-practical thinking and an “explosive” temperament);

3. guided by the voice of reason (they ask questions, think about the answers for a while and only then make the final choice).

It was found that one of the most important factors in choosing a pharmacy was high-quality service and professional competence of employees, their attentive attitude towards visitors. Taking into account the above factors, it should be noted that working conditions in a community pharmacy can also affect pharmacists' ability to provide safe care to patients.

**keywords:** pharmacists, pharmacist assistance, pharmacy customers

**Giriş.** Əvvəllər həkim əczaçı yardımı çərçivəsində farmakoterapiyanın nəticələrinə görə əsas məsuliyyəti daşıyırdısa, hal hazırda əczaçı yardımı göstərilməsi kontekstində əczaçı pasiyentin rifahı üçün mənəvi öhdəliyi öz üzərinə götürür və həkimlə birgə məsuliyyət daşımaqla yanaşı farmakoterapiya prosesinə fəal müdaxilə edir. Aptekə gələn insanlarla ünsiyyət qurmaq asan olmur.Əczaçı peşəkar yardıma ehtiyacı olan hər bir müştəriyə yanaşma tapmaq bacarığına malik olmalıdır və dərmanlar haqqında bilikləri ilə bölüşməyə bacarmalıdır.

**Tədqiqatın məqsədi.** Aptek müştərilərinin psixotiplərinin və onların əczaçılıq müəssisələrinin işçilərinə təsirinin öyrənilməsi.

**Materiallar və metodlar:** Tədqiqat işi Baki şəhərində yerləşən müxtəlif mülkiyyət formalarına malik pərakəndə 21 aptek təşkilatları, həmçinin müxtəlif vəzifələrdə çalışan aptek təşkilatlarının əməkdaşları olub. Məqsədimiz istehlakçıların psixo-emosional vəziyyətini və bu amilin əczaçılığın yardım göstərən aptek əməkdaşlarına təsirini müəyyənləşdirmək idi və bu məqsədilə istehlakçıların əsas qrupları müəyyən edilmişdir.

**Nəticələr.** Aptek müəssisələrində istehlakçıların davranışlarına dair sosioloji tədqiqatın (anketləşdirmə və müsahibə) eksperimental məlumatları (356 istehlakçı anketi) və aptek təşkilatlarının əməkdaşlarına dair (260 anket) məlumatlar, həmçinin 192 nəfər əczaçılıq mütəxəssisin test nəticələri istifadə olunmuşdur. Tədqiqat prosesi zamanı məntiqi və sistemli yanaşmalar, sosioloji və kvalimetrik tədqiqat metodları, qrafik analiz üsulları, ekspert qiymətləndirməsi metodları tətbiq edilmişdir.

**Yekun**. Əczaçılıq müəssisələrinin tədqiqatının nəticələrinin işlənməsi zamanı bir ziyarətçinin orta statistik portreti tərtib edildi, həmçinin cinsdən, yaşdan, yaşayış yerindən ("yerli" və ya "tranzit" axını) asılı olaraq alıcıların əsas davranış xüsusiyyətlərinə görə gələn bütün müştəriləri şərti olaraq üç psixotipə bölmək olar:

1.ünsiyyət yönümlü (onlar həmsöhbətini yaxşı anlayır və onun razılığını almaq üçün var gücü ilə çalışırlar)

2.özlərini təsdiq etməyə çalışan (impulsiv, dinamik, konkret-praktik təfəkkürə və “partlayıcı” temperamentə malik olan müştərilər);

3.ağlın səsi ilə idarə olunur (suallar verirlər, bir müddət cavablar üzərində düşünürlər və yalnız bundan sonra son seçim edirlər)

Müəyyən edilmişdir ki, aptek seçimində ən mühüm amillərdən biri yüksək keyfiyyətli xidmət və işçilərin peşəkar savadlılığı, onların ziyarətçilərə diqqətli münasibət idi.Yuxarıda qeyd olunan amilləri nəzərə alaraq, qeyd etmək lazımdır ki, ictimai aptekdə iş şəraiti həmçinin əczaçılara onların xəstələrə təhlükəsiz yardım göstərmə qabiliyyətinə təsir göstərə bilər.

# YAŞLI İNSANLARIN TİBBİ MÜRACİƏTLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

# FEATURES OF MEDICAL REFERENCES OF ELDERLY PEOPLE

**Yaqut Hacıyeva[1]**
Azərbaycan Tibb Universiteti, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası
Bakı, Azərbaycan
[1]https://orcid.org/0009-0006-7625-8579
**Gülxanım Əliyeva[2]**
Azərbaycan Tibb Universiteti, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası
Bakı, Azərbaycan
[2]https://orcid.org/0009-0005-5358-6425

## XÜLASƏ

**Tədqiqatın məqsədi.** Yaşlı əhali arasında tibbi müraciətlərin xüsusiyyətlərinin öyrənilməsi və qiymətləndirilməsi**. Material və metodlar.** Tədqiqat işi Bakı şəhəri 22 saylı şəhər poliklinikasında aparılmış, 65 yaşdan yuxarı 2037 nəfərin ambulator kartı təhlil olunmuşdur. **Nəticələr.** İl ərzində poliklinikaya cəmi 4844 müraciət olmuşdur. Ürəyin işemik xəstəliyi ilə 678 (33,3±1,0%), arterial hipertoniya ilə 859 (42,2±1,1%), 2-ci tip şəkərli diabet ilə 534 (26,5±1,0%), digər xroniki xəstəliklərlə 481 (23,6±0,9%), qocalıqla bağlı xəstəliklərlə 437 (21,5±0,9%), həmçinin müştərək xəstəliklərlə (2-7 nozoform) bağlı 952 (46,7±1.1%) ambulator kart təhlil olunmuşdur. Tibbi müraciətlər cəmi ürək xəstəliyinə görə 1644, arterial hipertoniyaya görə 1758, 2-ci tip şəkərli diabetə görə 1319, digər xəstəliklərə görə 804, qocalıqla bağlı xəstəliklərə görə 828 olmuşdur. Hər xəstəyə düşən müraciətlərin sayı ürək xəstəliklərinə görə 2,42±0.14, arterial hipertoniyaya görə 2,05±0,13, 2-ci tip şəkərli diabetə görə 2,47±0,12, digər xəstəliklərə görə 1,84±0,15, qocalıqla bağlı xəstəliklərə görə 1,89±0,16 təşkil etmişdir. **Yekun**. Yaşlı əhali tərəfindən poliklinikaya müraciətlərin səviyyəsi çox aşağıdır. Bunun əsas səbəbi poliklinikaya gəlişlərdə fiziki məhdudiyyət, həkim növbəsi ilə bağlı çətinliklərdir. Ona görə də poliklinikalarda yaşlı əhali üçün xüsusi qəbul günləri və qəbul saatlarının təyin olunması, poliklinikaya gəlişlərdə fiziki çətinlik olduqda isə mütəmadi olaraq evdə müayinələrin aparılmasının təşkil olunması məsləhətdir.

**Açar sözlər:** yaşlı əhali, tibbi müraciətlər, yaşla bağlı xəstəliklər

## ABSTRACT

**Purpose of the study.** Study and assessment of the characteristics of medical applications among the elderly population. **Materials and methods**. The research work was conducted in Baku city polyclinic No. 22, outpatient cards of 2037 people over 65 years of age were analyzed. **Results.** A total of 4844 applications were made to the polyclinic during the year. 678 (33.3±1.0%) outpatient cards were analyzed for ischemic heart disease, 859 (42.2±1.1%) for arterial hypertension, 534 (26.5±1.0%) for type 2 diabetes, 481 (23.6±0.9%) for other chronic diseases, 437 (21.5±0.9%) for old age-related diseases, as well as 952 (46.7±1.1%) for comorbid diseases (2-7 nosoforms). The total number of medical applications was 1644 for heart disease, 1758 for arterial hypertension, 1319 for type 2 diabetes, 804 for other diseases, and 828 for diseases related to old age. The number of applications per patient was 2.42±0.14 for heart disease, 2.05±0.13 for arterial hypertension, 2.47±0.12 for type 2 diabetes, 1.84±0.15 for other diseases, and 1.89±0.16 for diseases related to old age. **Conclusion.** The level of applications to polyclinics by the elderly population is very low. The main reason for this is physical limitations in visiting the polyclinic and difficulties with doctor's

shifts. Therefore, it is advisable to set special reception days and reception hours for the elderly population in polyclinics, and in case of physical difficulties in visiting the polyclinic, to organize regular home examinations.

**Keywords:** elderly population, medical applications, age-related diseases

**Giriş.** Yaşlı əhali arasında xroniki xəstəliklər çox müşahidə edilməklə yanaşı, yaşla əlaqəli xəstəliklərin də artması müşahidə edilir. Yaşlı insanlar çox vaxt şikayətlərini qocalıqla əlaqələndirərək həkimə müraciət etmirlər. Bu səbəbdən onlar arasında xəstəliklərin daha da inkişaf etməsi və ağırlaşması baş verir.

**Tədqiqatın məqsədi.** Yaşlı əhali arasında tibbi müraciətlərin xüsusiyyətlərinin öyrənilməsi və qiymətləndirilməsi

**Material və metodlar.** Tədqiqat işi Bakı şəhəri 22 saylı şəhər poliklinikasında aparılmış, 65 yaşdan yuxarı 2037 nəfərin ambulator kartı təhlil olunmuşdur.

**Nəticələr.** Tədqiqatın nəticələrinə görə il ərzində poliklinikaya cəmi 4844 müraciət olmuşdur. Ürəyin işemik xəstəliyi ilə 678 (33,3±1,0%), arterial hipertoniya ilə 859 (42,2±1,1%), 2-ci tip şəkərli diabet ilə 534 (26,5±1,0%), digər xroniki xəstəliklərlə 481 (23,6±0,9%), qocalıqla bağlı xəstəliklərlə 437 (21,5±0,9%), həmçinin müştərək xəstəliklərlə (2-7 nozoform) bağlı 952 (46,7±1.1%) ambulator kart təhlil olunmuşdur. Tibbi müraciətlər cəmi ürək xəstəliyinə görə 1644, arterial hipertoniyaya görə 1758, 2-ci tip şəkərli diabetə görə 1319, digər xəstəliklərə görə 804, qocalıqla bağlı xəstəliklərə görə 828 olmuşdur. Hər xəstəyə düşən müraciətlərin sayı ürək xəstəliklərinə görə 2,42±0.14, arterial hipertoniyaya görə 2,05±0,13, 2-ci tip şəkərli diabetə görə 2,47±0,12, digər xəstəliklərə görə 1,84±0,15, qocalıqla bağlı xəstəliklərə görə 1,89±0,16 təşkil etmişdir.

**Yekun**. Yaşlı əhali tərəfindən poliklinikaya müraciətlərin səviyyəsi çox aşağıdır. Bunun əsas səbəbi poliklinikaya gəlişlərdə fiziki məhdudiyyət, həkim növbəsi ilə bağlı çətinliklərdir. Ona görə də poliklinikalarda yaşlı əhali üçün xüsusi qəbul günləri və qəbul saatlarının təyin olunması, poliklinikaya gəlişlərdə fiziki çətinlik olduqda isə mütəmadi olaraq evdə müayinələrin aparılmasının təşkil olunması məsləhətdir.

# ŞƏRQİ ZƏNGƏZUR DENDROFLORASININ MÜASİR VƏZİYYƏTİ VƏ MÜHAFİZƏSİ

# CURRENT STATUS AND CONSERVATION OF THE EASTERN ZANGAZUR DENDROFLORA

**b.ü.f.d., dos. Minarə Həsənova,**
AR Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutu
ORCID iD: 0000-0002-5891-5719
**doktorant Bahar Məmmədova**
Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutu
ORCID ID 0009-0000-1103-3199
**b.e.d., prof. Elman İsgəndər**
AR Elm və Təhsil Nazirliyi Mikrobiologiya İnstitutu
ORCID ID 0009-0004-0790-2784

**Xülasə**

Şərqi Zəngəzur dendroflorasının müasir vəziyyəti, yaşıllaşdırma üçün perspektivli ağac və kolların müəyyən edilərək, bioekoloji xüsusiyyətlərinin öyrənilməsi və istifadə imkanlarının aşkar edilməsi günümüzün aktual məsələlərindəndir. Son dövrlərdə Dendrologiya İnstitutunun əməkdaşları tərəfindən tədqiqat bölgəsində monitorinqlər aparılmış, bu bölgədə olan oduncaqlı bitkilərin, o cümlədən nadir və nəsli kəsilməkdə olan növlərinin təbii yayılma arealları müəyyən edilmiş, botaniki təsviri verilərək, yayılma yerinin şəraitindən asılı olaraq ekologiyası öyrənilərək təhlil edilmişdir. Nadir və nəsli kəsilməkdə olan oduncaqlı bitkilərin ekoloji, bioloji və dekorativ xüsusiyyətlərini nəzərə alaraq introduksiya edilməsi mədəni floranın zənginləşdirilməsinə səbəb olmuşdur.

İnstitutda aparılan tədqiqat işlərinin əsas məqsədi Azərbaycanın təbii və mədəni florasında yayılmış ağac və kol bitkilərinin, o cümlədən nəsli təhlükədə statuslu növlərin müəyyənləşdirərək onların repatriasiyası, meşə fitosenozlarının strukturunun öyrənilməsi və mühafizəsi, oduncaqlı bitkilər üzərində müşahidə edilən xəstəliktörədici və zərərvericilərinin tədqiqi və onlara qarşı kompleks mübarizə üsullarının işlənib hazırlanması və yeni növlərin *ex situ* şəraitinə introduksiya tədqiqat işinin vəzifələrindəndir. Tədqiqat ərazilərində radiasiyanın fon ölçüləri, torpaq və havanın temperaturu, nisbi rütubəti təyin edilmişdir.

Beləliklə, aparılan tədqiqat işlərinin nəticəsi göstərmişdir ki, tədqiqat ərazisində meşə fitosenozunda struktur pozulmalar müşahidə edilmiş, əsasən edifikator ağac növləri erməni işğalçıları tərəfindən kəsilərək vəhşicəsinə məhv edilmişdir. Tədqiqat ərazisində inventarlaşdırılma və qiymətləndirilmə zamanı dominant, subdominant növlərin müasir vəziyyəti təhlil edilərək, meşəpərpa işlərinin həyata keçrilməsinin vacibliyi qeyd olunmuşdur.

**Açar sözlər:** *Şərqi Zəngəzur, dendroflora, meşə fitosenozu*

**Abstract**

The current state of the dendroflora of Eastern Zangezur, identifying promising trees and shrubs for greening, studying their bioecological characteristics and revealing their use possibilities are among the urgent issues of today. Recently, monitoring has been carried out in the research area by employees of the Institute of Dendrology, the natural distribution areas of woody plants in this region, including rare and endangered species, have been determined, their botanical description has been given, and their ecology has been studied and analyzed depending on the conditions of the place of distribution. The introduction of rare and endangered woody plants, taking into account their

ecological, biological and decorative characteristics, has led to the enrichment of the cultural flora. The main goal of the research work conducted at the institute is to identify and repatriate tree and shrub plants, including endangered species, common in the natural and cultural flora of Azerbaijan, study and protect the structure of forest phytocenoses, study pathogens and pests observed on woody plants and develop complex methods of combating them, and introduce new species to ex situ conditions. Background radiation levels, soil and air temperature, and relative humidity were determined in the study areas.

Thus, the results of the research work showed that structural disruptions were observed in the forest phytocenoses in the study area, mainly edificatory tree species were cut down and brutally destroyed by Armenian invaders. During the inventory and assessment of the study area, the current state of dominant and subdominant species was analyzed, and the importance of carrying out forest clearance works was noted.

**Keywords:** Eastern Zangezur, dendroflora, forest phytocenoses

# TƏHSİLDƏ MÜXTƏLİF YANAŞMALAR VƏ TƏHSİL PROBLEMLƏRİ

## Different approaches and educational problems in education

**Şərifova Aygün Ramiz qızı**
Azərbaycan Respublikası  Elm və Təhsil Nazirliyi
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Fəlsəfə və sosial elmlər kafedrası müəllimi

**Xülasə**

Təhsilə yanaşmalar müxtəlif nəzəriyyələr və metodologiyalar əsasında formalaşmışdır və hər biri özünəməxsus xüsusiyyətlərə malikdir. Bu yanaşmaların əsas məqsədi təhsil prosesini daha effektiv və hərtərəfli şəkildə inkişaf etdirməkdir. Ən mühüm yanaşmalar arasında davranışçı yanaşma, konstruktivist yanaşma, humanist yanaşma və sosial-konstruktivist yanaşma yer alır.

1. **Təhsilin universal məqsədi** fərdi inkişafı dəstəkləmək, öyrənənlərin bilik və bacarıqlarını artırmaq, həmçinin onları sosial və mədəni baxımdan cəmiyyətə uyğun hala gətirməkdir.
2. **Yanaşmaların fərqli olması** təhsilin necə təşkil edilməsi, hansı metodların istifadə edilməsi, müəllimin və şagirdin rolunun nə olacağı kimi suallara cavab tapmağa kömək edir.
3. **Yanaşmaların uyğunlaşması** müasir təhsil sistemlərinin daha çevik və dinamik olmasını təmin edir, müxtəlif təhsil ehtiyaclarına və şəraitlərinə uyğun həllər təklif edir.
4. **Təhsilə yanaşmaların birləşdirilməsi** müasir təhsil sahəsində həm nəzəri, həm də praktiki məsələləri daha geniş çərçivədə nəzərdən keçirməyə imkan verir. Məsələn, müəllimlər həm konstruktivist, həm də humanist yanaşmalardan istifadə edərək şagirdlərin təkcə biliklərini deyil, həm də onların şəxsi inkişafını təmin edə bilərlər.

Beləliklə, təhsilə yanaşmaların müxtəlifliyi və zənginliyi təhsil prosesinin daha effektiv və hərtərəfli şəkildə həyata keçirilməsinə şərait yaradır, hər bir öyrənənin ehtiyaclarına və xüsusiyyətlərinə uyğun yanaşmalar tətbiq edilə bilər.

Müasir təhsil problemləri isə çoxşaxəlidir və müxtəlif sahələri əhatə edir. Təhsil sistemlərinin bu problemlərlə mübarizə aparmaq üçün müasir texnologiyaların, müəllimlərin peşəkar inkişafının və sosial inklüzivliyin gücləndirilməsi vacibdir. Bununla yanaşı, təhsilin yalnız bilik və bacarıqların inkişafını deyil, həm də sosial ədalət, bərabərlik və psixoloji rifahı təmin etməsini hədəfləyən bir yanaşma inkişaf etdirilməlidir.

**Açar sözlər**:Konstruktivist,koqnitiv,eksperimental,inklüzivlik,hibrid,metodologiya,islahat

**Abstract**

Approaches to education have been formed on the basis of various theories and methodologies, each of which has its own unique characteristics. The main goal of these approaches is to develop the educational process more effectively and comprehensively. The most important approaches include the behavioral approach, the constructivist approach, the humanistic approach, and the social-constructivist approach.

The universal purpose of education is to support individual development, to increase the knowledge and skills of learners, and to make them socially and culturally relevant to society.

The diversity of approaches helps to answer questions such as how education should be organized, what methods should be used, and what the roles of teachers and students should be.

Adaptation of approaches ensures that modern education systems are more flexible and dynamic, offering solutions that are suitable for different educational needs and conditions.

Integration of approaches to education allows us to consider both theoretical and practical issues in the field of modern education in a broader framework. For example, teachers can use both constructivist and humanistic approaches to ensure not only the knowledge of students, but also their personal development.

Thus, the diversity and richness of approaches to education creates conditions for a more effective and comprehensive implementation of the educational process, and approaches tailored to the needs and characteristics of each learner can be applied.

**Keywords:** Constructivist, cognitive, experimental, inclusive, hybrid, methodology, reform

Təhsil, insanın bilik, bacarıq, dəyərlər, davranışlar və düşünmə qabiliyyətlərini inkişaf etdirən və onu cəmiyyətə uyğun hala gətirən bir prosesdir. Təhsil, yalnız məktəb və universitetlərlə məhdudlaşmır, həm də həyat boyu davam edən bir fəaliyyət olaraq insanların sosial, emosional və intellektual inkişafına töhfə verir. Təhsilin əsas məqsədi, insanları müstəqil düşünə bilən, məsuliyyətli və cəmiyyətə faydalı fərdlər halına gətirməkdir. Təhsil, təlim-tərbiyə hər bir dövlətin strateji əhəmiyyətli fəaliyyət sahəsi olmaqla həmin dövlətin siyasi-iqtisadi, sosial və mədəni inkişafını müəyyən edir, yeni qurulmuş cəmiyyətin mənəvi dəyərlərini formalaşdırır. Ona görə də, hər bir suveren dövlət təhsilin inkişafına xüsusi diqqət yetirir. Müstəqilliyinin 21-ci ilini yaşayan Azərbaycan Respublikasının bütün sahələr üzrə inkişaf istiqamətləri haqqında söz açarkən, bu istiqamətlərin nə qədər şəffaf və anlaşılan olduğunu dəqiq görmək mümkündür. Müstəqillik qazandıqdan sonra yeni cəmiyyət quruculuğunun sivilizasiyalı, demokratik modellərin axtarışı prosesində, təhsil sisteminin yeniləşməsində dünya təcrübəsinə inteqrasiya geniş miqyas almışdır. İqtisadi sferadan tutmuş sosial həyatın bütün sahələrində müşahidə olunan inkişaf tendensiyası dövlətimizin gələcəyi ilə bağlı nikbin tərzli fikirlərin yaranmasına səbəb olur. Qısa bir müddət ərzində müstəqil ölkəmizin yüksək nailiyyətlər əldə etməsi, beynəlxalq miqyasda əhəmiyyətli təşəbbüslərlə çıxış edən demokratik dövlət kimi tanınması, gündən-günə əhalinin maddi rifahının yüksəlməsi və sair qarşıya qoyulan zəruri məsələlər Azərbaycan Respublikasının tərəqqi indikatorları qismində çıxış edir. Əlbəttə ki, ümumi inkişaf prosesi ölkənin ali və ümumtəhsil sistemində də özünü göstərir. Bu sahədə həyata keçirilən zəruri tədbirlər  atılan uğurlu addımlar, ölkə Prezidenti tərəfindən imzalanan Sərəncam və fərmanlar müasir təhsilin də keyfiyyətinin yüksəlməsinə səbəb olmuşdur. Əvvəlcə bir zəruri məsələni dərindən dərk etməliyik ki, müasir təhsil nə deməkdir və cəmiyyətdə inkişaf stimulu yaradan bu sistem nəyə xidmət edir? Bu zəruri sahənin incəliklərini və sonrakı perspektiv imkanlarını araşdırmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 iyun 2009-cu il tarixdə təsdiq etdiyi "Təhsil haqqında" Qanunun ilk müddəasına nəzər yetirmək kifayətdir: "Bu Qanun vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir, təhsilin ayrı-ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul edilməsində baza rolunu oynayır".Bu bir təkzibolunmaz həqiqətdir ki, bu günümüzdə ən zəruri faktor olan müasir təhsil sistemi yeni formalaşan cəmiyyətin ayrılmaz bir sahəsidir. Bu sivil sferanın inkişafı həmin sosial həyatın hər bir sahəsinin  irəli getməsinə, ölkədə fəaliyyətdə olan bütün sahələrdəki uğurların sayının artırılmasına səbəb olur. Çünki təhsil faktoru hər bir fərdə təsir etmək gücünə malikdir və bunun müsbət nəticəsini sivil cəmiyyətin bütün inkişaf mərhələlərində görmək mümkündür. Bütün bunları nəzərə alaraq yəqinliklə deyə bilərik ki, təhsil:

- cəmiyyətin tərəqqisinin hərəkətverici qüvvəsidir;
- intellektual potensialı formalaşdırır;
- xalqın ümidli gələcək sferasını yaradır;

- yoxsulluğu aradan qaldırır və xalqın rifah halını yaxşılaşdırır;
- hüquqi cəmiyyətin qurulmasında əvəzsiz rol oynayır;
- vətəndaşı cəmiyyətdə ən məhsuldar təfəkkürlü qüvvəyə çevirir;
- fərdin və ya kollektivin ümumi inkişafını təmin edir;
- milli-mənəvi dəyərləri qoruyur və tənzimləyir;
- insan kapitalını formalaşdırır və sair.

Göründüyü kimi, təhsil sektoru həm sosial həyatın, həm də dövlətin əsas, aparıcı sahələrindəndir və onun inkişaf etdirilməsi hər bir dövlətin qarşısında duran vacib prioritetlərdən biridir. Əlbəttə, müasir təhsil sisteminin səviyyəsini daha da yüksəltmək üçün bundan öncə infrastruktur işləri tamamilə tənzimləməli və yekunlaşdırmalı, müasir texniki vasitələrlə təmin olunmuş təhsil ocaqları yaradılmalı, nəhayət, güclü elmi-pedaqoji kadrlar formalaşdırılmalıdır. Prezident İlham Əliyev M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının yeni tədris kompleksinin açılış mərasimindəki çıxışında demişdir: "...Təhsil prosesi lazımi səviyyədə təşkil edilməmişdirsə, tədrisin səviyyəsi axsayırsa, tələbələr bilik qazanmağa nə qədər can atsalar da, nəticə əldə etmək çətin olacaqdır.

Təhsil sisteminin əsas ünsürlərdən biri təhsilə yanaşmalar, tədris və öyrənmə prosesini müxtəlif nəzəri və praktiki perspektivlərdən izah edən yanaşmalardır. Bu yanaşmaların məqsədi, tələbələrin bilik və bacarıqlarını ən yaxşı şəkildə inkişaf etdirmək üçün effektiv təhsil metodları və strategiyaları təqdim etməkdir. Təhsilə yanaşmalar zamanla dəyişmiş və inkişaf etmişdir. Ən geniş yayılmış təhsilə yanaşmalar aşağıdakılardır:

**1. Davranışçı Yanaşma.**Davranışçılıq yanaşması, öyrənmənin müşahidə edilə bilən dəyişikliklərə, xüsusən də davranışlarda baş verən dəyişikliklərə əsaslandığını vurğulayır. Bu yanaşmaya əsasən, təhsil prosesi müəllimin tələbələrə müəyyən bilik və bacarıqları tədris etməsi ilə həyata keçirilir. Əsas metodlar arasında təkrarlama, mükafatlandırma və cəzalandırma vardır.Burada əsas tələblərdən biri tələbə, müəllimin tədris etdiyi materialı qavrayaraq davranışını dəyişdirir.Tətbiq olunan metodlardan biri də Təkrar və təkrarlama, testlər, yarışmalar, mükafatlar və stimullardır.

**2. Konstruktivist Yanaşma.**Konstruktivist yanaşma, öyrənmənin, tələbənin öz təcrübələri və bilikləri əsasında fəal şəkildə qurulması prosesinə diqqət yetirir. Bu yanaşma, Piaget, Vygotski və Dewey kimi alimlərin nəzəriyyələrinə əsaslanır. Konstruktivizmə görə, öyrənənlər yeni məlumatları əvvəlki bilikləri ilə əlaqələndirərək və praktiki təcrübə ilə özləri üçün mənalı hala gətirirlər.

**3. Humanist Yanaşma.**Humanist yanaşma, insanın inkişafına və potensialını ən yüksək səviyyəyə çatdırmağa fokuslanır. Bu yanaşma təhsil prosesində tələbənin özünü həyata keçirməsi, öz şəxsiyyətinin inkişafı və daxili motivasiyasının artırılması kimi prinsiplərə əsaslanır. Humanist pedaqogika, müəllimin tələbəyə şəxsiyyət olaraq yanaşmasını və onların fərdi ehtiyaclarını nəzərə almasını vurğulayır.

**4. Koqnitiv Yanaşma.**Koqnitiv yanaşma öyrənməni beynin məlumatı işləmə və emal etmə prosesi kimi görür. Bu yanaşmaya görə, öyrənmə insanların düşüncə proseslərində baş verən dəyişikliklərlə əlaqədardır. Koqnitivistlər, öyrənmənin, yaddaşın, anlayışın və düşüncənin inkişafına əsaslanır.

**5. Sosial-Yanaşma (Sosial-Konstruktivizm).**Bu yanaşma Vygotski tərəfindən irəli sürülmüşdür və sosial mühitin öyrənməyə təsirini vurğulayır. Sosial konstruktivizmə görə, öyrənmə insanların bir-biri ilə qarşılıqlı əlaqələri və sosial təcrübələr vasitəsilə baş verir. Tələbələr öz biliklərini sosial mühitdə, qrup fəaliyyətlərində və müzakirələrdə qururlar.

**6. Təcrübəçi Yanaşma (Eksperimental Təhsil).**Təcrübəçi yanaşma, öyrənmənin aktiv təcrübə yolu ilə baş verdiyini vurğulayır. Bu yanaşmaya görə, bilik yalnız nəzəri anlayışlarla deyil, real həyat təcrübələri ilə də formalaşır. Bu yanaşma John Dewey tərəfindən inkişaf etdirilmiş və təcrübə əsasında öyrənmə prosesinə fokuslanmışdır.

**7. Təhsil Yanaşmasında Mükəmməllik (Təhsil İslahatı və Kritik Yanaşma).**Təhsil sahəsində mükəmməllik və islahat yanaşması, təhsilin mövcud problemlərini, ədalətsizlikləri və təhsil sistemindəki qeyri-bərabərlikləri müzakirə edir. Bu yanaşma tələbələrin sosial, mədəni və iqtisadi vəziyyətlərinə nəzərən təhsil imkanlarının genişləndirilməsi və bərabərlik prinsiplərinin təmin olunmasını məqsəd qoyur.

**8. Onlayn və Blended (Hibrid) Təhsil Yanaşması.** Bu yanaşma, texnologiyanın təhsildə istifadəsini vurğulayır. Onlayn təhsil və hibrid təhsil yanaşmaları tələbələrin yerindən asılı olmayaraq təhsilə girişini asanlaşdırır və müxtəlif tədris metodlarını birləşdirir. Hibrid təhsil ənənəvi və onlayn təhsil metodlarını birləşdirir.Bu yanaşmaların hər biri təhsilin fərqli aspektlərini vurğulayır və müəyyən şərtlərə və məqsədlərə uyğun olaraq tətbiq edilir. Hər bir yanaşma özünəməxsus üstünlüklərə malikdir və təhsil prosesini zənginləşdirir. Müasir təhsil sistemində bu yanaşmaların birləşdirilməsi daha geniş və effektli nəticələr əldə etməyə imkan yaradır.

Təbii ki, təhsil sahəsi çoxpilləli və çoxşaxəli olduğundan onun inkişafı ilə yanaşı problemləri də vardır.Bütün müsbət təsirlərlə yanaşı biz mövcud olan və həlli mümkün olan təhsil problemlərinə toxunacağıq.

Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı təmin olunmalıdır. Göründüyü kimi sənəddə insan kapitalının formalaşdırılması və bilik iqtisadiyyatına əsaslanan yeni təhsil sisteminin, mühitinin və mexanizminin yaradılması, təhsilin bütün pillələri və səviyyələri üzrə həyata keçiriləcək lazımi fəaliyyət istiqamətləri əksini tapmışdır. Hazırda təhsilin inkişafı istiqamətində əsaslı islahatlar həyata keçirilsə də, bütövlükdə tam və arzuolunan inkişafa nail olmaq hələ ki, mümkün olmamışdır. Bu baxımdan, ölkəmizdə təhsil sahəsində həllini gözləyən problemlər var və onların aradan qaldırılması vacibdir. Onu da qeyd edək ki, ali təhsil sahəsində üzə çıxan problemlər digər təhsil pillələri ilə sıx bağlıdır və onun həlli yalnız özünə bağlı deyil. Ona görə də ali təhsil sferasında olan problemlərin həlli digər təhsil pillələrində olan çatışmazlıqlarla birlikdə mümkün ola bilər.

Yaxşı,bəs təhsil sistemində qarşımıza çıxan problemlər hansılardır?Gəlin birlikdə araşdıraq.

Bildiyimiz kimi,müasir dünyada təhsil müxtəlif problemlərlə üzləşir. Bu problemlər yalnız inkişaf etməkdə olan ölkələrdə deyil, həm də inkişaf etmiş ölkələrdə mövcuddur. Təhsil sektorunun qarşısında duran əsas problemlərdən olan əlçatanlıq və inklüzivlik,müasir texnologiyalar,təhsildə keyfiyyət,təhsilin bazar tələblərinə uyğunluğu,müəllimlərin peşəkarlıq səviyyəsi,təhsil sistemində siyasi faktlar,sosial bərabərsizlik,təhsil islahatları və.s misal göstərmək olar.İndi isə bu problemlər ilə bir-bir tanış olaq:

**1. Əlçatanlıq və İnklüzivlik.** Təhsil imkanlarının hər kəsə bərabər şəkildə təqdim edilməsi, inklüziv təhsil mövzusu müasir təhsil sistemlərinin ən vacib məsələlərindəndir. Bir çox inkişaf etməkdə olan ölkələrdə və hətta inkişaf etmiş ölkələrin bəzi bölgələrində uşaqların təhsildən kənarda qalması, xüsusilə qızların və etnik azlıqların təhsilinə dair ciddi problemlər mövcuddur. Bundan əlavə, əlil uşaqların və digər xüsusi ehtiyacı olan şəxslərin təhsil imkanlarına çatması da böyük bir məsələyə çevrilib.

**2. Texnologiyanın təhsilə təsiri.** Müasir dövrdə texnologiyanın təhsil sektoruna inteqrasiyası həm müsbət, həm də mənfi nəticələrə səbəb olur. Rəqəmsal təhsil alətlərinin istifadəsi təhsilin əlçatanlığını artırsa da, bu sahədəki bərabərsizliklər də daha da dərinləşir. İnternetə çıxışı olmayan və ya təhsil texnologiyalarından faydalana bilməyən bölgələrdə təhsilin keyfiyyəti aşağı olur. Digər tərəfdən, texnologiyanın təhsilə inteqrasiyası da müəllimlərin və tələbələrin bu texnologiyaları effektiv istifadə edə bilmə bacarıqlarını tələb edir, bu isə bir çox hallarda tələblərə cavab vermir.

**3. Təhsilin keyfiyyəti.** Təhsil sistemlərinin keyfiyyəti dünyanın müxtəlif ölkələrində müxtəlif səviyyələrdədir. Yüksək keyfiyyətli təhsil verən ölkələr olsa da, inkişaf etməkdə olan ölkələrdə təhsil

səviyyəsi bəzən aşağı olur. Keyfiyyətli təhsil təminatı üçün lazım olan müəllimlərin ixtisaslaşması, tədris proqramlarının müasir tələblərə uyğunlaşdırılması və müasir təhsil metodlarının tətbiqi məsələləri təhsil problemləri arasında yer alır.

**4. Təhsil və iş bazarının uyğunluğu.** Təhsil sisteminin bazarın tələblərinə uyğun olmaması bir başqa ciddi problemdir. Müasir dövrdə iş dünyası sürətlə dəyişir və çoxsaylı yeni peşələr yaranır. Lakin, bir çox təhsil sistemləri hələ də ənənəvi tədris metodları və mövzuları ilə fəaliyyət göstərir. Nəticədə, məzunlar iş bazarına çıxdıqda, onların bilik və bacarıqları iş yerində tələb olunan bacarıqlarla uyğun gəlməyə bilər.

**5. Müəllimlərin peşəkarlıq səviyyəsi.** Müəllimlərin peşəkar inkişafı və ixtisaslaşması təhsil sistemlərinin effektivliyində vacib rol oynayır. Təcrübəli müəllimlərin çatışmazlığı da təhsil sisteminin ümumi keyfiyyətinə mənfi təsir edir.

**6. Təhsil və sosial bərabərsizlik.** Təhsil sahəsindəki sosial bərabərsizliklər və iqtisadi fərqliliklər ciddi problemlərdən biridir. Yüksək gəlirli ailələr uşaqlarına daha yaxşı təhsil imkanları təqdim edirlər, amma az gəlirli ailələrin uşaqları bəzən təhsildən məhrum qalır və ya aşağı keyfiyyətli təhsil alırlar. Bu bərabərsizlik gələcəkdə daha geniş sosial və iqtisadi fərqlərə səbəb ola bilər.

**7. Psixoloji və sosial çətinliklər.** Müasir dövrdə tələbələrin psixoloji və sosial rifahı ilə bağlı problemlər də artmaqdadır. Stress, depressiya, təhsildə uğursuzluq və sosial təcrid kimi məsələlər uşaqların və gənclərin təhsil almasına mane ola bilər. Pandemiya dövrü bunun daha da artmasına səbəb olub, onlayn təhsilə keçid və fiziki sosial əlaqələrin məhdudlaşması tələbələrin psixoloji vəziyyətini mənfi yöndə təsir edib.

**8. Qlobal təhsil islahatları və müxtəliflik.** Qlobal miqyasda təhsil islahatları və müxtəlif təhsil yanaşmaları fərqli ölkələrdə tətbiq olunur. Hər ölkə öz yerli şərtləri, mədəniyyəti və iqtisadi vəziyyəti nəzərə alaraq təhsil sistemini inkişaf etdirməyə çalışır, lakin bir çox ölkələrdə təhsil islahatları hələ də uyğunlaşdırılmaya və ümumi beynəlxalq standartlarla uyğunlaşdırılmağa ehtiyac duyur.

Bundan başqa əsas məsələlərdən biri də Tədris proqramlarının köhnəlməsidir**.** Bəzi ölkələrdə tədris proqramları müasir tələblərə cavab vermir və dəyişən dünya ilə əlaqəsiz qalır. Bu, tələbələrin iş bazarına və cəmiyyətə uyğun bacarıqlara sahib olmamalarına səbəb olur.Bu mövqedə olan problemlərdən həmçinin qiymətləndirmə və test sistemləridir.Bir çox təhsil sistemində qiymətləndirmə əsasən yazılı testlərə və mətn üzərində qiymətləndirməyə əsaslanır. Bu, tələbələrin yaradıcı düşünmə, problem həll etmə və əmək bazarına uyğun bacarıqları inkişaf etdirməsinə mane ola bilər.Ən əsas işıqlandırılacaq mövzular sırasında bir çox ölkədə təhsil sektoru kifayət qədər maliyyə ilə dəstəklənmir. Təhsil müəssisələrinin təchizatı, müəllimlərin maaşları, infrastruktura sərf edilən xərclər çox vaxt həddindən artıq az olur. Bu, təhsil sisteminin inkişafını əngəlləyir.

Bəzi inkişaf etməkdə olan ölkələrdə məktəb binaları, tədris alətləri və rəqəmsal vasitələr kimi təhsil infrastrukturunun keyfiyyəti və əlçatanlığı çatışmır. Bu da təhsilin keyfiyyətini mənfi təsir edir.

## Ədəbiyyat siyahısı

1.Rəhmanov R. (2017). *Pedaqogikanın əsasları.* Bakı: Təhsil Nəşriyyatı.

2.Əlizadə E. (2015). *Müasir təlim texnologiyaları*. Bakı: Adiloğlu Nəşriyyatı.

3.Azərbaycan Respublikasında təhsil haqqında qanun

4.Məmmədov K. (2018). *Təhsil siyasəti və idarəetmə*. Bakı: Elm və Təhsil.

5.Azərbaycan Respublikasında Təhsil üzrə Dövlət Strategiyası (2013)

6.Rzayeva G. (2020). *Müasir təhsilin problemləri və inkişaf istiqamətləri.*

7. Əhmədov Ə. (2016). *XXI əsrdə təhsilin problemləri və perspektivləri.*

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN YENİYETMƏLƏRDƏ MİLLİ-MƏNƏVİ TƏRBİYƏSİNƏ TƏSİRİ

## The Impact of the Victory in the 44-Day Patriotic War on the National and Moral Upbringing of Teenagers

***The impact of the victory in the 44-day Patriotic War on the national and moral education of adolescents***

***dosent Təranə İsayeva***

ADPU, Tarix və coğrafiya, Ümumi tarix vəTTT, Bakı, Azərbaycan

ORCID ID: https://orcid.org: 0000-00034977-6224

**ÖZET**

Təhsil dövlətin əsası, millətin simasıdır. Informasiya kommunikasiya texnologiyaların inkişaf etdiyi bir dövrdə yeniyetmələrin milli-mənəvi dəyərlər əsasında düzgün tərbiyə olunması, sağlam əxlaqi mühitdə yetişməsi, aktual ciddi məsələlərindən biridir.Ggənc nəslin əxlaqi, mənəvi və hüquqi tərbiyəsi bir -biri ilə sıx bağlıdır. Bu məsələlərin reallaşmasında təhsilin, məktəbin çox böyük rolu vardır. Gənclər təhsil illərində Vətən, vətənpərvərlik, qeyrət, namus, vicdan, dosta məhəbbət, düşmənə nifrət və bu kimi anlayışları mənimsəyirlər.Müstəqil düşüncəli gənclər vətənin fəal qurucuları kimi yetişməklə yanaşı şəxsiyyət kimi formalaşır, həyati bacarıqlara yiyələnirlər

**Anahtar Kelimeler:** Təhsil və təhsilalan, tarix fənni mənəvi tərbiyə, Qələbə

**ABSTRACT**

Education is the foundation of the state and the identity of the nation In an era marked by the development of information and communication technologies, the proper upbringing of adolescents based on national and moral values and their growth in a healthy moral environment is one of the most pressing and serious issues. The moral, spiritual, and legal education of the younger generation are closely interconnected. Education and schools play a significant role in addressing these issues. During their school years, young people internalize concepts such as homeland, patriotism, honor, dignity, conscience, love for friends, hatred for enemies, and similar values.I ndependent-minded youth not only grow up as active builders of the country but also develop as individuals and acquire essential life skills.

**Keywords:** Education and education, history, moral education, Victory

**Giriş** Informasiya kommunikasisa texnologiyaların inkişaf etdiyi, qoballaşma əsrində yeniyetmələrin milli-mənəvi dəyərlər əsasında düzgün tərbiyə olunması, sağlam əxlaqi mühitdə yetişməsi, dünyagörüşünün formalaşması müasir dövrün aktual, ciddi məsələlərindən biridir.Ggənc nəslin əxlaqi, mənəvi, və hüquqi tərbiyəsi bir -biri ilə sıx bağlıdır. Bu məsələlərin reallaşmasında təhsilin çox böyük rolu vardır.Təhsil dövlətin əsası, millətin simasıdır. "Ulu Öndər Heydər Əliyev demişdir:" Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir". Bu amil məhz ümumtəhsil məktəblərdə həyata keçir. Bütün fənnlərin tədrisi prosesində, fənnərin inteqrasiyası, dərsdənkənar və məktəbdənkənar tədbirlər təhsil alanlarda şəxsiyyətin formalaşmasına, inkişafın inkişafına yönəlmişdir. Azərbaycan tarixi fənninin tədrisi məktəblilərin milli mənəvi və ümumbəşəri dəyərlərə hörmət onları qorumaq, vətənpərvərlik duyğularına malik olmaq, başqaları ilə ünsiyyət qurmaq və əməkdaşlıq etmək,

problemlərin həlli yolları ilə bağlı fikir yürütmək, müzakirə etmək, mülahizələrini əsaslandırmaq, hüquqlarını qorumaq və başqalarının hüquqlarına hörmətlə yanaşmaq, dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq, ləyaqətli vətəndaş mövqeyinə malik olmaq keyfiyyətlərin formalaşmasına xidmət edir. (4.s.9) Məlumdur ki hər bir hər kəsin mənəvi, əxlaq tərbiyəsi, ailədən başlayır. Məktəbəqədər təhsildə ümumi məlumatlar alırlar, ümumtəhsil məktəblərdə biliklər formalaşır, ali məktəbdə isə inkişaf edir.Təhsil və tərbiyə uzun müddət ərzində başa gələn bir prosesdir. Mənəvi tərbiyənin formalaşmasında tarix fənni xüsusi əhəmiyyətə malikdir. Təhsilalanlar 5 sinifdə Azərbaycan tarixindən ibtidai insanların məşğuliyyəti, əmək alətlərinin hazırlanması texnologiyaları, əməyin sayəsində həyat tərzinin inkişafı, ictimai iqtisadi formasiyanın bir- birini əvəz etməsi haqqında biliklər əldə edirlər. Elə buradan təhsilalanlarda mənəvi tərbiyənin birinci komponenti olan əmək və əməyə dair biliklərin əqidəyə çevrilməsi formalaşdırılır.Gənclər təhsil illərində Vətən, vətənpərvərlik, qeyrət, namus, vicdan, dosta məhəbbət, düşmənə nifrət və bu kimi anlayışları mənimsəyirlər. Müəllimlər şagirdləri Vətənin fəal qurucuları kimi yetişdirmək üçün dərsliklərin imkanlarına və məzmununa istinad edərək, hələ ibtidai siniflərdən başlayaraq şagirdləri mənəvi keyfiyyətlərin məzmunu, mahiyyəti ilə tanış edir, bu məqsədlə onları görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini öyrənməyə istiqamətləndirirlər. Lakin məktəblilər müəllimdən eşidib-öyrəndikləri ilə həyatda gördükləri arasında təzadın şahidi olduqda onun mənəviyyat barədə bildikləri əqidəyə çevrilmir. Yeniyetmələr istər dərsdə, istərsə də dərsdənkənar tədbirlərdə vətənpərvərlik və hərbi vətənpərvərlik haqqında geniş biliklər əldə edirlər. Məsələn XI sinif Azərbaycan tarixi dərsliyində verilmiş mövzulardan "Azərbaycan SSR II Dünya müharibəsi illərində" II Dünya müharibəsinin əvvəlindən axırınadək Azərbaycan müharibədə fəal iştirak etdi. Azərbaycanın bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi faşizmə qarşı müharibəyə cəlb edildi. 1941-ci ilin qışında Moskva ətrafında aparılan döyüşlər və alman faşist ordusunun burada darmadağın edilməsi İkinci Dünya müharibəsinin ən böyük hadisələrindən biri idi. Bu qələbə faşist ordusunun məğlubedilməzliyi haqqındakı əfsanələrə son qoydu. Moskva uğrunda döyüşlərdə tank hissə komandiri Həzi Aslanov, polkovnik Yaqub Quliyev, snayperçi Ziba Qəniyeva, təyyarəçi Züleyxa Seyidməmmədova və başqa azərbaycanlılar qəhrəmanlıq göstərmişdilər. Azərbaycanlılar Stalinqrad uğrunda döyüşlərdə də fəal iştirak etmişdilər. Məhz burada göstərdiyi rəşadətə görə tank alayının komandiri Həzi Aslanov birinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif edildi.(1s127) Bu mövzuda yeniyetmələr azərbaycanlıların göstərdikləri qəhrəmanlığı II Dünya müharibəsinin qalib gəlməsində Bakı neftinin əvəzsiz olduğunu öyrənirlər. Növbəti mövzularda təhsilalanlar "Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanması, "Deportasiya" anlayışını dərk edirlər. Azərbaycan tarixi 11 sinifdə təhsilalanlar Dövlət müstəqilliyinin bərpasından sonra I Qarabağ müharibəsi, Bu münaqişədə Xocalıda dinc əhalinin soyqrıma məruz qalması tarixi hadisənin səbəb nəticə əlaqələri haqda biliklər əldə edirlər. (4.s 45-46) Müəllim torpaqlarımızı düşmənlərdən azad etmək uğrunda vuruşan, canlarından keçən qəhrəmanlarımızdan Mübariz İbrahimov haqqında məlumat verir. 2010-cu ilin iyun ayında gizir Mübariz İbrahimov təkbaşına ermənilərlə döyüşə girmiş və çoxlu sayda düşməni məhv edə bilmişdir.

“...Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından, ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam, ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim...” Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun valideynlərinə son məktubundan. (5, səh. 29)

2016 cı ildə aprel döyüşlərində vətən uğrunda həlak olmuş Azərbaycanın milli qəhrəmanlarından, Murad Mirzəyev, Samid İmanovu göstərmək olar. Döyüşlər nəticəsində, ümumi olaraq, 11000 hektarlıq ərazi işğaldan azad edilmişdir. Buna görə də gəncləri Vətən naminə-Azərbaycan naminə formalaşdırmaq ən ümdə vəzifə olmalıdır. Lələ təpə uğrunda gedən döyüşlər zamanı şəhid olmuş Pəncəli Teymurovun öz toyunda belə çıxış etmişdir: “Vətənim, torpağım üçün hər zaman canımdan, qanımdan keçməyə hazıram. Həmişə arzu eləmişəm ki, şəhid olum, Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüm”.

**27 sentyabr 2020** ci il tarixdən şanlı ordumuzun misilsiz səyi nəticəsində düşmən (erməni) tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisindəki torpaqlarımız düşmən tapdağından azad olmuşdur. Qarabağ bölgəsi əsrlər boyu Azərbaycanın ayrılmaz tərkib hissəsi olmaqla, onun tarixində, mədəniyyətində və siyasi inkişafında mühüm rol oynamışdır.Tarixən bilirik ki tarixi hadisələr zəncirvari olaraq biri digərinə səbəb ola bilir. Məktəb illərində I Qarabağ müharibəsinin tarixini dərsliklərdən oxuyub öyrənən şagirdlər illər sonra 27 sentyabr 2020 ci il tarixdə başlanan II Qarabağ, Vətən müharibəsində iştirak edərək tarixi özləri yazdılar. 2020-ci ildə baş vermiş 44 günlük II Qarabağ Vətən müharibəsi **"Dəmir Yumruq"** adını alan planı həyata keçirildi. Başda ali baş komandan İlham Əliyev olmaqla ordumuz 28 il sürən müharibənin cəmi 44 gün ərzində həlledici hücuma keçərək düşmənin müqavimətini qırdılar. Onlar qalib, müzəffər, şanlı orduya çevrildilər.(1.s.220) Bir addım geri çəkilmədən öz şücaətlərini göstərərək xalqımıza qələbə sevincini yaşatdılar. Döyüş meydanından erməni ordusunun komandiri geri çəkilərkən rusiyalı müxbirə belə müsahibə vermişdir: müharibə həmin müharibədir, texnika isə fərqlidir. Düşmən elə bilirdi ki müzəffər ordumuz yalnız texnika vasitəsilə hücum edərək irəli gedir. Fizuli, xüsusən də Şuşa uğrunda gedən mübarizədə heç bir texnikadan istifadə etmədən əlbəyaxa döyüş taktikasında qalib gələn ordumuzun şücaəti düşməni məhv etdi. Bütün dünyanı isə heyrətə gətirdi. Ordumuzun qəhrəmanlığı bir daha sübut etdi ki onların hər biri vətən uğrunda ölümün üzünə dik baxaraq ölümə hazır olduqlarını bildirdilər. Şəhidlərimiz öz canları bahasına qanları ilə vətən müharibəsinin qələbəsini yazdılar. Biz onların ruhu qarşısında baş əyirik. Şanlı ordumuzla fəxr edirik. Məktəblilər tarix fənninin tədrisində müharibələrin baş verməsinin səbəblərinə dair biliklər əldə etməklə yanaşı dərk edirlər ki, müharibə millətlər və xalqlar arasında elə bir dəhşətli mühakimə üsuludur ki, həm mühakimə edəni, həm də mühakimə edilləni məhv edir. Qarabağda quruculuq.

**Nəticə** Qarabağda quruculuq. Böyük Qayıdışın ilk addımları mövzusu yeniyetmələrdə və hər birimizdə böyük ruh yüksəkliyinə səbəb oldu 2021-ci il iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti R.T.Ərdoğan Azərbaycanın mədəniyyət mərkəzi elan edilmiş Şuşada görüşdülər.Dövlətlərarası müttəfiqlik münasibətləri haqqında "Şuşa Bəyannaməsi" adlanan tarixi sənəd imzalandı.(1.172) Burada da məktəblilərdə dosta hörmət, məhəbbət tərbiyəsinin formalaşdırılır. Bütövlükdə, Qarabağa qayıdış tarixi Zəfərimizin parlaq tərənnümüdür. Zəfər qələbəsi bir daha sübut etdi ki, biz bu qəhrəman, vətənpərvər, ləyaqətli, gənclərimizə Vətəni etibar edə bilərik.

## Ədəbiyyat

1.Azərbaycan tarixi 11-ci sinif dərslik Bakı: 2018

2.Cəbrayılov İ.Tarixin tədrisi metodikası Bakı; 2006,236s. səh 149

3.Qasımova A. Yeniyetmələrin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsi Bakı: 2006. 168s. səh 3

4.T.M.İsayeva Ümumtəhsil məktəblərində Azərbaycan tarixinin tədrisində mətn üzərində işin təşkili. Bakı 2022, 160 s

5.Yəhya Yusif Canıyar. Turan Mübarizi. Bakı, 2011, 400s. səh. 29

# MÜASİR DİLÇİLİKDƏ KONSEPT NƏZƏRİYYƏSİNƏ YANAŞMA

# APPROACH TO CONCEPT THEORY İN MODERN LİNGUİSTİCS

**Turabova Tamilla Bəhram qızı. Baş müəllim.**
Bakı, Azərbaycan Dövlət Pedaqoji Universiteti
orcid: 0000-0003-4980-8505

**Xülasə**

Müasir dilçiliyi təhlil edərkən konsept anlayışının müxtəlif cür şərh olunduğunu qeyd etmək lazımdır. Məhz bu səbəbdən konsept anlayışına diqqət yetirmək lazımdır. Bu anlayış müxtəlif elmlərdə istifadə olunur və hər bir elm öz sahəsinə uyğun olaraq onu şərh edir. Konsept anlayışının tədqiqi orta əsrlərdən başlayır, lakin müasir dövrdə ona müxtəlif təriflər verilir. Konsept ətraf aləmdə baş verən hadisələr haqqında informasiyanın toplanıb, müəyyən düzənə salınmış və saxlanıldığı mental vahiddir.

"Konsept" termini elmi ictimaiyyət tərəfindən qəbul edilənə və bugünkü statusuna sahib olanadək dilçilər müxtəlif anlamlar yüklənmiş variantlardan istifadə edirdilər. Lakin "konsept" bütün bu variantları üstələdi, onların arasından sıyrılaraq "yaşama hüququ" qazandı. Əvvəlki terminlərin ehtiva etdikləri anlamları konsept terminine yükləmək, tranfer etmək cəhdləri sayəsində bu termin çoxşaxəli olmağa meylləndi. Bu yanaşmalarda bütün dilçilərin ortaq fikrə gəlmələri 'konseptin düşüncə vahidi' kimi qəbul edilməsi hesab olunur.

Hər söz ideyadır, hər ideya bir konseptdir ancaq hər konsept bir yaxud bir neçə ideyadan təşkil oluna bilər. Bizim təfəkkürümüz ideyalarla zəngindir və "gün işığına" çıxacağını gözləyir. Bu gözləntilər konseptlər sayəsində reallaşır. Konsept dəyər tutumuna sahibdir. İdeyalar dəyərə malik olduğunda konseptə çevrilir. Dəyərsiz ideyalar konseptə çevrilmirlər çünki insan daim özü, ətrafı, yaşadığı yer, dünya və s. haqqında müsbət düşüncələr daşıyır, "istehsal etməyə" çalışır, gələcəyə daha ümidlə baxır bir sözlə həyatın mənasını axtarır. Bu şəkildə öz həyatını maraqlı görmək istəyir. Əlbəttə, belə olması üçün dəyərli ideyalarla yaşamalıdır. İnsan özünü müvafiq yolla inkişaf etdirərkən ideyalar sistemi yaradır. Bunun sayəsində konsept və ideya arasında dəyər mübadiləsi qaçılmaz olur. Bu dəyərlər bizim mental baxışlarımızın və hislərimizin toplandığı məkandır. Dəyərlərdən ibarət olan ideyalardan zaman keçdikcə ideologiya yaxud ideologiyalar törəyir.

Məqalədə konseptlə bağlı müxtəlif fikirlər araşdırılır və xüsusilə dilçilikdə onun şərhi diqqətə çatdırılır.

**Açar sözlər:** koqnitiv, anlayış, dil, hadisə, mücərrəd

**Abstract**

When analyzing modern linguistics, it should be noted that the concept concept is interpreted in various ways. For this reason, it is necessary to pay attention to the concept concept. This concept is used in various sciences, and each science interprets it in accordance with its field. The study of the concept concept begins in the Middle Ages, but in modern times it is given various definitions. A concept is a mental unit in which information about events occurring in the surrounding world is collected, organized and stored.

Until the term "concept" was accepted by the scientific community and acquired its current status, linguists used variants loaded with various meanings. However, "concept" surpassed all these variants, stood out from among them and gained the "right to life". Due to attempts to load and transfer the meanings contained in previous terms into the concept term, this term tended to become

multifaceted. In these approaches, the common opinion of all linguists is considered to be the acceptance of the concept as a 'unit of thought'.

Every word is an idea, every idea is a concept, but every concept can be composed of one or more ideas. Our thinking is rich in ideas and expects to "come to light". These expectations are realized thanks to concepts. A concept has a value. Ideas become concepts when they have value. Worthless ideas do not become concepts because a person always has positive thoughts about himself, his surroundings, the place he lives in, the world, etc., tries to "produce", looks to the future with more hope, in a word, seeks the meaning of life. In this way, he wants to see his life interesting. Of course, for this to happen, he must live with valuable ideas. A person creates a system of ideas while developing himself in an appropriate way. Thanks to this, the exchange of values between concepts and ideas becomes inevitable. These values are the place where our mental views and feelings are collected. Over time, ideology or ideologies arise from ideas consisting of values.

The article examines various ideas about concepts and especially its interpretation in linguistics is brought to attention.

**Keywords:** cognitive, concept, language, event, abstract

Konsept anlayışı bir çox elmlərdə: ədəbiyyatşünaslıq, dilçilik, psixologiya, fəlsəfə, kulturologiya kimi elmlərin əsas anlayışlardan birinə çevrilmişdir, məhz bu səbəbdən bu anlayış hər bir elmdə sahəyə uyğun oalraq öz şərhini tapır. Filoloq, dilçi, koqnitoloqlar, süni intelekt üzrə peşəkarlar bu anlayışı müxtəlif cür şərh edir. Bununla belə qeyd etmək lazımdır ki, hələ də bu analyışın yeganə şərhi mövcud deyil.

Konsept anlayışı orta əsrlərdən diqqət mərkəzində olmuşdur. Lakin bu anlayışın aktuallaşması XX əsrin sonlarına təsadüf edir. Demək lazımdır ki, indiki dövrdə elə bir sahə yoxdur ki, burada konsept anlayışından istifadə olunmasın.

Qeyd etdiyimiz kimi, konsept anlayışı humanitar elmlərin müasir terminidir, onunla orta əsrlərin alimləri məşğul olmuşdur. XII əsrdə Pyer Abelyar belə hesab edirdi ki, təbiət etibarilə səslənən adlar onların adlandırdığı əşyalara daxil edilmir, lakin onlar "qoyma" gücü ilə insanlar tərəfindən əşyalara verilir. Bu "qoyma" Allah tərəfindən insanlara verilir. Bununla belə, adlar P.Abelyarda "əşyalara qavrama alətləri" kimi verilir, təbiət etibarilə o, konsepti insanların bir-biri ilə və Allah ilə ünsiyyəti kontekstində nəzərdən keçirir. P.Abelyarda konsept Mənadır (Babuşkin: 1996, 11). XIV əsrdə nominalistlər və realistlər arasında mübahisə baş verdi. Bu mübahisənin predmeti adlar, ideyalar və əşyalar arasında əlaqə məsələsi idi. Kəskin nöqteyi-nəzərlər "mülayim nominalizm"in yaran masına gətirib çıxardı. "Mülayim nominalizm" də fəlsəfə tarixinə "konseptualizm" kimi daxil olmuşdur. Orta əsrlərdə fəlsəfədə konseptlər "müəyyən məna funksiyasını" daşıyan "psixoloji təşkil" kimi qavranılır.

Orta əsrlər nominalistləri kimi S.A.Askoldov konsepti "ümumi cinsliyin fərdi müavini" kimi qəbul edir. Lakin onlardan fərqli olaraq, o, konsepti "ümumilik" kimi götürmür. Obyektiv gerçəkliyin ayrı-ayrı "konseptual sahələrinin" öyrənilməsi konsepti real fakt kimi qəbul etməyə imkan yaradır. S.A.Askoldov qeyd edir: "Konsept əqli prosesdə əqli əmələ gəlmədir ki, o, qeyri-müəyyən saylı eyni cinsli əşyaların cəmini əvəz edir" (Askolov: 1928, 269).

Konsept sözü latın dilində "conceptus" sözündən götürülmüş, "anlayış" bildirir. Bütün tədqiqatçılar konsept və anlayışın əlaqəsi haqqında danışır və hər biri bu əlaqəni müxtəlif cür izah edir. "Yeni fəlsəfi lüğət"də konsept sözü "anlayışın məzmunu, konkret-dil formasında ifadəsindən fərqli onun məna doldurucusudur". Belə şərhdə konsept anlayışın "daxili forması" kimi nəzərə çarpdırılır. Digər nöqteyi-nəzəri orta əsrlər fəlsəfəsinin tədqiqatçısı S.S.Neretinanın şərhlərində görmək olar. P.Abelyarda konsept probleminin tədqiqatı ilə əlaqədar olaraq konseptin anlayışla eyniləşdirilməsindən danışır. Onların fərqini tədqiqatçı onda görür ki, anlayış obyektivdir və ünsiyyətdən asılı deyil və dil planı ilə uyğundur. Konsept isə subyektivdir, nitqdə meydana gəlir və

oxucuya və ya dinləyiciyə müraciətdir. S.S.Neretina yaddaş və təxəyyülü konseptin vacib cəhətləri hesab edir. Konseptin yaradıldığını, onun yaradılmasında subyektin rolunu nəzərə çarpdıraraq filosoflar konsepti obraz və rəmzlə müqayisə edirlər. Təbiidir ki, bu halda konsept məna cəmliyini özünə daxil edir, belə ki, onlar implisit, potensial olaraq konkret situasiyada açılır. Bu konsepti müəyyən bir universum kimi qəbul etməyə imkan yaradır, belə ki, "bütün mövcudluq: insan, dünya, mədəniyyət – insanın mədəniyyət dünyası meydana gəlmişdir". Məhz bu səbəbdən konseptin əsas mənasından əlavə, onun filosofların əsərlərində qeyd edilən fakültətiv cəhətləri nəzərə almaq lazımdır. Bu "konseptin bir-biri ilə əlaqəsi" və ya "konseptin digər problemlərlə əlaqəsi"dir, bu da konseptlərin bir-biri ilə kəsişməsi və koordinasiya etməsinə imkan yaradır.

Linqvokoqnitoloji tədqiqatlar tipoloji istiqamətə malikdir və mental görüşlərinin ümumi qanunauyğunluqlarının aşkara çıxarılmasında diqqətə alınır. Tendensiyada onlar semasioloji faktora isitqamətlənmişdir, yəni mənadan (konseptdən) dilə (onun verballaşması vasitələri). Məntiqi yanaşmanın nümayəndələri (V.A.Lukin, L.O.Çernenko və başqaları) konsepti müxtəlif sahələrdən bilikləri sintezləşdirmə bacarığına malik şüur ünsürü, hər hansı bir obraz kimi nəzərdən keçirirlər. L.O.Çernenko konsepti mücərrəd adların ayrı bir növü kimi nəzərdən keçirmir. Müəllifə görə, konsept mücərrəd adların xüsusi növü deyildir, sadəcə olaraq o, xalq tərəfindən toplanıb saxlanmış bilik və görüşlərin bütün növlərini birləşdirmiş xüsusi bir rakursdan baxışıdır. Beləliklə, linqvokoqnitoloji yanaşmada konseptin nəzərdən keçirilməsində üç istiqamət önə çəkilir: fəlsəfi, psixoloji və məntiqi. Qeyd etdiyimiz kimi, fəlsəfi istiqamətdə konsept ilkin məna kimi şərh olunur, psixoloji istiqamətdə konsept operativ biliyin və mental kateqoriyanın vahidləri kimi çıxış edir.

Məntiqi istiqamətdə konsept müxtəlif sahələrdən bilikləri sintezləşdirməyə qadir şüur ünsürü kimi nəzərdən keçirilir.

L.O.Çerneyko qeyd edir ki, konsept anlayışı özünə daxil edir, lakin onunla məhdudlaşmır, verilən mədəniyyətin daşıyıcılarının bütün çoxobrazlılığı, assosiativ əlaqələri ilə hadisə xarakteri haqqında görüşlərini əks etdirən sözün bütün məzmununu: denotativ və konnotativ mənalarını əhatə edir Q.Q.Slışkinanın fikrinə görə, konsept mədəniyyət, şüur və dilin kompleks öyrənilməsinə yönələn şərti tədqiqat vahididir (Slışkin: 2001, 11). Bundan başqa, konsept dedikdə, dil daşıyıcılarının milli yaddaşında qavranılmış substrat kimi saxlanılan real və ya ideal dünyanın predmetini əks etdirən kollektiv şüurun hər hansı diskret məzmunlu vahididir.

"Konsept" termini psixologiyada insanın konkret emosiya və hisslərini, şüurunu müəyyənləşdirmək üçün istifadə olunur, belə ki, onlar insan fəaliyyətinin məhsulunda, məsələn, qorxu konsepti, eqoizm konsepti və s.-da reallaşır. Psixoloqlar filosoflar kimi konsepti anlayışla əlaqələndirirlər, onda analyışın məna məzmunu kimi görürlər. Konseptin ümumiləşdirmə bacarığını qeyd edərək, onlar da onun subyektiv təbiətini vacib hesab edirlər, belə ki, real mövcud hadisədən fərqli olaraq konsept "uyğun obyektlərin ümumi xüsusiyyətlərinin əqli göstərişi, daxili, psixoloji reprezentasiya"sıdır.

Fəlsəfi yanaşmanın nümayəndələri (N.N.Boldırev, V.V.Kolesov və başqaları) konsepti ilkin məna kimi qavrayır. Belə yanaşmada konseptin dildən müstəqilliyi diqqətə alınır. O (konsept), nitq fəaliyyətindən asılı olmayaraq insan şüurunda mövcud olan müəyyən bir məna kimi göstərilir, yəni onun qavranması dilin iştirakı olmadan da mümkündür.

Psixolinqvistika mövqeyindən konsept milli mədəni şüurda mövcud olan, birinci semiozisi keçən, semantik sahənin invariant mənası kimi dil şəxsiyyətini qavrayan müəyyən məlumat bütövlüyü kimi göstərilir. L.O.Çerneyko konsepti qeştaltlardan yaranan ümumiləşdirilmiş obraz kimi göstərir. "Qeştalt" alman termini "obraz" terminine ekvivalentdir.

Linqvokulturologiyada da konseptin müəyyənləşdirilməsi geniş yayılmışdır. Burada dil nəinki ünsiyyət vasitəsi kimi, həm də nəsildən nəslə ötürülən bilik həcmi ilə xalqın yaddaş və tarixi, onun mədəniyyəti və təcrübə fəaliyyəti, onun dünyagörüşü və psixologiyası kimi nəzərdən keçirilir. Dilin belə qavranılmasına uyğun olaraq konsept fərdin dünya haqqında təcrübəsini, cəmiyyətdə cəmləşən konkret hadisələr haqqında və gerçəklik haqqında dərin bilik və təsəvvürlərini özündə birləşdirir.

Linqvokulturologiya etnik mentalitetin dil ifadəsi üsullarında meydana gələn dil və mədəniyyət nisbətini tədqiq edir. Bununla belə linqvokulturoloqlar mental vahidlərin tərkibində speisifikliyin öyrənilməsinə diqqəti artırır və konkret mədəni konseptlərin fərqli semantik cəhətlərinin sistemləşdirilmiş və qorunmuş təsvirinə istiqamətlənmişdir. Beləliklə, linqvokulturoloji tədqiqatlar konseptdən onda cəmlənmiş məna məcmusuna yönəlmişdir. Konseptin mədəni görüşü iki əsas yanaşmaya və onların açıqlanmasına yönəlmişdir.

Linqvokulturoloji yanaşmada konsept geniş mədəni fon təşkil edən çoxlaylı struktura malikdir. Konseptin məzmunu iki əsas hissədən ibarətdir: anlayış və mədəni-fon. Konseptin anlayış hissəsi sözün leksik mənasının əsasını və leksokoqrafik mənbələrdə fiksə olunur. Mədəni fon sözün konnotasiyasını formalaşdırır və qismən lüğətlərdə əks olunur. Hər hansı konsept zamanla dəyişməz olaraq qalır; mədəni görüşlərin zənginləşməsi, biliklərin inkişafı genişlənir və konseptual sahəni dərinləşdirir. Konseptin dəyərli hissəsi olan fon hissəsi daha böyük dəyişikliklərə məruz qalır, nüvə hissəsi isə bir qayda olaraq dəyişməz qalır. Linqvokulturoloji yanaşmanın nümayəndələri belə hesab edirlər ki, konsept anlayışdan daha genişdir; konseptin məzmununa işarə olunanın kateqorial cəhətləri və mədəni-fon informasiya da daxildir.

Y.D.Stepanov konsepti belə müəyyənləşdirir: "...bu insanın şüurunda mədəniyyət parçası kimidir; məhz bundan mədəniyyət insanın əqli dünyasına daxil olur". O qeyd edir ki, konseptlər "rus mənəvi dünyasının, rus cəmiyyətinin kollektiv mirasıdır". Bununla da burada cəmiyyətdə pozitiv məzmuna malik olub olmamasından asılı olaraq cəmiyyət üçün gerçək  hadisələrin prioritetliyindən söhbət gedir. Müəllif yazır: "Mədəni konseptlər fərdi anlamda "mədəni" olması vacib deyil" (Stepanov: 1997,82).

Bununla belə qeyd edilir ki, konseptin məzmunu şəxsin dünyanın bu və ya digər fraqmenti haqqında bildiyi, ehtimal etdiyi, fikirləşdiyi, təsəvvür etdiyi informasiya və məlumatı özündə əks etdirir. Konseptlər müşahidə olunan hadisələrin çoxobrazlılığı yeganə hadisəyə, cəmiyyətdə işlənmiş müəyyən kateqoriya və siniflərə aparıb çıxarır. Konseptin mahiyyətini nəzərdən keçirərək tədqiqatçılar xüsusi olaraq insanın etnomədəni dünyasına məxsusluğunu qeyd edirlər. Onun semantik məzmunu etnomədni reprezentasiya kimi daşıyanların fikri forması kontekstində şərh olunur. Beləliklə, konseptin qavranması dil daşıyıcılarının mentalitet xüsusiyyətləri, etnomədəni obrazını yaratmağa kömək edir. "Konsept təfəkkürün etnik spesifikliyini, konseptual sistemin daşıyıcılarının linqvo-koqnitiv və etnomədəni markerləşmiş, assosiasiyalaşmış kompetensiya ilə şərtlənmiş verballaşmasını özündə təcəssüm etdirir". Q.Q.Slışkin konsepti "şərti mental vahid" kimi göstərir və əks olunan obyektə münasibətdə konseptdə bütöv primatı diqqətə cəlb edir. Konseptin formalaşması din, incəsənət və s.-də ifadə olunan mədəni dəyər dominantları tərəfindən qavranılan gerçəkliyin təcrübi qavranılmasının nəticələri nisbətindəki proses kimi göstərilir (Slışkin: 2001,34). V.V.Kolesov konsepti həm dar, həm də geniş mənada qavranmasını fərqləndirir. Onun fikrinə görə, konsept "inkişafın son həddi və sözün semantik doldurulmasının son nöqtəsidir" (Kolesov: 1998, 39).

"Konsept" termininin müxtəlif şərhi onun təbiətinin ikitərəfliliyini əks etdirir: dil işarəsi mənası kimi (linqvistik və kulturoloji istiqamət) və mentallıqda təcəssüm olunan işarənin məzmun tərəfi kimi (koqnitiv istiqamət). "Konsept" anlayışının belə şərhi şərtidir, belə ki, bu nöqteyi-nəzərlər bir-biri ilə bağlıdır, bir-birinə zidd deyildir. Məsələn, konseptin qavranmasında koqnitiv və kulturoloji yanaşmalar bir-biri ilə əvəz edilə bilən deyildir: insan təfəkküründə mental təşkil kimi sosiumun konseptosferinə, yəni son nəticə olaraq mədəniyyətə çıxışdır, mədəniyyət vahidi kimi konsept hər bir insanın mülkinə çevrilən kollektiv təcrübənin fiksasiyasıdır. Başqa sözlə desək, bu yanaşmalar dil daşıyıcısına münasibətdə bir-birindən fərqlənir: konseptə koqnitiv yanaşma fərdi şüurdan mədəniyyətə, kulturoloji yanaşma mədəniyyətdən fərdi şüura istiqaməti ehtimal edir. Konseptin tərifinin müxtəlifliyinə baxmayaraq, onlar arasında ümumi cəhəti mövcuddur. Bu təriflər içərisində müasir dilçilikdə dil, şüur və mədəniyyətin kompleks öyrənilməsi ideyası aktuallıq kəsb edir.

Konsept mürəkkəb çoxplanlı struktura malikdir, onda konkret olduğu kimi, həm mücərrəd, rasional olduğu kimi, emosional olduğu kimi, həm universal, etnik olduğu kimi, həm ümummilli, həm də fərdi-şəxsi olanı da önə çəkmək olar.

Qeyd etmək lazımdır ki, konseptin öyrənilməsinin əsas elmi sferi indi dilçilikdir, burada konseptin öyrənilməsində müxtəlif məktəb və istiqamətlər mövcuddur. Təbiidir ki, bu kateqoriya dilçilikdə müxtəlif şərhlərə malikdir, eyni zamanda onun ümumi məna sahəsi mövcuddur. Dilə konseptin eksplikasiyasının əsas üsulu kimi baxan D.S.Lixaçev yazır ki, konsept "sözün lüğəvi mənasının insanın təcrübəsi ilə toqquşmasının nəticəsidir" (Lixaçev: 1997, 35), beləliklə, o, konseptin xalqın ümumi yaddaşında kök salmasını önə çəkir.

Linqvokonseptologiya çərçivəsində konsepti nəzərdən keçirən tədqiqatçılar onu "etnokulturoloji spesifikliyə və dil ifadəsinə malik kollektiv biliyin\şüurun vahidi" kimi baxırlar. Konseptin informativ funksiyasını qeyd edərək demək lazımdır ki, bu təyinat verilən "kvant" biliyin milli şərtiliyinə işarə edir. "Konsept verilən mədəniyyətin mental vahididir". Konseptin ilkin qavranılması nəyin isə fərdi və ümumi göstərişinin eynizamanlı görünüşüdür. Sonradan konsept mədəniyyətin mikromodeli, mədəniyyət isə konseptin mikromodeli kimi qəbul edilməyə başlandı. Çoxsaylı ədəbiyyatın təhlili belə düşünməyə əsas verir ki, konseptlər bizi əhatə edən obyekt və canlılar haqqında biliklərimizi özündə təcəssüm etdirir, belə ki, onlar "sözün məna ilə əlaqələndirməsinə imkan yaradan baza koqnitiv mahiyyəti" reallaşdırır və psixoloji nöqteyi-nəzərdən kateqoriyalaşma funskiyasını yerinə yetirir (Karasik: 2004, 15).

Konseptin ümumi səciyyəsinin müxtəlif elmi fənlər tərəfindən öyrənilməsini nəzərə alaraq bəzi məsələləri diqqətə almaq lazımdır. Konseptlər ümumiləşdirmə və ya köməkçi funksiyaya malikdir, cəmiyyət həyatının mənəvi, material, sosial və s.dominantlarıdır, əsas cəhətləri təyin edir və əqli məzmuna malikdir. Bütün bu xüsusiyyətlər bədii, ədəbi konseptlərə xasdır, onlarda estetik funksiyanı əldə edirlər, buna görə də belə konseptlərin öyrənilməsi digər sahələrə aid biliklərin konseptdə açılmasını önə çəkir. Qeyd etmək lazımdır ki, konsept ədəbiyyatda mövcud olan bədii hadisə kimi və elmi kateqoriya kimi nəzərdən keçirilə bilər. Elmi anlayış kimi (ədəbiyyatşünaslıqda) o, hər hansı bir ideal mücərrədlikdir. Bədii ədəbiyyatda bu ideal mahiyyət konkret məzmunla dolur: M.S.Ordubadinin "qılınc və qələmi"ndə müharibə konsepti, XIX-XX əsrdə "realizm" konsepti və s. Ədəbiyyatda konsept həmişə obrazlarda reallaşır, lakin bununla belə demək lazımdır ki, hər hansı bir obraz konsepti yarada bilmir. Onun yaradılması üçün xalqın mentallığını özündə daşımalı, yaddaqalan səciyyəsi olmalı, mədəniyyətdə işarəvi hadisələri göstərməlidir. Obrazdan fərqli olaraq ədəbi konseptdə invariant mənası öndə olur, bu da hər bir konkret hadisə zamanı dərfi-ədəbi reallaşmanı həyata keçirir. Konsept müəllifin iştirakı ilə yaranır, lakin oxucu (tənqidçi, tədqiqatçı) tərəfindən rekonstruksiya edilir.

Dilçilikdə konseptin anlanmasında yanaşmalar bu hadisənin linqvokoqnitiv və linqvokulturoloji qavranmaya gətirib çıxarır. Beləliklə, konsept linqvokoqnitiv hadisə kimi "bizim şüurumuzun və informasiya strukturunun psixi və mental vahidi kimi insanın bilik və təcrübələrini əks etdirir; yaddaşın insanın psixikasında əks olunan operativ tərkibi vahidi, mental leksikon, dilin konseptual sistemi, dünyanın dil xəritəsidir" (Babuşkin: 1996, 90). Linqvokulturoloji yanaşma nöqteyi-nəzərindən konsept mədəniyyətin baza vahidi kimi götürülür (Karasik: 2004, 116).

Qeyd etmək lazımdır ki, konseptin qavranılmasında linqvokoqnitiv və linqvokulturoloji yanaşmalar bir-birini istisna etmir. Mental mövcudluq kimi konsept fərdin şüurunda sosiumun, yəni mədəniyyətin konseptsferinə çıxışıdır, mədəniyyətin vahidi kimi konsept fərdə keçən kollektiv təcrübənin fiksasiyasıdır. V.İ.Karasikin fikrincə, bu yanaşmalar fərdə münasibətdə bir-birindən fərqlənir: linqvokoqnitiv konsept fərdi şüurdan mədəniyyətə istiqamətdirsə, linqvokulturoloji konsept mədəniyyətdən fərdi şüura istiqamətdir. Qeyd etməliyik ki, konseptdə daxildə və xaricdəki hərəkətin ayrılması reallıqda bütöv çoxsaylı prosesdir (Karasik: 2004, 117). İndiki dövrdə dilçilikdə bir-birinə yaxın terminlər mövcuddur, məsələn, "anlayış", "konsept", "freym (çərçivə)". Bütün bunları anlamaq

The article also identifies a number of challenges. These include financial challenges, uneven distribution of infrastructure, insufficient technological literacy of teaching and administrative staff, cyber security risks and privacy issues.

**Keywords:** Smart school, ICT, IoT, digital education, educational technologies, smart classroom, cloud technology, automation in education, educational innovations, technology-based learning, student tracking systems, cyber security, teacher training, educational infrastructure.

# SOFT-COMPUTİNG METODLARI ƏSASINDA REKLAMLARDA TƏHLÜKƏSİZLİK RİSKLƏRİNİN QİYMƏTLƏNDİRMƏSİ MODELİ

# MODEL FOR EVALUATION OF SECURITY RISKS IN ADVERTISING BASED ON SOFT-COMPUTING METHODS

**Vüsal ƏLİYEV**

Odlar Yurdu Universiteti,

ORCID ID: https://orcid.org/0009-0002-2513-2184

## ÖZET

Rəqəmsal reklam sahəsi sürətlə inkişaf edir və bu inkişaf prosesi ilə yanaşı təhlükəsizlik risklərinin miqyası da genişlənir. Reklam və marketinq sahəsində təhlükəsizlik problemləri şirkətlərin bazardakı nüfuzuna və maliyyə itkilərinə birbaşa təsir göstərə bilər. Saxta kliklər, bot trafiki, istifadəçi məlumatlarının qorunmaması, hüquqi tələblərin pozulması, eləcə də reklam məzmununun etik sərhədləri aşması kimi hallar reklam kampaniyalarının effektivliyini ciddi şəkildə zəiflədə bilir. Ənənəvi təhlükəsizlik yanaşmaları isə tez dəyişən reklam ekosistemində hər zaman yetərincə təsirli olmur, çünki bu sahədəki risklər çox vaxt mürəkkəb və qeyri-müəyyən xarakter daşıyır.

Bu araşdırmanın başlıca məqsədi, reklam təhlükəsizliyinə dair risklərin qiymətləndirilməsi üçün soft computing metodlarının tətbiqini nəzəri və praktiki baxımdan əsaslandırmaq, uyğun modellər yaratmaq və bu modellərin tətbiq imkanlarını araşdırmaqdır. Bunun üçün qeyri-səlis məntiq (fuzzy logic), süni neyron şəbəkələri, genetik alqoritmlər və digər soft computing texnikalarının reklam təhlükəsizliyi sahəsinə inteqrasiyası planlaşdırılır. Risklərin təsnifatı, mövcud metodların təhlili və ən səmərəli yanaşmaların seçilməsi bu işin əsas istiqamətlərindən biridir.

Mövcud ədəbiyyat göstərir ki, soft computing metodları qeyri-müəyyən vəziyyətlərin təhlili üçün daha səmərəli həllər təklif edir. Fuzzy logic qeyri-dəqiq və qeyri-müəyyən məlumatları analiz etmək üçün əlverişlidir, süni neyron şəbəkələri isə verilənlərdən öyrənərək avtomatik risk proqnozu verməyə imkan yaradır, genetik alqoritmlər isə optimal həllərin tapılmasında geniş istifadə edilir. Bu araşdırmada qeyd olunan metodların kombinasiyası əsasında yeni bir yanaşmanın işlənib hazırlanması nəzərdə tutulur ki, bu da rəqəmsal reklam sahəsində təhlükəsizlik risklərinin daha dəqiq qiymətləndirilməsinə şərait yaradacaq.

Tədqiqat çərçivəsində Google Ads, Facebook Ads və digər real reklam platformalarından təhlükəsizliklə bağlı məlumatlar toplanacaq və həmin məlumatlar üzərində təhlillər aparılacaq. Reklam təhlükəsizliyi üçün fuzzy inference sistemləri qurulacaq, həmçinin Z-ədədlər və qeyri-müəyyənlik modelləri əsasında qərar qəbuletmə mexanizmləri hazırlanacaq. Modelin effektivliyini qiymətləndirmək üçün o, real verilənlər üzərində test ediləcək və əldə olunan nəticələr optimallaşdırılacaq.

Tədqiqatın nəticəsi kimi, reklam sahəsində təhlükəsizlik risklərini qiymətləndirmək məqsədilə soft computing əsaslı yeni bir model hazırlanacaq. Bu model real vaxtda riskləri aşkarlamağa və daha dəqiq qərarların qəbuluna şərait yaradacaq. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, fuzzy logic, süni neyron şəbəkələri və genetik alqoritmlərin sintezindən istifadə edilməklə reklam təhlükəsizliyinin qiymətləndirilməsinə innovativ yanaşma təklif olunur. Bu tədqiqatın əldə etdiyi nəticələr həm nəzəri, həm də praktiki baxımdan mühüm əhəmiyyətə malikdir. Təklif edilən model, reklam sahəsində fəaliyyət göstərən şirkətlərə təhlükəsizlik risklərini daha səmərəli şəkildə idarə etməyə və qeyri-müəyyən şəraitdə optimal qərarlar qəbul etməyə imkan verəcək. Tədqiqat prosesində elmi məqalələr hazırlanacaq və bunlar həm beynəlxalq, həm də yerli konfranslarda təqdim ediləcək. Eyni zamanda, reklam sahəsində təhlükəsizliklə bağlı yaradılan modelin tətbiq imkanları araşdırılacaq və onun gələcəkdə real sistemlərə inteqrasiyası perspektivləri qiymətləndiriləcək.

**Açar sözlər:** İnteqrasiya, genetik alqoritmlər, kombinasiya, marketinq.

**ABSTRACT**

The digital advertising industry is rapidly developing, and with this development process, the scale of security risks is also expanding. Security problems in the field of advertising and marketing can directly affect the reputation of companies in the market and financial losses. Cases such as fake clicks, bot traffic, lack of protection of user data, violation of legal requirements, as well as advertising content exceeding ethical boundaries can seriously weaken the effectiveness of advertising campaigns. Traditional security approaches are not always effective enough in the rapidly changing advertising ecosystem, since the risks in this area are often complex and uncertain.

The main goal of this study is to substantiate the application of soft computing methods for assessing advertising security risks from a theoretical and practical perspective, to create appropriate models and to explore the application possibilities of these models. For this purpose, it is planned to integrate fuzzy logic, artificial neural networks, genetic algorithms and other soft computing techniques into the field of advertising security. Classification of risks, analysis of existing methods and selection of the most effective approaches are one of the main directions of this work.

Existing literature shows that soft computing methods offer more efficient solutions for analyzing uncertain situations. Fuzzy logic is suitable for analyzing imprecise and uncertain data, artificial neural networks allow for automatic risk prediction by learning from data, and genetic algorithms are widely used to find optimal solutions. This study aims to develop a new approach based on a combination of the above methods, which will allow for a more accurate assessment of security risks in the field of digital advertising.

Within the framework of the study, security-related data will be collected from Google Ads, Facebook Ads and other real advertising platforms and analyzed on this data. Fuzzy inference systems will be built for advertising security, as well as decision-making mechanisms based on Z-numbers and uncertainty models will be developed. To assess the effectiveness of the model, it will be tested on real data and the results obtained will be optimized.

As a result of the research, a new model based on soft computing will be developed to assess security risks in the advertising sector. This model will enable real-time risk detection and more accurate decision-making. The scientific novelty of the research is that an innovative approach to assessing advertising security is proposed using the synthesis of fuzzy logic, artificial neural networks, and genetic algorithms. The results of this research are of great importance both theoretically and practically. The proposed model will allow companies operating in the advertising sector to manage security risks more effectively and make optimal decisions in uncertain conditions. Scientific articles will be prepared in the research process and presented at both international and local conferences. At the same time, the application possibilities of the created model related to security in the advertising sector will be investigated and the prospects for its future integration into real systems will be assessed.

**Keywords:** Integration, genetic algorithms, combination, marketing.

## GİRİŞ

Soft computing metodları qeyri-müəyyən vəziyyətlərin analizində daha səmərəli həll yolları təklif edir. Fuzzy logic qeyri-dəqiq və qeyri-müəyyən məlumatların təhlili üçün əlverişli imkanlar yaradır, süni neyron şəbəkələri isə məlumatlardan öyrənərək avtomatik şəkildə risklərin proqnozlaşdırılmasına şərait yaradır. Genetik alqoritmlər isə optimal həllərin tapılması baxımından geniş tətbiq sahəsinə malikdir. Bu tədqiqatda qeyd olunan metodların birgə istifadəsi ilə yeni bir yanaşmanın hazırlanması nəzərdə tutulur ki, bu da rəqəmsal reklam sahəsində təhlükəsizlik risklərinin daha dəqiq qiymətləndirilməsini təmin edəcək.

Araşdırma çərçivəsində Google Ads, Facebook Ads və digər mövcud reklam platformalarından təhlükəsizliklə bağlı məlumatlar toplanacaq və həmin məlumatlar üzərində təhlillər həyata keçiriləcək. Reklam təhlükəsizliyinin təmin edilməsi məqsədilə fuzzy inference sistemləri qurulacaq, eləcə də Z-ədədlər və qeyri-müəyyənlik modelləri əsasında qərar qəbuletmə mexanizmləri işlənib hazırlanacaq. Modelin səmərəliliyini qiymətləndirmək üçün o, real verilənlər üzərində sınaqdan keçiriləcək və əldə olunan nəticələr əsasında optimallaşdırma işləri aparılacaq.

Rəqəmsal reklam platformalarının son illərdə sürətlə inkişaf etməsi bu sahədə həm böyük iqtisadi imkanlar yaratmış, həm də ciddi təhlükəsizlik və performans risklərini gündəmə gətirmişdir. Bu inkişaf bir tərəfdən şirkətlərə daha geniş auditoriyaya çatmaq, daha dəqiq hədəflənmiş reklam kampaniyaları aparmaq və rəqəmsal bazarda mövqelərini möhkəmləndirmək üçün unikal şərait formalaşdırır. Digər tərəfdən isə, reklam prosesinin rəqəmsallaşması ilə əlaqədar olaraq, bir çox texnoloji və hüquqi çətinliklər, eləcə də müxtəlif növ sui-istifadə hallarının yaranması riskləri də artır.

Müasir rəqəmsal reklam mühitində ortaya çıxan əsas problemlərdən biri bot trafiki, yəni avtomatlaşdırılmış proqramlar vasitəsilə yaradılan saxta trafikdir. Bu cür trafik reklam verənləri aldadaraq onların büdcələrini əsassız xərcləməyə məcbur edir, çünki real istifadəçi marağını əks etdirmir. Bununla yanaşı, klik fırıldaqları (click fraud), reklam büdcəsinin rəqiblər və ya fırıldaqçılar tərəfindən qəsdən mənasız kliklərlə boşaldılması ilə nəticələnir. Eyni zamanda, istifadəçi məlumatlarının qeyri-qanuni toplanması və istifadəsi, həm hüquqi, həm də etik baxımdan ciddi təhlükələr yaradır. Bu hallar, reklamverənlərin reputasiyasına, maliyyə nəticələrinə və müştəri etibarına mənfi təsir göstərir.

Ənənəvi risk qiymətləndirmə yanaşmaları isə, dinamik və qeyri-müəyyən reklam mühitinin mürəkkəbliyini tam şəkildə nəzərə almaqda əksər hallarda kifayət etmir. Çünki rəqəmsal reklam sahəsi sürətlə dəyişən texnologiyalar, müxtəlif platformalar və müxtəlif istifadəçi davranışları ilə xarakterizə olunur. Məhz bu səbəbdən, qeyri-müəyyənlikləri hesaba alan daha müasir yanaşmalara ehtiyac yaranır.

Bu araşdırmada isə yalnız Z-ədədlərə əsaslanan innovativ bir risk qiymətləndirmə modeli təklif olunur. Z-ədədlər qeyri-müəyyən məlumatların modelləşdirilməsi üçün çox əlverişli alət hesab edilir. Təklif olunan modeldə hər bir reklam hadisəsi Z-ədəd formasında təsvir edilir. Burada Z-ədədin birinci komponenti reklam riskinin səviyyəsini, ikinci komponenti isə həmin qiymətləndirmənin etibarlılıq dərəcəsini ifadə edir. Başqa sözlə, riskin yalnız intensivliyi deyil, eyni zamanda bu qiymətləndirməyə olan inam səviyyəsi də nəzərə alınır ki, bu da qərar qəbuletməni daha çevik və dəqiq edir. Ümumi risk göstəricisi isə riskin ağırlıq səviyyəsi ilə informasiyanın etibarlılığı dərəcəsinin sintezindən yaranır ki, bu da daha balanslı qərarlar qəbul etməyə şərait yaradır.

Tədqiqatda bu modelin riyazi əsasları geniş şəkildə izah edilir. Modelin praktiki tətbiq imkanlarını nümayiş etdirmək üçün real rəqəmsal reklam parametrləri, məsələn, bot trafikinin səviyyəsi, istifadəçi seanslarının müddəti və klik reytinqi kimi göstəricilər əsasında nümunəvi hesablamalar həyata keçirilir. Bu hesablama nümunələri göstərir ki, Z-ədəd yanaşması qeyri-müəyyənlik şəraitində daha dəqiq və obyektiv risk qiymətləndirməsi aparmağa imkan verir.

Üstəlik, təklif olunan model real vaxt rejimində işləmək qabiliyyətinə malikdir ki, bu da reklam kampaniyalarının gedişatında təhlükəsizlik risklərini fasiləsiz izləməyə və dərhal müdaxilə etməyə imkan verir. Beləliklə, şirkətlər yalnız riskləri qiymətləndirməklə kifayətlənmir, həm də operativ şəkildə düzgün qərarlar qəbul edə bilirlər. Modelin effektivliyi ilə bağlı aparılan testlər göstərir ki, bu yanaşma praktikada tətbiq edilə bilər və reklamverənlər üçün həm maliyyə, həm də reputasiya baxımından əhəmiyyətli üstünlüklər təmin edir.

Nəticə etibarilə, bu tədqiqatın əldə etdiyi nəticələr həm elmi, həm də praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir. Təklif olunan model reklam sahəsində fəaliyyət göstərən şirkətlərə qeyri-müəyyənlik şəraitində performans risklərini daha effektiv şəkildə idarə etmək və daha optimal qərarlar qəbul etmək imkanı yaradır. Eyni zamanda, bu tədqiqat əsasında hazırlanacaq elmi məqalələr

beynəlxalq və yerli konfranslarda təqdim olunacaq, həmçinin modelin real sistemlərə inteqrasiyası imkanları ətraflı şəkildə araşdırılacaq. Bu isə gələcəkdə rəqəmsal reklam mühitinin daha təhlükəsiz və etibarlı fəaliyyət göstərməsinə əhəmiyyətli töhfə verəcək.

Rəqəmsal reklam platformaları, xüsusilə Google Ads və Facebook Ads kimi aparıcı xidmətlər, müəssisələrin hədəf auditoriyalara daha sürətli və səmərəli şəkildə çatmasına imkan yaratmış və reklam kampaniyalarının effektivliyini artırmaq üçün geniş perspektivlər açmışdır. Bu platformalar inkişaf etdikcə, reklamların daha dəqiq hədəflənməsi, fərdiləşdirilmiş məzmunun təqdim edilməsi və kampaniyaların real vaxt rejimində optimallaşdırılması kimi üstünlüklər təmin olunur. Lakin rəqəmsal reklam alətləri ilə bağlı avtomatlaşdırma səviyyəsinin artması və onların daxili strukturunun mürəkkəbləşməsi, paralel olaraq yeni növ risklərin meydana çıxmasına şərait yaradır.

Performans riskləri rəqəmsal reklam kampaniyalarının gözlənilən nəticələrə, məsələn, kliklərin sayına, dönüşüm faizinə və istifadəçi davranış göstəricilərinə çatmaması ilə xarakterizə olunur. Bu risklərin yaranmasına təsir göstərən əsas amillər sırasında bot trafiki — yəni avtomatlaşdırılmış skript və ya proqramlar vasitəsilə yaradılan saxta ziyarətlər —, saxta kliklər və qeyri-dəqiq istifadəçi məlumatları xüsusi əhəmiyyət daşıyır. Bu hallar, reklamverənlərin kampaniyalarına xərclədiyi büdcənin əsassız itkilərinə, ROI-nin (investisiya gəlirliyinin) azalmasına və ümumilikdə reklam fəaliyyətinin səmərəsizliyinə gətirib çıxara bilər.

Ənənəvi performans qiymətləndirmə metodları isə çox vaxt sabit hədd dəyərlərinə, statistik orta göstəricilərə və əvvəlcədən müəyyən edilmiş qaydalara əsaslanır. Lakin rəqəmsal reklam mühiti yüksək dəyişkənlik və qeyri-müəyyənliklə səciyyələndiyi üçün bu klassik yanaşmalar reklam performansında baş verən kəskin dəyişiklikləri vaxtında aşkarlamaqda və riskləri idarə etməkdə əksər hallarda kifayət qədər effektiv olmur. Belə şəraitdə qeyri-müəyyənlikləri və mövcud riskləri daha çevik və dəqiq analiz edə biləcək müasir metodlara ehtiyac yaranır.

Bu çətinlikləri aradan qaldırmaq məqsədilə aparılan tədqiqatda rəqəmsal reklam platformalarında performans risklərinin qiymətləndirilməsi üçün innovativ yanaşma təklif olunur. Təklif edilən modelin əsasını Z-ədədlər təşkil edir. Z-ədədlər qeyri-müəyyən məlumatların ifadəsi və təhlili üçün güclü vasitədir. Hazırlanan modeldə hər bir reklam hadisəsi iki mühüm ölçü əsasında qiymətləndirilir: bir tərəfdən risk səviyyəsi, digər tərəfdən isə bu qiymətləndirmənin etibarlılıq dərəcəsi.

Model, reklam kampaniyalarından toplanan əsas performans göstəriciləri — klik dərəcəsi (CTR), bot trafikinin intensivliyi və istifadəçi seanslarının orta müddəti — üzərində qurulur. Bu göstəricilər əsasında performans riskləri müəyyənləşdirilir və Z-ədəd formatında analiz edilir. Nəticədə, model yalnız performansın zəifləmə ehtimalını deyil, həm də bu qiymətləndirmənin etibarlılığını eyni vaxtda nəzərə almağa imkan verir. Bu yanaşma, reklam menecerlərinə daha məlumatlı qərarlar qəbul etməyə, qeyri-müəyyən şəraitdə riskləri daha dəqiq proqnozlaşdırmağa və kampaniyaların optimallaşdırılmasına yönəlmiş daha effektiv strategiyalar hazırlamağa şərait yaradır.

Beləliklə, təklif olunan model rəqəmsal reklam sahəsində risklərin daha dərin təhlilinə imkan verir və ənənəvi yanaşmaların çatışmazlıqlarını aradan qaldıraraq, real vaxt rejimində performans risklərinin monitorinqi və idarə olunması üçün yeni imkanlar təqdim edir. Eyni zamanda, əldə edilən nəticələr bu metodun tətbiqinin həm elmi, həm də praktiki baxımdan yüksək potensiala malik olduğunu göstərir və reklamverənlərin resurslarından daha səmərəli istifadə etməsinə töhfə verir.

Rəqəmsal reklam platformalarında risklərin idarə edilməsi müasir dövrün ən mühüm tədqiqat istiqamətlərindən biri kimi diqqət mərkəzindədir. Xüsusilə bot trafiki, klik fırıldaqçılığı və istifadəçi məlumatlarının sui-istifadəsi kimi problemlər bu sahədə qarşıya çıxan əsas təhlükələrdən sayılır. Bu risklər yalnız maliyyə itkiləri ilə məhdudlaşmır, eyni zamanda şirkətlərin reputasiyasına, istifadəçi etibarına və hüquqi məsuliyyətlərinə də ciddi təsir göstərir.

Ənənəvi filtrasiya və nəzarət üsulları isə çox vaxt bu cür təhlükələri vaxtında aşkar etmək və idarə etməkdə yetərli olmur. Bunun əsas səbəblərindən biri, klassik yanaşmaların sabit hədd dəyərlərinə,

əvvəlcədən müəyyənləşdirilmiş sadə qaydalara və əsasən statistik göstəricilərə söykənməsidir. Lakin rəqəmsal reklam mühiti öz dinamikası, qeyri-müəyyənliyi və müxtəlifliyilə seçildiyi üçün sabit metodlar tez-tez dəyişən şərtlər qarşısında təsirsiz qalır. Buna görə də qeyri-müəyyən və dəyişkən risklərə qarşı daha elastik və dayanıqlı modellərin yaradılmasına ehtiyac duyulur.

Qeyri-səlis məntiq (fuzzy logic) yanaşması bu baxımdan qeyri-dəqiq və qeyri-müəyyən məlumatların təhlilində geniş istifadə olunan effektiv alət kimi çıxış edir. Rəqəmsal reklam platformalarında qeyri-səlis nəticə çıxarma sistemləri linqvistik dəyişənlər vasitəsilə riskləri təsvir edir ki, bu da qərar qəbul etmə prosesini daha adaptiv və çevik edir. Məsələn, istifadəçi davranışlarının "yüksək riskli", "orta riskli" və "aşağı riskli" kimi linqvistik kateqoriyalarla ifadə olunması qeyri-səlis sistemlərin əsas üstünlüklərindəndir. Lakin belə sistemlərin məhdudiyyəti ondadır ki, onlar yalnız risk səviyyəsini modelləşdirir, amma həmin qiymətləndirmənin nə dərəcədə etibarlı olduğunu nəzərə almır.

Bu boşluğu doldurmaq məqsədilə Z rəqəmlərinin istifadəsi xüsusi aktuallıq qazanır. Z rəqəmləri məlumatın etibarlılıq dərəcəsini modelləşdirməyə və eyni zamanda qeyri-səlis risk qiymətləndirməsini həyata keçirməyə imkan verir. Başqa sözlə, Z rəqəmləri vasitəsilə həm riskin intensivliyi, həm də bu qiymətləndirməyə olan inam səviyyəsi eyni vaxtda nəzərə alınır ki, bu da qərar qəbuletməni daha balanslı və informasiyaya əsaslanan şəkildə həyata keçirməyə şərait yaradır. Beləliklə, qeyri-səlis yanaşmanın imkanları genişləndirilir və daha kompleks qərar mexanizmləri qurulur.

Bununla yanaşı, rəqəmsal reklam təhlükəsizliyində yumşaq hesablama (soft computing) metodlarının, xüsusilə süni neyron şəbəkələrinin (Artificial Neural Networks, ANN) və genetik alqoritmlərin tətbiqi də böyük əhəmiyyət daşıyır. Süni neyron şəbəkələri böyük həcmdə verilənləri analiz edərək, reklam trafikində saxta kliklərin, bot fəaliyyətinin və anomaliyaların aşkarlanmasına xidmət edir. Neyron şəbəkələrinin öz-özünə öyrənmə qabiliyyəti onların mürəkkəb nümunələri tanımasına və riskləri daha yüksək dəqiqliklə proqnozlaşdırmasına şərait yaradır. Digər tərəfdən, genetik alqoritmlər optimallaşdırma problemlərinin həllində, modelin parametrlərinin avtomatik seçilməsində və ən yaxşı həllərin tapılmasında effektiv nəticələr verir. Bu metodların kombinasiyası risk qiymətləndirmə prosesini daha güclü və adaptiv hala gətirir.

Bununla yanaşı, Big Data Analytics texnologiyaları da real vaxt rejimində reklam trafikinin monitorinqində, potensial təhlükəli nümunələrin müəyyən edilməsində və anomal davranışların aşkar edilməsində mühüm rol oynayır. Reklam platformalarında yaranan məlumatların həcmi və müxtəlifliyi nəzərə alınaraq, bu texnologiyalar qeyri-adi nümunələrin vaxtında aşkarlanmasını və sürətli reaksiya imkanını təmin edir. Lakin eyni zamanda, bulud mühitlərində məlumatların təhlükəsiz saxlanması və işlənməsi məsələləri də öz aktuallığını qoruyur. Buna görə, bulud texnologiyalarında xüsusi risk qiymətləndirmə modellərinin hazırlanması vacib hesab olunur.

Ümumiyyətlə, Z rəqəmlərinin tətbiqi rəqəmsal reklam platformalarında qeyri-müəyyənlik şəraitində təhlükəsizlik risklərinin daha obyektiv və etibarlı şəkildə qiymətləndirilməsinə imkan yaradır. Bu yanaşma yalnız risk səviyyəsini müəyyənləşdirməklə kifayətlənmir, eyni zamanda qiymətləndirmənin nə dərəcədə etibarlı olduğunu da göstərə bilir ki, bu da müasir reklam mühitinin tələb etdiyi çevik və dəqiq qərar mexanizmlərinin formalaşmasına mühüm töhfə verir.

Gələcək tədqiqat istiqamətləri isə maşın öyrənməsi metodlarının, qeyri-səlis yanaşmaların və Z rəqəmlərinin inteqrasiyasını daha da inkişaf etdirməyi, eləcə də real vaxt rejimində reklam təhlükəsizlik sistemlərinin tətbiqi imkanlarını genişləndirməyi hədəfləyir. Belə yanaşmalar rəqəmsal reklam sahəsində daha təhlükəsiz, şəffaf və effektiv fəaliyyətə zəmin yarada bilər.

## NƏTİCƏ

Tədqiqatın yekununda reklam təhlükəsizlik risklərinin qiymətləndirilməsi üçün soft computing texnologiyalarına əsaslanan yeni bir modelin işlənib hazırlanması nəzərdə tutulur. Bu model real

vaxtda təhlükəsizlik risklərini aşkarlamağa və daha dəqiq qərarların qəbuluna imkan verəcək. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, fuzzy logic, süni neyron şəbəkələri və genetik alqoritmlər kimi metodların birgə tətbiqi nəticəsində reklam təhlükəsizliyinin qiymətləndirilməsi üçün tamamilə yeni bir yanaşma formalaşdırılacaq. Təklif olunan yanaşma, reklam sahəsindəki qeyri-müəyyən və dəyişkən şəraitdə daha dəqiq, çevik və məlumatlara əsaslanan qərarların qəbuluna əlverişli şərait yaradır. Z-ədədlərə əsaslanan modelin strukturu, həm riskin səviyyəsini, həm də bu qiymətləndirmənin etibarlılıq dərəcəsini eyni vaxtda nəzərə almaqla, ənənəvi metodlardan fərqli olaraq daha balanslı və şəffaf nəticələr təqdim edir.

Bu yanaşma real vaxt rejimində reklam performans risklərinin izlənməsi və idarə edilməsi üçün güclü analitik baza təmin edir. Model, reklam kampaniyaları zamanı baş verə biləcək performans dəyişikliklərini erkən mərhələdə aşkarlamağa və vaxtında müdaxilə imkanı yaratmağa kömək edir ki, bu da qərar qəbuletmə prosesini əhəmiyyətli dərəcədə optimallaşdırır.

Gələcək tədqiqat istiqamətləri bu modelin daha da təkmilləşdirilməsini nəzərdə tutur. Xüsusilə, maşın öyrənməsi metodlarının tətbiqi ilə Z-ədədlərin parametrlərinin dinamik şəkildə yenilənməsi və təkmilləşdirilməsi bu yanaşmanın effektivliyini artırmaq baxımından mühüm perspektivlər açır. Belə inteqrasiya modellərin öz-özünə öyrənmə və adaptivlik qabiliyyətlərini artıracaq, bu da onları daha mürəkkəb və real dünya reklam mühitlərində istifadəyə yararlı edəcək.

Bu araşdırmanın nəticələri həm elmi, həm də praktiki baxımdan böyük əhəmiyyət kəsb edir. Təklif olunan model reklam sahəsində fəaliyyət göstərən şirkətlərin təhlükəsizlik risklərini daha səmərəli şəkildə idarə etməsinə və qeyri-müəyyənlik şəraitində optimal qərarlar qəbul etməsinə töhfə verəcək.

**Ədəbiyyat**

1. L. A. Zadeh, “A rationale for fuzzy control,” Journal of Dynamic Systems, Measurement, and Control, vol. 94, no. 1, pp. 3-4, 1972.
2. Zadeh, L. A. “Z-numbers: A new direction in fuzzy logic.” Computers & Mathematics with Applications 63.5 (2012): 339-410.
3. Rafik M. Aliyev, “Decision Making under Z-information”, Springer International Publishing, 2015.

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TİKİNTİYƏ İNVESTİSİYALARIN ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Yadulla HASANLİ***[1]
Azərbaycan Dövlət İqtisad Universiteti
AR Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutu
[1]ORCID ID: https://orcid.org/0000-0001-9497-5607
***Günay RAHİMLİ*** [2]
Azərbaycan Dövlət İqtisad Universiteti
AR Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutu
[2]ORCID ID: https://orcid.org/0000-0002-1452-664X
***Şəfiqə BAĞIROVA***[3]
Azərbaycan Dövlət İqtisad Universiteti

## ÖZET

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2024-cü ildə əsas kapitala yönəldilmiş investisiyaların həcmi Qarabağ iqtisadi rayonu üzrə 2,59 milyard manat, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə isə 3,63 milyard manat təşkil etmişdir. Bu vəsaitin müvafiq olaraq 2,51 və 3,57 milyard manatı tikinti-quraşdırma işlərinə sərf olunmuşdur. Sözügedən investisiyalar regionda həyat şəraitinin bərpası, yeni iş yerlərinin yaradılması və əhalinin rifahının yüksəldilməsi baxımından mühüm rol oynamaqla yanaşı, həm də qarşılıqlı iqtisadi əlaqələr vasitəsilə digər sahələrin məhsul və xidmətlərinə olan tələbi artırmaqla dolayı iqtisadi təsirlər yaradır.Bu tədqiqatda 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tikinti-quraşdırma işlərinə ayrılmış təxminən 6 milyard manatlıq investisiyanın ölkə iqtisadiyyatında yaratdığı multiplikativ təsirlər qiymətləndirilmişdir. Təhlil xərclər-buraxılış modeli və Sosial Hesablar Matrisi (SHM) əsasında qurulmuş multiplikator modeli vasitəsilə aparılmışdır. Bu modellər investisiyaların digər sahələrə dolayı təsirləri, həmçinin gəlir və xarici ticarət axınları vasitəsilə yaranan təsirləri də nəzərə alınmaqla kompleks iqtisadi qiymətləndirmə təqdim edir.

**Anahtar Kelimeler:** yenidənqurma, tikinti-quraşdırma işləri, Qarabağ iqtisadi rayonu, Şərqi Zəngəzur iqtisadi rayonu, multiplikativ effektlər

## ABSTRACT

According to the data of the State Statistical Committee of the Republic of Azerbaijan, in 2024, the volume of investments in fixed capital amounted to 2.59 billion AZN in the Karabakh economic region and 3.63 billion AZN in the East Zangezur economic region. Of these amounts, 2.51 billion AZN and 3.57 billion AZN, respectively, were allocated to construction and installation works. These investments play a significant role in restoring living conditions, creating new employment opportunities, and improving the well-being of the population in the region. At the same time, they generate indirect economic effects by increasing demand for goods and services in other sectors through intersectoral economic linkages.

This study evaluates the multiplier effects of nearly 6 billion AZN invested in construction and installation activities in the Karabakh and East Zangezur economic regions in 2024. The analysis is conducted using a multiplier model based on the input-output framework and the Social Accounting Matrix (SAM). These models provide a comprehensive economic assessment by capturing both the indirect impacts on other sectors and the effects transmitted through income generation and foreign trade flows.

**Keywords:** reconstruction, construction and installation works, Karabakh economic region, East Zangezur economic region, multiplier effects

# B.VAHABZADƏNİN "FƏRYAD" ƏSƏRİ HƏQİQƏTİN YOL XƏRİTƏSİ KİMİ

# B. VAHABZADE'S "FARYAD" AS A ROADMAP TO TRUTH

**Yeganə MİRZƏYEVA**
Bakı Dövlət Universiteti, "İslamşünaslıq" Elmi-Tədqiqat Mərkəzi, aparıcı elmi işçi, fil.ü.f.dok.
ORCHID ID: https://orcid.org/0009-0005-4598-7296

**XÜLASƏ:**

Azərbaycan xalqının sovet ədəbiyyatı tarixində özünəməxsus yanaşma metodologiyası ilə bilinən Bəxtiyar Vahabzadə azadlıq ruhu, ədalət, insanlıq, həqiqət, milli-mənəvi dəyərlərin təbliğatçısı, carçısı kimi xalq tərəfindən sezilməkdə bu gün də davam edir. Bədii manevrlərlə insani-kamil fəlsəfəsini özünə məxsus çalarlarla Fəryad əsərində də ifadə etməyə müvəffəq olmuşdur.

Əsərin məziyyəti insanın daxili yolçuluqdakı maneələrini bildirməklə incə toxunuşlarla həll yolunu ifadə məharətindədir. Psixoloji analiz metodu ilə oğullar və atalar arasında insanlığın əsas sualları ətrafında gedən psixoloji, fəlsəfi mövzular duyğusal zəka fonunda aşkara çıxarılmaqla yanaşı kollektiv şüur, həyatda  məna axtarışı, məsuliyyət kimi dəyərlərin xoşbəxtlik  və eyni zamanda azadlığın  əsas elementi olması kimi fəlsəfəsi, psixoloji yanaşmalar İslam fəlsəfi fonunda aşkara çıxarılır. Avropa psixoloji analizin kəşflərinin İslam təsəvvüf fəlsəfəsində geniş müzakirə və kəşfləri incə bədii notlarla bir çox pərdələri qaldırır. Təsəvvüf fəlsəfəsinin hürufilik təriqətinin önəmli fikir ustadı Nəsiminin insanın həqiqət, məna, azadlıq, kainatda rolu, məqsədi haqqında epitetlərlə Bəxtiyar Vahabzadə bioloji varlıq olan insanın psixoloji doğuşun çətinliyi, sancılarını ifadə etməyə müvəffəq olmuşdur.

Ekzistensial fəlsəfədən öncə kəmalə çatmaq, kimliyin axtarışı, inşası istiqamətində insanlığa yol xəritəsi təqdim etmiş təsəvvüf fəlsəfəsinin Hürufilik istiqaməti ilə oxucunu düşünməyə dəvət etməyə müvəffəq olmuşdur. İnsanın əsas dəyəri onun düşünməyi bacarmasında olmasını vurğulayan yazıçı-filosof əminliklə vurğulayır... "İdrakdadır Allah".

Yazıçı cürətlə ifadə edir ki, müəllim,  həqiqət çarçısı və mənəvi yaşam dəyərlərini ötürən və məhz ötürücü həyat tərzini seçən insan  valideyndən üstündür.

Valideynlər və övladlar arasında müxalif münasibətdə üstünlüyü insanın azaqlıq ruhunda görür və hər insanı bir daha  azadlıq, həqiqət axtarışı,  kollektiv şüur üzərində bir daha, bir daha düşünməyə dəvət edir.

Özündən əvvəlki həqiqət axtarışları və yol xəritəsi təqdim edən sələfləri kimi dərd, ələm, sıxıntı ilə insanın psixoloji doğuşunun mümkün olduğunu bir daha bədii şəkildə oxucunun düşüncə mühakiməsinə təqdim edir.

Qaranlığın, kölgənin, iç səsin dinlənilməklə həqiqətə, işıqlı dünyaya ağrılı keçid metaforalarla təqdim olunmuşdur. İşıqlı dünyaya səyahət etmək istəyən mütləq qaranlıq quyuya enərək, qaranlıq dünyaya keçərək simurq quşuna şahid ola bilər.

Həqiqətin yolu insanın öz içindədir.

Dürrə şahid olmaq istəyirsənsə ördək kimi suyun üzərində üzmə deyə, iç dünyaya dərin təfəkkürə dəvət edən insanlıq üçün sərin meh olmaq istəyən Nəsiminin hürr fəlsəfi tarixi fonda oxucuya, düşünürə düşünmək üçün gözəl qida kimi təqdim olunmuşdur. Nəsimin haqq fəryadı bu günün düşünən insanına yol xəritəsi kimi bədii şəkildə tarixi janrda təqdim etməyə müvəffəq olan Bəxtiyar Vahabzadənin yaradıcılığı yeni tədqiqatlar gözləyir.

**Açar sözlər:** *Bəxtiyar Vahabzadə, Fəryad, təsəvvüf fəlsəfəsi, psixoloji analiz, daxili yolçuluq*

**ABSTRACT:**

Bəxtiyar Vahabzadə, known for his unique methodological approach in the history of Soviet Azerbaijani literature, continues to be regarded by the people as a proponent and herald of the spirit of freedom, justice, humanity, truth, and national-spiritual values. Through artistic maneuvers, he succeeded in expressing his philosophy of the humane-perfect individual with unique nuances in his work, "Fəryad."

The merit of the work lies in its skill to express solutions with subtle touches by identifying the obstacles in a person's inner journey. Using the method of psychological analysis, the work explores psychological and philosophical topics concerning the main questions of humanity in the relationship between sons and fathers, revealing them against the background of emotional intelligence. Furthermore, philosophical and psychological approaches—such as collective consciousness, the search for meaning in life, and the philosophy that values like responsibility are fundamental elements of happiness and freedom—are explored within the framework of Islamic philosophy.

The extensive discussion and discoveries of European psychological analysis within Islamic Sufi philosophy lift many curtains with delicate artistic notes. Drawing on the epithets of Nasimi, an important master of thought of the Hurufi sect of Sufi philosophy, regarding man's truth, meaning, freedom, and his role and purpose in the universe, Bəxtiyar Vahabzadə succeeded in expressing the difficulty and pangs of the psychological birth of a biological being.

He successfully invites the reader to contemplate the Hurufi direction of Sufi philosophy, which provided humanity with a roadmap toward reaching perfection and the search and construction of identity before existential philosophy. The writer-philosopher emphasizes that the main value of a person lies in their ability to think, confidently asserting: "God is in cognition (Idrakdadır Allah)."

The writer boldly states that a teacher, a herald of truth, and a person who transmits spiritual life values and chooses a life of transmission is superior to a parent. In the conflicting relationship between parents and children, he sees superiority in the spirit of human freedom, and he invites every person to think deeply about freedom, the search for truth, and collective consciousness.

Like his predecessors who sought truth and provided roadmaps, he artistically presents to the reader's judgment that a person's psychological birth is only possible through pain, grief, and distress. The painful transition from darkness, shadow, and listening to the inner voice towards truth and an illuminated world is presented through metaphors. One who wishes to journey to the illuminated world must descend into the dark well, pass through the dark world, and witness the Simurgh (Phoenix) bird. The path to truth is within the person.

"If you want to witness the pearl, do not float on the water like a duck," says the text, inviting deep introspection of the inner world. Nasimi's free philosophical history, who wished to be a cool breeze for humanity, is presented as excellent food for thought for the reader and the thinker. The works of Bəxtiyar Vahabzadə, who succeeded in presenting Nasimi's "cry of truth" in an artistic, historical genre as a roadmap for the thinking person of today, await new studies.

**Keywords:** *Bakhtiyar Vahabzadeh, Feryad, Tasavvuf philosophy, psychological analysis, inner journey*

# ANA DİLİMİZ - ƏN ZƏNGİN İRSİMİZ

**Zəhra Seyidqızı**
Naxçıvan Dövlət Universiteti,
Əcnəbi təhsilalanlar və hazırlıq mərkəzi,
**Şəhriyar Quliyev**
Naxçıvan Dövlət Universiteti,
Elektronika və informasiya texnologiyaları,

## 1. Mükəmməl millət

Alman filosofu və riyaziyyatçısı Vilhelm Gotfrid Leybinits yazırdı: "Mənə mükəmməl bir dil ver, sənə mükəmməl bir millət təşkil edim". Bəli, mənsub olduğumuz türk milləti də mükəmməl bir dilə malik olan mükəmməl bir millətdir. (Cəfərov and Ramizoğlu, 2009)

Bu millət bir vulkan partlayışı kimi hər şeyi fəth etməyə, hər şeyi anındaca dərk etməyə alışan çılğın bir millətdir. Bu millətin sütununu zaman-zaman hə- risliklə silkələyib dağıtmağa, varlığını parçalayıb məhv etməyə çalışsalar da, onu tarix səhnəsində heç vaxt oyundankənar edə bilməyiblər. Ayrı-ayrı mərhələlərdə öz qüdrətli hissi, ağlı və mənəvi enerjisini intensiv və sistemli şəkildə sərf edə- rək, yaradılışından bu günə kimi Türk milləti həmişə dik dayanıb, heç vaxt boyun əyməyib.




**Şəkil 1.** Tarix boyu Türk dilində danışılan coğrafiyalar.

**Mənbə:** ***"****What if Eurasia had more Turkic languages?****"***, 2023.

Bir millət dəmir təpiklərin altına könüllü gedən, köləlik üçün yaranan, sanki öz azadlığından əzab çəkərək özünə idarəçi arayan millətlərdən biri olmayıb. Ək- sinə, ağıl, vicdan, ədalət hissini itirmədən öz türkçülük psixolojiyasına - "ayaqüstə ölmək sürünməkdən yaxşıdır" inancına sadiq qalaraq, öz azadlığını milli dirçəlişi, milli oyanışı ilə qoruyub saxlamışdır. Yaradılışından bu günə qədər yağı düşmənin accöz, həris, yırtıcı caynaqları türkün torpağına uzanaraq onun qüdrətini məhv etməyə, diz

sökdürməyə, sahib olduqlarını mənimsəməyə dönə-dönə cəhd ediblər.

Lakin onlar bir şeyi dərk edə bilməyiblər: Türkün qəzəbi barıt çəlləyi kimidir. Türk bir ayağa qaxdımı, deməк, yağı məğlubiyyətə tuş gəlib, qaçmağa məcburdur.

Tarix artıq bu həqiqəti qəbul edib: bu milləti məğlub etmək o qədər də asan deyil.

Azərbaycan Xalq Cumhiyyətinin lideri Məhəmməd Əmin Rəsulzadənin dediyi kimi,

*Mən bir türkəm, dinim, cinsim uludur, Sinəm, sözüm atəş ilə doludur.*

### *1.1. Türk dil qrupları*

Dil mənsub olduğu xalqın mənliyini, mənəvi dəyərlərini yaşadaraq onu inkişaf etdirən bir mənbədir. Dil millətin ruhu, ideyanın, təfəkkürün, hissin canıdır.

Adı çəkiləndə ətrafa qulaqbatırıcı sükut çökdürən Türk millətinin dili də özü kimi qüdrətlidir. Türk dili ailəsində 41 dil, müxtəlif ləhcə və şivələr mövcuddur. Dünyaya nəzər salaq... Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənis- tan, Özbəkistan, Başqırdıstan, Tatarıstan, Tuva, Çuvaşıstan, Yakutiya, Dağlıq Altay,




**Şəkil 2.** Türk dilləri soy ağacı.

**Mənbə:** ***"****Tarih Boyunca Kurulan Türk Devletleri****"***, 2019.

İran, Əfqanıstan, Çin, Bolqarıstan, Rumıniya və s. Bu siyahını daha da uzada bilərik.

Adların çəkdiyimiz xalqların dili həm mənşəcə, həm də tipoloji cəhətdən bir kökdən törəyən qohum türk dilləridir. Əslində, "türk dili" kəlməsi deyərkən, təkcə Türkiyə türkcəsini nəzərdə tutmuruq. Bu kəlmə türk tayfalarına mənsub olan bü- tün ləhcələrin hamısını əhatə edir.

Türk dilləri ailəsi bir neçə qrupa bölünür. Oğuz dil qrupu (türk - Türkiyə türk- cəsi, Azərbaycan dili,

türkmən, qaqauz); Qıpçaq dil qrupu (qazax, qırğız, tatar, ba- şqırd, qaraqalpaq, qumuq və s.); Qarluq dil qrupu (özbək, uyğur, salar); Bulqar dil qrupu (çuvaş dili). Türkiyə türkcəsinin və Azərbaycan dilinin daxil olduğu Oğuz dil qrupunun formalaşması eramızın birinci minilliyində başa çatıb. (Nağısoylu and Zeynallı, 2009)

Deməli, bu qrupa daxil olan Azərbaycan dilinin, Türkiyə türkcəsinin də fo- netik sistemi, əsas lüğət fondu (leksikası) və qrammatik quruluşu həmin dövrdə formalaşıb. Formalaşdığı dövrdən bu günədək öz ecazkarlığını qoruyub saxlayan doğma dilimdən - Azərbaycan dilindən və onun qüdrətindən söz açacağam.

## 2. Dilimizin qədimliyi

“Ana dili! Nə qədər rəfiq, nə qədər ali, hissiyyatı qəlbiylə oyandıran kəlmə! Nə qə- dər möhtəşəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə! Ana dili! Bir dil ki, meh- riban bir vücüd, öz məhəbbətini, şəfqəti-madəranəsini sənə o dildə bəyan edib- dir. Bir dil ki, sən hələ beşikdə ikən bir layla şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin guşələrində nəqş bağlayıbdır. Bir dil ki, həyat və kainat haqqında ilk əvvəl o dil sayəsində bir fikir hasil edibsən, cism və ruhun möhtac olduğunu məvadi o dildə tələb eləyibsən...”

Böyük şəxsiyyət, ictimai-siyasi dövlət xadimi N. Nərimanovun belə gözəl tərif verdiyi ana dilimizdən-Türk dillərindən, oğuz dilindən bu günlərdə Azərbaycan dili adlandırdığımız bu möcüzədən çox danışılıb. Ona işıqdan doğulan adamla- rın müqəddəs dili, alpların, ərənlərin qəhramanlıq dili, bayrağının işığına dünyanı toplayanların fateh dili, dünyanı dolaşan mühacirlərin didərgin dili, hakimiyyət, ordu, yürüş dili deyiblər.

Xalqımız Nəsimi, Füzulinin poeziya dünyasını, Mirzə Fətəli kəlamını, Mirzə Cəlil və Sabirin duzlu sözünü, Üzeyir və S. Vurğunun qanadlı ilhamını dünyaya tanıtdıran bir dilə məxsusdur. Mənsub olduğu xalq və onun yurdu kimi yadelli təsirlərə məruz qalan, zaman keçdikcə şer, sənət və elm dili kimi şöhrət qazanan bu dil inkişaf etmiş ədəbi dillərdən birinə çevrilmişdir.

Azərbaycan dili hələ qədimdən öz hüdudlarını aşaraq bir sıra ölkələrə yayıl- mış. Vaxtilə Lermontovun dediyi kimi Asiya və Avropanın fransız dili qədər geniş anlaşma vasitəsi olmuşdur. Bu dilin qədimiliyi, müxtəlif xalqlar arasında işlən- məyi, poetik imkanları, şirinliyi əcnəbi səyyahların, filoloqların, yazıçıların, hətta torpağımıza hücum edənlərin belə diqqətini cəlb etmişdir.

Saray dili səviyyəsində işlənə biləcək qədər yüksək mədəni səviyyəyə, fone- tik, qrammatik qayda-qanuna, gözəl nitqə malik olan dilimizi mehribanlıqda dün- yanı işıqlandıran, qəhrəmanlıqda isə dünyanı yaxan, od məcazlı Şah İsmayıl Xətai yaratdığı vahid Azərbaycan dövlətində dövlət dilinə, sənət dilinə çevirmişdir və dilimizin bədii-mədəni inkişafında mühüm rol oynamışdır.

Dilimiz ta qədimdən çoxsaylı xalqların yurdu kimi tanınan Qafqazda anlaşma vasitəsi olmuşdur. XIX əsrdə Peterbuq Universitinin müəllimi L. Budaqov Azər- baycan dilini “bütün Qafqaz bölgəsində işlənən dil” adlandırmışdır. Tarixən bizə düşmən kəsilən ermənilər belə, bu dilə hədsiz maraq göstərmişlər. Alman iqti- sadçı alimi Qakstqauzen bu marağı öyrənmiş və ona məlum olmuşdur ki, ermə- nilər erməni dilində yox, tatar danışıq dilində mahnı qoşurlar, ona görə ki, bu dil poeziya dilidir, ən məşhur erməni şairləri öz əsərlərini daha geniş yaymaq üçün həmişə tatar dilində danışırlar.

## 3. Dilin saflığının qorunması

Dilimizə Avropada da böyük maraq göstərilib. İngiltərədə Oksford universiteti- nin professoru Limpson, Almaniyada Hans Peter Əhməd Şmide, Çexoslovakiyada Nadya Bednarova kimi alimlər tərəfindən tədqiq olunan dilimiz F. Köçərlinin de- diyi kimi “bütün müsəlman Şərqinin ən gözəl və ən çox işlənən bir dili kimi qiy- mətləndirilmişdir”.

Dil hər bir dövlətin atributlarından biridir. Konstitusiyamızın 21-ci maddə- sində yazılır: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir". Dilimiz tarixən Türk dili adı ilə tanınmışdər. Şimali Azərbaycanın Rusiyaya birləşdirilm- əsindən sonra soykökümüzü unutdurmaq, bizi türk dünyasından ayırmaq məqs- ədilə dilimizi tatar dili, tatar dilinin Qafqaz ləhcəsi və s. adlandırmışlar.

Respublikamızda dilimizlə bağlı müxtəlif fərmanlar qəbul olunub. 1919-cu ildə Azərbaycan Respublikasının qərarı ilə dilimiz Türk dili adlandırılmışdır. 1936- cı ildə SSRİ Konstitusiyasında dilimiz Azərbaycan dili, xalqımız azərbaycanlı ad- landırıldı. 1993-cü il yanvar ayında Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə dilimiz yenidən Türk dili kimi qeyd olundu. Nəhayət, 1996-ci il 12 no- yabr səsverməsində dilimiz konstitusiyada Azərbaycan dili adlandırıldı. Hörmətli öndərimiz Heydər Əliyev dilimizin dövlət dili kimi yaşamasında, onun saflığının qorunmasında böyük işlər görmüşdür.

Tükənməz gücə, zəkaya malik olan hörmətli Prezidentimiz İlham Əliyev də, Ulu öndərin dil siyasətini davam etdirərək dilimizin saflığı, qorunması ilə bağlı çoxlu düşünülmüş islahatlar aparmış, qərarlar vermişdir. İ. Əliyev çıxışlarından birində deyirdi:

"Əlbəttə, bizim vətəndaşlar xüsusilə gənc nəsil nə qədər xarici dil bilsələr daha yaxşıdır. Ancaq ilk növbədə öz ana dilini bilməlidirlər. Digər tərəfdən, imkan verməməlidirlər ki, Ana dilimizə yad kəlmələr daxil olsun. Buna ehtiyac yoxdur."

(Cəfərova, 2023)

Hazırda Azərbaycan dilində dünyada 30 milyondan çox azərbaycanlı danışır. Müasir Azərbaycan dili dünyanın inkişaf etmiş dillərindən biri kimi mənsub ol- duğu xalqın yaranışından bu günədək mənəvi dünyasını mətin addımlarla işıqlı gələcəyə doğru aparmağa layiq olan bir dildir. Qəlbi vətən eşqi ilə tüğyan edən Xəlil Rza Ulutürkün dediyi kimi:

*Polad korpüm, Qılıncımdır,*

*Günəşimdir, Mənim dilim!*

**Şəkil 3.** Türk dili ailəsində ana dili olaraq danışanların sayı.

**Mənbə:**. Güneş, 2007



**Ədəbiyyat**

Güneş, A. B. (2007). *Türk Dilləri Danışanların Sayına Görə* [Accessed: 2025-04-05; A.G. Baydin is a lecturer at Oxford University]. https://az.wikipedia.org/wiki/T%C3%BCrk_dill%C9%99ri#/media/Fayl:TurkicLanguages.png

Cəfərov, M. və Ramizoğlu, S. (2009). *Ağıla və Qəlbə Işıq Saçan Sözlər*. Bakı. s. 181.

Cəfərova, F. (2023). *İlham Əliyevin Dil Siyasəti*. [Yazılıb: 2023-10-17].

https://naxcivanxeberleri.com/bloq/ilham-eliyevin- dil-siyaseti-20654

Kafesoğli, İ. (1983). *Türk Milli Kültürü*. Istanbul, s. 48.

Nağısoylu, M. və Zeynallı, M. (2009). *Azərbaycan Dili*. Şərq-Qərb ASC. s. 177.

*Tarih Boyunca Kurulan Türk Devletleri* (2019) [Accessed: 2025-04-05]. https://www.hepgun.com/wp-content/uploads/2019/03/tarih_boyunca_kurulan_turk_devletleri.jpg

*What if Eurasia had more Turkic languages?* [Online forum post on Reddit; [OC] Al- ternate history]. (2023).
https://www.reddit.com/r/imaginarymaps/comments/10ucg4t/what_if_
eurasia_had_more_turkic_languages/

# 2023-2025 İLLƏRDƏ AZƏRBAYCANDA LAYM XƏSTƏLİYİNİN (BORRELIA BURGDORFERI) SEROPREVALENSİYASININ DƏYƏRLƏNDİRİLMƏSİ

# EVALUATION OF THE SEROPREVALENCE OF LYME DISEASE (BORRELIA BURGDORFERI) IN AZERBAIJAN BETWEEN 2023 AND 2025

***Zibeydə QƏMBƏROVA*[1]**

[1]Azərbaycan Tibb Universiteti, Tibbi Mikrobiologiya və İmmunologiya Kafedrası, Bakı, Azərbaycan

[1]ORCID ID: https://orcid.org/0009-0003-6756-3393

***Həyat ƏLİYEVA* [2]**

[2]Azərbaycan Tibb Universiteti, Tibbi Mikrobiologiya və İmmunologiya Kafedrası, Bakı, Azərbaycan

[2]ORCID ID: https://orcid.org/0009-0004-3713-6806

**XÜLASƏ**

Laym xəstəliyi və ya borrelioz; *Borrelia burgdorferi* tərəfindən törədilən infeksion xəstəlikdir. *Borrelia burgdorferi*, Ixodes cinsinə aid gənələrin dişləməsi nəticəsində insanlara yoluxur. Borrelioz zoonoz xəstəlik olub; sinir sisteminə, dəri, əzələ-oynaq sisteminə və ürək-damar sisteminə güclü təsir göstərir. Patogenin klinik simptomları digər xəstəliklərə bənzər olduğu üçün xəstələyin diaqnostikasında çətinliklər yaranır. Laym xəstəliyinin diaqnostikasında kultivasiya (bakterioloji) üsulu vaxt aparan və çətin olduğu üçün seroloji testlərə daha çox üstünlük verilir. Borreliozun dünya üzrə yayılmasına dair əhatəli epidemioloji məlumatlar mövcud olsa da, Azərbaycanda bu xəstəliyin yayılma tezliyi və risk faktorları ilə bağlı məlumatlar məhduddur. Bu tədqiqatın məqsədi klinikamıza son iki il ərzində müraciət etmiş xəstələrdə Laym xəstəliyinin (*Borrelia burgdorferi*) seroprevalensiyasının qiymətləndirilməsidir. Tədqiqata 01.06.2023 – 01.06.2025 tarixləri arasında Referans Klinik Laboratoriya mərkəzinə (Bakı, Azərbaycan) müraciyət etmiş 172 xəstənin zərdab nümunəsi daxil edilmişdir. Xəstələrin qan zərdabında *Borrelia burgdorferi IgM* və *IgG* anticisimləri ELISA üsulu ilə Chorus firmasının (Diesse Diagnostica Senese, İtalya) reaktivlərindən çalışılmış və Chorus TRIO (Diesse Diagnostica Senese, İtalya) optik oxuyucu cihazı ilə dəyərləndirilmişdir. Tədqiqata daxil edilmiş 172 zərdab nümunəsinin 25-də (28%) *Borrelia burgdorferi IgM* (onlardan 20-si (80%) qadın, 5-i (20%) kişi), 11-də isə (12%) *Borrelia burgdorferi IgG* (8-i (72%) qadın, 3-ü (28%) kişi) pozitiv olaraq aşkar olunmuşdur. *Borrelia* pozitiv halların əksəriyyətini qadın xəstələr təşkil etmişdir. *Borrelia burgdorferi IgG* ən çox 40–60 yaş arası (46%), *IgM* isə 30–45 yaş arası (40%) yaş qrupunda pozitiv təsbit edilmişdir. *Borrelia burgdorferi IgM* pozitivliyi ən yüksək mart ayında (%25) müşahidə olunmuşdur. Tədqiqatın nəticələri Azərbaycanda əhali arasında *Borrelia burgdorferi* infeksiyasına qarşı spesifik seroloji markerlərin mövcudluğunu və bu patogənə qarşı immun cavabın formalaşdığını göstərmişdir. Bundan əlavə olaraq, nəticələr Azərbaycanda Lyme xəstəliyinin potensial yayılma riskinə diqqət çəkir və bu infeksiyanın daha geniş seroepidemioloji tədqiqatlarla öyrənilməsinin vacibliyini vurğulayır. Nəticə olaraq, erkən diaqnostika və profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə səhiyyə işçilərinin bu xəstəlik barədə məlumatlandırılması və risk qruplarının aktiv monitorinqi tövsiyə olunur.

**Açar sözlər:** *Borrelia burgdorferi*, ELISA, İmmunologiya, Laym xəstəliyi, Seroprevalensiya

## ABSTRACT

Lyme disease, also known as borreliosis, is an infectious disease caused by spirochetes belonging to the *Borrelia burgdorferi* sensu lato complex. *Borrelia burgdorferi* is transmitted to humans through the bite of infected ticks from the *Ixodes* genus. As a zoonotic disease, it significantly affects the nervous system, skin, musculoskeletal system, and cardiovascular system. Due to its clinical manifestations mimicking other diseases, the diagnosis of Lyme disease can be challenging. Since bacteriological culture methods are time-consuming and isolation of the pathogen from clinical specimens is difficult, serological testing remains the cornerstone of laboratory diagnosis. Although comprehensive epidemiological data on the global distribution of borreliosis are available, information regarding its prevalence and risk factors in Azerbaijan is limited. This study aimed to assess the seroprevalence of *Borrelia burgdorferi* among patients who presented to our clinic over the past two years. A total of 172 serum samples from patients who applied to the Reference Clinical Laboratory (Baku, Azerbaijan) between June 1, 2023, and June 1, 2025, were included in the study. The presence of *Borrelia burgdorferi*-specific *IgM* and *IgG* antibodies in the patients' sera was investigated using the ELISA method with diagnostic kits from the Chorus brand (Diesse Diagnostica Senese, Italy), and the analyses were evaluated using the Chorus TRIO optical reader (Diesse Diagnostica Senese, Italy).Among the 172 serum samples included in the study, 25 samples (28%) were positive for *Borrelia burgdorferi IgM* (20 (80%) were female and 5 (20%) were male) and 11 samples (12%) were positive for *Borrelia burgdorferi IgG* (8 (72%) were female and 3 (28%) were male). The majority of *Borrelia*-positive cases were female. *Borrelia burgdorferi IgG* was most frequently detected in the 40–60-year age group (46%), whereas *IgM* positivity was more common in the 30–45-year age group (40%). The highest rate of *IgM* positivity was observed in March (25%). The findings of this study demonstrate the presence of specific serological markers against *Borrelia burgdorferi* among the population in Azerbaijan, indicating an ongoing immune response to this pathogen. Additionally, the results highlight a potential risk for the spread of Lyme disease in the country and emphasize the need for broader seroepidemiological investigations. In conclusion, it is recommended to enhance early diagnostic strategies and strengthen preventive measures, including raising awareness among healthcare professionals and implementing active surveillance of high-risk groups.

**Keywords:** *Borrelia burgdorferi*, ELISA, Immunology, Lyme Disease, Seroprevalence

# YENİYETMƏLƏRİN HƏYAT TƏRZİ XƏSTƏLİKLƏRİN YARANMASININ RİSK AMİLİ KİMİ

# ADOLESCENTS' LIFESTYLE AS A RISK FACTOR FOR THE DEVELOPMENT OF DISEASES

**Dos.t.ü.f.d., Zöhrə İsmayılova**

Azərbaycan Tibb Universiteti, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası,

ORCİD İD:0000-0003-4571-6275

**Dos. t.ü.f.d., Şəhla Balayeva**

Azərbaycan Tibb Universiteti, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası,

,ORCID ID: 0000-0003-3224-418;

**Xülasə**

Son zamanlar müasir yeniyetmələr arasında yolxucu hesab edilməyən, amma patoloji xroniki vəziyyətlərin inkişafında əsas amillərdən biri hesab edilən "həyat tərzi xəstəliyi" və ya "sivilizasiya xəstəliyi"geniş yayılmışdır. Vaxtlarının çox hissəsini kompüterə, smartfona və ya televizora həsr edən yeniyetmələr, əlavə (repititor) və dərs cədvəlinə müvafiq dərslərdə, ev tapşırıqlarını yerinə yetirən zaman vaxtının 85%-ni oturaq vəziyyətdə olurlar. ÜST ekspertləri yeniyetməlik dövrünü gələcək sağlamlıq üçün vacib olduğunu vurğulayır, çünki məhz bu yaşda insanların yaxın onilliklərdə rifahına təsir edəcək “bir çox xroniki xəstəliklər”yaranır. Sağlam olmayan gündəlik vərdişlərin geri dönməz mənfi təsiri və sağlamlaşdırıcı işlərin aparılmasına tələbin artması mövzunu aktual edir.

**Açar sözlər:** yeniyetmə, məktəb, həyat tərzi

**Abstract.**

This article presents the findings of a research study conducted on the lifestyle of adolescents. The study was carried out in general education schools using a questionnaire-based survey method. The analysis of adolescents' lifestyle revealed a significant increase in the amount of time spent on mobile phones and computers throughout the day. It also highlighted a growing consumption of carbonated and energy drinks among both boys and girls, as well as a notable rise in the use of alcohol, cigarettes, and hookah particularly among boys. Among emotionally sensitive adolescents who were exposed to frightening websites and games, the incidence of suicidal ideation was found to be 14.8% ± 2.2%. Among medical consultations, visits to neurologists were the most frequent. Official statistics of the Republic of Azerbaijan confirm that, over the past five years, the number of mental and behavioral disorders per 10,000 children aged 0 to 18 has increased by a factor of 1.42.

**Key words:** adolescent, school, lifestyle

**Tədqiqatın məqsədi:** yeniyetmələrin həyat tərzini öyrənmək olmuşdur.

**Material və metodlar:** Müayinələr Bakı şəhəri ümumi təhsil məktəblərin yuxarı sinif şagirdləri, 100 nəfər yeniyetmə (oğlan və qız hər biri 50 nəfər) arasında “Məktəbli uşaqlar arasında sağlam vərdişlərin tədqiqi” (HBSC) və xüsusi hazırlanmış anket sorğusu vasitəsilə anonim aparılmış, cavablar müvafiq normalarla müqayisə edilmiş və qiymətləndirilmişdir.

**Nəticələr:** Yeniyetmələrin həyat tərzini araşdırdıqda məlum oldu ki, zərərli vərdiş hesab edilən qazlı və enerji içkilərin qəbulu oğlan və qızlar arasında 86,9±2,9% və 39,2±4,5%, oğlanlar arasında siqaret və qəlyandan istifadə 30,0±4,0%, spirtli içki qəbulu 47,6±4,4% təşkil etmiş, qızlar arasında siqaret

və qəlyandan, spirtli içki və narkotik maddələrdən istifadəyə rast gəlinməmişdir. Şən əyləncə və sosiallaşma, tədris və ətraf aləmi tanıma vasitəsinə çevrilmiş informasiya-kommunikasiya texnologiyalarından gündəlik istifadə geniş yayılmış, oğlanlar arasında telefondan 1-3 saatdan çox və 1 saatdan az istifadə 86,9±2,9% və 13,1±2,9%, qızlarda isə 74,2±3,9% və 25,8±3,9%; kompüterdən 1-3 saatdan çox və 1 saatdan az istifadə 56,9±4,3% və 43,1±4,3%, 30,0±4,2% və 70,0±4,2%; televizordan 1-3 saatdan çox və 1 saatdan az istifadə 30,0±4,0% və 70,0±4,0%, 35,0±4,4% və 65,0±4,4 halda qeydə alınmışdır. Qorxulu saytlara və oyunlara baxmaq 46,4±3,2% təşkil etmiş, oğlanların 56,9±4,3%, qızların isə 35,0±4,4% gündəlik oyunda "qalib gəlmək" üçün ekran qarşısında saatlarla vaxt keçirmələri onları dərsdən yayındırmaqla yanaşı, həddindən artıq yorğunluq və nevrotik pozuntular yaradır. Belə vəziyyət isə daha qorxulu, xoşa gəlməz hallara gətirib çıxarır, döyüş və ölüm səhnələri ilə bol emosional oyunlar və filmlərdən sonra özünə qapanma halları həssas yeniyetmələr arasında özünə qəsd istəyinə səbəb olmuş (14,8±2,2%), qızlarda (16,6±3,4% və 13,1±2,9%) bu göstərici daha yüksəkdir. Profilaktik məqsədlə həkimə müraciət edənlər çox azdır (2,0±0,8%), həkimə müraciətlər arasında nevropatoloqa müraciət üstünlük təşkil etmiş, müvafiq olaraq oğlanlar 39,0±4,3% və qızlar 57,0±4,5% olmuşdur. AR statistik məlumatlarıda təsdiqləyirki, son 5 il ərzində 0-18 yaş uşaqların hər 10000 nəfərinə psixi pozuntular və davranış pozuntuları 1,42 dəfə artmışdır. Sağlamlığın fiziki və psixi komponentlərinin orta göstəricisi oğlanlarda 66,57 və 58,13; qızlarda isə 71,1 və 59,32 təşkil etmişdir.

**Yekun:** sağlamlığın fiziki və psixi komponentlərinə təsir göstərən həyat tərzi fiziki və psixi xroniki xəstəliklərin yaranmasına başlanğıc verir, xüsusən oğlanlar arasında piylənmə problemini aktuallaşdırır və bir sıra sağlamlaşdırıcı profilaktik tədbirlərin zəruriliyini tələb edir.

# YENİYETMƏLƏRDƏ STRESS VƏZİYYƏTİNİN SƏBƏBLƏRİ VƏ PROFİLAKTİKASI

# CAUSES AND PREVENTION OF STRESS IN ADOLESCENTS

**Dos.t.ü.f.d., Zöhrə İsmayılova**

Azərbaycan Tibb Universiteti, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası,

ORCİD İD:0000-0003-4571-6275

**Baş müəllim İradə Mustafayeva**

Azərbaycan Tibb Universiteti, Uşaq-yeniyetmələrin sağlamlığı və

əmək sağlamlığı kafedrası,

ORCID ID:0000-0001-8178-6954.

**Xülasə**

Müasir yeniyetmənin gündəlik həyatının ayrılmaz hissəsinə çevrilən stress onun davranışına, fəaliyyətinə, sağlamlığına, başqaları və ailəsi ilə münasibətlərinə təsir edir. Stress insana təsir edən yükün ağırlığının onun adaptasiya imkanlarına uyğun gəlmədikdə yaranan gərginlik vəziyyətidir. Yeniyetmələrin stress səbəblərinin çox (tədris yükünün çox olması və əlavə repititor təhsili, asudə vaxtın azlığı, internet aludəçiliyi, davranışda dəyişikliklər, yaxşı və pis yekun qiymət və s) olmasına baxmayaraq psixi gigiyena və stressin profilaktikasında həyati

bacarıqların mənimsənilməsi sahəsində sağlamlaşdırıcı işlərin aparılmasına tələbin artması mövzunu aktual edir.

**Açar sözlər:** yeniyetmə, məktəb, stress

**Abstract:**

The article presents the results of a research study aimed at identifying the causes of stress in adolescents. The study was conducted among 50 upper-grade students from general education schools in Baku, using the following survey questionnaires: "Causes and Situations that Trigger Stress", "Do You Know How to Cope with Stress?", and "Nervous System Condition" (K. Libelt). The analysis revealed that more than half of the adolescents feel lonely (46%), experience stress due to academic workload and centralized exams (64%), and have below-average stress resilience. At least once a week, daily, or once a month, 45.5% of them encounter stressful situations. According to the survey results, adolescents under stress tend to become irritable and fall into depression; mood deterioration occurring once a week, daily, or monthly was observed in 72.5% of respondents. Stress negatively affected adolescents' eating habits, particularly among girls ($p \leq 0.05$).

**Keywords:** adolescent, school, stress

**Tədqiqatın məqsədi:** yeniyetmə stressinin mahiyyətini və profilaktikasını öyrənmək olmuşdur.

**Material və metodlar:** Müayinələr Bakı şəhəri ümumi təhsil məktəblərinin yuxarı sinif şagirdləri, 50 nəfər yeniyetmə arasında "Stress yaradan səbəb və vəziyyətlər", Stressin öhdəsindən necə gələcəyinizi bilirsinizmi  və "Sinir sisteminin vəziyyəti" (K. Libelt) sorğu anketlərindən istifadə edilərək anonim aparılmışdır. Cavablar müvafiq normalarla müqayisə edilmiş və qiymətləndirilmişdir.

**Müayinənin nəticəsi:** Təhlil zamanı müəyyən edildi ki, yeniyetmələrin 68 %-dən çoxunun stress müqaviməti orta səviyyədən aşağıdır və sağlamlıq üçün həyat tərzində dəyişiklik lazımdır. 53%-i həftədə ən azı bir dəfə, 19,5% -i hər gün, 45,5% -i ayda bir dəfə-stresli vəziyyətlərlə qarşılaşır.

Sorğunun nəticələrinə görə stress altında olan yeniyetmələr əsəbiləşir və depressiyaya düşür, əhval ruhiyyənin həftədə (gündə və ayda) bir dəfə pisləşməsi 72,5%-də (müvafiq olaraq 20% və 32% ) təsadüf etmişdir. Respondentlərin 56%-də stresli vəziyyətlərin səbəbindən biri həmyaşıdları ilə ünsiyyətdə çətinliklərlə əlaqəli problem yaşamasıdır: hər gün 20,8%, həftədə bir dəfə - 35,5%; ayda bir dəfə - 8,7%. Həmçinin, yeniyetmələrin 39,7%-də stressin səbəbi yaxınları (valideynləri) ilə ünsiyyətdə çətinliklərdir: hər gün 40,5%, həftədə bir dəfə 49,8%; ayda bir dəfə -40,6%. Yeniyetmələrin yarıdan çoxu özünü tənha hiss edir (46%) və dərs yükü, BSQ ilə bağlı stress yaşayır (64%). Stress yeniyetmələrin qidalanma vəziyyətinə (58%), xüsusən qızların (72% və 44%) mənfi təsir göstərir ($p \leq 0,05$). Stress vaxtı dostlarla məsləhətləşmədən (46%) və aradan qaldırmaq üçün mobil texnikadan istifadə edənlər daha çoxdur (66%).

**Yekun:** Yeniyetmə stress yaradan amillərin çoxluğu və müqavimətinin aşağı olması nəticəsində ciddi narahatlıq keçirirsə onun harmonik, sağlam və mehriban şəxsiyyət olmaq şansı azalır və belə vəziyyət ciddi sağlamlıq problemləri yarada bilər.

# NAXÇIVANIN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ İKİQAT VƏ ÜÇQAT MORFOLOJİ SADƏLƏŞMƏNİN DERİVATOLOJİ PROSESLƏRƏ TƏSİRİ

**Dosent Zülfiyyə İSMAYIL**
Naxçıvan Dövlət Universiteti
Tarix-filologiya fakültəsi Azərbaycan dilçiliyi kafedrası
ORCID ID: https://orcid.org/0000-0002-4967-0123

***ÖZET***

Morfoloji sadələşmə dildə bir qanun kimi - sadələşmə qanununun bir hissəsi kimi daim fəaliyyət göstərir. Qədim birhecalı söz kökünə bir şəkilçi bitişərək sadələşmə yaratdığı kimi, bir kökə iki şəkilçi də birləşib sadələşmə əmələ gətirir. Belə sadələşməni ikiqat morfoloji sadələşmə saymaq olar. Bu zaman qədim kökdə və ona qovuşan şəkilçidə semantik boşalma gedir, bir kök və iki şəkilçi bir sadə söz yerinə keçir. Sözdə və şəkilçilərdə bu və ya digər dərəcədə forma dəyişmələri baş verir. Məsələn: Ayama - ləqəb. Naxçıvan şivələrindən fərqli olaraq Azərbaycan dili şivələrində həmin sözün ayılğa//aylığa, ə:lğa, ə:lqa, əyəlqa şəkilləri də var. Buradakı semantik fərqlər təbiidir. Sözün fonovariantları çox olsa da, məna qədim bir kökə bağlanır. Sözün ay//əy - hissəsi kök, -ıl, -al, və -qə, -qa şəkilçilərdir. Bu ikiqat şəkilçili sözə başqa türk dillərinin faktları prizmasından baxanda mənzərə aydınlaşır. V.V.Radlovun lüğətində ayıt danışmaq, ayalğı. 1-nitq deyişməsi, aya, həyəcan, cavab, qazaxca ay "qışqırtı", oyrotca ay "avaz", qaraqalpaqca aykan "səs-küy, səsə gəlmək, dalaşmaq", çuvaşca ıyt "soruşmaq, sual vermək", xakasca ayt, aytarğa "danışmaq", başqırdca ay "oy", altayca aytba "danışmaq", qırğızca aybok //aytak "çığırtı", noqayca aytun//ayt "danışmaq, söyləmək" və s. Deməli, qazax və başqırd dillərindəki ay - yuxarıdakı sözlərin kökü olduğu kimi, dialektal ayalğa//ayılğa//aylığa//ə:lğa//əyəlğa sözlərinin də (a-ə saitləri uyğun və ya əvəzlənən səslərdir) kökü eynilə ay sözü olub de, söylə, səs çıxar, adlandır və s. mənalar qazanmış qədim ay//oy nidasıdır. Həmin dialektal sözlərdəki –al//ıl eyni şəkilçinin fonovariantı sayıla bilər. -qaq şəkilçisi qapalı hecalıqdan açıq hecalığa doğru inkişaf edərək son samitin düşməsi nəticəsində -qa şəklində formalaşmışdır.

Morfoloji sadələşmə dildə ümumi sadələşmənin bir hissəsidir. Burada qədim birhecalı köklərə qovuşmuş şəkilçili sözlərin bir qismi araşdırılmış, bir qrup düzəltmə sözlərin sadələşməsi prosesi izlənilmişdir. Aparılmış araşdırma əsasında bəlli olmuşdur ki, çoxhecalı sözlərin böyük bir hissəsini bu cür sözlər təşkil edir. Onlar birhecalı qədim köklə bir şəkilçinin, iki və üç şəkilçinin qovuşması ilə formalaşmışdır. Belə sözləri üç qrupa bölmək olar:

a) Bir şəkilçili sözlərin sadələşməsi; b) İki şəkilçili sözlərin sadələşməsi; c) üç şəkilçili sözlərin sadələşməsi. Birinci qrup sözlər birqat morfoloji sadələşmə, ikinci qrup sözlər ikiqat morfoloji sadələşmə, üçüncü qrup sözlər isə üçqat morfoloji sadələşmə hesab edilir.

Birqat morfoloji sadələşmə. Bir qrup söz tarixi-müqayisəli planda araşdırılmışdır; onlar türk dillərinin qədim mənbələri, müasir dilləri və şivələrinin faktları ilə tutuşdurulmuşdur.

İkiqat morfoloji sadələşmə. Bu hissədə birhecalı sözlərə iki şəkilçinin birləşməsi ilə düzəltmə sözlərin sadələşməsi izlənilmişdir.

Üçqat morfoloji sadələşmə**.** Buraya elə sözlər aid edilmişdir ki, onlar bir qədim kök və üç şəkilçinin qovuşmasından törəmişlər. Yəni qədim söz kökü üç şəkilçi ilə birlikdə sadə söz yerinə keçmişdir.

**Açar sözlər:** Naxçıvan, dialekt, derivatologiya, morfoloji sadələşmə.

**ABSTRACT**

Morphological simplification is constantly operating in language as a law - as part of the law of simplification. Just as an ancient monosyllabic root was joined by a suffix to form a simplification, two suffixes joined to a root form a simplification. Such a simplification can be considered a double morphological simplification. At this time, the ancient root and the suffix joining it undergo semantic relaxation, one root and two suffixes are replaced by one simple word. In words and suffixes, changes of form occur to one degree or another. For example: Ayama - ləqəb. Unlike the Nakhchivan dialects, the Azerbaijani language dialects also have images of the same word as ayılğa//aylığa, ə:lğa, ə:lqa, əyəlqa. The semantic differences here are natural. Although the word has many phonovariants, the meaning is connected to an ancient root. The ay//ayy - part of the word is the root, -ıl, -al, and -qə, -qa suffixes. The picture becomes clearer when we look at this double-suffix word from the prism of the facts of other Turkic languages. In the dictionary of V.V.Radlov, ayıt to speak, ayalğı. 1-speech change, aya excitement, response, Kazakh ay "qışqırtı (shout)", in Oyrot ay "avaz (noise)", in Karakalpak aykan "səs-küy, səsə gəlmək, dalaşmaq (noise, raising a voice, arguing)", in Chuvash ıyt " soruşmaq, sual vermək (ask, ask a question)" , in Khakasian ayt, aytarğa "to speak", in Bashkir ay "oy", in Altaic aytba "to speak", in Kyrgyz aybok //aytak "shout", Nogai aytun//ayt "danışmaq, söyləmək (to speak, tell)" etc. So, just like the root of the above words ay in the Kazakh and Bashkir languages, the root of the dialectal words ayalğa//ayılğa//aylığa//ə:lğa//əyəlğa (vowels a-a are compatible or interchangeable sounds) is also the word ay. say, sound, name, etc. It is an ancient ay//oy exclamation that has acquired meanings. -al//ıl in those dialectal words can be considered a phonovariant of the same suffix. The suffix -gag developed from a closed syllable to an open syllable and was formed in the form of -qa as a result of dropping the final consonant. The word ayama is more common in Southern dialects.

Morphological simplification is part of general simplification in language. Here, some of the suffixed words connected to ancient monosyllabic roots were examined, and the process of simplification of a group of modified words was followed. Based on the conducted research, it became clear that such words make up a large part of polysyllabic words. They are formed by combining a monosyllabic ancient root with one suffix, two and three suffixes. Such words can be divided into three groups:

a) Simplification of words with one suffix; b) Simplification of words with two suffixes; c) simplification of words with three suffixes. The first group of words is considered a single morphological simplification, the second group of words is a double morphological simplification, and the third group of words is a triple morphological simplification.

A simple morphological simplification. A group of words was examined in a historical-comparative plan; they are reconciled with the facts of ancient sources of Turkic languages, modern languages and dialects.

Double morphological simplification. In this part, the simplification of correction words by combining two suffixes to monosyllabic words was observed.

A threefold morphological simplification. It includes words that are derived from the combination of one ancient root and three suffixes. That is, the ancient word root along with three suffixes has been replaced by a simple word.

**Keywords:** Nakhchivan, dialect, derivation, morphological simplification.

Morfoloji sadələşmə dildə bir qanun kimi - sadələşmə qanununun bir hissəsi kimi daim fəaliyyət göstərir. Qədim birhecalı söz kökünə bir şəkilçi bitişərək sadələşmə yaratdığı kimi, bir kökə iki şəkilçi də birləşib sadələşmə əmələ gətirir. Belə sadələşməni **ikiqat morfoloji sadələşmə** saymaq olar. Bu zaman qədim kökdə və ona qovuşan şəkilçidə semantik boşalma gedir, bir kök və iki şəkilçi bir sadə söz yerinə keçir. Sözdə və şəkilçilərdə bu və ya digər dərəcədə forma dəyişmələri baş verir. Məsələn: Ayama - ləqəb. Naxçıvan şivələrindən fərqli olaraq Azərbaycan dili şivələrində həmin sözün

ayılğa//aylığa, ə:lğa, ə:lqa, əyəlqa şəkilləri də var. Buradakı semantik fərqlər təbiidir. Sözün fonovariantları çox olsa da, məna qədim bir kökə bağlanır. Sözün ay//əy - hissəsi kök, -ıl, -al, və -qə, -qa şəkilçilərdir. Bu ikiqat şəkilçili sözə başqa türk dillərinin faktları prizmasından baxanda mənzərə aydınlaşır. V.V.Radlovun lüğətində ayıt (10, s. 222) danışmaq, ayalğı (10, s. 13). 1-nitq deyişməsi, aya həyəcan, cavab, qazaxca ay "qışqırtı", oyrotca ay "avaz", qaraqalpaqca aykan "səs-küy, səsə gəlmək, dalaşmaq", çuvaşca ıyt "soruşmaq, sual vermək", xakasca ayt, aytarğa "danışmaq", başqırdca ay "oy", altayca aytba "danışmaq", qırğızca aybok //aytak "çığırtı", noqayca aytun//ayt "danışmaq, söyləmək" və s. Deməli, qazax və başqırd dillərindəki ay - yuxarıdakı sözlərin kökü olduğu kimi, dialektal ayalğa//ayılğa//aylığa//ə:lğa//əyəlğa sözlərinin də (a-ə saitləri uyğun və ya əvəzlənən səslərdir) kökü eynilə ay sözü olub de, söylə, səs çıxar, adlandır və s. mənalar qazanmış qədim ay//oy nidasıdır. Həmin dialektal sözlərdəki -al//ıl eyni şəkilçinin fonovariantı sayıla bilər. -qaq şəkilçisi qapalı hecalıqdan açıq hecalığa doğru inkişaf edərək son samitin düşməsi nəticəsində -qa şəklində formalaşmışdır. Ayama sözü Cənub şivələrində daha çox işləkdir. Ayama sözündən bəhs edən B.Əhmədov onun kökünü aya feli, -ma hissəsini feldən isim düzəldən şəkilçi kimi izah edir. Doğrudur, sözün aya şəklinin XI əsrdə türk dilində işləndiyini M. Kaşğari də qeyd edib. Bununla belə, həmin kök özü də düzəltmə sözün birqat sadələşməsidir. Bu sadələşmə hələ o dövrdə formalaşmışdır. H.Bayramova görə ayama sözü əvvəllər ayaq ayamaq şəklində frazeoloji birləşmə kimi işlənib, sonralar ayamaq sözünün son samiti düşərək söz ayama şəklini almışdır. Çox güman ki, ayama sözü lap əvvəl, ay-səs, çığırtı, səs çıxarma mənasında işlənmiş, sonra ondan ay+a feli formalaşmışdır. -ma isə feldən isim düzəldən şəkilçidir. Deməli, ayama sözündə ikiqat şəkilçi var. Buna əsas ay kökünün ayıt şəklidir. Öncə ay-ı-ıt hissələrindən ibarət olmuş sözdən yanaşı iki qapalı saitin biri düşərək ayıt forması, ondan da -ı düşərək geniş işlənən ayt şəkli düzəltmişdir. Odur ki, aybır - sözü ay//ıt//ır kimi bərpa edilə bilər: ayıt//ayıtır//aytır//aybır. Sadalanan variantların hamısında ay qədim kök hesab edilir. Bunun türk dilinin Giresun şivəsindəki ayma (II) "ləqəb" sözü də təsdiqləyir. Bu sözün başqa sistemli dilə keçmiş kök forması donaraq qədim şəklini saxlamışdır. Məsələn: udi dilinin Nij şivəsində aytı əsun "danışmaq, söz söyləmək" deməkdir. Yazılı abidələrə əsaslansaq bu qədim söz türk abidələrindəki ay kökü ilə bağlıdır. Onu da deyək ki, ayama sözündən S.Əlizadə, M.Cavadova da bəhs etmişlər. Onlar da sözün ay hissəsini qədim kök hesab edirlər.

Azərbaycan dilində -aq, -ək şəkilçisi fellərə qoşulub müxtəlif mənalı atributiv və bəzən də substantiv isimlər əmələ gətirir (3, s. 188). Məsələn, çat (çataq), yat (yataq), çök (çökək), bara (baraq), ələ (ələk) və s. Şivələrdə bir çox sözlər işlənir ki, onlar qədim söz köklərinə -qaq, - gək//aq, -ək- şəkillərinin birləşməsi nəticəsində yeni sözə çevrilmişlər. Yəni qədim birhecalı söz kökü özünün müstəqil işlənmə dövrünü başa vurmuş, Azərbaycan dili şivələrində şəkilçi ilə birləşib sadə sözə çevrilmişdir. Bu inkişaf prosesi şivələrdə iki istiqamətdə getmişdir. Bir qrup sözlərdə -aq, -ək şəkilçisinin qədim forması -qaq, -gək söz kökünə birləşmiş, bir qrupunda isə köklə şəkilçinin birləşdiyi zamandan şəkilçinin ilk samiti düşmüş, qədim söz kökü ilə aq//-ək şəkilçisi birləşərək sabitləşmişdir.

Alaşa - zəif, arıq at mənasındadır. Türk dillərində, onların qədim mənbələrində həmin sözün işləndiyi bəllidir. Hər şeydən əvvəl qeyd edək ki, alasa, alaşa fonovariant sözlər at anlayışı ilə bağlıdır. Bizi maraqlandıran bu sözün quruluşudur. Əgər sözün son hecasını - yəni -şa hissəsini müasir Azərbaycan dilindəki -ca kiçiltmə şəkilçisi kimi götürsək, onda ala sözü də iki hissədən - kök və şəkilçinin qovuşuğundan ibarət olmalıdır. Belə olduqda alaşa bir qədim söz kökü və ikiqat şəkilçilidir. Burada al- söz kökünün alaşa sözü ilə semantik əlaqəsi müəyyən edilməlidir. Qədim türk lüğətindəki al III aşağı, aşağı hissə, alt sözünün mənaları ilə alaşa sözünün al - hissəsi semantik cəhətdən uyğun gəlir. Bu kök də alçaq, alt kimi ədəbi dil sözləri ilə birləşir. Deməк, alaşa (al+a+şa//al+a+ca) sözü zəif, yerişsiz at mənasındadır.

Arxac//arxaş - ilin isti fəsillərində sürü və naxırın gecələr yatdığı yer. Bu sözün təhlilinə ədəbi dildəki arx kəlməsindən başlamaq lazımdır. Sonu qoşa samitli arx sözü tarixən belə ola bilməzdi. Çünki sözsonu qoşa samitlilik sözlərin tarixinin müəyyən mərhələsinin məhsuludur. Ona görə də arx sözü bir çox qədim və müasir türk dillərinə aid mənbələrdə ikihecalı söz kimi qeyd edilir. Bu söz qədim

türk lüğətində arıq M. Kaşğarinin Divanında (7, s.10) ikihecalı olub bizdəki arx mənasınadır. Bununla belə arx sözünə aruq//aruk şəklinə monqol, başqırd və çığatay dillərində də rast gəlirik. Qırğız dilində ayruk, altayca arıq, başqırdca arık, özbəkçə arik, uyğurca arık, qaraqlpaqca arık I, tatarca arık, türkməncə arik (a:) "arx, kanal, çay yatağı", monqolca arx "quyu, çökəklik", türkcə örek "kiçik çay" mənasındadır. Azərbaycan ədəbi dilindəki arx sözü qərb şivələrimizdə arıx şəklində işlənir və qədim formanı qoruyub saxlamışdır. Türk dillərinin və onların qədim mənbələrinin verdiyi faktlara əsaslanaraq arıq, aruk, a:rik, ark, arx, örk, ərx, arna, irk və s. sözlərin sonu qoşa samitli formanın sonradan ikinci hecadakı dar, qapalı saitin düşməsi nəticəsi olduğunu söyləmək olar. Deməк, sözün arık forması kök və şəkilçinin ayrılmaz şəkildə birləşməsidir. Çünki bütün misallarda ar-kökü dəyişmir. Həm də unutmaq olmaz ki, Sibir, Monqolustan, Orta Asiya, Türkiyə və Azərbaycanda, Şimali Qafqazda bu kökün bir variantı ilə irmaq (Qızıl İrmaq, Dəlicə İrmaq,Yeşil İrmaq) "çay yatağı" sözü çox işləkdir və bütün hallarda çayın, suyun torpaqda yuyub açdığı xəndək mənasındadır. Dialektal arxac sözü çox güman ki, arıkac formasının fonetik sıxılma nəticəsi ola bilər. Şivələrimizdəki arxan//arxaş sözünə yaxın formalı arkaş sözünə qaraqalpaq dilində "təpənin arxası" mənasında rast gəlirik. Bu da dağın şimalı, o üzü, çökəklik anlayışı ilə bir məna yuvasına düşür. Beləliklə, arx sözü birqat, arxac sözü isə ikiqat morfoloji sadələşməyə aiddir, kökləri eyni olub, müasir dildəki yar, -yır (t), yaz-(r-z) və başqa türk dillərindəki ir-er, ır, ilə bu ar sözü eyni köklüdür.

Naxçıvanın şivələrində bir çox sözlər işlənir ki, onlar həmin şəkilçilərlə formalaşıb, amma qədim kök öz müstəqil işlənmə funksiyasını itirmiş və indi söz kökü şəkilçi ilə qovuşmuş haldadır. Məsələn: ağnax, ağanax gölmə kimi bir yerdə toplanan palçıqlı su, lehməli gölmə (Bizim heyvannar hamısı bu sahat ağnaxba səriniyillər). Ağnamax - uçub tökülmək; ağnax tozlu quru yer. Bu sözün kökü ağ-felidir, anaq//nax mürəkkəb şəkilçidir.

Müasir Azərbaycan dilində aq- feli işlənmir. Lakin türk dillərinin qədim mənbələrində, indiki türk dillərində və onların şivələrində həmin qədim fel qorunub saxlanmışdır. Məsələn, uyğurca ağ - "əyilmək, yerə tökülmək", kumıkca abmak "əyilmək, aşağı düşmək", özbəkcə ağmok "əyilmək, tökülmək", qaraqalpaqca ayma "böyür üstə çevrilmək", ayna "yerə tökülmək", böyür üstə çevrilmək, aynaki malın çöldə yığıldığı yer" mənasındadır. Qaraqalpaq dilində ay feli indi də işləkdir. V.V.Radlovun lüğətində ağ sözünün üçüncü mənası əyilmək, yerə tökülmək anlamlarını bildirir (10, s. 142).

Öynə // öyün günün üçdə bir hissəsi keçmiş dövr, zaman. 1- günorta, 2- günorta istirahəti. Bu sözün məna çalarları da var. Bəzi mənbələrdə öynə isim. məhəlli. 1. Bax: növbə kimi qeyd edilib. Amma dialektal məna bununla uyuşmur. İkinci məna isə dəfə (miqdar mənasında) kimi izah edilir. Bu sözə bədii əsərlərdə də rast gəlinir (İşə buyurarsan, naxoşam deyər, Öynəbə bir badya doğrama yeyər – (Aşıq Ələsgər). Bu sözün öylə (1) arxaik mənası isə "günorta" dialektal mənaya daha yaxındır. Türk dillərinin etimoloji lüğətində bu sözün öyle şəkli başlanğıc forma kimi qeyd edilib, amma Azərbaycan dilində işləndiyi və fonovariantı göstərilməmişdir (4, s. 51). Qədim mənbələrdə, müxtəlif türk dillərində həmin sözün öyle, uyle, uyle, ule, övle, özle (9, s. 95), eylen, əylən, uylen, u:lən, öyleyin, uləin uyle fonovariantları var. Onu da qeyd edək ki, Azərbaycan dilinin müxtəlif tarixi dövrlərində bu söz işlənmişdir. Məsələn, "Oğuznamə" də öylə "günorta yeməyi, günorta" (Sabah yuxusu quzu ətidir, öylə yuxusu qoyun ətidir, axşam yuxusu sığır ətidir), "Kitabi-Dədə-Qorqud" dastanlarında və başqa tarixi mənbələrdə öyün şəklindədir. M.Kaşğari öynə sözünü həmin mənalı öy- kökü ilə əlaqələndirir (7, s. 89). Fikrimizcə, müasir öy sözü əvvəlcə, öq, daha sonra ök (mus. et: uyut-ukut-uqut, söyub- sökub- söqub və s.) şəklində olmuşdur ki, bu da ev kökü ilə birləşir. Deməli, dialektal öynə sözünü öqünə//ökünə//öyünə şəklində ikiqat şəkilçinin və bir kökün birləşməsi və ya qovuşması saymaq olar.

Ölüşkəmək // Ökəşmək - büküşmək, əzilmək. Azərbaycanın dialekt və şivələrində bu sözün ökəşix, ökəşbir-, ökəşixli, ökəş-əkəş kimi müxtəlif törəmələri də dialektal şəkildə işləkdir. Həmin sözü kök və şəkilçiyə ayırdıqda (ök+əş) ök - müstəqil söz kimi anlaşılmır. Əslində bu ök- kökü müasir dildəki ov- feli olub türk dillərində geniş yayılmışdır. Ov - felindən ətraflı bəhs edən Səlim Cəfərov onun

aşağıdakı fonovariantlarını göstərmişdir (2, s. 40): ov,-oq-, o:-, uq:-, un-, ın-; həmin köklərin dörd məna qrupundan üçü Azərbaycan dili şivələrindəki ökəş sözünə uyğundur. Başqırdca öykəu, qırğızca öykə, Azərbaycan dili şivələrində öy - kələ - //övkələ sözləri ilə ov - feli bir fonosemantik kökə bağlanır. Demək öyük//ovuq ikiqat şəkilçili söz olmuş, sonralar öyükəş səs düşümü ilə ökəş şəklində formalaşmışdır. Bu isə ikiqat şəkilçi qovuşuğu ilə şərtlənir: ov+uq+aş //oğ+uq+aş//öy+ük+əş (öukəş) ökəş və s.

İməci - iməcilikdə iştirak edən adam. "İməci aparmaq, iməci çağırmaq, iməci getmək" kimi ifadələr Naxçıvan şivələrində işlənir. Bu söz ədəbi dilə şivələrdən keçmişdir. Biz iməcilik, iməci sözlərinə bu şəkildə yalnız Azərbaycan dilində rast gəlirik. Lakin bu söz başqırdca ömə, türkməncə ume, kazaxca umə, tatarca ömə, öməcə, xakasca ömə, altayca ömö, türkcə imeje//imeji//emec, qaqauzca meji//imeji//əmec şəklində işlənir. Bu sözlərdəki -i, -ə, -u, -ö ünsürləri tarixi əvəzlənmələrdir. S.Cəfərova görə imec, imeje sözləri im-meji, im-məci şəklində olmuşdur. Sözün kökü im-//em-//en- hissəcikləridir. Demək indiki imməci//iməci sözünün kökü ümumtürk emqek və bizim əmək sözü ilə əlaqədardır. Türk dillərində bu sözün emqek, emqək, ömqək, imqək, emek, embek, enbek və nəhayət əmək formaları işlənir (3, s. 272). Onlarında ümumi mənası iş, zəhmət, əziyyət, qayğı mənalarını bildirir. Belə olanda iməci sözünü im-mə-ci kimi hissələrinə ayırmaq olar. Qoşa samitin biri düşmüş və iməci sözü kök və ikiqat şəkilçinin qovuşması ilə sabitləşmiş olur.

Şivələrdə bir çox sözlər işlənir ki, onlar bu gün sadə leksik vahidlərdir. Müasir türk dillərində və şivələrində, qədim türk mənbələrində rast gəlinən faktlardan aydın olur ki, belə sözlər **üçqat şəkilçinin** birləşməsi nəticəsində əmələ gəlmişdir. Qədim söz kökü həmin şəkilçilərlə qovuşduğu dövrdə kök asemantikləşmiş, yəni müstəqil işlənmə, ayrıca məna bildirmə gücünü itirmiş, şəkilçilərlə birgə sadə söz kimi işlənmişdir. Onu da xatırladaq ki, qədim kök çoxmənalı olduğu üçün müxtəlif şəkilçilərlə birləşib sadə sözə çevrildikdə hər yeni forma qədim mənaların birinə xidmət etmək üçün sabitləşmişdir. Bu isə həmişə belə olmamışdır. Bəzi qədim kök daşıdığı məna yükünün bir hissəsini özü müstəqil işlənərək davam etdirmiş, digər mənalar köklə şəkilçinin qovuşuğunda sabitləşmişdir. Hər iki hal üçqat morfoloji sadələşmədə də müşahidə edilir.

Acıtma - xəmrə / xamra, maya. Burada sözün ac hissəciyi qədim kök, -ıt, -ma isə şəkilçidir. Ac sözü müstəqil şəkildə ədəbi dildə işlənir və izahlı lüğətdə onun dörd mənası verilmişdir. Bunlardan birincisi acmaq mənasındadır. Başqa qədim söz kökləri kimi bu forma da həm fel, həm də isim kimi işlənən sinkretik sözdür. Qədim mənbələrdə ac və aç sözü eyni mənada işlənmişdir. Bu gün ac və aç sözləri fel və ad kimi bir çox türk dilində işləkdir. Məs.: tatarca ac "aç", qırğızca ac "aç" , özbəkcə oc "aç", xakasca ac "aç", qaraqalpaqca aş "aç", uyğurca ac "aç", kumıkca "aç" , başqırdca as "aç", türkməncə ac "aç" , kazaxca aş "aç", noqayca aş "aç" sözləri buna misal ola bilər. V.V.Radlovun lüğətində ac//aş//a:s// aiş fonovariantlar (10, s.57) "aç" mənasındadır.

Aç ünsürü qədim söz kökü olmuş, sonralar ona-ı şəkilçisi əlavə olunaraq düzəltmə söz kimi işlənmişdir. Deməli bu mərhələdən sonra ikinci, üçüncü şəkilçi həmin sözə qoşulduqda (ac-ı-ıt-ma) o əvvəlki mənasını itirərək yeni məna kəsb etmişdir. Bu proses başqa türk dillərində -ki, -ke şəkilçisi ilə tamamlanmışdır.

## NƏTİCƏ

Morfoloji sadələşmə dildə ümumi sadələşmənin bir hissəsidir. Burada qədim birhecalı köklərə qovuşmuş şəkilçili sözlərin bir qismi araşdırılmış, bir qrup düzəltmə sözlərin sadələşməsi prosesi izlənilmişdir. Aparılmış araşdırma əsasında bəlli olmuşdur ki, çoxhecalı sözlərin böyük bir hissəsini bu cür sözlər təşkil edir. Onlar birhecalı qədim köklə bir şəkilçinin, iki və üç şəkilçinin qovuşması ilə formalaşmışdır. Belə sözləri üç qrupa bölmək olar:

a) Bir şəkilçili sözlərin sadələşməsi; b) İki şəkilçili sözlərin sadələşməsi; c) üç şəkilçili sözlərin sadələşməsi. Birinci qrup sözlər birqat morfoloji sadələşmə, ikinci qrup sözlər ikiqat morfoloji

sadələşmə, üçüncü qrup sözlər isə üçqat morfoloji sadələşmə hesab edilir.

Birqat morfoloji sadələşmə. Bir qrup söz tarixi-müqayisəli planda araşdırılmışdır; onlar türk dillərinin qədim mənbələri, müasir dilləri və şivələrinin faktları ilə tutuşdurulmuşdur.

İkiqat morfoloji sadələşmə. Bu hissədə birhecalı sözlərə iki şəkilçinin birləşməsi ilə düzəltmə sözlərin sadələşməsi izlənilmişdir.

Üçqat morfoloji sadələşmə**.** Buraya elə sözlər aid edilmişdir ki, onlar bir qədim kök və üç şəkilçinin qovuşmasından törəmişlər. Yəni qədim söz kökü üç şəkilçi ilə birlikdə sadə söz yerinə keçmişdir.

## ƏDƏBİYYAT

1. Axundov A.A. Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 2006, 280 s

2. Azərbaycan dilinin Naxçıvan dialektoloji lüğəti (nəşrə hazırlayan və ön sözün müəllifi Kifayət İmamquliyeva). Bakı: Elm və təhsil, 2017, 304 s.

3. Cəfərov S.Ə. Azərbaycan dilində söz yaradıcılığı. Bakı: Azərbaycan universiteti nəşriyyatı, 1960, 197 s.

4. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. Leksika. II hissə. Bakı: Şərq-Qərb, 2007, 192 s.

5. Dialectological dictionary of the Azerbaijani language [Editor A. A. Akhundov, G. Kazimov, S. M. Behbudov]. Baku: Sharg-Garb, 2007, 568 p.

6. Hüseynzadə M.H. Müasir Azərbaycan dili (Morfologiya). III hissə, Bakı: Şərq-Qərb, 2007, 280 s.

7. Kaşğari M. Divani lüğat-it-türk. II cild. Tərcümə edən və nəşrə hazırlayan: R.Əskər. Bakı: Ozan, 2006, 400 s.

8. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. 2 cilddə, I c., Bakı: Nurlan, 2003, 450 s.

9. Seyidov Y.M. Azərbaycan dilinin qrammatikası. Morfologiya (ikinci nəşr). Monoqrafik dərs vəsaiti. Bakı: Bakı Universiteti, 2002, 371 s.

10. Юлдашев А.А. Словообразавание глагола, сравнительно-историческая грамматка тюркских языков. М.: Наука, 1988, 444 с.

# Образ писательницы и женщины в биографии Шарлотты Бронте Элизабет Гаскелл.

# The Image of the Writer and the Woman in Elizabeth Gaskell's Biography of Charlotte Brontë

**Гулиева Илаха Нураддиновна**

Доктор Философии Старший педагог

Академия государственного управления

при президенте Азербайджанской Республики

ORCİD İD: https://orcid.org/0009-0004-0833-6147

**Аннотация**

В данной работе рассматривается биография "Жизнь Шарлотты Бронте" (1857), написанная Элизабет Гаскелл, как ключевой текст в развитии биографического жанра в контексте викторианской литературы и гендерного дискурса. Превосходя традиционную функцию биографии как простого хронологического изложения фактов, произведение Гаскелл переосмысляет жанр, превращая его в средство выражения сложных вопросов женской идентичности, авторства и культурного положения женщины в Британии XIX века. Написанная современницей и близкой подругой Шарлотты Бронте, эта биография является не только личной данью памяти, но и социально ангажированным литературным высказыванием. Гаскелл обладала непосредственными знаниями о жизни, внутренней борьбе и творческом пути Бронте, что позволило ей создать глубоко человечный и эмоционально насыщенный образ. Однако " Жизнь Шарлотты Бронте " — это не просто интимные воспоминания. Это также сознательная попытка защитить репутацию Бронте от общественной критики и морального осуждения, с которыми часто сталкивались женщины-писательницы той эпохи. Подчёркивая скромность, нравственную чистоту и внутреннюю силу Бронте, Гаскелл создает образ, который одновременно выходит за рамки общественных ожиданий и, тем не менее, соответствует определённым викторианским идеалам женственности. Этот тонкий баланс отражает как личную преданность Гаскелл, так и её осознание культурных ограничений, наложенных на женщин-авторов. Таким образом, биография становится пространством диалога между личной памятью и публичным нарративом, между фактом и художественным вымыслом, между индивидуальным опытом и коллективными нормами. Она бросает вызов патриархальным представлениям своего времени и предвосхищает позднейшие феминистские подходы к жанру биографии. Произведение Гаскелл предстает как уникальный пример женского письма, где личное становится политическим, а литература — способом формирования культурной памяти. Изучение этой биографии позволяет глубже понять процессы формирования, оспаривания и сохранения литературной идентичности женщин в викторианской Англии.

**Ключевые слова:** Биография, викторианская литература, гендер и авторство, литературная идентичность женщины, писательницы XIX века.

**Abstract**

This paper examines The Life of Charlotte Brontë (1857) by Elizabeth Gaskell as a pivotal text in the evolution of the biographical genre within the framework of Victorian literature and gender discourse. Moving beyond the traditional function of biography as a mere record of chronological facts, Gaskell's work redefines the genre as a medium for articulating complex questions of female identity, authorship, and the cultural position of women in 19th-century Britain. Written by a contemporary and close friend of Charlotte Brontë, the biography is not only a personal tribute but also a socially

engaged literary intervention. Gaskell had firsthand knowledge of Brontë's life, struggles, and creative journey, which allowed her to depict a deeply human and emotionally resonant portrait. However, The Life of Charlotte Brontë is more than an intimate memoir. It is also a deliberate effort to defend Brontë's reputation against public criticism and moral suspicion that often surrounded women writers of the era. By highlighting Brontë's modesty, moral integrity, and inner strength, Gaskell constructs a figure who transcends societal expectations while still conforming to certain Victorian ideals of femininity. This careful balancing act reflects both Gaskell's personal loyalty and her awareness of the cultural constraints imposed on women authors. The biography thus becomes a site of negotiation between personal memory and public narrative, fact and fiction, individual experience and collective norms. It challenges the patriarchal assumptions of its time and anticipates later feminist approaches to life writing. Gaskell's work emerges as a unique example of female authorship where the personal becomes political and the literary becomes a means of shaping cultural memory. Studying this biography sheds light on the broader processes through which women's literary identities were constructed, contested, and preserved in Victorian England. Keywords: Biography, Victorian literature, gender and authorship, women's literary identity, 19th-century female writers.

**Keywords**: Biography, Victorian literature, gender and authorship, women's literary identity, 19th-century female writers.

## *Введение*

Викторианская эпоха подарила английской литературе не только выдающиеся романы, но и новое осмысление биографии как жанра, способного не просто фиксировать факты, но и формировать общественное восприятие личности. Биография в XIX веке превратилась в форму литературного и культурного высказывания, особенно когда речь шла о женщинах-писательницах. Именно в этом контексте биография Шарлотты Бронте, написанная Элизабет Гаскелл в 1857 году, занимает особое место. Она стала не только первым подробным рассказом о жизни создательницы Джейн Эйр, но и произведением, в котором раскрываются ключевые проблемы женской идентичности, творчества и судьбы в условиях викторианского общества. Элизабет Гаскелл, уже известная в то время своими социально ангажированными романами (Мэри Бартон, Север и Юг), не была посторонним наблюдателем. Она знала Шарлотту лично, переписывалась с ней, сопереживала её одиночеству, душевной борьбе и творческому восхождению. Именно эта близость между двумя женщинами-писательницами придала биографии “Жизнь Шарлотты Бронте” необычайную эмоциональную насыщенность и внутреннюю правдивость. Однако вместе с тем биография Гаскелл не была сугубо интимной или исповедальной. Напротив, она представляла собой сложный текст, сочетающий документальность, художественную стилизацию и глубокое понимание социального положения женщины в Англии середины XIX века. Целью написания биографии для Гаскелл было не просто сохранить память о подруге, но и защитить её репутацию, показать подлинную — страдающую, скромную, сильную — Шарлотту, стоящую за публикуемыми под мужским псевдонимом романами. Биография стала своего рода апологией женского гения, который пробился сквозь социальные и культурные ограничения. В этом произведении Гаскелл предстала не только как летописец жизни, но и как мыслитель, формирующий образ писательницы и женщины, чей жизненный путь не вписывался в патриархальные ожидания. Таким образом, “Жизнь Шарлотты Бронте” — это не только первый литературный памятник Шарлотте Бронте, но и уникальный пример женского письма, где личное становится общественным, а интимное — политическим. Исследование этого текста позволяет по-новому взглянуть на феномен викторианской женской литературы и на то, как в условиях жёстких гендерных рамок формировался образ женщины-писательницы в литературном сознании своего времени.

Смерть Шарлотты Бронте в марте 1855 года стала трагическим финалом судьбы одной из самых ярких представительниц английской литературы середины XIX века. На момент смерти ей было всего 38 лет, и её уход потряс не только литературный круг, но и более широкую читательскую аудиторию, которая видела в ней редкий голос — искренний, страстный и глубокий. *"When the intelligence of her death was made known, a sort of passionate regret took the place of the deep interest which had hitherto been felt in her." [Gaskell, Ch. 24]. (Когда стало известно о её смерти, глубокий интерес, который к ней до того испытывали, сменился чем-то вроде страстного сожаления.)*

Последовавшие некрологи и краткие газетные статьи не могли передать всей сложности личности Шарлотты, её борьбы с изоляцией, болезнями, внутренними страхами и общественными ограничениями. Более того, некоторые публикации и слухи рисовали искажённый, даже клеветнический образ писательницы — как чрезмерно замкнутой, странной и холодной женщины. *"It is with a trembling consciousness that I touch upon the character of my friend… lest I do not speak the full truth, or fail in some way to represent her justly." [Gaskell, Preface to the First Edition].( Я с трепетным сознанием прикасаюсь к характеру моей подруги… опасаясь, как бы не сказать всей правды или не представить её должным образом.)* В такой ситуации возникла потребность в серьёзном, правдивом и глубоко человечном повествовании о её жизни. Именно тогда Патрик Бронте, отец Шарлотты, обратился к Элизабет Гаскелл с просьбой написать биографию его дочери. Этот выбор был не случаен. Гаскелл и Бронте поддерживали дружескую переписку, а их личная встреча в Лондоне в 1850 году оставила сильное впечатление на обеих.*"I never saw anyone who so strongly reminded me of the description which I have read of Charlotte Brontë… She was a woman of fine intellect, of noble heart." [Gaskell, Ch. 15]. (Я никогда не встречала никого, кто бы так сильно напоминал мне описание, которое я читала о Шарлотте Бронте… Она была женщиной с тонким умом и благородным сердцем.)*

Гаскелл, как жена уважаемого унитарного священника и уже признанная писательница, обладала достаточным литературным авторитетом, чтобы взять на себя эту задачу. Но её мотивы выходили далеко за рамки простой литературной миссии. Гаскелл ощущала моральную обязанность защитить память своей подруги, исправить общественные искажения её образа и показать, какой необыкновенной женщиной она была на самом деле. *"I have avoided giving pain wherever it was possible; but I have never consciously altered the truth." [Gaskell, Preface to the Second Edition]. (Я избегала причинять боль везде, где это было возможно; но я никогда сознательно не искажала правду.)*

Работа над биографией заняла около полутора лет. Гаскелл провела множество бесед с друзьями и знакомыми Шарлотты, изучила переписку, посетила Хауорт и лично пообщалась с Патриком Бронте. Однако создание книги сопровождалось рядом трудностей. Во-первых, сам Патрик настаивал на том, чтобы некоторые моменты были смягчены или вовсе опущены — особенно те, что касались сложных семейных эпизодов или религиозных разногласий. *"Mr. Brontë entreated me not to dwell on some facts too closely, and to omit others entirely." [Gaskell, Ch. 2]. (Мистер Бронте умолял меня не вдаваться в некоторые факты слишком подробно, а другие — вовсе опустить.)* Во-вторых, Гаскелл стремилась соблюсти баланс между уважением к частной жизни и потребностями публики, жаждущей откровений. Это привело к тому, что часть текста приобрела романизированный, художественный характер, чем вызвала споры среди критиков, но одновременно сделала книгу особенно живой и доступной. Особое значение имеет и общественный фон 1850-х годов — десятилетия, когда в английском обществе начали активно обсуждаться вопросы женского образования, труда, независимости и прав. Женщина-писательница всё ещё воспринималась с подозрением, её успех вызывал критику или ироническое недоверие.

*"The courage which could bear the world's censure or wonder — the patience with which she waited for sympathy — the quiet resolve with which she determined to do her work — these were all part of Charlotte's strength." [Gaskell, Ch. 23]. (Мужество, с которым она переносила осуждение или удивление мира, терпение, с которым она ожидала сочувствия, спокойная решимость, с которой она намеревалась выполнять свою работу — всё это составляло силу Шарлотты.)*

На этом фоне биография Гаскелл стала настоящим актом культурного сопротивления: она не только утверждала легитимность женского авторства, но и подчёркивала духовную, моральную и интеллектуальную ценность женщины как личности. "Жизнь Шарлотты Бронте" вышла в свет в 1857 году и сразу вызвала широкий общественный отклик. Многие критики хвалили искренность, человечность и литературную силу произведения. Однако были и резкие отзывы, особенно со стороны родственников героев, упомянутых в тексте. Некоторые эпизоды пришлось смягчить или убрать в последующих изданиях. *"I regret sincerely having caused pain, however unintentionally, to any of the persons mentioned. I can only say that I wrote what I believed to be the truth." [Gaskell, Note to the Third Edition]. (Я искренне сожалею, что причинила боль, пусть даже непреднамеренно, кому-либо из упомянутых лиц. Я могу лишь сказать, что писала то, что считала правдой.)* Тем не менее, книга Гаскелл стала не просто биографией, а своего рода манифестом женской дружбы, взаимопонимания и литературной солидарности. *"This book is a tribute of love to the memory of Charlotte Brontë." [Gaskell, Dedication]. (*Эта *книга — дань любви памяти Шарлотты Бронте.)* Таким образом, контекст создания "Жизнь Шарлотты Бронте" тесно связан с личными, общественными и культурными обстоятельствами. Это не только хроника жизни выдающейся женщины, но и ответ эпохе, которая пыталась ограничить голос женщины, заглушить её талант и свести её страдания к частной меланхолии. Биография Гаскелл возвысила этот голос и сделала его слышимым для поколений.

***Литературный стиль и структура книги:*** Биография "Жизнь Шарлотты Бронте" представляет собой уникальный синтез документального жанра и художественного повествования. Элизабет Гаскелл, будучи прежде всего романисткой, использовала в биографии привычные ей приёмы художественной прозы, что придало тексту литературную выразительность и эмоциональную глубину. Её стиль — это сплав романтизированной повествовательности, сентиментальной тональности и реалистической точности, что делает биографию не просто жизнеописанием, а настоящим литературным произведением. Прежде всего, "Жизнь Шарлотты Бронте" можно охарактеризовать как романизированную биографию. Гаскелл выстраивает повествование по законам художественного нарратива, уделяя внимание не только событиям, но и их внутреннему смыслу, психологическому подтексту, эмоциям героини. Структура книги напоминает роман воспитания: от детства и первых испытаний — к духовному формированию, зрелости, творчеству и, наконец, трагическому финалу. Каждый этап жизни Шарлотты подаётся как часть пути, наполненного внутренними конфликтами и борьбой с обстоятельствами. Особенно отчётливо это видно в описаниях раннего периода — смерти сестёр, учёбы в Кован-Бридже, путешествия в Бельгию, кризиса, связанного с брюссельским опытом.

*"The sight of suffering or of death always had a singular effect upon her. She turned faint and sick... but she never shrank from seeing what she believed ought to be seen, or from helping what ought to be helped." [Gaskell, Ch. 4]. (*Вид *страдания или смерти всегда производил на неё особое впечатление. Ей становилось дурно, и она чувствовала слабость... но она никогда не уклонялась от того, что, по её мнению, должно было быть увидено, или от помощи тому, кому, по её мнению, нужно было помочь.)* При этом Гаскелл сознательно использует сентиментальность, чтобы вызвать у читателя сочувствие и сопереживание. Она подчёркивает страдания Шарлотты — утраты, одиночество, напряжённую борьбу с долгом и религиозными сомнениями. *"Her grief was calm and tearless, but of that kind which eats away the heart." [Gaskell,*

*Ch. 6]. (Её горе было спокойным и без слёз, но таким, которое разъедает сердце изнутри.)* Такой подход позволил автору создать не просто образ великой писательницы, но в первую очередь — образ женщины с живым, чувствительным сердцем. Читатель оказывается втянут в эмоциональный мир героини, словно читает исповедальный роман. Именно эта интимность сделала книгу столь популярной и трогательной, особенно среди женщин-читательниц. Но одновременно такой подход вызвал критику со стороны тех, кто ожидал от биографии большей объективности и строгости. Тем не менее, сентиментальность в тексте сочетается с достаточно высокой документальностью. Гаскелл использует обширный документальный материал: письма Шарлотты, воспоминания современников, интервью с близкими и родственниками, фрагменты её неопубликованных текстов.

*"I have preferred to give her own words, rather than to make any attempt at paraphrasing them." [Gaskell, Preface to the First Edition]. (Я предпочёл привести её собственные слова, а не пытаться пересказывать их своими.)*

Автор делает значительные усилия для воссоздания контекста — как личного, так и общественного. Она цитирует письма с минимальной редакцией, что придаёт повествованию достоверность и живость. Таким образом, биография не теряет научной ценности, несмотря на художественные украшения. Особое внимание заслуживает влияние реалистического стиля, присущего прозе самой Элизабет Гаскелл. Как автор романов с социальной проблематикой, она умело интегрирует в биографию элементы общественного анализа: положения женщины в обществе, социального неравенства, религиозных разногласий и культурной изоляции. *"She spoke of her own position — so often misunderstood — so often misrepresented." [Gaskell, Ch. 23]. (Она говорила о своём положении — столь часто неправильно понятом, столь часто искажённо представленном.)* Например, она с тонким сочувствием описывает положение гувернантки как социального аутсайдера — положения, которое сама Шарлотта хорошо знала и описала в своих романах. Гаскелл показывает, как личные переживания Шарлотты воплотились в её литературе, как роман "Джейн Эйр" стал не просто вымыслом, а художественным выражением опыта жизни. Также реалистический подход проявляется в желании Гаскелл объяснить, как формировался характер Шарлотты под влиянием среды — замкнутого мира Хаорта, сурового отца, потерь в детстве, ограничений, наложенных на женщину. Автор стремится показать Шарлотту как продукт своего времени, но в то же время — как фигуру, преодолевающую это время.

*"She had to fight hard with a weak frame and low spirits, to do her work and to live her life." [Gaskell, Ch. 21]. (Ей приходилось вести тяжёлую борьбу со слабым телом и подавленным настроением, чтобы выполнять свою работу и проживать свою жизнь.)*

Будущее требует от нас переосмысления традиционных подходов к обучению. Образование должно стать пространством свободы, творчества, сотрудничества и гуманности. Только через качественные преобразования в этой сфере возможно формирование поколения, способного остановить войны, насилие и несправедливость. Настоящая статья подчеркивает необходимость такой трансформации как глобальной задачи современности.

**Список литературы**

5. UNESCO. Education for Sustainable Development. — Paris, 2023. 1. Болотов В.А. Образование в XXI веке. — М.: Просвещение, 2020.

2. Ильин Е.П. Психология творчества. — СПб.: Питер, 2019.

3. Гарднер Г. Структура разума. — М.: URSS, 2021.

4. Фрейре П. Педагогика угнетённых. — М.: Канон+, 2022.

## QARABAĞDA İSLAM MEMARLIQ ABİDƏLƏRİ VƏ ONLARIN SOSİAL FƏALİYYƏTLƏRİ

***Aygün XƏLİLQIZI***
Bakı Dövlət Üniversiteti,
Sosial Elmlər və Psixologiya fakültəsi,
Fəlsəfə kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru,
*Bakı, Azərbaycan*
aygunxalilqizi@mail.ru
ORCİD: 0000-0002-1781-8904
Mob.tel.: +994 51 877 66 76

**Xülasə / Özet**

Vaxtilə Qafqaz Albaniyası və Atropatena adlanan Azərbaycan VII əsr Ərəb fəthlərindən sonra İslam dininin geniş yayıldığı ərazilərdən olmağa başladı. VII əsrin ikinci yarısından etibarən İslam dini burada dərin kök salmış, insanların düşüncələrinə, mənəviyyatına və mədəniyyətinə zəngin təsir göstərmişdir. Bu təsir o qədər güclü olmuşdur ki, yüzilliklər boyu heç bir qüvvə xalqımızı öz milli-mədəni köklərindən ayıra bilməmişdir Qarabağ ərazisində islam dininin var olması tarixən cəmiyyətin ictimai həyatına böyük təsir göstərmişdir. Azərbaycanın hər yerində olduğu kimi Qarabağda da müsəlmanlığın mövcud olması sosial həyatla bərabər memarlıq mədəniyyətində də özünü göstərmişdir.İslam dininin qəbul edilməsi Albaniyada (Azərbaycanda) yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Bu zaman Azərbaycanın Qarabağ bölgəsində müsəlmanlıq dövrünə aid çoxlu sayda məscid və türbələr inşa edilmişdir.

Qarabağ İslam abidələrinə misal olaraq Füzuli bölgəsində tikilmiş olan Şeyx Yaqub (XII əsr) türbəsi, Qoç Əhmədli Cümə məscidi, Şeyx İbrahim türbəsi (XVII əsr), Horadiz kəndindəki Cümə məscidi Hacı Ələsgər məscidi, Aşağı Veysəlli kəndindəki Mir Əli (XIV əsr), Dağlıq Qarabağ ərazisində Əsgəran qalası, Ağdam Cümə məscidi (1870) Cəbrayılın Şıxlar kəndində türbə (1308) və, Ağdam bölgəsində Xaçın-Dərbənd kəndi yaxınlığında 12 künclü türbə, Ağdamın Abdal-Gülablı kəndində hamam binası (XX əsrin əvvəlləri), Ağdamın Şahbulaq məscidi, Bərdə şəhərindəki Tərtər çayı üzərində 12 tağlı körpü (XIV əsr), "Bəhmən Mirzə" türbəsi, Şuşa şəhərində səkkiz bucaqlı türbə,

Pənah xan qalası, Natəvanın evi, Mamayı məscidi, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarayı, Culfalar məscidi, Hacı Yusifli məscidi ,Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Laçın ərazisində Qarasaqqal türbəsi, Şeyx Əhməd türbəsi, Sarı aşığın türbəsi (XV əsr), Quşçu kəndində "Uşaq qalası", "Böyük bulaq" abidəsi (XV əsr), Həmzə Sultan sarayı (1761) da tariximiz üçün qiymətli maddi mədəniyyət nümunələridir.

XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq (Tərnəküt), Pənahabadda (Şuşa) salınan qalalarda bazar, karvansaray, məscid, hamam, və s. inşa edilmişdir.

**Açar sözlər:** Qarabağ, İslam, abidələr, məscid, türbələr, sosial fəlaiyyət

# ISLAMIC ARCHITECTURAL MONUMENTS IN KARABAKH AND THEIR SOCIAL FUNCTIONS

***Aygün KHALILQIZI***

Baku State University,

Faculty of Social Sciences and Psychology,

Associate Professor of the Department of Philosophy, PhD,

ORCID: 0000-0002-1781-8904

**ABSTRACT**

After the Arab conquests of the 7th century, the regions formerly known as Caucasian Albania and Atropatena (present-day Azerbaijan) became areas where Islam spread widely. From the second half of the 7th century onwards, Islam took deep root here, significantly influencing people's mindset, spirituality, and culture. This influence was so strong that for centuries, no power could separate our people from their national and cultural roots. The presence of Islam in the Karabakh region had a major historical impact on public life. As in the rest of Azerbaijan, the presence of Islam in Karabakh manifested not only in social life but also in architectural culture. The acceptance of Islam in Albania (present-day Azerbaijan) marked the beginning of a new era. During this period, numerous mosques and tombs were built in the Karabakh region of Azerbaijan.

Examples of Islamic monuments in Karabakh include the Sheikh Yaqub Tomb (12th century) in Fuzuli, the Juma Mosque in Goch Ahmadli, Sheikh Ibrahim's Tomb (17th century), the Juma Mosque in Horadiz village, Haji Alasgar Mosque, the Mir Ali Tomb (14th century) in Ashagi Veysalli village, Asgaran Fortress in Nagorno-Karabakh, the Aghdam Juma Mosque (1870), the tomb in Shykhlar village of Jabrayil (1308), the twelve-sided tomb near Khachin-Darband village in Aghdam region, the bathhouse building in Abdal-Gulabli village of Aghdam (early 20th century), Shahbulag Mosque in Aghdam, the 12-arched bridge over the Tartar River in Barda (14th century), the "Bahman Mirza" tomb, the octagonal tomb in Shusha city, Panah Khan Fortress, Natavan's house, Mamayi Mosque, the mosque-caravanserai of Mashadi Shukur Mirsiyab oglu, the Julfalar Mosque, Haji Yusifli Mosque, Upper Govhar Agha Mosque, Lower Govhar Agha Mosque (19th century), Khan's House, the gymnasium building, Qarasaqqal Tomb in Lachin region, Sheikh Ahmad Tomb, Sarı Ashiq's Tomb (15th century), the "Child's Castle" in Gushchu village, the "Great Spring" monument (15th century), and the Hamza Sultan Palace (1761). These are all valuable examples of our material cultural heritage.

In the second half of the 18th century, castles such as Bayat, Shahbulag (Tarnagut), and Panahabad (Shusha) were built in Karabakh, which included markets, caravanserais, mosques, baths, and other structures.

**Keywords:** Karabakh, Islam, monuments, mosque, tombs, social function

## GİRİŞ

Vaxtilə Qafqaz Albaniyası və Atropatena adlanan Azərbaycan VII əsr Ərəb fəthlərindən sonra İslam dininin geniş yayıldığı ərazilərdən olmağa başladı. VII əsrin ikinci yarısından etibarən İslam dini burada dərin kök salmış, insanların düşüncələrinə, mənəviyyatına və mədəniyyətinə zəngin təsir göstərmişdir. Bu təsir o qədər güclü olmuşdur ki, yüzilliklər boyu heç bir qüvvə xalqımızı öz milli-mədəni köklərindən ayıra bilməmişdir.

Dövlət müstəqilliyini qazanan ölkəmiz yenidən islama, bu dinin mənəvi-mədəni ənənələrinə təkrar üz tutmuşdur.Uzun illər Sovetlərin tərkibində yaşamasına baxmayaraq xalqımız Azərbaycanın müxtəlif bölgələrində tarixən var olmuş İslam memarlıq abidələrini qarşı gücü və imkanları daxilində qorumağa, mühafizə etməyə çalışmışdır.Lakin məlum Qarabağ münaqişəsləri zamanı qonşu dövlətin ərazimizi zəbt edərək otuz ilə yaxın bir dövr ərzində işğal altında saxlaması səbəbilə Qarabağın bütün ərazilərində İslam memətlıq abidlərinə,məbədlər və qəbrlərə qarşı amansız bir terror münasibəti göstərilmişdir.

Qarabağ ərazisində islam dininin var olması tarixən cəmiyyətin ictimai həyatına böyük təsir göstərmişdir. Azərbaycanın hər yerində olduğu kimi Qarabağda da müsəlmanlığın mövcud olması sosial həyatla bərabər memarlıq mədəniyyətində də özünü göstərmişdir.İslam dininin qəbul edilməsi Albaniyada (Azərbaycanda) yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Bu zaman Azərbaycanın Qarabağ bölgəsində müsəlmanlıq dövrünə aid çoxlu sayda məscid və minarələr inşa edilmişdir.

## ƏSAS HİSSƏ

XI-XII əsrlərdə İslam memarlığının əsas istiqamətlərini əks etdirən bir sıra məktəblərlə bərabər Arran (Qarabağ) memarlıq məktəbi də orta əsr Azərbaycan memarlığının sonrakı inkişafını müəyyənləşdirmişdir. Memarlıq və şəhərsalma, dekarativ-tətbiqi sənət sahələri inkişaf etməyə başlamış, epiqrafik abidələr də çoxalmışdır. (N.Əsədova, 2024. s 2. )

Qarabağ zonasında çoxu müsəlman dövrünə aid olan 2000–dən artıq müxtəlif tarixi və mədəni abidələr qeydə alınmışdır. Bunların arasında yaşayış evləri, ictimai binalar, həmçinin dini tikililər, ziyarət yerləri vardır. İslam dinin Azərbaycanda yayılması sadəcə ibadət yerlərinə aid olmamaqla bərabər eyni zamanda evlərin tikililərin də üzərində olan Şərq İslam arnamentləri ilə zənginləşmişdir. əhz bu əbəblədir ki, XVIII əsrdə Qarabağ xanlığının mərkəzi Şuşa Qarabağın mədəniyyət mərkəzinə çevrilmiş və bu mədəniyyət özlyndə böyk şəiyyətlər yetişdirmişdir. Qarabağ Azərbaycan ədəbiyyatının görkəmli ədibləri olan Qasım bəy Zakir, Xurşudbani Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov və Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov kimi görkəmli mütəfəkkirlərin vətənidir. (Hacıyev - 2010, 152 s.)

Qarabağ İslam abidələrinə misal olaraq Füzuli bölgəsində tikilmiş olan Şeyx Yaqub (XII əsr) türbəsi, Qoç Əhmədli Cümə məscidi, Şeyx İbrahim türbəsi (XVII əsr), Horadiz kəndindəki Cümə məscidi Hacı Ələsgər məscidi, Aşağı Veysəlli kəndindəki Mir Əli (XIV əsr) və Əhmədallar kəndindəki türbələr (XIV əsr), Əhməd Sultan türbəsi, Cəlal türbəsi (h. t. 1307), Dağlıq Qarabağ ərazisində Əsgəran qalası, Ağdam Cümə məscidi (1870) Cəbrayıl rayonunda “Qız qalası”, Cəbrayılın Şıxlar kəndində türbə (1308) və d. türbələr, Ağdam bölgəsində Xaçın-Dərbənd kəndi yaxınlığında 12 künclü türbə, , türbələr, Ağdamın Abdal-Gülablı kəndində hamam binası (XX əsrin əvvəlləri), Ağdamın Şahbulaq məscidi, Bərdə şəhərindəki Tərtər çayı üzərində 12 tağlı körpü (XIV əsr), “Bərdə”, “Axsadan baba” türbələri (XIV əsr), Kərbalayi Səfxan Qarabaği tərəfindən Bərdə şəhərində tikilmiş qoşa minarəli “İmamzadə” məscid kompleksi (1868), “Bəhmən Mirzə” türbəsi, Şuşa şəhərində səkkiz bucaqlı türbə, Pənah xan qalası, Natəvanın evi, Mamayı məscidi, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarayı, Culfalar məscidi, Saatlı məscidi, Hacı Yusifli məscidi Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Laçın ərazisində Qarasaqqal türbəsi, Soltan baba türbəsi, Şeyx Əhməd türbəsi, Sarı aşığın türbəsi (XV əsr), Cicimli kəndindəki türbələr, Quşçu kəndində “Uşaq qalası”, “Böyük bulaq” abidəsi (XV əsr), Həmzə Sultan sarayı (1761) da tariximiz üçün qiymətli maddi mədəniyyət nümunələridir. (N.Əsədova, 2024. s 2. )

XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq (Tərnəküt), Pənahabad (Şuşa) qalaları salınmış və həmin qalalarda bazar, karvansaray, məscid, hamam, və s. inşa edilmişdir. Ağdamda imarətlər. Pənah xana və nəslinə aid kümbəzlər tikilmişdir. (Ə.Əbdüləzimov, 2024, s 39.)

## QARABAĞ MƏSCİDLƏRİ

Qarabağ xanlığının mərkəzini Şahbulaq qalasından Şuşaya köçürməyə qərar verən Pənahəli xan yeni şəhər salınmasına qərar verir. (Dəlili, 1971, s 367.) Həmin dövrdə onun göstərişi ilə Şuşa qalası, qala daxilində xan ailəsi üzvləri üçün qəsr və saraylar, o cümlədən məscid inşa edilir. Şuşada həmin dövrdə bütün tikililərin daşdan inşa edilməsinə baxmayaraq, məscidin inşasında qamışdan istifadə edilmişdi.

Qarabağ bölgəsi içərisində bir neçə tarixi və mədəni əhəmiyyətli məscidlər mövcuddur. Bu məscidlər sırasında Şuşa şəhərində yerləşən Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Saatlı məscidi və digərləri xüsusilə seçilir .eyni zamanda , Laçın rayonunda Hacılı məscidi, Ağdam rayonunda isə Cümə məscidi kimi məscidlər də vardır. (Baharlı, 1991, s 269.)

Bu məscidlər həm memarlıq üslubu, həm də tarixi əhəmiyyətləri ilə seçilir. Şuşa şəhərinin mərkəzi Meydanında yerləşən və şəhər ərazisində tikilmiş ən qədim məscidlərindən olan yuxarı Gövhər ağa məscidi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ölkə əhəmiyyətli tarix-mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. (H.Əlizadə, 1991, s 104.)

Məlum olduğu kimi Yuxarı Gövhər ağa məscidinin inşası dörd mərhələdə həyata keçirilmişdir. Şuşanın əsası qoyulan zaman Pənahəli xan tərəfindən kiçik, qamışdan bir məscid tikilir, 2 qapısı olduğundan adına “İkiqapılı məscid” deyirlər. Şuşa ərazisində ilk məscid Qarabağ xanlığının və Şuşa qalasının banisi Pənahəli xanın göstərişi ilə Qarabağ xan sarayı ilə paralel təxminən 1750-ci illərdə qamışdan inşa edilmişdir. Oğlu İbrahimxəlil xan tərəfindən məscid yenilənir, yenidən daşdan tikilir, lakin məscidin taleyi bununla bitmir.Nəvəsi Gövhərağa (İbrahimxəlil xanın qızı) tərəfindən məscidə 2 minarə əlavə edilir və o, şəhərin əsas Cümə məscidinə çevrilir.Qeyd etdiyimiz kimi İbrahimxəlil xan hakimiyyətə gəldikdən sonra 1768–1769-cu illərdə qamış məscidin yerində daşdan yeni məscid tikilmişdir. XIX əsrin I yarısında Gövhər ağanın maddi dəstəyi ilə İbrahimxəlil xanın yararsız hala düşmüş məscidinin yerində qoşa minarəli üçüncü məscid inşa edilmişdir. 1883-cü ildə Gövhər ağanın maddi vəsaiti əsasında üçüncü məscidin yerində Şuşanın dördüncü və sonuncu cümə məscidi inşa edilmişdir. (M.C.Qarabaği, 1989, s 156.)

Şuşanın Qapan məhəlləsində yerləşən Aşağı Gövhərağa məscidi və ya sadəcə Aşağı Məscid, 1874-1875-ci illərdə inşa edilmişdir .“Məscid 1855-ci ilin şəhərin baş planında yaxınlıqdakı mədrəsə ilə birlikdə qeyd edilsə də 1874-1875-ci illərdə Yuxarı məscid kimi, Aşağı məscid kompleksində də əsaslı yenidənqurma işləri aparılır. Bu səbəbdən inşa tarixi kimi 70-ci illər qeyd edilir. Yeni məscidin inşası da memar Kərbəlayi Səfixan Qarabağiyə tapşırılır”.Bir şəhərdə (yaxınlıqda həm də) 2 ci Cümə məscidin inşasını isə şiə və sünniliklə əlaqələndirirlər. O vaxt ticari əlaqələrin genişlənməsi nəticəsində Şuşaya Osmanlı imperiyası və Dağıstandan çoxlu tacirlər gəlməyə başlayır və onların ibadəti üçün ikinci məscid inşa edilir. (V.Levitov, 1948, s 65.)

Şuşa şəhərində yerləşən Gövhərağa vəqfi — məscid, mədrəsə və xəstəxanadan ibarət olan bu kompleks 1833-cü illərə təsadüf etmiş— XIX əsrin ortalarında Qarabağ xanlığının və Azərbaycanın ümumi mədəni, dini və sosial həyatında mühüm rol oynamışdır. Bu vəqf kompleksinin qurucusu Gövhərağa xanım, Qarabağ xanı İbrahimxəlil xanın qızı idi və o, öz dövrünün savadlı, maarifpərvər və xeyriyyəçi qadınlarından biri kimi tanınır. (M.Adıgözəlbəy, 1989, s 102.)

**1. Məscidin ictimai və dini funksiyası**

Gövhərağa məscidi Şuşada yerləşən vəqfin mərkəzi komponenti idi. Bu məscid:

Dini mərkəz funksiyasını yerinə yetirir, şəhər əhalisinin ibadət, cümə və dini bayram namazlarını qılması üçün mühüm bir məkan olmuşdur. (N.Süleymanova, 2021, s 143.)

İctimai maarifləndirmə baxımından da rol oynamışdır. Vaizlər və imamlar cəmiyyətə dini-mənəvi dəyərlər aşılayırdı.

Məscid yalnız ibadət yeri deyil, həm də ictimai görüş və müzakirə məkanı kimi fəaliyyət göstərirdi. Beləliklə, Şuşada sosial həmrəyliyin formalaşmasında təsiredici olmuşdur. (T.Mustafazadə, 2009, s 75.)

**2. Mədrəsənin maarifçilik və sosial rolu**

Gövhərağa vəqfinin bir hissəsi olan mədrəsə, dini və dünyəvi elmlərin tədris olunduğu mühüm bir elm ocağı idi. Onun funksiyaları:

İbtidai və orta dini təhsil: Burada Quran, fiqh, ərəb dili və digər İslam elmləri tədris olunurdu.

Savadsızlığın aradan qaldırılması: Mədrəsə vasitəsilə yerli əhali arasında savadlanma səviyyəsi artmışdır. (N.Süleymanova, 2021, s 145.)

Dini kadrların hazırlanması: Gələcək imamlar, müəllimlər və ruhanilər bu mədrəsədə yetişirdi.

Eyni zamanda, bəzi mənbələrə görə, mədrəsədə riyaziyyat, məntiq və ədəbiyyat kimi dünyəvi fənlər də tədris olunurdu. (V.Piriyev, 2002, s 77.)

3. Xəstəxananın sağlamlıq və sosial rifah baxımından əhəmiyyəti

Vəqf çərçivəsində yaradılan xəstəxana dövrünə görə nadir və qabaqcıl təşəbbüslərdən biri idi. Onun əsas funksiyaları bunlar idi:

Yerli əhaliyə tibbi yardım göstərmək. Bu, xüsusilə kasıb təbəqənin sağlamlıq xidmətlərinə çıxışını asanlaşdırırdı.

Xeyriyyəçilik fəaliyyəti: Gövhərağa xanım xəstəxananı pulsuz xidmət prinsipi ilə idarə etmişdir. Müalicə alanların böyük hissəsi ödənişsiz yardım alırdı. (N.Süleymanova, 2021, s 146.)

Tarixi mənbələr xəstəxananın qadınların müalicəsinə də xüsusi önəm verdiyini qeyd edir ki, bu da həmin dövr üçün çox əhəmiyyətli idi. (Y.Mahmudov, 2012, s 67.)

Gövhərağa vəqfi təkcə dini deyil, maarifçilik, səhiyyə və sosial rifah sahələrində də Şuşa şəhərinin inkişafına ciddi töhfə vermişdir. Bu vəqf Qarabağda qadınların ictimai həyatdakı rolunu göstərən nadir nümunələrdən biri kimi də tarixdə qalır. Eyni zamanda, bu kompleks dövrünün sosial təminat modeli rolunu oynamış, ictimai-sosial funksiyaları ilə cəmiyyətin müxtəlif təbəqələrinə xidmət etmişdir. (N.Süleymanova, 2021, s 142.)

## NƏTİCƏ

İslam məscid mədəniyyətinin və onların sosial fəaliyyətləri anlayışından bəhs edərkən qeyd etmək lazımdır ki, bütün məscidlərin ənənəvi sosial fəaliyyətləri kimi Qarabağ məscidlərinin də ibadət yerləri kimi fəaliyyətlərindən başqa sosial fəaliyyətlərinin də oldunu qeyd etmək lazımdır.Şuşada fəaliyyət göstərən fəaliyyətlər içərisində Yuxarı gövhər ağa məscidinin Gövhər xanım tərəfindən son inşasından sonra məsciddə bir vəqf (fond) müəssisənin fəaliyyətinin də var olduğunu qeyd etmək yerinə düşərdi. Toplanan xeyriyyələrin qeyd dəftəri, xərclər və s yer tuturdu. İstər məhəllə istərsə də ümumi şəhər məscidlərində elmi fəaliyyətlərin yanında orada yaşayan əhali üçün ehtiyac sahiblərinə olunan maddi yardımlar da mövcud olmuşdur.

Məscidlərin yanındakı və ya daxilindəki mədrəsələrin var olması oxuma –yazma ilə birlikdə dini biliklərin öyrədilməsi üçün uyğun məkan rolunu oynayırdı. Ümumiyyətlə o dövr azərbaycanı üçün əhalinin savadlılıq dərəcəsinə təsir göstərən mədrəsə -məktəb təhsilinin yayılması digər bütün zonalar kimi Qarabağda da mədrəsə təhsilinin inkişafına yol açmışdır. Lakin mədərəsə təhsli deyiləndə ağla sadəcə dini biliklərin gəlməsi də doğru olmazdı. Çünki həmin dövr mədrəsələr əsasən məscidlərin yaxınlığında və ya içərisində fəaliyyət göstərsələr də məntiq ,riyaziyyat, astranomiya kimi emlərin də öyrədilməsinə şərait yaradırdı.Məhz həmin təhsil bünövrəsini görən şəxslər sonradan Qarabağ, xüsusilə də Şuşanın yetişdirdiyi insanların inkişafında müəyyən rol oynamışdır.

**İtifadə edilmiş ədəbiyyat**

Hacıyev, Qasım (2010), Qarabağın maddi və mənəvi mədəniyyəti (Azərbaycan, ingilis, fransız dillərində). Bakı, 152 s.

Əsədova, Nüşabə, (2024), Qarabağ memarlıq abidələri və erməni vandalizmi, (https://www.scribd.com/document/784120736/Titul-Vereqi-Kopyas%C4%B1-2) (22.08-2025.)

Əbdüləzimov Əyyub-Hacıyev Qasım, (2024). Qarabağ Tarixi, Bakı "Ərgünəş" nəşriyyatı, 39-167.

Baharlı, "Əhvalati-Qarabağ", *Qarabağnamələr*. II kitab, Yazıçı, Bakı 1991, S 269-302.

Dəlili, Hüseyn, "Qarabağ xanlığının banisi Pənahəli xan haqqında yeni məlumatlar", *Azərbaycan SSR EA Xəbərləri, Tarix və Hüquq seriyası*, 1971, Sayı 1, S 42-47.

Əlizadə, Həsən, İxfa, "Şuşa şəhərinin tarixi", *Qarabağnamələr*, II kitab, Yazıçı, Bakı 1991, S 309-348.

Qarabaği, Mirzə Camal, "Qarabağ tarixi", Qarabağnamələr, I kitab, Yazıçı, Bakı 1989, S 104-148.

Leviatov, Vladimir, *Очерки из истории Азербайджана в XVIII в.* [*Oçerki iz istorii Azerbaydjana v XVIII v.*], Издательство Академии наук Азербайджанской ССР, .Баку 1948.

Mahmudov, Yaqub, Mustafayev, Camal, *Şuşa. Pənahabad*, Təhsil, Bakı 2012.

Mirzə, Adıgözəl bəy, "Qarabağnamə", *Qarabağnamələr*, I kitab, Yazıçı, Bakı 1989, S 5-102.

Mustafazadə, Tofiq, *Qarabağ xanlığı*, Sabah, Bakı 2009.

Piriyev, Vaqif, *Azərbaycanın tarixi coğrafiyası*, Nurlan, Bakı 2002.

Süleymanova Nailə, (2021.) Gövhər ağa – Azərbaycanın XIX əsr əlyazmalarında, Turizm və qonaqpərvərlik tədqiqatları 142-149. https://www.anl.az/down/meqale/turizm_ve_qonaq/2021/01/774177(meqale).pdf (22.08-2025.)

# QARABAĞDA İSLAM MEMARLIQ ABİDƏLƏRİ VƏ ONLARIN SOSİAL FƏALİYYƏTLƏRİ
# ISLAMIC ARCHITECTURAL MONUMENTS IN KARABAKH AND THEIR SOCIAL FUNCTIONS

***Aygün XƏLİLQIZI***
Bakı Dövlət Üniversiteti,
Sosial Elmlər və Psixologiya fakültəsi,
Fəlsəfə kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru,
*Bakı, Azərbaycan*
ORCİD: 0000-0002-1781-8904

**Xülasə / Özet**
Vaxtilə Qafqaz Albaniyası və Atropatena adlanan Azərbaycan VII əsr Ərəb fəthlərindən sonra İslam dininin geniş yayıldığı ərazilərdən olmağa başladı. VII əsrin ikinci yarısından etibarən İslam dini burada dərin kök salmış, insanların düşüncələrinə, mənəviyyatına və mədəniyyətinə zəngin təsir göstərmişdir. Bu təsir o qədər güclü olmuşdur ki, yüzilliklər boyu heç bir qüvvə xalqımızı öz milli-mədəni köklərindən ayıra bilməmişdir Qarabağ ərazisində islam dininin var olması tarixən cəmiyyətin ictimai həyatına böyük təsir göstərmişdir. Azərbaycanın hər yerində olduğu kimi Qarabağda da müsəlmanlığın mövcud olması sosial həyatla bərabər memarlıq mədəniyyətində də özünü göstərmişdir.İslam dininin qəbul edilməsi Albaniyada (Azərbaycanda) yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Bu zaman Azərbaycanın Qarabağ bölgəsində müsəlmanlıq dövrünə aid çoxlu sayda məscid və türbələr inşa edilmişdir.
Qarabağ İslam abidələrinə misal olaraq Füzuli bölgəsində tikilmiş olan Şeyx Yaqub (XII əsr) türbəsi, Qoç Əhmədli Cümə məscidi, Şeyx İbrahim türbəsi (XVII əsr), Horadiz kəndindəki Cümə məscidi Hacı Ələsgər məscidi, Aşağı Veysəlli kəndindəki Mir Əli (XIV əsr), Dağlıq Qarabağ ərazisində Əsgəran qalası, Ağdam Cümə məscidi (1870) Cəbrayılın Şıxlar kəndində türbə (1308) və, Ağdam bölgəsində Xaçın-Dərbənd kəndi yaxınlığında 12 künclü türbə, Ağdamın Abdal-Gülablı kəndində hamam binası (XX əsrin əvvəlləri), Ağdamın Şahbulaq məscidi, Bərdə şəhərindəki Tərtər çayı üzərində 12 tağlı körpü (XIV əsr), "Bəhmən Mirzə" türbəsi, Şuşa şəhərində səkkiz bucaqlı türbə, Pənah xan qalası, Natəvanın evi, Mamayı məscidi, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarayı, Culfalar məscidi, Hacı Yusifli məscidi ,Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Laçın ərazisində Qarasaqqal türbəsi, Şeyx Əhməd türbəsi, Sarı aşığın türbəsi (XV əsr), Quşçu kəndində "Uşaq qalası", "Böyük bulaq" abidəsi (XV əsr), Həmzə Sultan sarayı (1761) da tariximiz üçün qiymətli maddi mədəniyyət nümunələridir.
XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq (Tərnəküt), Pənahabadda (Şuşa) salınan qalalarda bazar, karvansaray, məscid, hamam, və s. inşa edilmişdir.
**Açar sözlər:** Qarabağ, İslam, abidələr, məscid, türbələr, sosial fəlaiyyət

**ABSTRACT**

After the Arab conquests of the 7th century, the regions formerly known as Caucasian Albania and Atropatena (present-day Azerbaijan) became areas where Islam spread widely. From the second half of the 7th century onwards, Islam took deep root here, significantly influencing people's mindset, spirituality, and culture. This influence was so strong that for centuries, no power could separate our people from their national and cultural roots. The presence of Islam in the Karabakh region had a major historical impact on public life. As in the rest of Azerbaijan, the presence of Islam in Karabakh manifested not only in social life but also in architectural culture. The acceptance of Islam in Albania (present-day Azerbaijan) marked the beginning of a new era. During this period, numerous mosques and tombs were built in the Karabakh region of Azerbaijan.

Examples of Islamic monuments in Karabakh include the Sheikh Yaqub Tomb (12th century) in Fuzuli, the Juma Mosque in Goch Ahmadli, Sheikh Ibrahim's Tomb (17th century), the Juma Mosque in Horadiz village, Haji Alasgar Mosque, the Mir Ali Tomb (14th century) in Ashagi Veysalli village, Asgaran Fortress in Nagorno-Karabakh, the Aghdam Juma Mosque (1870), the tomb in Shykhlar village of Jabrayil (1308), the twelve-sided tomb near Khachin-Darband village in Aghdam region, the bathhouse building in Abdal-Gulabli village of Aghdam (early 20th century), Shahbulag Mosque in Aghdam, the 12-arched bridge over the Tartar River in Barda (14th century), the "Bahman Mirza" tomb, the octagonal tomb in Shusha city, Panah Khan Fortress, Natavan's house, Mamayi Mosque, the mosque-caravanserai of Mashadi Shukur Mirsiyab oglu, the Julfalar Mosque, Haji Yusifli Mosque, Upper Govhar Agha Mosque, Lower Govhar Agha Mosque (19th century), Khan's House, the gymnasium building, Qarasaqqal Tomb in Lachin region, Sheikh Ahmad Tomb, Sarı Ashiq's Tomb (15th century), the "Child's Castle" in Gushchu village, the "Great Spring" monument (15th century), and the Hamza Sultan Palace (1761). These are all valuable examples of our material cultural heritage.

In the second half of the 18th century, castles such as Bayat, Shahbulag (Tarnagut), and Panahabad (Shusha) were built in Karabakh, which included markets, caravanserais, mosques, baths, and other structures.

**Keywords:** Karabakh, Islam, monuments, mosque, tombs, social function

## GİRİŞ

Vaxtilə Qafqaz Albaniyası və Atropatena adlanan Azərbaycan VII əsr Ərəb fəthlərindən sonra İslam dininin geniş yayıldığı ərazilərdən olmağa başladı. VII əsrin ikinci yarısından etibarən İslam dini burada dərin kök salmış, insanların düşüncələrinə, mənəviyyatına və mədəniyyətinə zəngin təsir göstərmişdir. Bu təsir o qədər güclü olmuşdur ki, yüzilliklər boyu heç bir qüvvə xalqımızı öz milli-mədəni köklərindən ayıra bilməmişdir.

Dövlət müstəqilliyini qazanan ölkəmiz yenidən islama, bu dinin mənəvi-mədəni ənənələrinə təkrar üz tutmuşdur.Uzun illər Sovetlərin tərkibində yaşamasına baxmayaraq xalqımız Azərbaycanın müxtəlif bölgələrində tarixən var olmuş İslam memarlıq abidələrini qarşı gücü və imkanları daxilində qorumağa, mühafizə etməyə çalışmışdır.Lakin məlum Qarabağ münaqişəsləri zamanı qonşu dövlətin ərazimizi zəbt edərək otuz ilə yaxın bir dövr ərzində işğal altında saxlaması səbəbilə Qarabağın bütün ərazilərində İslam mematlıq abidlərinə,məbədlər və qəbrlərə qarşı amansız bir terror münasibəti göstərilmişdir.

Qarabağ ərazisində islam dininin var olması tarixən cəmiyyətin ictimai həyatına böyük təsir göstərmişdir. Azərbaycanın hər yerində olduğu kimi Qarabağda da müsəlmanlığın mövcud olması sosial həyatla bərabər memarlıq mədəniyyətində də özünü göstərmişdir.İslam dininin qəbul edilməsi Albaniyada (Azərbaycanda) yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Bu zaman Azərbaycanın Qarabağ bölgəsində müsəlmanlıq dövrünə aid çoxlu sayda məscid və minarələr inşa edilmişdir.

## ƏSAS HİSSƏ

XI-XII əsrlərdə İslam memarlığının əsas istiqamətlərini əks etdirən bir sıra məktəblərlə bərabər Arran (Qarabağ) memarlıq məktəbi də orta əsr Azərbaycan memarlığının sonrakı inkişafını müəyyənləşdirmişdir. Memarlıq və şəhərsalma, dekarativ-tətbiqi sənət sahələri inkişaf etməyə başlamış, epiqrafik abidələr də çoxalmışdır. (N.Əsədova, 2024. s 2. )

Qarabağ zonasında çoxu müsəlman dövrünə aid olan 2000–dən artıq müxtəlif tarixi və mədəni abidələr qeydə alınmışdır. Bunların arasında yaşayış evləri, ictimai binalar, həmçinin dini tikililər, ziyarət yerləri vardır. İslam dinin Azərbaycanda yayılması sadəcə ibadət yerlərinə aid olmamaqla

bərabər eyni zamanda evlərin tikililərin də üzərində olan Şərq İslam arnamentləri ilə zənginləşmişdir. əhz bu əbəblədir ki, XVIII əsrdə Qarabağ xanlığının mərkəzi Şuşa Qarabağın mədəniyyət mərkəzinə çevrilmiş və bu mədəniyyət özlyndə böyk şəiyyətlər yetişdirmişdir. Qarabağ Azərbaycan ədəbiyyatının görkəmli ədibləri olan Qasım bəy Zakir, Xurşudbani Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov və Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov kimi görkəmli mütəfəkkirlərin vətənidir. (Hacıyev - 2010, 152 s.)

Qarabağ İslam abidələrinə misal olaraq Füzuli bölgəsində tikilmiş olan Şeyx Yaqub (XII əsr) türbəsi, Qoç Əhmədli Cümə məscidi, Şeyx İbrahim türbəsi (XVII əsr), Horadiz kəndindəki Cümə məscidi Hacı Ələsgər məscidi, Aşağı Veysəlli kəndindəki Mir Əli (XIV əsr) və Əhmədallar kəndindəki türbələr (XIV əsr), Əhməd Sultan türbəsi, Cəlal türbəsi (h. t. 1307), Dağlıq Qarabağ ərazisində Əsgəran qalası, Ağdam Cümə məscidi (1870) Cəbrayıl rayonunda "Qız qalası", Cəbrayılın Şıxlar kəndində türbə (1308) və d. türbələr, Ağdam bölgəsində Xaçın-Dərbənd kəndi yaxınlığında 12 künclü türbə, , türbələr, Ağdamın Abdal-Gülablı kəndində hamam binası (XX əsrin əvvəlləri), Ağdamın Şahbulaq məscidi, Bərdə şəhərindəki Tərtər çayı üzərində 12 tağlı körpü (XIV əsr), "Bərdə", "Axsadan baba" türbələri (XIV əsr), Kərbalayi Səfxan Qarabaği tərəfindən Bərdə şəhərində tikilmiş qoşa minarəli "İmamzadə" məscid kompleksi (1868), "Bəhmən Mirzə" türbəsi, Şuşa şəhərində səkkiz bucaqlı türbə, Pənah xan qalası, Natəvanın evi, Mamayı məscidi, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarayı, Culfalar məscidi, Saatlı məscidi, Hacı Yusifli məscidi Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Laçın ərazisində Qarasaqqal türbəsi, Soltan baba türbəsi, Şeyx Əhməd türbəsi, Sarı aşığın türbəsi (XV əsr), Cicimli kəndindəki türbələr, Quşçu kəndində "Uşaq qalası", "Böyük bulaq" abidəsi (XV əsr), Həmzə Sultan sarayı (1761) da tariximiz üçün qiymətli maddi mədəniyyət nümunələridir. (N.Əsədova, 2024. s 2. )

XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq (Tərnəküt), Pənahabad (Şuşa) qalaları salınmış və həmin qalalarda bazar, karvansaray, məscid, hamam, və s. inşa edilmişdir. Ağdamda imarətlər. Pənah xana və nəslinə aid kümbəzlər tikilmişdir. (Ə.Əbdüləzimov, 2024, s 39.)

## QARABAĞ MƏSCİDLƏRİ

Qarabağ xanlığının mərkəzini Şahbulaq qalasından Şuşaya köçürməyə qərar verən Pənahəli xan yeni şəhər salınmasına qərar verir. (Dəlili, 1971, s 367.) Həmin dövrdə onun göstərişi ilə Şuşa qalası, qala daxilində xan ailəsi üzvləri üçün qəsr və saraylar, o cümlədən məscid inşa edilir. Şuşada həmin dövrdə bütün tikililərin daşdan inşa edilməsinə baxmayaraq, məscidin inşasında qamışdan istifadə edilmişdi.

Qarabağ bölgəsi içərisində bir neçə tarixi və mədəni əhəmiyyətli məscidlər mövcuddur. Bu məscidlər sırasında Şuşa şəhərində yerləşən Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Saatlı məscidi və digərləri xüsusilə seçilir .eyni zamanda , Laçın rayonunda Hacılı məscidi, Ağdam rayonunda isə Cümə məscidi kimi məscidlər də vardır. (Baharlı, 1991, s 269.)

Bu məscidlər həm memarlıq üslubu, həm də tarixi əhəmiyyətləri ilə seçilir. Şuşa şəhərinin mərkəzi Meydanında yerləşən və şəhər ərazisində tikilmiş ən qədim məscidlərindən olan yuxarı Gövhər ağa məscidi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ölkə əhəmiyyətli tarix-mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. (H.Əlizadə, 1991, s 104.)

Məlum olduğu kimi Yuxarı Gövhər ağa məscidinin inşası dörd mərhələdə həyata keçirilmişdir. Şuşanın əsası qoyulan zaman Pənahəli xan tərəfindən kiçik, qamışdan bir məscid tikilir, 2 qapısı olduğundan adına "İkiqapılı məscid" deyirlər. Şuşa ərazisində ilk məscid Qarabağ xanlığının və Şuşa qalasının banisi Pənahəli xanın göstərişi ilə Qarabağ xan sarayı ilə paralel təxminən 1750-ci illərdə qamışdan inşa edilmişdir. Oğlu İbrahimxəlil xan tərəfindən məscid yenilənir, yenidən daşdan tikilir, lakin məscidin taleyi bununla bitmir.Nəvəsi Gövhərağa (İbrahimxəlil xanın qızı) tərəfindən məscidə 2 minarə əlavə edilir və o, şəhərin əsas Cümə məscidinə çevrilir.Qeyd etdiyimiz kimi İbrahimxəlil xan hakimiyyətə gəldikdən sonra 1768–1769-cu illərdə qamış məscidin yerində daşdan

yeni məscid tikilmişdir. XIX əsrin I yarısında Gövhər ağanın maddi dəstəyi ilə İbrahimxəlil xanın yararsız hala düşmüş məscidinin yerində qoşa minarəli üçüncü məscid inşa edilmişdir. 1883-cü ildə Gövhər ağanın maddi vəsaiti əsasında üçüncü məscidin yerində Şuşanın dördüncü və sonuncu cümə məscidi inşa edilmişdir. (M.C.Qarabaği, 1989, s 156.)

Şuşanın Qapan məhəlləsində yerləşən Aşağı Gövhərağa məscidi və ya sadəcə Aşağı Məscid, 1874-1875-ci illərdə inşa edilmişdir .“Məscid 1855-ci ilin şəhərin baş planında yaxınlıqdakı mədrəsə ilə birlikdə qeyd edilsə də 1874-1875-ci illərdə Yuxarı məscid kimi, Aşağı məscid kompleksində də əsaslı yenidənqurma işləri aparılır. Bu səbəbdən inşa tarixi kimi 70-ci illər qeyd edilir. Yeni məscidin inşası da memar Kərbəlayi Səfixan Qarabağiyə tapşırılır”.Bir şəhərdə (yaxınlıqda həm də) 2 ci Cümə məscidin inşasını isə şiə və sünniliklə əlaqələndirirlər. O vaxt ticari əlaqələrin genişlənməsi nəticəsində Şuşaya Osmanlı imperiyası və Dağıstandan çoxlu tacirlər gəlməyə başlayır və onların ibadəti üçün ikinci məscid inşa edilir. (V.Levitov, 1948, s 65.)

Şuşa şəhərində yerləşən Gövhərağa vəqfi — məscid, mədrəsə və xəstəxanadan ibarət olan bu kompleks 1833-cü illərə təsadüf etmiş— XIX əsrin ortalarında Qarabağ xanlığının və Azərbaycanın ümumi mədəni, dini və sosial həyatında mühüm rol oynamışdır. Bu vəqf kompleksinin qurucusu Gövhərağa xanım, Qarabağ xanı İbrahimxəlil xanın qızı idi və o, öz dövrünün savadlı, maarifpərvər və xeyriyyəçi qadınlarından biri kimi tanınır. (M.Adıgözəlbəy, 1989, s 102.)

**1. Məscidin ictimai və dini funksiyası**

Gövhərağa məscidi Şuşada yerləşən vəqfin mərkəzi komponenti idi. Bu məscid:

Dini mərkəz funksiyasını yerinə yetirir, şəhər əhalisinin ibadət, cümə və dini bayram namazlarını qılması üçün mühüm bir məkan olmuşdur. (N.Süleymanova, 2021, s 143.)

İctimai maarifləndirmə baxımından da rol oynamışdır. Vaizlər və imamlar cəmiyyətə dini-mənəvi dəyərlər aşılayırdı.

Məscid yalnız ibadət yeri deyil, həm də ictimai görüş və müzakirə məkanı kimi fəaliyyət göstərirdi. Beləliklə, Şuşada sosial həmrəyliyin formalaşmasında təsiredici olmuşdur. (T.Mustafazadə, 2009, s 75.)

**2. Mədrəsənin maarifçilik və sosial rolu**

Gövhərağa vəqfinin bir hissəsi olan mədrəsə, dini və dünyəvi elmlərin tədris olunduğu mühüm bir elm ocağı idi. Onun funksiyaları:

İbtidai və orta dini təhsil: Burada Quran, fiqh, ərəb dili və digər İslam elmləri tədris olunurdu.

Savadsızlığın aradan qaldırılması: Mədrəsə vasitəsilə yerli əhali arasında savadlanma səviyyəsi artmışdır. (N.Süleymanova, 2021, s 145.)

Dini kadrların hazırlanması: Gələcək imamlar, müəllimlər və ruhanilər bu mədrəsədə yetişirdi.

Eyni zamanda, bəzi mənbələrə görə, mədrəsədə riyaziyyat, məntiq və ədəbiyyat kimi dünyəvi fənlər də tədris olunurdu. (V.Piriyev, 2002, s 77.)

3. Xəstəxananın sağlamlıq və sosial rifah baxımından əhəmiyyəti

Vəqf çərçivəsində yaradılan xəstəxana dövrünə görə nadir və qabaqcıl təşəbbüslərdən biri idi. Onun əsas funksiyaları bunlar idi:

Yerli əhaliyə tibbi yardım göstərmək. Bu, xüsusilə kasıb təbəqənin sağlamlıq xidmətlərinə çıxışını asanlaşdırırdı.

Xeyriyyəçilik fəaliyyəti: Gövhərağa xanım xəstəxananı pulsuz xidmət prinsipi ilə idarə etmişdir. Müalicə alanların böyük hissəsi ödənişsiz yardım alırdı. (N.Süleymanova, 2021, s 146.)

Tarixi mənbələr xəstəxananın qadınların müalicəsinə də xüsusi önəm verdiyini qeyd edir ki, bu da

həmin dövr üçün çox əhəmiyyətli idi. (Y.Mahmudov, 2012, s 67.)

Gövhərağa vəqfi təkcə dini deyil, maarifçilik, səhiyyə və sosial rifah sahələrində də Şuşa şəhərinin inkişafına ciddi töhfə vermişdir. Bu vəqf Qarabağda qadınların ictimai həyatdakı rolunu göstərən nadir nümunələrdən biri kimi də tarixdə qalır. Eyni zamanda, bu kompleks dövrünün sosial təminat modeli rolunu oynamış, ictimai-sosial funksiyaları ilə cəmiyyətin müxtəlif təbəqələrinə xidmət etmişdir. (N.Süleymanova, 2021, s 142.)

## NƏTİCƏ

İslam məscid mədəniyyətinin və onların sosial fəaliyyətləri anlayışından bəhs edərkən qeyd etmək lazımdır ki, bütün məscidlərin ənənəvi sosial fəaliyyətləri kimi Qarabağ məscidlərinin də ibadət yerləri kimi fəaliyyətlərindən başqa sosial fəaliyyətlərinin də oldunu qeyd etmək lazımdır.Şuşada fəaliyyət göstərən fəaliyyətlər içərisində Yuxarı gövhər ağa məscidinin Gövhər xanım tərəfindən son inşasından sonra məsciddə bir vəqf (fond) müəssisənin fəaliyyətinin də var olduğunu qeyd etmək yerinə düşərdi. Toplanan xeyriyyələrin qeyd dəftəri, xərclər və s yer tuturdu. İstər məhəllə istərsə də ümumi şəhər məscidlərində elmi fəaliyyətlərin yanında orada yaşayan əhali üçün ehtiyac sahiblərinə olunan maddi yardımlar da mövcud olmuşdur.

Məscidlərin yanındakı və ya daxilindəki mədrəsələrin var olması oxuma –yazma ilə birlikdə dini biliklərin öyrədilməsi üçün uyğun məkan rolunu oynayırdı. Ümumiyyətlə o dövr azərbaycanı üçün əhalinin savadlılıq dərəcəsinə təsir göstərən mədrəsə -məktəb təhsilinin yayılması digər bütün zonalar kimi Qarabağda da mədrəsə təhsilinin inkişafına yol açmışdır. Lakin mədərəsə təhsli deyiləndə ağla sadəcə dini biliklərin gəlməsi də doğru olmazdı. Çünki həmin dövr mədrəsələr əsasən məscidlərin yaxınlığında və ya içərisində fəaliyyət göstərsələr də məntiq ,riyaziyyat, astranomiya kimi emlərin də öyrədilməsinə şərait yaradırdı.Məhz həmin təhsil bünövrəsini görən şəxslər sonradan Qarabağ, xüsusilə də Şuşanın yetişdirdiyi insanların inkişafında müəyyən rol oynamışdır.

### İtifadə edilmiş ədəbiyyat

Hacıyev, Qasım (2010), Qarabağın maddi və mənəvi mədəniyyəti (Azərbaycan, ingilis, fransız dillərində). Bakı, 152 s.

Əsədova, Nüşabə, (2024), Qarabağ memarlıq abidələri və erməni vandalizmi, (https://www.scribd.com/document/784120736/Titul-Vereqi-Kopyas%C4%B1-2) (22.08-2025.)

Əbdüləzimov Əyyub-Hacıyev Qasım, (2024). Qarabağ Tarixi, Bakı “Ərgünəş” nəşriyyatı, 39-167.

Baharlı, “Əhvalati-Qarabağ”, *Qarabağnamələr.* II kitab, Yazıçı, Bakı 1991, S 269-302.

Dəlili, Hüseyn, “Qarabağ xanlığının banisi Pənahəli xan haqqında yeni məlumatlar”, *Azərbaycan SSR EA Xəbərləri, Tarix və Hüquq seriyası*, 1971, Sayı 1, S 42-47.

Əlizadə, Həsən, İxfa, “Şuşa şəhərinin tarixi”, *Qarabağnamələr*, II kitab, Yazıçı, Bakı 1991, S 309-348.

Qarabaği, Mirzə Camal, “Qarabağ tarixi”, Qarabağnamələr, I kitab, Yazıçı, Bakı 1989, S 104-148.

Leviatov, Vladimir, *Очерки из истории Азербайджана в XVIII в.* [*Oçerki iz istorii Azerbaydjana v XVIII v.*], Издательство Академии наук Азербайджанской ССР, .Баку 1948.

Mahmudov, Yaqub, Mustafayev, Camal, *Şuşa. Pənahabad*, Təhsil, Bakı 2012.

Mirzə, Adıgözəl bəy, “Qarabağnamə”, *Qarabağnamələr*, I kitab, Yazıçı, Bakı 1989, S 5-102.

Mustafazadə, Tofiq, *Qarabağ xanlığı*, Sabah, Bakı 2009.

Piriyev, Vaqif, *Azərbaycanın tarixi coğrafiyası*, Nurlan, Bakı 2002.

Süleymanova Nailə, (2021.) Gövhər ağa – Azərbaycanın XIX əsr əlyazmalarında, Turizm və qonaqpərvərlik tədqiqatları 142-149.

https://www.anl.az/down/meqale/turizm_ve_qonaq/2021/01/774177(meqale).pdf (22.08-2025.)

# Qarabağ ədəbi mühitində klassik poetik ənənələrin inkişaf meyilləri

**Ruhəngiz Əliyeva**

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun**

**"Orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbəsinin aparıcı elmi işçisi,**

**filologiya üzrə fəlsəfə doktoru, dosent**

Şərq klassik poetik yaradıcılıq ənənələri ilə yaxından səsləşən, onun ən yaxşı sənətkarlıq məziyyətlərini özündə təcəssüm etdirən Azərbaycan şeiri XIX yüzillikdə özünün yeni bir inkişaf mərhələsinə qədəm qoyur. Doğrudur, dil və üslub baxımından müəyyən qədər anlaşıqlı ifadə və yeni obrazlar aləmi şeirə gətirilsə də, tədricən xalq şeir şəkillərində dövrün aparıcı sənətkarları müəyyən nümunələr yaratsa da, ənənə halına çevrilən klassik janrlara müraciət hələ də ədəbi dövriyyədə aparıcı istiqamət kimi fəal mövqeyini qoruyub saxlayırdı.

Bu baxımdan XIX əsr Azərbaycan şeirində, xüsusən Qarabağ ədəbi mühitində klasik şeir şəkillərindən və janrlarından olan qəzəl, qəsidə, təxmis, tərcibənd kimi nümunələrə əhəmiyyətli dərəcədə yer ayrılması nəzərə çarpacaq dərəcədə özünü büruzə verməsi ənənəyə münasibət barədə əyani təsəvvür yaradır.

XİX əsr Qarabağ ədəbi mühitində yetişən sənətkarlar sırasında Qasım bəy Zakirin (1784-1857) ədəbi irsi klassik poetik ənənə ilə yanaşı, xalq şeiri şəkillərində qələmə alınan nümunələrə də yer ayrılması ilə diqqəti cəlb edir. Professor Kamran Məmmədov şairin yaradıcılığını qiymətləndirərək belə qənaətə gəlir. Zakir Azərbaycan bədii dilini yeni pillyə qaldıraraq, məzmunca dolğun, formaca bitgin satirik şeirləri, qoşmaları, gəraylıları ilə həməsri olduğu şairlərdən fərqlənmiş, ustad bir sənətkar kimi diqqəti cəlb etmişdir. Təsadüfü deyildirki, M.F. Axundov, Firudin bəy Köçərli , Ə Haqverdiyev, S Vurğun kimi böyuk sənətkarlar Azərbaycan dilinin inciliyindən, gözəlliyindən danışarkən Zakirində adını dönə-dönə çəkmişlər"(1).

Bu mənada Mirzə Fətəli Axundzadənin onu realist bir sənətkar kimi təqdir etməsi obyektiv reallığa söykənirdi. Böyük mütəfəkkirin irəli sürdüyü mülahizələrdə daha çox sənətkarın dövrün ictimai-siyasi hadisələrinə, cəmiyyətdə və insani münasibətlərdə baş verən xoşagəlməz hadisələri kəskin satira atəşinə tutmasını bir realizm hadisəsi kimi dəyərləndirməsi, əlbəttə, obyektiv bir yanaşma kimi qeyd oluna bilər. Görkəmli tənqidci ,ədəbiyyat tarixçisi, Firudin bəy Köşərli Qarabağ ədəbi mühitinin şairlərindən Qasim bəy Zakiri vaxti ilə yüksək qiymətlərindirirdi; "Amma mən əyyami səyahətimdə səfheyyi-Qarabağda Molla Pənah Vaqifin bir para xəyalatını gördüm ki zikr etdiyim şərt bir növ ilə onda göründü və dəxi Qasım bəy Capuçaluyi - Çavanşirə düçar oldum ki,əlhəq türk dilində onun mənzumatı mənim heyrətimdə bais oldu. Ondan ötrü ki, dediyim şərt ziyadə onun məzumatında tapıldı. Mənim əqidəmə görə tarixi-hicridən indiyədək türk arasında şair münhəsirdir məhz bu iki şəxsə. Bir də bir Məciha var imiş, xəyalatı az tapılır".(2)

Müstəqil yaradıcılıq axtarışları ilə yadda qalan Məhəmməd bəy Aşiq, Həsənəli xan Qaradağı kimi şairlərin yaradıcılığında klassik janrlarla yanaşı, yeni dövrün çağırışlarına cavab verə biləcək şeir şəkillərinə tədricən keçid və müraciət də kifayət qədər özünü büruzə verirdi.

Məlum olduğu kimi, Azərbaycanda ədəbi məclislər on doqquzuncu əsrdə fəal yaradıcılıq axtarışları aparan, ayrı-ayrı ərazilərdə milli ədəbi təcrübənin inkişafına töhfə verən yaradıcı mühitlər kimi fəaliyyət göstərirdi. Bu baxımdan Qarabağ ədəbi mühitinə xas olan yaradıcılıq məziyyətlərini özündə parlaq şəkildə təzahür etdirən Məclisi-Üns(Dostluq məclisi) kimi şeirləşmə və bəhsləşmə yarışmasını xüsusi olaraq fərqləndirmək lazımdır. Sözsüz ki, belə bir şeir yarışmasında klassik şeir şəkillərinə əhəmiyyətli dərəcədə yer ayrılması ədəbi təcrübədən irəli gəlirdi, bu hər şeydən əvvəl ədəbi nəsillər arasında əlaqə və ədəbi təsirin real faktı kimi xüsusi qeyd olunmalıdır.

Bu xarakterik cəhəti  də burada xüsusi qeyd etmək lazımdır ki, bu müəlliflərin arasında tədricən satiraya güclü meylin yaranması bu mühitdə baş verən ictimai-siyasi proseslərin təsiri ilə bilavasitə əlaqadar idi.

1864-cü ildə Şuşada  öz dövrünün  tanınmış elm sahiblərindən biri kimi tanınan  Mirzə  Əbdülqasımın mədrəsəsində təşkil olunan  "Məclisi-üns" ("Dostluq məclisi") klassik ədəbi ənənəni davam etdirən ədəbi məclislərdən biri idi. Məclisin yaranmasına təşəbbüs göstərənlər sırasında  Mirzə  Rəhim Fəna və Hacı Abbas  Agahın adlarını xüsusi qeyd etmək lazımdır.

Məclis 1872-ci ildə Xurşidbanu Natəvanın istəyi ilə onun sarayına  köçürmüş: aşağıda adları sadalanan şairlər onun əsas üzvləri kimi fəaliyyət göstərmişlər: "  Hacı Abbas  Agəh, Xurşidbanu Natəvan,  Mirzə Rəhim Fəna, Məmo bəy  Məmai, MPirzə Həsən Yüzbaşov, İsmayıl bəy  Dəruğə, Mirzə  Sadıq  İman xan oğlu (Piran), İsgəndər bəy  Rüstəmbəyov, Baxış bəy  Səbur, Səməd bəy…

Ədəbi məclislər Təbrizdə, Gəncədə Şamaxıda Marağıda , Suşada, Şəkidə, Bakida, Ərdəbildə  və Azərbaycanın  basqa səhərlərində yaranıb fəaliyyət  gostərməsini  klassik şairlərin əsərlərindən  də aydin görmək olur. Bir para təzkirələrin  ərazi prinsipi ilə tərtib edilməsi də cox vaxt  ədəbi məclislərlə əlaqədar olmusdur. Bu məclislərin yaranması tarixi ,  müəssisləri, iştirakçıları və fəaliyyəti haqqında yazmaq,ədəbiyyat tarixinin təkmilləşməsi, bir sıra unudulmuş söz ustadlarının tanınması üçün böyük əhəmiyyət kəsb edir.Bəlli olduğu kimi XIX əsrdə yazıb yaratmış məclis şairlərnin böyük əksəriyyətinin adı ədəbiyyatşünaslıqda yeri vardır.

Məclis şairlərin yaradıcılığında sevgi motivləri ilə bir sırada ictimai motivlərdə güclüdür. Əksəriyyəti xalqın yoxsul və zəhmətkeş kütlələrinə mənsub olan bu şairlər  öz şeirlərində zülmə ,haqqsızlığa, cəhalətə və dini xurafata qarşı etirazsəsi ni ucaltmış,işıqlı gələcək arzusunda olmuşlar. (3) Məclis şairlərinin şeirlərində hətta vəzn və qafiyə xətlarına rast gəlmək olur. Bu da özlüyündə təbiiyidir, yaradıcılıq yarışında birincilik hamıya nəsib olmur .Məclis iştirakçılarının mükəmməl təqdimi məqsədi ilə onlarında şeirlərində nümunələr verilmişdir. Buradakı şeirləşmə və şeir yarışmalarının bir qayda olaraq klassik şeir şəkillərində yazılan nümunələr əsasında keçirilməsi  poetik ənənənin davam etdirilməsinə əyani bir nümunə kimi göstərilə bilər.

Ədəbiyyat siyahısı;

1. Kamran Məmmədov, önsoz, Qasım bəy Zakir. Secilmiş əsərləri,  tərtib və müqəddimə Kamran Məmmədov .Bakı, yazıçı, 1984,səh 3,384s

2. M.F.Axundov Nəzm və Nəsr haqqında, Bədii və Fəlsəfi əsərləri, tərtib edən müqəddimənin müəllifi N. Məmmədzadə.Bakı, yazıçı,1987, səh 314-315, 368s

3.Poetik Məclislər. XIX əsr Azərbaycan ədəbi məclisləri nümayəndələrin yaradıcılıgından secmələr. Bakı, Yazıçı, 1987

Azərbaycan Respublikası
**Odlar Yurdu Universiteti**
Bakı şəh., AZ1072,
Koroğlu Rəhimov küç. 13

Azerbaijan Republic
**Odlar Yurdu University**
13 Koroghlu Rahimov st.,
Baku, Azerbaijan, AZ1072

Tel: +994 (12) 465 82 00; Fax: +994 (12) 465 67 05; Url: www.oyu.edu.az; E-mail: info@oyu.edu.az

№ 25 / 569D

"23" may 2025-ci il

**Türkiyə Cümhuriyyəti İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun Başkanı cənab Dr. Mustafa Latif EMEKə**

**Hörmətli Mustafa Latif bəy!**

23-25 iyul 2025-ci il tarixlərində Türkiyə Respublikası İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutu – İKSAD ilə birlikdə onlayn və oflayn şəkildə təşkil edəcəyi ***"Karabağ 5. Uluslararası Bilimsel Araştırmalar Kongresi"***-nə Odlar Yurdu Universitetinin ev sahibliyi etməsindən məmnun olardıq.

Təşkilat komitəsində universitetimizin professor və müəllim heyətinin də yer alması məqsədəuyğun hesab edilmişdir. Təşkilat və elmi komitələr haqqında məlumatlar məktuba əlavə olunur.

Xahiş edirik nəzərə alasınız.

Əvvəlcədən təşəkkürümüzü bildiririk.

**Qoşma**: 1 (bir) vərəq

**Hörmətlə,**

**rektor** **prof. Ə.A.Vəliyev**

**Təşkilat və elmi komitənin üzvləri:**

Prof.Samir VƏLİYEV- Odlar Yurdu Universiteti, Azərbaycan
Prof.Munir VƏLİYEV- Odlar Yurdu Universiteti, Azərbaycan
Prof. Tərlan ABDULLAYEV - Odlar Yurdu Universiteti, Azərbaycan
Prof. Fəxrəddin MƏMMƏDOV - Odlar Yurdu Universiteti, Azərbaycan
Dos. Qabil QAFAROV - Odlar Yurdu Universiteti, Azərbaycan
Prof. Heydər QƏNBƏROV - Odlar Yurdu Universiteti, Azərbaycan
Prof. Mübariz VƏLİYEV- Odlar Yurdu Universiteti, Azərbaycan
Dos. Nərminə VƏLİYEVA - Odlar Yurdu Universiteti, Azərbaycan
Dos. Aynurə QURBANOVA - Odlar Yurdu Universiteti, Azərbaycan
Prof.Rüstəm KAMAL- Odlar Yurdu Universiteti, Azərbaycan
Prof. Elşad MƏMMƏDOV- Odlar Yurdu Universiteti, Azərbaycan
Prof.Bilal BİLALOV- Odlar Yurdu Universiteti, Azərbaycan
Prof. Rəşid CABBAROV- Odlar Yurdu Universiteti, Azərbaycan
Prof. Soltan ATAYEV- Odlar Yurdu Universiteti, Azərbaycan
Prof. Ramazan MƏMMƏDOV- Odlar Yurdu Universiteti, Azərbaycan
Dos. Səadət ABDURƏHMANOVA- Odlar Yurdu Universiteti, Azərbaycan
Prof. Məzahim QULİYEV- Odlar Yurdu Universiteti, Azərbaycan
Dos.Cəmilə ƏLİYEVA- Odlar Yurdu Universiteti, Azərbaycan
Dos.Sevinc MƏMMƏDZADƏ - Odlar Yurdu Universiteti, Azərbaycan
Aytac MƏMMƏDOVA - Odlar Yurdu Universiteti, Azərbaycan

Rektor prof. Ə.A.Vəliyev